ISSN 2410-4108

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI
AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI

# ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR

## Elmi-praktik jurnal



# № 1 (15)

BAKI – 2021

**BAŞ REDAKTOR:**
**Hüseyn Qaraşov,** *sosiologiya elmləri doktoru, professor*

**BAŞ REDAKTORUN MÜAVİNİ:**
**Fəhrad Möhbalıyev,** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**MƏSUL KATİBLƏR:**
**Vilayət İsmayılov,** *iqtisad elmləri doktoru*
**Zeynəddin Şabanov,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

**REDAKSİYA HEYƏTİ:**

i.e.d., professor Səttar Möhbalıyev - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

sos.e.d., professor Hüseyn Qaraşov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, baş redaktor

i.e.d., professor Ramiz İsgəndərov - Azərbaycan Texniki Universitetinin "Sənaye iqtisadiyyatı və menecment" kafedrasının müdiri

i.e.d., professor Tərbiz Əliyev - AMEA İqtisadiyyat İnstitutunun "Sahibkarlıq və inhisarçılığın tənzimlənməsi problemləri" şöbəsinin müdiri

fəl.e.d., professor İlham Məmmədzadə - AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru

tarix e.d., professor Vəkil Həsənov - Azərbaycan Dövlət İqtisad Universitetinin "Ümumi humanitar fənlər" kafedrasının müdiri

sos.e.d., professor Rəfail Həsənov – Bakı Dövlət Universitetinin "Sosiologiya" kafedrasının müdiri

i.ü.f.d., dosent Fəhrad Möhbalıyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının Tədris və elmi işlər üzrə prorektoru, baş redaktorun müavini

i.ü.f.d., dosent Hicran Mirzəyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Maliyyə-iqtisad" fakültəsinin dekanı

i.e.d. Vilayət İsmayılov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müdiri, məsul katib

fəl.ü.f.d., dosent Zeynəddin Şabanov - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqı hərəkatı və sosial fənlər" kafedrasının müdiri, məsul katib

i.ü.f.d., dosent Raziyyə Maniyeva - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "Həmkarlar ittifaqları kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması" şöbəsinin müdiri

i.ü.f.d., dosent Əsgər Əliyev - Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının "İqtisadiyyat və idarəetmə" kafedrasının müəllimi

*Azərbaycan Respublikası, Bakı şəhəri, Azadlıq pr. 181*
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası*
*Tel.: (050) 631-57-90; e-mail: jurnal@aesma.edu.az*
*Jurnal Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının*
*Elmi Şurasının qərarı ilə çap olunur. (protokol №8, 30.04.2021)*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 3883. 07.05.2014*
*Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının*
***fəlsəfə, sosiologiya və iqtisadiyyat** elmləri üzrə tövsiyə etdiyi elmi nəşrlər sırasındadır.*

# MÜNDƏRİCAT

## HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**Faiq Ələkbərli**
Ömər Faiq Nemanzadənin milli-dini maarifçilik və ictimai-siyasi görüşləri ........ **4**
**Kamran Vəlizadə**
Sosial ədalət və azadlıq kateqoriyaları siyasi aksiologiya aspektində .................. **17**
**Тамилла Гасанова**
Долг каждого гражданина – заботитъся о наших национальных ценностях **24**
**Məhsəti Cəfərova**
Elitar və kütləvi mədəniyyətlərin inkişaf mərhələləri ......................................... **30**
**Könül Şəkiyeva**
E-hökumət tədqiqatlarının təhlili: fəlsəfəsi, nəzəriyyəsi və praktikası................. **39**

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**Vilayət İsmayılov**
Azərbaycanda neft-qaz sənayesinin spesifik problemləri və neft-qazın qiymətini formalaşdıran əsas komponentlər........................................................................ **49**
**Niyar Umarova**
Virtual təhsil proqramlarında İKT vasitələrinin tətbiqinə yeni metodoloji yanaşma................................................................................................................ **59**
**Vilayət İsmayılov, Nihad Almasov**
Azərbaycan iqtisadiyyatının transformasiyasında tikinti firmalarının rolu........... **72**
**Pərvin Məmmədova**
Xarici bazarlarda David çayının dəyər təklifinin formalaşdırılması xüsusiyyətləri .............................................................................................. **86**
**Aygün Səmədova, Ülviyyə Xəlilzadə**
Əhatə matrisi göstəriciləri əsasında Azərbaycanda Beynəlxalq Turizm səviyyəsinin yüksəldilməsi ........................................................................ **93**
**Nicat Musayev**
Azərbaycanda turizmin inkişafının müasir vəziyyətinin qiymətləndirilməsi........ **106**
**Abbas Səfərov**
Kənd təsərrüfatında istehsal prosesinə rıçaq amillərin təsirinin kompleks modeli **115**
**Orxan Yusubov**
Ölkədə iqtisadi artımın təmin olunmasında büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi...................................................................................... **125**
**Xançoban Şahbazov**
İşğaldan azad edilmiş rayonların iqtisadi potensialının qiymətləndirilməsi........... **135**

# HUMANİTAR VƏ SOSİAL ELMLƏR

**UOT 1(091)**

**Faiq Ələkbərli,**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,***
***f.f.d., dosent***
faikalekperov@mail.ru

## ÖMƏR FAİQ NEMANZADƏNİN MİLLİ-DİNİ MAARİFÇİLİK VƏ İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ

*Məqalədə Azərbaycan Türk mütəfəkkiri Ömər Faiq Nemanzadənin dünyagörüşündə milli maarifçilik, din, yeniləşmə, milli dil və digər məsələlərindən bəhs olunur. Burada bildirilir ki, Nemanzadənin milli maarifçilik görüşlərində mühafizəkarlığın tənqidi və çağdaş dövrün şərtləri ilə ayaqlaşma mühüm yer tutmuşdur. Belə ki, Ömər Faiq Azərbaycan xalqının milli oyanışı üçün maarifçiliyi mühüm yol kimi görtmüş, cəmiyyətdə islahatların aparılmasının tərəfdarı kimi çıxış etmişdir. Nemanzadənin Qərb mədəniyyətinə meyilliyinin səbəbləri ilə yanaşı, ancaq bu zaman avropalaşmamaq məsələsində ehtiyatla olmağın əhəmiyyəti də göstərilmişdir. Ömər Faiq Şərq mədəniyyətini, o cümlədən son əsrlərdə tənəzzül içində olan İslam mədəniyyətini tənqid edərkən də heç bir zaman radikallığa varmamış, bu məsələlərdə diqqətli olmağa çalışmışdır. Nemanzadənin əsas tənqid hədəfi İslam dini, ya da Quran deyil, həmin dinin adından çıxış edən ikiüzlü ruhanilər və mollalar olmuşdur. Ömər Faiq əsas diqqəti islamlığın çağdaş dövrün tələbələrinə uyğunlaşdırılması üçün islahatların aparılmasına yönəltmişdir. Eyni zamanda, məqalədə Ömər Faiqin ictimai-siyasi görüşləri də şərh edilmiş, onun Azərbaycan xalqının, Azərbaycan türklərinin gələcəyi ilə bağlı düşüncələri təhlil olunmuşdur. Belə ki, Nemanzadə Türk kimliyinin dərkini çox vacib hesab etməklə yanaşı, onun həm də bir dünyagörüş olmasını da ortaya qoymağa çalışmışdır. Bu baxımdan Nemanzadə türklüyün dərkinin çox vacib olmasını soydaşlarına çatdırmağa çalışmış, məhz türklük əsasında Azərbaycan xalqının yenidən istiqlala qovuşacağına inanmışdır.*

***Məqsəd*** – Ömər Faiq Nemanzadənin milli-dini maarifçilik və türkçülük ideyalarını təhlil etmək.

***Metodologiya*** – müqayisəli təhlil, varislik, ideyaların ötürülməsi, analiz.

***Tədqiqatın nəticələri*** – Ömər Faiq Nemanzadənin ideyaları ilə çağdaş dövrün ictimai-siyasi və ideoloji tələbləri arasında uzlaşdırmaların axtarılması

***Açar sözlər:*** *Milli maarifçilik, Qərb mədəniyyəti, Azərbaycan Türk mədəniyyəti, Türkçülük, Milli istiqlal, Türk birliyi*

### Giriş

Ömər Faiq Nemanzadə (1872-1937) Ahıska qəzasının Azqur kəndində anadan olmuş, bir neçə il molla məktəbinə getsə də, dinə maraq göstərməmiş və yenicə açılmış rus-tatar məktəbinə daxil olmuşdur. Atası onu Qori müəllimlər seminariyasına qoymaq

istəsə də, anasının təkidi ilə 1882-ci ildə İstanbula gedərk "Fateh" məktəbində təhsilini davam etdirmiş, təbiət elmlərinə həvəsi olduğuna görə sonradan "Darül Şəfəq" məktəbinə daxil olmuşdur. 1891-ci ildə həmin məktəbi bitirdikdən sonra Qalata Poçt və Teleqraf İdarəsində əmək fəaliyyətinə başlamışdır.

1894-cü ildə, Ahıskada milli münasibətlərin kəskinləşməsi dövründə vətənə qayıdan Ömər Faiq az sonra Şəkidə ilk üsuli-cədid məktəbində (1894-1896), Şəki Came məktəbində (1898-1900) müəllim işləmişdir. 1900-1902-ci illərdə Şamaxıda fəaliyyət göstərən Ö.Faiq Şamaxıda baş vermiş zəlzələdən sonra Tiflisə getmiş və “Şərqi-Rus” qəzetində işləməyə başlamışdır. 1905-ci ildə “Şərqi-Rus” bağlandıqdan sonra o, C.Məmmədquluzadə ilə birlikdə qəzetin mətbəəsini alıb “Qeyrət” adı altında dövrlə ayaqlaşan kitablar, az sonra da (1906) "Molla Nəsrəddin" jurnalının nəşr etməyə başlamışlar.

1910-cu illərin əvvəllərində “Molla Nəsrəddin”lə əlaqələrini kəsən Ömər Faiq 1917-1920-ci illərdə Ahıska bölgəsində fəaliyyət göstərmişdir. Cənub-Qərbi Qafqaz Türk Respublikasının liderlərindən biri olan, ancaq altı aydan sonra menşeviklər Gürcüstanı ələ keçirib həmin respublika ləğv olunduqdan sonra o, Gürcüstan menşevik hökumətindən Ahıska və Ahılkələk əyalətlərinə muxtariyyət tələb etmişdir. Gürcüstanın antitürk siyasi şiddətinə qarşı çıxan Ömər Faiq 1918-ci ildə üç dəfə həbs olunmuş, həbsdən çıxdıqdan sonra Bakıya gələrək 1919-cu ildə Bakı Polis idarəsində çalışmış, 1920-ci ildə isə yenidən Gürcüstana qayıtmışdır.

27 Aprel işğalından sonra Gəncə Ziraət Texnikumunun direktoru işləmiş Ömər Faiq, çox keçmədən Gürcüstanda müsəlman işləri üzrə komitənin sədri təyin edilmişdir. 1923-cü ildə yenidən Azərbaycana dönən Nemanzadə 1924-cü ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığında işə düzəlmiş, dərsliklərin hazırlanmasına və onların çap edilməsinə yardım etmişdir. 1927-ci ildə pensiyaya çıxdıqdan sonra Ö.Faiq "Xatirələrim" üzərində çalışmışdır. Nemanzadə 1937-ci ilin yayında Ahıskada olarkən həmin rayonun prokuroru Odabaşyanın sərəncamı ilə həbs olunmuş və Gürcüstan SSR Xalq Daxili İşlər Komissarlığının nəzdindəki “üçlüy”ün qərarı ilə güllələnmişdir.

**Milli maarifçilik görüşləri**

O, yaradıcılığının ilk dövrlərindən etibarən İslam-Türk aləminin geriliyinin səbəblərini araşdırmış, mövhumatçılığı və xurafatı tənqid atəşinə tutmuşdur. Ancaq C.Məmmədquluzadə, Ə.Qəmküsar və başqa “molla nəsrəddinçi”lər islam dininə daha ifrat tənqidi yanaşmışdılarsa, onlardan fərqli olaraq Ömər Faiq islam dinini və milli mədəniyyəti daha dərindən öyrənməyin vacibliyini qeyd etmişdir.

Ömər Faiqə görə, Yaradanın ilk bəxşişi olan əql sayəsində artıq bəşər övladı bir çox sirləri anlamaqda, kəşf etməkdədir. Bununla da maarif arzusunun, birlik fikrinin, insanlığın yavaş-yavaş inkişaf etdiyini yazan Nemanzadə hesab edirdi ki, yeni kəşflər, ixtiralar ən bəsit bir otun, bitkinin özündə belə Yaradanın əzəmətini göstərir. O, yazırdı: "“Hər vərəqəş dəftər ist mərifəti-gerdikar” (“hər vərəqi varlıq mərifətinin bir dəftəridir”) ilə “olsa istedad arifi-qabil idraki-vəhy... həqq irsalına hər zərrədir bir Cəbrayıl” (“arifin istedadı ilahiyyəti dərk etməyə qabil olsa... haqqa çatmağa Cəbrayıl bir zərrədir”) hikmətlərinin boş yerə söylənmədiyi anlaşılır, zühura gələn hər məxluqat və mövcudun mütləq bir səbəb və hikməti-ilahiyyəyə müvafiq bir surətdə xəlq buyurulduğu sirr bilinir, həqq-təala təbiətin təsir və iqtizasını bir səbəbi-xilqət olaraq bəxş buyurduğu fəhm edilir. Buna binaən heç bir şeyin bilasəbəb zühuru gözlənmir. Anlamadıqları qədri təqdiri-qisməti bəhanə edən tənbəllər, səfehlər kimi Həqqin ən böyük neməti, əsrari-ilahiyyənin, cilvəgahı, təkalifi-

şəriyyənin məhəli-təhəmmülü olan əql boş yerə çevrədilmir. Məsələn, su, atəş və ya bir otun, meyvənin nə sürətlə Allahın verdiyi hansı səbəblə vücuda gəldiyi düşünülür. Qış ortasında gözəl bir çiçək, xoş bir meyvə hüsulə gətirmək üçün artıq baharın gəlməsi, istinin, hərarətin zühuru gözlənmir. Neməti-ilahiyyə olan əql ilə təbiət tədqiq və təqlid edilir" **(1, s. 22-23).** Onun fikrincə, vaxtilə əql sayəsində avropalılardan irəlidə olan İslam xalqlarının bu gün mədəniyyəti, elmi orada araması, üstəlik bu mədəniyyəti də paltarda, dildə görüb onları yamsılamaları qətiyyən doğru deyildir. Nemanzadəyə görə, artıq avamlar da elmin, mərifətin qədrini anlayıb qanır, sadəcə bu gözəl səmtə getmək yolunu, qaydasını bilmirlər: "Buna görə elm yollarını bunlara sözlə deyil, işlə, öncüllük olmaqla bildirməlidir. Yoxsa sözü hər kəs söylər, amma işi hər kəs yapa bilməz. Bu cəhətlə böyüklərimizdən bizə quru söz deyil, ciddi ürək, qeyrət, iş lazımdır" **(1, s. 24).**

Ona görə, artıq müsəlmanlar da oyanmalı, qonşu millətlərdən geri qalmamalıdırlar: "Bizlər hələ cəhalətin qurbanı, avropalıların nökəri, daha açığı qonşularımızın sağılan inəyi mənzilində, məzəllətində qalmışız. İlahi, bizim millətin mərifət baharı nə vaxt gələcək? Elm çiçəklərimiz nə zaman açılacaq? Həmişə belə gözü bağlı, dili lalmı qalacağız? Bu nə halətdir ki, düşmüşük? Bu nə yükdür ki, biz çəkiriz? Daha nə zamana qədər bu cəhalət boyunduruğundan qurtara bilməyəcəyiz? Axır biz də insanıq. Cəhalət ilə puç olub gedən mərifət ilə səlamətə çıxan millətlərdən ibrət alalım! Edəlim ki, bizə öncüllük, rəhbərlik edib, nümunə-misal olmuşlar" **(1, s. 25).** Nemanzadəyə görə, xurafata və mövhumata qarşı mübarizə aparmaq, islahatlar həyata keçirmək üçün çox gecdir. Çıxış yolu müasir avropalıların vaxtilə keçdikləri körpüdən getməkdir. O, yazırdı: "Daha bu körpünü buraxıb boğula-boğula sudan keçmənin nə ləzzəti var? Bu gün aləmi-islamiyyətin işıqlı yerlərində Avropada vücuda gətirilən açıq, asan, faydalı kitablar, əsərlər, alətlər gündən-günə çoxalmaqda, alimlər onlardan istifadə etməkdədir" **(1, s. 26).**

Ö.F.Nemanzadə yazırdı ki, müsəlmanların cahil, avam, nadan olmasının günahkarı islam deyil, onların bu dini səhv başa düşmələridir. Onun fikrincə, "Şükür Allaha, islamam" deyib, yuxulayıb, həqir, fəqir, cahil, qafil qalmışıq və avropalılar islam mədəniyyətini öyrənib irəli getdikləri halda, biz bir millət kimi hələ də yerimizdə sayırıq. O, yazır: "Qardaşlar, acı, lakin doğru sözdən inciməyəlim. Dərdini söyləmiyən dərman bulmaz. Qızdırma üçün hər zaman şəkər, qəndiyyə içmək yerinə bir az da xinə içəlim. Şükür Allaha, dünyanın hali gözümüzün önündədir. Çinlilər kimi dünyanın bir kənarında deyil, dünyanın hər tərəfində, hətta mədəni millətləri ilə torpaq, qapı qonşusuyuz. Çinlilər belə Avropanın bir dəfə vurduğu zərbə ilə oyanmağa başlayır, biz nə qədər hissiz və vicdansız ki, vücudumuz parçalanır, ürəyimiz dağılır, namusumuz ayaqlar altına alınır, həqiriliyimiz, alçaqlığımız yerin dibinə keçir, keçir də yenə bir kərə olsun gözümüzü açmaq, ibrət almaq istəmiriz. Of, insan fikir edəndə divanə olmaq istəyir. Nədir bugünkü dərakəmiz, nədir qonşular arasındakı həqarətimiz? Yeri gələndə qədim ərəb mədəniyyəti ilə fəxr ediriz. Avropalılar mədəniyyəti islamlardan aldı deyə, şişiriz. Amma bir kərə fikir edəlim ki, bu bizim üçün nə qədər ayıbdır. Avropa xaçpərəst ola-ola qədim islam mədəniyyətini qəbul etsin də, biz öz malımızı almaqda, öyünməkdə bu dərəcə inad göstərək? Üzrümüz qəbahətdən böyükdür. Utanalım!.. Utanalım!.." **(1, s. 27).**

Ömər Faiq hesab edirdi ki, keçmiş islam mədəniyyəti ilə öyünüb yerində saymaq olmaz. Onun fikrincə, hər bir dinin və millətin üstünlüyü zəmanə ilə ayaqlaşmasıdır. Artıq müsəlmanlar da bilməlidirlər ki, son iki-üç əsrdir məğlub olmaqdadırlar və bunun qarşısını almaq üçün gecə-gündüz çalışmalıdırlar

Ömər Faiqə görə, o, millətlər də yenidən inkişaf edirlər ki, tapındıqları dinlərini, adət-ənənlərini zəmanəyə görə uzlaşdırırlar. Çünki zəmanəyə görə dəyişmək hər zaman vacib olmuşdur. Hətta, bu səbəbdəndir ki, Allah hər bir zamanın öz tələblərinə uyğun

olaraq bir yaxud, bir neçə peyğəmbər göndərmişdir. O, yazırdı: “İndi həzrət Adəmdən axır zaman peyğəmbərinə qədər keçən zamanı yüz iyirmi dörd min il fərz və təxmin edərsək, ildə beş peyğəmbər gəlmiş imiş. Demək olur ki, bunlardan bəziləri əslafının təbliğinə məmur olduğu ehkam və əməli cüzi bir təğyirlə təbliğə məmur olmuş isələr də, çoxunun məzhəb və şəriətinin surəti icrası bütün-bütün ayrı idi. Böylə olması da labüd və lazımdı. Bu səbəblədir ki, həzrəti Məhəmmədin ümməti olan bizlər indiki məzhəb və əməllərimizlə nə surətlə müsəlman isək, keçmiş cümlə peyğəmbərlərin ümmətləri də əksərisi bizimkilərə müxalif olan əməllərilə bərabər yenə xalis-müxlis müsəlman idi” **(1, s. 56).**

Bu baxımdan Ö.Faiq hesab edirdi ki, zəmanəyə görə dini əməllərin dəyişilməsi əsas islamiyyəti əsla dəyişmir. Onun fikrincə, bu hal, yəni dini əməllərin zamanəyə görə dəyişilməsi işlərimizin də zamanaya görə dəyişilməsinə bir nümunədir: “Hər dürlü etiqadi-əməldə əsasən bir olan islamın fel və əməldə az-çox fərqli olaraq Hənəfi, Şafi, Maliki şöbələrinə ayrılması əcaba zaman və halın (özgə səbəblər və müəssirlər də məlum isə, cümləsinin həqiqi müəssiri yenə zamandır) təsir və icabına görə deyil də nədir? Hətta müctəhid din vücud və lüzumu zəmanənənin tələblərinə görə hərəkət etmək lazım olduğu hökmü əsasına görə deyilmi? Bir az daha irəlilərə gedək: zəmanın tələbinə görə təbdili-əməl və təğyiri-hərəkətə ən həkimanə şahid axtarsaq, yenə həzrəti peyğəmbərin öz vəxti-səadətlərində tapacağıq. Tapacağıq ki, o hallar, o hikmətlər bir yerdə sancılıb yatıb, tərpənmək istəməyən biz tənbəllərə birər ibrət və nümunə olsun” **(1, s. 56).**

O, hesab edirdi ki, islamda islahatlar aparılmalı və bu zaman Avropanı təqliddən uzaq durmaq lazımdır. O bildirirdi ki, müsəlmanlar geyimdə, məişətdə avropalıları təqlid etdikləri halda mədəniyyət və maarif sahəsində onlardan xeyli geridədirlər: “Aman ya rəbbi! Bizlərin bu dərəcə qafilanə, meymunca təqlidimizin bir misli daha bir millətdə tapılarmı? Ev əşaymızı avropalılarınkına oxşadıb tez-tez dəyişdirdiyimiz, hər gün köhnələrinin yerinə təzələrini qoymağa çalışdığımız halda, bizlərin əsil həyatına, milli bəqamıza səbəb olacaq çürük qafamızı, kifli beynimizi, yaşlanmış fikrimizi, zəhərli adətlərimizi, meymunca təqlidimizi əslə dəyişdirmək, islah etmək istəmirik. Avropa əşyasına olan meylimizə, firəng malına olan məftuniyyətimizə, arzumuza baxsalar – tamam bir avropalıyız. Amma maarif, mədəniyyət, cəmiyyət xüsusunda fikirlərimizi, əməllərimizi diqqətə alsalar – küflü bir fanatik, ən cahil mütəəssib bir türküstanlı, buxaraılıyız. Bunlarla bərabər ortada yad-əcnəbi surətində bir müsəlmanlıq sözü gəzib duruyor. Amma inanılsın ki, cümlənin sözü, iddiası həp bəhanə, yalançı sufilik, özgələri aldadıcılıq, cib doldurmaqlıq, qərəz və mənfəətə xidmətdir” **(1, s. 58).** Nemanzadə yazırdı ki, millət uğrunda, onun cəhalətdən qurtulub inkişaf etməsi üçün maariflənmək, çalışmaq, himmət göstərmək lazımdır: “Görürüz ki, bir ovuc millətlər zəmanəyə görə olan maarif və səyi və himmətləri sayəsində milyonlarca cahil, qafil insanları özlərinə maddi, mənəvi əsir edirlər. Hər millət öz camaatı, öz milləti uğrunda varını, yoxunu, hətta canını fəda eləyir ki, əsarətə, həqarətə giriftar olmasınlar. Bir az əqli başında olan millətlər özgə gurultulara, özgələrin əhvalına qulaq verməklə bərabər bütün qüvvələrini, qeyrətlərini, fikirlərini öz millətlərinin tərəqqisinə həsr edirlər. Amma bizlər... Ah, bizlər guya hər vacibli milli işimizi qurtarıb arxayın, rahat olmuşuz kimi oturub gözəl-gözəl fürsətləri itirib ağzımızı özgələrin əsərlərinə qarşı açıb qalmışıq. Qulaqlarımızı özgələrin sözlərinə tikib durmuşuq. Beynimizi bizə əsla xeyri olmayan boş politika və cəfəngiyyat ilə çürüdüb öz işimizdə məəttəl qalmışıq, qalırıq” **(1, s. 60).**

O, doğru yazırdı ki, bu məsələdə İslam dininə, yəni Qurani-Kərimə və hədislərə müraciət edərkən də, müsəlmanlara tövsiyyə edilən ayə və kəlamları da öz bildiyimiz kimi yozur, inkişaf etmək yolu yox, yerimizdə saymaq düşüncəsini əsas götürürük: “Əsil islamiyyətdən, zəmanənin tələblərindən xəbərsiz yatırıq, halbuki zaman dəyişir, dünya

dəyişir, hər şey dəyişir, hər millət dəyişir, hər zərrə dəyişir... İnsaf və mürvətmdir ki, bizlər hər şeydən də dışarı olaq? Dəyişməli, biz də mütləq dünyəvi əməllərimizi, göz görə təhlükələrə, səfalətlərə sürükləyən köhnə adətlərimizi, cahilanə fikirlərimizi, əməllərimizi dəyişməliyik. Və illa özgələr bizləri bütün özgə yolda dəyişdirib yox edərlər...” **(1, s. 61).**

Ömər Faiqin o fikirnə qatılırıq ki, bir toplum təməl prinsiplərdən uzaqlaşamadan öz milli-dini adət-ənənələrini yaşadıqları zamanlarına uyğunlaşdırmalıdırlar. Əgər bunu, həmin toplumuz özü etməyi bacarmasa, o zaman digər yad toplumların təsiri altına düşəcəkdir. Ancaq bu yeniləşmələr isə ağılla və soyuqanlı şəkildə həyata keçirilməli, bu zaman sözün əsil mənasında müdrik olanların fikriləri ilə hesablaşılmalıdır. Məsələn, milli-dini adət-ənənələrin zəmanə ilə ayaqlaşmasını, ona uyğunlaşdırılmasını Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, M.Ə.Rəsulzadə və digər böyüklərimizin, müdriklərimizin irəli sürməsi daha məqsədəuyğu idi, nəinki hansısa ikiüzlü, yalançı üləmaların, ziyalıların.

Bu anlamda Nemanzadə “Əhməd bəy Ağayev” məqaləsində doğru yazırdı ki, islam dinini ruhanilərin dilindən deyil, Ə.Ağaoğlu kimi əsil elm adamların əsərlərindən öyrənmək lazımdır. Belə ki, Ə.Ağaoğlu indiyə qədər pərdə arxasında qalan bir çox keçmiş islam adət-ənənələrimizi, milli mədəniyyətimizi, eləcə də xilas yolumuzu doğru göstərir. Ö.Faiq yazırdı: “Hələ islam siyasəti və əhvalı barəsində qayət vüqufanə yazdığı məqalələr həqiqətən bizdə misli nadir görünən elmi məlumatlardır. Bu yolda açdığı cığır və bu cığır ilə bizlərə bildirdiyi yeni-yeni elmlər, işarə elədiyi ülvi məqsədlər, müqəddəs əməllər istiqbali-millət üçün birər bəraəti-estehlal, birər bərati-feyz və tərəqqi olsa şayandır” **(1, s. 36-37).**

““Molla Nəsrəddin” bağlandı” (1907) məqaləsində Ö.Faiq qeyd edirdi ki, jurnalın bağlanmasında yalançı millətçilər, islam xainləri əsas rol oynamışdır: “Bildim ki, maarif ağacımızı içindən yeyən yenə öz qurdumuzdur. Bildim ki, millətimizin hüququnu məhv edən, millət qəlbini kəsməyə çalışan baltanın sapı yenə bizdəndir. Bildim ki, müsəlman donundakı islam xainləri, “Molla Nəsrəddin”in 22-ci nömrəsində ayıların, qurdların, aslanların parçalanmış islamı qapıb yeməkləri barəsindəki şəkilləri əldə dəstavüz edib “Molla Nəsrəddin”i hökumətə asi göstərən alçaqlar nə cür müsəlmanlardır” **(1, s. 143).**

Qeyd edək ki, SSRİ dövründə Əziz Mirəhmədov yazırdı ki, «Molla Nəsrəddin» jurnalının tutduğu cəbhə əsas etibarilə bolşeviklərin minimum proqramına yaxın olsa da **(2, s. 88),** jurnalın əməkdaşlarından bəziləri (Ö.F.Nemanzadə, Ü.Hacıbəyli və b.) milli burjuaziyaya da meyil göstərmişlərdir: «Söz yox ki, bəzi mollanəsrəddinçilərin görüşlərindəki xırda burjua mütərəddüdlüyü, onların ictimai hadisələri anlamaqdakı məhdudluğu jurnalın səhifələrində əks olunmaya bilməzdi» **(2, s. 90).** Deməli, SSRİ dövrünün Azərbaycan müəllifləri (Ə.Mirəhmədov, F.Q. Köçərli və b.)bir çox hallarda qəsdən «mollanəsrəddinçi»lərin hamısını bolşevikləşdirməyə, yəni marksizm-leninzmə bağlamağa çalışmış **(3, s. 69),** ancaq bəzən də məcburiyyətdən onların arasından milli ruhda çıxış edənləri xırda burjualılqda ittiham etmişlər. Ancaq Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Ömər Faiqin “Molla Nəsrəddin” jurnallarındakı yazılarını yenidən təhlil edən akademik Firudin Köçərli onu mübariz bir “molla nəsrəddinçi” olaraq qələmə vermişdir. Köçərliyə görə, Nemanzadənin bu jurnaldakı milli maarifçilik fəaliyyəti çox mühüm yer tutmuşdur **(4, s. 25-26).**

### Dini maarifçilik görüşləri

Məşhur “Dəvət” adlı kitabında Ömər Faiq yazırdı ki, müsəlmanlar islam dinində yeniləşmənin olmasının zəruiliyini dərk etməlidir. Onun fikrincə, müsəlmanlar məhərrəmlikdə baş-gözünü yarıb qan tökməkdənsə, həzrəti imam Hüseynin (ə) millət

yolunda şəhidliyini öyrənməli, onun şəhadətindən doğru nəticə çıxarmalı və cəmiyyətin yeniləşməsi yolunda getməlidirr. O yazırdı: “Nə hacət, hər il məhərrəmlikdə zahirən başımıza kül-saman töküb üst-başımızı qanlara bulayıb, guya böylə əməl və rəftarlar ilə matəmini saxladığımız nuri-çeşmi-millət, müxəffər şühadayi-ümmət olan həzrəti imam Hüseyn əleyhsalamın vaqeyi-şəhadəti bizlərə nümuneyi-ibrət, misali-qeyrət deyilmi? Heyif, sədd həzar heyif ki, o şahidi-millətpərvərin matəmini bu zəmanəyə görə özgə cür tutmaq, mərsiyələrimizi daha təzə bir sayaq millətpərvəranə üzrə oxutmaq lazım gəldiyi halda sahibinin niyyəti və məsləkindən bixəbər hərəkət edən cansız maşın kimi qayırdığımız iş və əməldən özümüz də xəbərsiz bulunuruq” **(1, s. 68).**

Şübhəsiz, Ö.Faiq bu fikirlərində tamamilə haqlı idi. Çox yazıq ki, həmin dövrdən bir əsr keçməsinə baxmayaraq, bu günün özündə də bir çoxları imam Hüseynin (ə) şəhadət yolundan xəbərsizdir. Ancaq buna baxmayaraq, özlərini imam Hüseyn (ə) əqidəsinin davamçıları hesab edirlər. Çünki bu cür müsəlmanların fikrincə, əgər bir müsəlman məhərrəmlik günündə göz yaşı axıdırsa, zəncir vurursa, hətta başını yarıb qanını tökürsə, deməli, o peyğəmbər övladının layiqli davamçısıdır. Məhz bütün bunları nəzərə alaraq Nemanzadə yazırdı: “Məhərrəm ayının beş-on günündə aciz uşaqlar kimi yalnız başımıza küllər töküb zəncirlərlə öz-özümüzü vurub yaralamaq, ayə, ali bir niyyət uğrunda şəhid olan bir nümuneyi qeyrət o mücəssəmi həmiyyət üçün yas və matəm saxlamaqmıdır? Hər insaf sahibindən soraram: lazım deyilmidir ki, hər kəs tutduğu işin, icra etdiyi matəmin nədən ötrü və nə cür bir zati-şərif üçün olduğunu layiqi ilə bilsin” **(1, s. 68).**

Bu baxımdan Ömər Faiq haqlı olaraq hesab edirdi ki, imam Hüseynin (ə) şəhadət yolunu anlamaq üçün ilk növbədə, peyğəmbər övladının bir ovuc tərəfdarı ilə öz qüvvətindən neçə min kərə artıq olaq qüvvətə qarşı dayanmağın məqsədini, eyni zamanda “nə üçün bu riqqətəngiz, o ciyərsuz hal ilə şəhadətə, o dəhşətamiz surət ilə fədaicanə razı olmasının” səbələrini bilmək lazımdır. Nemanzadə yazırdı: “Şəksiz ki, qeyrət və həmiyyəti qəlbi ali hümmətinə sığmayan bu millət aşiqi şəhadəti-ölümü, xeyr, bu ölüm surətində əbədi varlığı, əsarət və həqarət ilə yaşamağa tərcih verdi. Şəksiz ki, təlüqatının, hümmətinin hüququnu mühafizə etmək, hürr və müstəqil yaşamaq, özgələrə boyun əyməmək ən birinci müqəddəs niyyəti idi. Şəksiz ki, niyyət buyurduğu kimi həyat olmadığı surətdə məqsədi-alisi, hüquqi-qövmiyyəsi, istiqbali milliyyəsi yolunda qurban olmağı canına minnət bildi. Şəksiz ki, niyyət və məsləkində səbat və qərar edib Kərbəla dəhşətini hürriyyəti-vicdaniyyə, əsbiyyəti-qövmiyyə, heysiyyəti-milliyyə, hüquqi-insaniyyə qanına qərq etməyi məhz o tökülən qanların verdiyi qüvvətlə gələcəkdə açılacaq olan millət çiçəklərinin hüsn-surətlə yaşamaqları üçündür. Heyhat, harda o niyyətlər, o fədailiklər, harda bizim bugünkü qafilanə rəftarımız, başlarımıza bimənə, cahilanə kül-saman tökməklə iktifa etəmyimiz?” **(1, s. 68-69).**

Nemanzadənin burada İmam Hüseynin (ə) şəhadətinin mənasının və mahiyyətini anlatmaqda məqsədi İslam dininin yeniliyə qarşı olmamasını, zamanla ayaqlaşmanın vacibliyini göstərmək idi. Ona görə, müsəlmanlar imam Hüseynin əqidəsindən, islamlığın əsil mahiyyətindən o qədər uzaqlaşıblar ki, ancaq zəncur vurmaq, baş yarmaqla öz işlərini bitmiş hesab edirlər və nəticədə də niyyətsiz, ya da mənasız əməllə zəlil günə qalıb, yadların köləsi halına düşüblər: “”Əsas və həqiqətdən nə qədər uzaqlaşmışıq! Budur ki, bu uzaqlaşmağımız, rahət zənni ilə bugünkü həqarət və və zillətlə yaşamağımız etiyimiz əməl və tutduğumuz işlərin təbii niyyətsiz, fikirsiz olduğundan, yəni həqiqətdə nə cür çalışmaq gərk olduğunu bilmədiyimizdəndir. Bugünkü əksər əmələ və rəftarımız müvafiq şəri və əqli olmadığına, hüquqi insaniyəmizi mühafizəyə, istiqbali milliyəmizi teminə əsla yaraya bilmədiyinə əlbət əvamünasımızın əqli irməz, fikri çatmaz. Çünki onlar zəmana görə məlumati-aləmiyyətdən, üsuli-vəzi-aləmdən bixəbərdirlər” **(1, s. 69).**

Onun fikrincə, millətə doğru yol göstərmək, pisi yaxşıdan ayırmaq islamlığın, türklüyün əsil mahiyyətini ortaya qoymaq üləmalardan, oxumuşlardan gözlənilir ki, ancaq onların da böyük qismi öz canlarının dərdinə qalıb tərpənmək, dinmək fikriləri yoxdur. O, yazırdı: “Aman ya Rəb, nə üçün beş günlük dünya məhəbbətini, beş-on dəqiqəlik yalançı rahəti, az vaxtda puç olacaq çüzi mənfəəti dünyəviyi-əbədi həyatə, mənəvi və mükafata tərcih edirlər? Oxumuşluq sifəti, böyüklük rütbəsi, milləti cəhalətdən, səfalətdən qurtarmaq bu vəchlə həmnövünə müavinət etmək deyilmi? Həqiqət, kül, torpaq başımıza ki, hər millətin “abrazovannı”ları millətin salamatlığı üçün əvamünnas ilə hər cür rəftar, millətin hürriyyəti uğrunda mallarını deyil, canlarını fəda etdikləri halda bizim “abrazovannılar”ımız safdil cəmaəti, hənuz maarif və millətpərvərlik aləminə addım atmağa başlamış qardaşlarımızı yersiz, vaxtsız rəfatarları ilə, yazıları ilə, maarif və mədəniyyətdən uzaqlaşdırmağa bir növ səbəb olurlar” **(1, s. 70).**

Nemanzadəyə görə, ikiüzlü üləmaların, “abrazovannı”ların bu əməllərinə görə xalq digər ziyalılara da inanmırlar. Onun fikrincə, bu kimi məsələlərə aydınlıq gətirmək lazımdır ki, xalq da kimlərin arxasınca getməli olmalarını bilsinlər, zəmanə ilə ayaqlaşmağı bacarsınlar: “Zəmanəmizdə bir az görünməyə başlayan hürriyyət, ədalət, insaniyyət günəşi hərçənd bizim üstümüzdə, bizim üfüqümüzdə də doğulacaqdır. Lakin o günün işığından vaxtında istifadə etmək üçün indidən hazırlanmağımız, fürsəti itirməyib dərdləşəyimiz lazımdır. Dərdləşmək, görüşmək, xəbərləşmək, ərzi-hal etməyimiz üçün də əlbəttə, işə yarar, söz keçər, qədri bilinər ümumi “dil”imiz olmalıdır. Bu ümumi nüfuzlu “dil” dəxi millətlərdə olduğu kimi, şəksiz “mətbəə” və “mətbuatdır”” **(1, s.70-71).** Beləliklə, o hesab edirdi ki, hazırda milli hüquqları, insani vəzifələri, islamlığın və türklüyün əsil mahiyyətini ortaya qoyacaq vasitə mətbuatdır.

Nemanzadə açıq şəkildə yazırdı ki, Avropa nicatını ilk növbədə, ruhanilərini şüurca ya dəyişdirməkdə, ya da öz yerini göstərməkdə tapdı. Artıq Avropa da ruhanilər ya gözə görünmürlər, ya da görünənləri millətin mənafeyindən danışırlar. Müsəlman xalqlara gəlincə, burada hələ də vəziyyətin ürəkaçan olmadığını yazan Nemanzadəyə görə, avropalılardan fərqli olaraq bizim çıxış yolumuz milli həyatımızın inkişafı üçün, ancaq həqiqi üləmalara, ruhanilərə bel bağlamaqdır. O, yazırdı: “Biz bambaşqayız. Biz, öz milli həyatımızın bəqası üçün gərək dörd əli ilə həqiqi ruhanilərə, məscidlərimizə, məscid məktəblərimizə, şəri adətlərimzə sarılaq. Həqiqi üləmamıza böyük ümidlər, ümidi-nicatlar bağlayaq. Amma indiyə qədər olduğu kimi kor-koranə yox ha! Milli məktəblər, ruhani mədrəsələr açıb onlar ilə gözümüzü, beynimizi açmaq ilə qana-qana ümid bağlayaq” **(1, s. 84).**

Onun fikrincə, bizim nicat vasitəmizdə avropalılardan fərqli olaraq ruhaniləri, üləmaları tamamilə zərərsizləşdirmək yox, ruhani idarələrimizi yeniləşdirməkdir: “Hərçənd bir millətin tərəqqisi əsasən, ruhanilər ilə olmuyub, biləks bəzi millətlərin, xüsusilə avropalıların tərəqqisi, ruhanilərin nüfuz və iqtidarından düşməkləri ilə başlamışdır. Amma islamda, xüsusən bu növ zülm və cəhalət dövründə, hər tərəfdən sıxılıb əzildiyimiz belə keşməkeşli bir vaxtda bizim nicatı vasitəmizin ən ümdəsi, bizi bizi sələmətə çıxaran yolların ən gödəyi ancaq idareyi-ruhaniyyələrimizin islahıdır” **(1, s. 121).** O, sadəcə yazırdı ki, həqiqi üləmalarla, həqiqi ruhanilərlə bunu etmək olar, yallançı ruhanilərlə yox. Deməli, millət də məhz həqiqi üləmaların, ziyalıların (Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b.) arxasınca getməli və onlara tapınmalıdır **(1, s. 98-100).**

Yeniləşməklə mühafizəkarlıq məsələsində Nemanzadənin Əbuturab Axundoğlu ilə dini və dünyəvi elmlərdən hansının daha önəmli olması mövzusunda apardığı polemika da maraq doğrur. Opponenti ilə razılaşmayan Ö.Faiqə görə, ilk dövrdə islamın əqidə və ehkamlarının açıq və sadəliyi sayəsində, müsəlmanlar gözəl əxlaqlı, mətin qəlbli, azad fikirli, doğru sözlü, tərəqqipərəst, nəhayət dünyəvi elm xadimi olduqlarından az vaxtda

dünyanın yarısını fəth etmiş, ədalət və mərhəmmətlə də idarə etmişlər. Ancaq sonralar, əslində Quranın sadə və bəsit olan əqidə və ehkamlarının bəyanı üçün uzun-uzun təfsir kitabları yazılıb, bununla da əsil islamdan, “əql və hikmətdən” uzaq düşülüb. **(1, s. 146).**

Ö.Faiq yazırdı ki, indi islamın əsil mahiyyətini dərk etmək, onun dünyəvi elmlərlə bağlı cəhətlərini mənimsəmək vaxtıdır. Çünki Quranın özünün də böyük qismi dünyəvi elmlərə aiddir: “Bu qəziyyələrdən şu nəticəyi çıxarmaq istəyirəm ki, Quranı, islamı bilmək, Allahı tanımaq, kamil insan olmaq üçün şəriət elmini bilmək on dərəcə lazımsa, dünyəvi elmləri bilmək üçün doxsan dərəcə lazımdır” **(1, s. 147-148).** Onun fikrincə, əgər dünyəvi elmlərlə mədəniyyətə və insaniyyətə nail olmaq mümkün deyilsə, dini elmlərlə heç vaxt buna müvəffəq ola bilmərik. Deməli, müsəlmanlar hər iki elmi, ancaq daha çox da dünyəvi elmləri öyrənməlidirlər **(1, s. 157).**

Nemanzadənin milli ruhu Ağaoğluya, Hüseynzadəyə yaxın idi, buna görə də çox keçmədi ki, o, 1910-cu illərin əvvəllərindən “Molla Nəsrəddin”lə yolarını ayırmalı oldu. Bizcə, Nemanzadənin “Molla Nəsrəddin”dən ayrılmasında Cəlil Məmmədquluzadənin get-gedə İslam dininə munasibətdə daha kəskin mövqe tutması bunun əvəzində avropalaşmağa və rus bolşevizminə ifrat meyil etməsi mühüm rol oynamışdır. “Molla Nəsrəddin”dən ayrıldıqdan sonra Nemanzadənin islama və türklüyə əvvəlcədən olan münasibəti daha da inkişaf etmişdir **(5, s. 98).** Deməli, Ö.Faiq din-islam məsələsinə münasibətdə Ə.Ağaoğlu, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyli və başqaları ilə təqribən eyni xətti tutmuşdur. Eyni zamanda o, bundan sonra ümidini ruhani idarələrinin dəyişməsindən daha çox milli aydınların, milli təşkilatların təşəkkülündə görmüşdür.

**İctimai-siyasi görüşləri**

Nemanzadə, ilk dövrlərdə ümum Türk birliyi tərəfdarı olmuş, zamanla milli-məhəlli türkçülüyün daha gerçəkçi olması qənaətinə gəlmişdir. O, yazırdı ki, Türk milləti arasında oyanışa nail olmaq üçün onun aparıcı ziyalıları tək vücud, tək rəy, tək cəhət-yol altında birləşməlidir **(1, s. 75).** Deməli, əvvələr ümidini daha çox islamiyyətin yeniləşməsində, ruhani idarələrinin təkmilləşməsində görən Nemanzadə bunun mümkünsüzlüyünü dərk etdikdən sonra milli oyanış, milli birlik məsələsinə önəm vermiş, milli təşkilatların yaranmasını vacib hesab etmişdir. Onun fikrincə, türklər ancaq islamlığını deyil, türklüyünü də dərindən dərk edib millətə təmənnasız yardım etməli, irəli aparmalıdırlar. Məsələn, o, “Millətpərəstlik zamanıdır” məqaləsində yazırdı ki, türklər islamlığı qəbul etməklə mənfi anlamda heç vaxt dəyişməmişlər. Əksinə daha güclü olaraq hər daim ədalətin, haqqın yanında olmuş, ədalətsizliyə, haqqsızlığa qarşı mübarizə aparmışlar **(1, s. 134).**

Nemanzadə türklüyü heç bir zaman məhdud çərçivədə görməmiş, Türk xalqlarının birliyi uğrunda mübarizə aparmışdır. Bu baxımdan o, Birinici Dünya müharibəsi dövründə zor günlərini yaşayan Osmanlı türklərinə daim dəstək olmuşdur. Nemanzadə 1915-ci ilin yanvar ayında “İqbal” qəzetində dərc olunmuş “Yardım təcili lazım” məqaləsində Osmanlının Şərq cəbhəsində «Sarıqamış» hərbi əməliyyatından sonra Rus-Erməni birliklərinin hücumuna uğramış Qars, Ərdahan, Kağızman əhalisinə təcili yardımın vacibliyindən bəhs edərək yazırdı: "Müharibə dolayısıyla Qafqaz müsəlmanlarının düçar olduqları fəlakəti kiçik saymayınız. Qars oblastında üz verən fəlakəti Bakıya, Gəncəyə qədər gelən 40-50 ev ilə, Ahıska kəndlərinə can atan bir neçə yüz müsəlman azınlığı ile müqayisə etməyiniz. Fəlakət xəyal etdiyinizdən daha müdhiş, xəyal edə bildiyinizdən daha dəhşətlidir. Fəlakət və səfalət Qars, Ərdahan, Kağızman, Olti okruqlarını tamamilə tutmuşdur. Oralarda yüz minlərcə müsəlman camaatı yardıma möhtac bir haldadır"**(6).**

O, “İqbal” qəzetində nəşr olunan “Bir loxma əkmək”, “İmtahan” kimi məqalə-

lərində də Anadolu Türkləri ilə bir arada, dayanışma halında olmamızın səbəblərindən yazırdı. Birinci Dünya savaşı bir daha göstərdi ki, bütün dünya millətləri kimi Anadolu və Azərbaycan türklüyü bir imtahan qarşısındadır. Onun fikrincə, bu imtahan çatışmayan bir çox yönlərmizlə yanaşı, milli birliymizi və bərabərliyimizi göstərən cəhətləri də ortaya qoydu. Ö.F.Nemanzadə yazırdı: "Əgər bugünkü imtahan ilə dərsimizi dərk edib gələcəyimizə hazırlana bilsək çəkdiyimiz bəlalar, həqarətlər, acılar millətin istiqbalına qurban olsun. Doğru, bugünkü halımıza baxınca istər intelligent, gərəksə ruhsal olsun, millət başçılarımızdan ümidsizəm. Amma millətin, xalqın gələcəyinə inamım sonsuzdur. Əgər insanların başına xülusulu, həmiyyətli, sürəkli, bilincli insanlar keçsələr az vaxtda diriləcəyinə ümidvaram» **(7).**

Bizcə, türkçülüklə bağlı olaraq Nemanzadə 1917-ci ildə yazdığı “Mən kiməm?!” məqaləsində nəinki o dövr üçün, günümüzdə də aktual olan bir çox maraqlı məsələlərə toxunmuşdur. O yazırdı ki, hər kəs öz millətini tanıyıb onun uğrunda mübarizə apardığı bir zamanda biz öz millətimizi sevmək belə deyil, onun quru adını da bilməyib ortada çaşıb qalmışıq: “Kim olursa olsun, insan bir nəfər, bir millət və ya fikri-əməl uğrunda vaxt can yandırır ki, ona o zaman aşiq olur ki, onu yaxından tanıyıb ürəkdən sevsin, yoxsa quru və yalançı göstərişlərlə arada məhəbbət, eşq deyil, bayağı dostluq belə olmaz. Mən iddia etmək deyil, uca səslə bağırıram ki, biz özümüzü tanımırız, biz öz millətimizin boş adını belə bilməyiriz” **(1, s. 233-234).**

Hələ, Ömər Faiqdən öncə Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə və başqa aydınlarımız bu məsələyə toxunaraq türklərin milli kimliklərini dini kimliklə eyniləşdirdiklərini, bunun yanlış olduğunu dəfələrlə yazmışdılar. Ancaq çar Rusiyasının Quzey Azərbaycanı işğal altında tutduğu bir əsrə yaxın müddətdə apardığı antitürk siyasətinin nəticəsi olmalı idi ki, millətin özünüdərki prosesi kifayət qədər ağrılı keçirdi. Milli şüuru çar Rusiyasının ideoloqları tərəfindən zədələnən Azərbaycan türklərinin əksəriyyəti özlərini “müsəlman” olaraq qəbul edirdilər. Ancaq bununla kifayətlənməyib milli kimliklərini “persiyan”, “sünni”, “şiə”, “tatar” kimi göstərənlər də tapılırdı. Ö.Faiq doğru yazırdı ki, halbuki Təbrizin şiəsi, Osmanlının sünnisi, Qafqazın müsəlmanı hamısı türk oğlu türkdürlər. Ancaq Qafqaz türkü İran türkünə “ac tat”, Tiflis türkü isə “persiyan” gözü ilə baxır. Nəticədə də İran türkləri uşaqlarını fars məktəbində oxudub özlərinə “şiə-fars” rəngi verirlər **(1, s. 235-236).**

Digər tərəfdən Ömər Faiqə görə, türklər İslam qeyrətini də o qədər çəkmişlər ki, artıq bu qeyrətlə öz varlığını və adını da itirmişlər: “Hə, ey Türk! İstər darıx, istər karıx, yaxandan əl çəkəcək deyiləm. Sən hər şeyi öyrənmək istədiyin halda niyə bircə zadı – yəni özünü bilmək istəmirsən, niyə öz varlığından, öz vücudundan, öz soy və nəslindən xəbərin yox? Niyə sənə “Kimsən?” dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən Türkəm? Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnilikdən, babılıqdan əvvəl sən türk idin. İndi də türksən və bundan sonra Türk qalacaqsan” **(1, s. 238).**

Çünki türklük nə dinlə, nə də dinsizliklə bağlı deyildir. Bu, bir milli kimlik, öz soyunu və kökünü tanımaq, bir sözzlə dünyagörüşdür. Türklər isə, hələ İslamdan öncə həm milli kimlkilərini - türklüklərini, həm də dini kimliklərini - Tanrıçılığı yaxşı anlamışlar. Bu mənada, türklər dünyanın köklü və inanclı millətlərindən biridir. Ancaq ötən min illiklər ərzində başqa millətlərə yurdumuzda və ürəyimizdə yer verərək türklüyümüzdən uzaqlaşdığımız zamanlar da az olmamışdır. Nemanzadənin təbrincə desək: “Ey özünü itirir, unudur dərəcədə müsafirpərvərlik, özgələrə hörmət göstərən türk, yaxşı yadına sal ki, sənin ruhun, sənin qanın, sənin düşüncən, sənin varlığın hənuz sənin özündə ikən sən bugünkü kimi dilsiz, yazısız yəni milli nişanəsiz deyildin. Ey sadə ürəkli türk, dünən, bu gün öz varlığını, öz mədəniyyətini göstər bilib, indi sənə “köhnə barbar” gözü ilə baxıb bugünkü mədəniyyətlərin haqsızlıqlarına görə incimə” **(1, s. 239).**

100 il bundan əvvəl digər Azərbaycan mütəfəkkirləri kimi, Nemanzadə də türkləri ayılmağa, tərpənməyə və milli qüruru uğrunda mübarizəyə səsləyirdi: “Ey türk, zamanımız özgə zamandır. Əgər bundan sonra özümüzü tanımayıb qalsaq, qorxuram ki, gec ayıldığımız vaxt sağalıb yigitcə yaşamaya vücudumuzda qüvvət və taqət qalmamış ola. Ey türk, keçmişlərdən ibrət al, hələ vücudun sağlam ikən, yaşamağa istedadın var ikən, fürsət əldə ikən əsil vücudunu tanı, qədrini anla. Ey türk, yaxşı bil ki, bugünkü məhşərin suri-israfili elmə, milli ittihada dəvət ediyor” **(1, s. 239-240).** Onun fikrincə, indinin siyasi fəlsəfəsi tərəqqiyi millətçilikdə görür. Bu mənada, Nemanzadə açıq şəkildə yazırdı ki, insanda dini əqidə ilə yanaşı millətəpərvərlik də mühüm yer tutur. Çünki millətpərvərlik ictimai fəlsəfənin əsas olub, özünü tanımaq fəlsəfəsi, millətini bilmək elmidir **(8, s. 768).**

Nağı Şeyxzamanlı iddia edir ki, 1918-ci ilin yanvarında Trabzonda keçirilən bir toplantıda özü Türkiyənin yardımı ilə Qafqazda ikinci bir Türk dövlətinin qurulmasını təklif edərkən Ömər Faiq əvvəlcə buna qarşı çıxmış və Qafqazın Osmanlı tərəfindən işğal edilərək, öz ilhaqı altına almasını daha doğru saymışdır **(9, s. 65).** Ancaq sonralar türk paşaları ilə söhbət edrkən Ömər Faiq də bildirib ki, Azərbaycan xalqı türklüklərini həqiqətən dərk etmiş bir xalqdır və istiqlala layiqdir **(9, s. 70).**

Deməli, Ömər Faiq də hesab edib ki, türklüyün əsas sütunlarından biri müstəqil dövlətdir. Bu baxımdan Ömər Faiq dövlətçilik məsələsinə xüsusi önəm verir, Azərbaycan milli hökumətinin işini pozmağa çalışan qara qüvvələri tənqid edirdi: “Mənafeyi-ümumiyyə xidmət etməyə, haqq və camaat rizası üçün çalışmağa alışmamışız. İnanınz, çoxumuzun fikri və xəyalı xüsusi mənfəətdir. Milli hökumət düşüncəsi, xəzinə faydası birər bəhanə, birər lafdır (boş sözdür). Bütün hərəkətimiz, ümumiyyət pərdəsi altında xüsusilikdir. Hər kəs bu dərdə mübtəladır. Bu dərd isə cavan hökuməti incidiyor, sarsıdıyor. Xaricə qarşı daxili qüvvətimizi zəiflədiyor. İçəridəki mənfəətpərəstlik xaricdəki düşmənləri sevindiriyor, yeni qurulan hökumət maşinasını pozuyor, həm də fəna halda pozuyor. Heç kəs ürəkdən düzəltməyə can yandırmıyor, ortalıqda bir “spekulyasiya”dır, bir xəyanətdir gediyor” **(1, s. 243).** Onun fikrincə, nə olursa-olsun milli dövləti yıxmaq istəyənlərə qarşı çıxıb Cümhuriyyəti qorumaq lazımdır: “Qurduğumuz xalqçı cümhuriyyətdə hər zaddan qabaq murad və mənfəətini nəzərə almaq lazım gəlir. Cümhuriyyətimizin bünövreyi-əsasını meydana gətirən qara xalqın üzünü ağartmaq, üstlərindən cəhalət qaranlığını qaldırmaq, məişət ağırlığını atmaq xalqçılığın şah əsəri, yeganə vəzifə olur” **(1, s. 248).**

Ömər Faiq Türkçülüyün əsas ana sütunlarından biri olan Türk dili məsələsinə də çox önəm vermiş, bir çox məqalələrində Azərbaycan türklərinin ana dilinə sahib çıxmasının vacibliyindən bəhs etmişdir. Onun fikrincə, bir millətin varlığı ilk növbədə, onun dilinin varlığıdır, ana dili yoxdursa, millət də yoxdur. Nemanzadə yazırdı: “Siyasi, milli məsələlərimiz arasında dil bəhsi kiçik görünsə də məni onlar qədər rahatsız edib durdurdu. Çünki istər siyasi və milli, istərsə də maarif və mədəniyyət məsələlərindən danışan, onların lzümunu bildirən dildir. Dil nə qədər açılq, sadə və anlayışlı olarsa, bildirdiyi fikirlər də o qədər tez mənimsənib işə keçər” **(10, s. 86).**

O, “Dilimiz və imlamız” məqaləsində yazırdı ki, milli dilin itirilməsi qorxusu bütün millətlərdə, xüsusilə də müstəmləkəçiliyə məruz qalanlar da vardır: “Bu qorxu, millətini sevən hər həmiyyətlini düşündürsə gərəkdir. Çünki dadlı dilimizin yavaş-yavaş aşağıya doğru düşdüyünü görürüz. Sevgili dilimizin aramızdan artıq qiyməti gedir. Halbuki bu zamanda hər millət öz dilini saxlamaq üçün varını yox, canını belə fəda edir. Nə edək? Bizim bir çox işlərimiz kimi bu da böylə düşür: Qafqaziyalı, elmli iki türk yarım saata qədər öz ana dilləri ilə danışsalar darıxırlar. Bir kazanlı ilə bir qafqazlının beş, on dəqiqə türkcə danışa bilmələri isə çox az görünür. Yazıları da bunun kimi” **(1, s. 29).**

Ona görə, bir millətin övladlarının eyni bir dilin fərqli şivələrində danışması təbii olsa da, ancaq tamamilə yad dil vasitəsilə ünsiyyət qurmaları yolverilməzdir. Nemanzadəyə görə, burada əsas problem şivə anlaşılmazlığı deyil, imla və qaydalara əməl etməməyimizdir: “Deməк ki, bu gün çoxumuzun türk dili ilə danışmaq, yazmaq istəməməyimizə səbəb qayda, imla, məhəbbətimizin yoxluğudur” **(1, s. 29).** Nemanzadə yazırdı ki, bundan çıxış yolu son əsrlərdə təqlid etdiyimiz “gərəksiz” və “artıq” ərəb və fars qaydalarından imtina edib, türk sözlərimizi və türk adlarımızı bərpa etməyimizdir **(1, s. 31).**

O, eyni zamanda Ə.Hüseynzadənin, Ə.Kamalın və başqalarının Azərbaycan Türk dilini Osmanlı Türk dilinə oxşadılmasına qarşı olmuşdur. Nemanzadə hesab edirdi ki, Hüseynzadə Türk dilinin yenidən təkmilləşdirilməsii məsələsində bir qədər haqlı olsa da, əsasən onunla razılaşmaq mümkün deyil. Ona görə, vaxtilə əcdadlarımızın, xüsusilə də Səlcuqların və Osmanlıların islam dinini, müsəlmanlığı öyrənmək üçün təhsildə ərəb dilinə və ərəb əlifbasına üz tutması yanlış olduğu kimi, indi də İstanbul şivəsini ədəbi dil elan etmək Türk dili üçün uğurlu deyil. O, yazırdı: “Atalarımız müsəlmanlığı ərəb hərfləri ilə və ərəb dili ilkə öyrənmək istəyib böyük zərərlərə, fəlakətlərə düçar oldular. “Düşün, sonra iman gətir” qaydasını buraxıb, “gözünü, beynini yum, ərəb dili ilə, ərəbə müqəllidlik ilə iman gətir” – üsulunu təqib etdilər. Bu yol ilə həm özlərini, həm də bizi bədbəxt etdilər. Elə bilirəm ki, dəxi keçmişlərdən, keçmiş zərərlərimizdən, Avropanın bu gün narazı olub asanlıqla düzəldə bilmədiyi qüsurlarından ibrət almaq vaxtıdır. Bilmədiyimiz Avropanın bu gün narazı qaldığı əskikliklərdir ki, onu da oradan öyrənib hər iki qüsurun bundan sonra bizdə kökləşməməsinə dörd əl ilə çalışmalıyıq. Heç bir ağıllı türk bulunmaz ki, keşmiş qüsurlarımızı, Avropada bu gün görülən rahatsızlıqları bilə-bilə onların gələcəkdə bizdə də təkrar olunmasına razı olsun” **(1, s. 166).**

Onun fikrincə, Türk xalqlarında imla qarışıqlığının səbəbi isə Türk dilinin qanuna tabe olmaqdan çox son əsrlərdə ərəb və fars imlasını təqlid etmək olmuşdur. Bununla da min illərdən qalan türk adlarımızı, türk sözlərimizi bir kənara qoyub sob dövrlərdə dilcə ya ərəbləşmişik, ya da farslaşmışıq. O, hesab edirdi ki, buna son qoymaq zamanı gəlib çatmışdır: “Doğrudur, biz ərəb və farsdan minlərcə söz almışıq. Bundan sonra da ehtiyac gördükcə alacağız və almalıyıq. Lakin o aldığımız sözləri özümüzə mal edib, onları öz türk sərfimizə tabe etməliyik. Onları türk sözü kimi işlətməliyik. ərəbin, farsın hamı sərf qaydalarını dilimizdən qovmalıyıq. Öz türk dilimizin aləmində yalnız türk sərfini etməliyik” **(1, s. 172).**

Nemanzadə hesab edirdi ki, Azərbaycan türkləri üçün ilk növbədə, vacib olan Türk dilinin qorunub saxlanmasıdır: “Hər millətin ədəbiyyata malik dili o millətin ruhu, nişaneyi mövcudatıdır. Ondan məhrum olduğu gün mərhum olmuş, ondan uzaqlaşdığı gün qəbrinə yaxlaşmış deməkdir. Tarix bizə göstərir ki, bir millətin cahangirliyi, hökuməti hətta yeri-yurdu da əlindən alınsın, madam ki, milli ədəbiyyatı var, o millət məhv edilməz. Dili kəsilməyən millətin vücudu kəsilməz, ədəbiyyatı yaşayan millət heç vaxt ölməz” **(1, s. 246).** Nemanzadə hesab edir ki, Qərbdə fransız dili hansı əhəmiyyətə malikdirsə, Türk dili də Yaxın Şərqdə bir o qədər böyük əhəmiyyət daşıyır: “Türk dilinin Yaxın Şərqdəki hakimiyyətinə şahidlər axtarmaq lazım deyil, onunla danışan 60-70 milyonluq böyük bir kütlənin şahidliyindən daha möhkəm nə ola bilər?” **(1, s. 247).**

**Nəticə**

Beləliklə, Sovetlər Birliyi dövründə daha çox “mollanəsrəddinçi”, hətta bəzən marksist-leninizm tərəfdarı kimi qələmə verilən Nemanzadə heç vaxt milli-dini dəyərlərdən kənara çıxmamış, Azərbaycan Cümhuriyyətinin varlığını müdafiə etmiş, milli-demokratlar bir sırada olmuşdur. Onun dünyagörüşünün əsasında yeniləşmək, islam dininin əsil mahiyyətini dərk etmək və türkün özünə dönüşü dayanmışdır. Nemanzadə çox doğru dərk etmişdir ki, ilk

növbədə türkün öz fəlsəfəsinə, dünyagörüşünə dönməsi vacib şərtdir. Çünki öz milli mahiyyətindən, milli varlığından uzaq düşən bir toplum üçün yeniləşmək və dindən yapışmaq çox da fayda verməz.

Burada əsas məsələrdən birisi də, milli-dini adət-ənənələrin hər daim zəmanə ilə uzlaşdırlması, ayaqlaşdırılmasıdır. Bizcə, Nemanzadə bu məsələdə də, xeyli dərəcədə haqlı idi ki, milli-dini adətlərini hər vaxt öz zamanına uyğunlaşdıra bilən toplumlar daim diri qalır və inkişaf edirlər.

### İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Nemanzadə Ömər Faiq. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006
2. Mirəhəmədov Əziz. Azərbaycan mətbuat tarixi antologiyası (2 cilddə II cild). Bakı: Elm və təhsil, 2011
3. Köçərli F.Q. Marksizm-leninizm və Azərbaycanda demokratik ictimai fikir. Bakı: Azərnşər, 1976
4. Köçərli F.Q. «Molla Nəsrəddin»çi Ömər Faiq. Bakı: Elm, 1996
5. Ələkbərov F.Q. Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı: Elm və təhsil, 2014
6. Nemanzadə Ömər Faiq. Yardım təcili lazım. “İqbal” qəzeti, №842, 19 yanvar 1915
7. Nemanzadə Ömər Faiq. İmtahan. “İqbal” qəzeti, №894, 24 mart, 1915
8. Ələkbərli F.Q. Azərbaycan Türk fəlsəfi və ictimai fikir tarixi (XIX-XX əsrlər). II hissə. Bakı: Elm və təhsil, 2020
9. Şeyxzamanlı Nağı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı: “Azərbaycan” nəşriyyatı, 1997
10. Nemanzadə Ömər Faiq. Xatirələrim. Bakı: Gənclik, 1985

**Фаик Алекперли**

### НАЦИОНАЛЬНОЕ-РЕЛИГИОЗНОЕ ПРОСВЕЩЕНИЕ И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ ОМАР ФАИК НЕМАНЗАДЕ

***Резюме***

***Keywords***: *civil society, civil society index, national values, duty, citizen, measurement*

**Qəbul edilib: 02.12.2020**

**UOT-101.1:316**

**Məhsəti Cəfərova**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun dissertantı***
mehseti.ceferova@inbox.ru

# ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏTLƏRİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

*Müxtəlif tarixi dövrlərdə yaradılan və qorunan, nəsillərdən nəsillərə ötürülən ayrı-ayrı mədəniyyətlərin bəşər mədəniyyətinə mərhələli şəkildə çevrilməsi təbii prosesdir. Bu proses xalqlar arasında məqsədli olaraq süni şəkildə yaradılmış ziddiyyətlərə baxmayaraq müntəzəm şəkildə davam etməkdədir. Beləliklə, mədəniyyət mənsub olduğu xalqın özünəməxsus maddi və mənəvi abidələrini, zənginliklərini müvafiq zaman, məkan çərçivəsində əks etdirməklə varislik və müasirlik kontekstində daim əbədiləşir.*

***Məqsəd –*** tədqiqat işinin məqsədi elitar və kütləvi mədəniyyətlərin inkişaf mərhələlərini araşdırmaq, ümumiləşdirmələr aparmaq və nəticələr əldə etmək.

***Metodologiya*** – elitar və kütləvi mədəniyyətlərin inkişaf mərhələlərinin elmi nəzəri əsaslarının araşdırılması, tətbiqi formaları, yolları və vasitələrinin tədqiq edilməsi.

***Tədqiqatın nəticələri*** – ayrı-ayrı xalqların müxtəlif tarixi dövrlərə aid elitar mədəniyyətinin kütləvi mədəniyyətə çevrilməsi mərhələlərinin müxtəlif mənbələrdən istifadə yolu ilə ilk dəfə tədqiqi aparılmış, problemin elmi-mənəvi və təcrübi əsasları ardıcıllıqla təhlil edilmişdir.

***Açar sözlər:*** *elitar mədəniyyət, kütləvi mədəniyyət, yaradıcı insan, fəlsəfə, kulturologiya, sosiologiya, milli xarakter*

## Giriş

Mədəniyyət mənsub olduğu xalqın özünəməxsus maddi-mənəvi abidəsi, varlığı olaraq müvafiq zaman və məkan çərçivəsində öz mədəni irsini varislik və müasirlik kontekstində daim əbədiləşdirir, sonrakı tarixi mərhələlərdə daha da zənginləşdirir. Tarix boyu bu proseslərin mərkəzində duran insan cəmiyyətin mədəni fəaliyyətini getdikcə artırır. Beləliklə, ayrı-ayrı milli mədəniyyətlərin inkişafının mənbəyində bəşər mədəniyyəti daha da zənginləşir. Lakin milli mədəniyyətlər məkanda baş verən dəyişikliklərlə üzləşdiklərindən bəzən ziddiyyətli xarakter alaraq tənəzzülə düçar olsalar da, öz maddi və mənəvi mədəni dəyərlərini itirmir.

Mədəniyyətlərin yaranması və inkişafı dərketmə səviyyəsinə, zehni fəallığa, müxtəlif tarixi dövrdə baş verən hadisələrə münasibətə, dəyər vermə keyfiyyətinə, təfəkkür qabiliyyətinə görə seçilən insanlarla bilavasitə əlaqədar olmuşdur. Xalqlar məhz belə insanların intellektinə uyğun olaraq onların mədəni qabiliyyət və yaradıcılıqlarına görə mədəni sahədə istiqamətlənmişlər. Xalqlarda ayrı-ayrı tarixi mərhələlərdə elitar qüvvələr təşəkkül tapmış və bu da elitar mədəniyyətin yaranmasında mühüm əhəmiyyət kəsb etmişdir. Zaman keçdikcə elitar mədəniyyət vasitəsilə kütləvi mədəniyyətin təşəkkülü baş vermiş, inkişaf mərhələlərində olmuşdur. Beləliklə, müxtəlif zaman və məkanlarda baş verən sosial hadisələrdən, fəaliyyətin məqsədindən, təşkili xüsusiyyətlərindən asılı olmaqla, bəşər mədəniyyətinin inkişafı həm sürətli, həm də məqsədəmüvafiq xarakter almışdır. Bütün bu proseslərdə ictimai mühitin dərketmə səviyyəsində irəliləyişlər baş vermiş, nəticədə fəaliyyətin müxtəlif sahələrində baş

verən yeniliklərin ümumi qanunauyğunluqlarının qavranılması özünü göstərmişdir. İnsanların zaman-zaman əldə etdikləri milli maddi və mənəvi mədəni dəyərlər kütləviləşərək, ümumbəşəri dəyərlərin tərkib hissəsinə çevrilmişdir. Bütün bu proseslərin mənbəyində mədəniyyətdə fərqlənmə ideyalarının təşəkkülü elitar qüvvənin cəmiyyətin inkişafındakı əhəmiyyəti ilə bağlı təlim və nəzəriyyələrin yaranmasına səbəb olmuşdur. Təlim və nəzəriyyələr mühüm əhəmiyyətə malik elitar və kütləvi mədəniyyətlərin bir-biri ilə əlaqəsi, qarşılıqlı təsirini, mədəni inkişafın sürətli xarakter almasını, inkişafa, tərəqqiyə xidmət edən ideyaların tətbiqini, yayılmasını təmin etmişdir.

**Elitar və kütləvi mədəniyyətlərlə bağlı ümumi nəzəri baxışlar.** Fəlsəfədə, kulturologiyada, sosiologiyada mədəniyyətlə, xüsusən də elitar və kütləvi mədəniyyətlərlə bağlı ümumi nəzəri məsələlər alim-tədqiqatçılar tərəfindən araşdırılmışdır. Bu nöqteyi-nəzərdən mövzu ilə bağlı bu günədək işıq üzü görmüş araşdırmaları aşağıdakı kimi qruplaşdırmaq olar.

Birinci qrupa "mədəniyyət" anlayışı ilə bağlı araşdırmaları aid etmək olar. Son dövrlərdə hətta humanitar ruhlu mədəniyyət növünün yaradılmasının vacibliyi, bu səbəbdən də müxtəlif xalqların bəşər mədəniyyətində fərqlənmələri, xalqların bir-birlərinin mədəniyyətlərini öyrənmələri məqsədilə münasib qarşılıqlı əlaqələr yaratmaları və bu prosesdən maksimum səmərəli istifadə etmələri, ayrı-ayrı xalqların əmin-amanlıq və sülh şəraitində yaşamalarında bəşər mədəniyyətinin gücündən istifadə etmək imkanlarına aid araşdırmalar aparılmışdır. Xüsusilə də bu baxımdan Qərbi Avropada, ABŞ-da, Rusiyada, Türkiyədə və o cümlədən ölkəmizdə O.Şpengler, L.Buyeva, E.Qellner, P.Sorokin, N.Andreyeva, S.Anisimov, A.Kravçenko, A.Koqan, D.Markoviç, E.Baller, A.Qolovistikova, M.Çeşkov, J.Donalley, P.Qureviç, İ.Ladişkin, S.Odayev, V.Muçnik, İ.Vasilenko, S.Abdullayeva, Ə.Tağıyev, H.İmanov, İ.Hüseynov, N.Abbasov, E.Əlibəyli, Q.Əliyev, A.Əsədov və başqa alim-tədqiqatçıların araşdırmalarını qeyd etmək olar.

Alimlərin ikinci qrupu mədəni inkişafda şəxsiyyətin rolu, intellektual resurslar və milli mədəniyyətlərin yaranması və xüsusiyyətlərinin tarixi, iqtisadi baxımdan müqayisəli təhlili ilə əlaqədar tədqiqatlar aparılmışdır. Belə tədqiqatçı alimlərdən Q.Klifford, P.Natari, V.Rudnev, L.Samovar, İ.Kon, B.Aksyunov, B.Anderson, A.Arnoldov, J.Piaje, E.Solokov, T.Qruşevitskaya, Z.Freyd, M.Koqan, A.Uledov, o cümlədən, Azərbaycan alimlərindən İ.Məmmədzadə, P.Rzaquluyev, Y.Qarayev, Ə.Əliyev, X.Dadaşov, F.Məmmədov, M.Manafova, S.Məmmədova, Z.Məmmədov, İ.Öməroğlu, M.Təkləli, Ə.Bayramov, M.Əfəndiyev, S.Xəlilov, N.Hüseynova, V.Gərayzadə, S.Əliyeva və başqalarını göstərmək olar. Bu alim tədqiqatçılar araşdırmalarında milli və bəşər mədəniyyətlərinin inkişafı, milli ideologiyalar və psixologiyaların qarşılıqlı əlaqəliliyi, mədəniyyətlərin tərəqqisi, tənəzzülə uğrama səbəbləri, ədəbiyyatın, incəsənətin inkişafında, adət-ənənələrin əlaqəli xarakter almalarında ən müasir informasiya-kommunikasiya texnologiyalarının müsbət təsiri istiqamətlərinin tədqiqi, digər sosial-fəlsəfi, mədəni əlaqələrin məsələlərin araşdırılması diqqət mərkəzində olmuşdur.

Son onilliklər ərzində mədəniyyətin təşəkkülü, inkişaf istiqamətləri, gələcək perspektivlərini əks etdirən müxtəlif məzmunda araşdırmalar olsa da, elitar və kütləvi mədəniyyətlərlə bağlı yeni araşdırmalara ehtiyac vardır. Çünki, hazırki şəraitdə mədəniyyətlərin inteqrasiyası sürətli xarakter almaqdadır, ona görə də onların dərindən öyrənilməsinə ethtiyac vardır. Nəticədə milli mədəniyyətlərin özünəməxsusluğunu qorumaq, zənginliyini bəyan etmək ön plana çıxır ki, bu da ümumilikdə bəşər mədəniyyətinin qorunması, gələcək nəsillərə ötürülməsi üçün çox vaicb amildir.

Orta əsrlərdə Qərbdə dini idealist fikirlərdə mədəniyyətdə də ilahi iradə mühüm sayılırdı. Qərbdə sosial bərabərsizliyin mühüm səbəbi ilahi iradə ilə əlaqələndirilirdi. Məsələn, Avrelius Avqustinə görə iradə əqldən üstündür və insanı passiv əql yox, aktiv iradə tənzimləyir. O, belə bir nəticəyə gəlmişdir ki, Tanrının köməyi olmadan insanın dünyanı dərk etməsi mümkün

deyil, Tanrı tərəfindən yaradılan bərabərsizlik ierarxiyaya bənzəyir, ictimai həyatın dəyişməz prinsipi kimi Tanrı tərəfindən yaradılıb və sonra gələn üzvün əvvəlkinə tabe olması zəruridir. Şərqdə isə orta əsrlərdə yazılmış sosial bərabərsizliyi ifadə edən əsərlərdə elm və mədəniyyətə aid zəngin ideyalı fikirlər irəli sürülmüşdür. Alman tarixçisi S.Rufendorfa görə mədəniyyət özündə insanı xüsusilə ictimai təsisatları, paltarı, dili, elmi, əxlaqı ehtiva edir (1, s. 14).

Mədəniyyət anlayışı ilə bağlı baxışlardan biri də yunanca “kult” və latınca “ur” şəkilçisinin birləşməsindən yaranan “kultur” sözünün Şumerlərin Ur şəhərinə sitayiş etmələri ilə bağlı olmasıdır (9, s. 46). E.Taylorun, F.Bousun, Rut Benedoktun, A.Kreberin və A.Rediklif-Branunun, A.Kazonun, A.Kraytın, R.Firtin və M.Fortesin mədəniyyətlə əlaqədar sanballı tədqiqatları mövcuddur.

Orta əsrlərdə Azərbaycan filosofları da daxil olmaqla müsəlman Şərqinin nümayəndələri – Əbu Nəsr əl-Fərabi, Əbu Əli İbn Sina. Əbu Həfs Sührəvərdi, Əbülhəsən Bəhmənyar, Şihabəddin Sührəvərdi, Siracəddin Urməvi, Eynəlqüzzat Miyanəçi, Nəsirəddin Tusi, İbn Həldun, İbn Rüşd və başqaları sosial mühitdə baş verən hadisələrin fövqündə duran dəyərli elmi ideyalar ilə fəlsəfi fikrimizə zənginlik gətirmişlər (8, s. 32). Əl-Fərabi özünün “Mərhəmətli şəhər sakinlərinin görüşləri haqqında” əsərində ədaləti vacib amil hesab etmiş, hökmdar üçün ədaləti əsas əlamət saymışdır (8, s. 32). İbn Sina da hökmdarların daim özlərini təkmilləşdirmələrini, ədəb sahibi kimi nüfuz qazanmalarını lazım bilmişlər (12, s. 107).

Bəhmənyarın fikrincə insan həyatı boyunca kamilləşir, fərddən şəxsiyyətə qədər yüksəlir (11, s. 105). N.Tusi özünün “Əxlaqi-Nasiri” əsərində ən şərəfli vasitə olan namuslu əmək və sənəti vacib sayır, “qızıl orta” prinsipini əsas götürür. Qəzalı fəaliyyətləri əxlaqla əlaqələndirmişdir. İbn Həldun isə cəmiyyəti təhlil edərkən insanlararası münasibətlərdə sosial bərabərliyi vacib amil hesab etmişdir (13, s. 77).

Beləliklə, orta əsrlər Şərq fəlsəfi fikrindən məlum olmuşdur ki, cəmiyyətin inkişafına səbəb insanın yüksək mənəvi keyfiyyətlərə malik olmasıdır. Bu keyfiyyətlər sırasında kamilləşmək, məhəbbət, ədalət, mənəvi yüksəliş və sair olsa da, bunlar arasındakı qarşılıqlı əlaqəni elitarlıqdan kütləviliyə qədər yol keçən mədəniyyət amili yaratmışdır. Mədəniyyət isə öz mənşəyini məhz qədim sivilizasiyalardan götürmüşdür. İngilis alimi E.Taylor sivilizasiya ilə mədəniyyəti eyniləşdirir, hətta mədəniyyətin daha geniş məna kəsb etdiyini bildirmişdir (2, s. 158).

**Sivilizasiya və mədəniyyət.** Alimlərin fikrincə sivilizasiya iki mənada – tarixi dövr və coğrafi məkanla əlaqələndirilmə kimi qəbul edilir (3, s. 29). Sivilizasiya anlayışı XVIII əsrdən alim-tədqiqatçılar Türqo, Miralo və Ferqyuson tərəfindən elmi ədəbiyyatda işlənməyə başlamışdır. L.Fevr qeyd edir ki, sivilizasiya anlayışı ilk dəfə Holbax tərəfindən işlədilmişdir. Digər mənbələrdə isə bu anlayışın 1766-cı ildə Jan Jak Russo tərəfindən də işlədildiyi qeyd edilir (15, s. 241).

“Sivilizasiya” anlayışı latınca “sivilis” sözündən götürülmüşdür ki, dövlət mülki mənalarında işlənmişdir. Getdikcə, mənaca genişləndirilmiş, hətta “sivilizasiyalı” dedikdə özünü tərbiyəli, nəzakətli, müəyyən bilgilərə malik olan şəxs kimi qəbul edilmişdir (15, s. 241).

Hazırda sivilizasiya Şərq, Qərb, Şimal, Cənub, Asiya, Afrika, Avropa, Latın Amerikası və digər xalqların mədəniyyətlərini əlaqəli formada dərindən qorumağa imkan yaradır. Beləliklə, sivilizasiya keçmiş dövr, indiki zaman və gələcək arasında əlaqələr yaradır ki, bütün bu proseslərdə müxtəlif xalqların mədəniyyətlərin, eləcə də elitar və kütləvi mədəniyyətlərin “ötürücüsü” kimi vacib əhəmiyyət kəsb edir. Təbii ki, sivilizasiyalaşmanın inkişafını artırması kütlələrin mədəni fəaliyyətinin gücündən, bu da öz növbəsində elitanın hərtərəfli formalaşması ilə ölçülmüşdür. Yəni sivilizasiyanın gücü və gələcək perspektivi elitanın inkişaf sürəti ilə düz mütənasiblik təşkil edir. Elitar mədəniyyət bütün dövrlərdə hərəkətverici güc olmuş və bu gün də kiberelitanın müasir kütləvi mədəniyyətdəki gücünün durmadan inkişafında mühüm rola

malikdir. Hazırki texnogen inkişaf daha güclü, hətta müasir tələbləri qabaqlayan kiberelitanın tərəqqisini tələb edir.

Sivilizasiya ilə əlaqədar bir sıra alim-tədqiqatçıların araşdırmaları maraq doğurur. Belə ki, sivilizasiya anlayışının ilk dəfə işlədilməsi ilə bağlı fransız alimi L.Fevrin iddiası, P.Sorokinə görə lokal sivilizasiyanın mədəni sərvətlərlə bağlı bənzərsiz sistem olması, fransız alimi F.Brodelin fikrinə görə sivilizasiyanın sosial, iqtisadi, siyasi, mədəni-psixoloji yarım-sistemlərin qarşılıqlı əlaqəsinin nəticəsi kimi tam sistem olması, A.Kravçenkoya görə sivilizasiya nəticəsində sosial sistemlərin inteqrasiyaya uğraması, Ə.Məmmədovun tarixi şəxsiyyətlərlə bağlı elmi nəticələri, P.Kopninə görə yaradıcı prosesdə insan idrakının rolu, Hegelin bilik və təfəkkürlə bağlı, insan və bəşəriyyətin həyat tərzi, elmi inkişafla bağlı fikirləri tanınmış alim Cəmil Əhmədlinin insan amilinin sosial dünya olması haqqında dəyərli fikirləri, mənəvi istehsalda ictimai şüurla ictimai varlıq arasında əlaqənin vacib əhəmiyyəti barədə araşdırmaları, A.Maslovun insanın mədəniyyətlə bağlı həyat tərzinin mühüm dəyişikliklərə məruz qalması ilə bağlı mülahizələri, S.Anisimovun mədəniyyət nümunələrinin müxtəlif ictimai fəaliyyət sferalarında mühüm rol oynaması haqqında dəyərli fikirləri mövzu baxımından mühüm əhəmiyyətə malikdir.

**Müasir cəmiyyətdə kütləvilik və elitarlıq.**Fəlsəfi fikirdə elita ilə bağlı bioloji, psixoloji, psixoanalitik, sosial-psixoloji və texnokratik nəzəriyyələr vasitəsilə müvafiq elmi konsepsiyalar aydınlaşdırılmışdır. Alim-tədqiqatçılardan R.Uilyams, E.Bogardus bioloji nəzəriyyələri ilə Q.Gilbert, B.Skinner psixoloji nəzəriyyələri vasitəsilə Z.Freyd, E.Eriksen psixoanalitik nəzəriyyələri ilə, E.Fromm, Q.Lassuel sosial-psixoloji nəzəriyyələri ilə və C.Bernxem, C.Gelbreyt isə texnokratik nəzəriyyələri vasitəsilə elita haqqında öz elmi fikirlərini irəli sürmüşlər.

Məlumdur ki, cəmiyyətdə elita və kütləyə bölünmə zərurəti ilə bağlı elitarizm konsepsiyası mövcuddur. Elitarizmlə bağlı ilkin ideyaların təşəkkülü qədim dövrlərə təsadüf edir. Bəzi mənbələrə görə elitarizm nəzəriyyəsi hətta Plutondan əvvəl Pifaqor tərəfindən irəli sürülmüşdür. Lakin Platon bu nəzəriyyəni daha da təkmilləşdirmiş, ona yenilik gətirmişdir. Platonun “İdeal dövlət” nəzəriyyəsinə görə bilik, bacarıq və qabiliyyətlərinə görə insanlar bir-birlərindən fərqlənməlidirlər.

Şərq fəlsəfəsi tarixindən məlum olmuşdur ki, ilkin elitar nəzəriyyələr 2500 il bundan əvvəl yaranmışdır. XX əsrdə isə elitar və kütləvi mədəniyyətlər arasındakı ziddiyyətlərin dərinləşməsi ənənəsi daha da güclənməyə başlandı. Elitar mədəniyyətlə bağlı nəzəriyyənin mühüm müddəaları alman alimləri Artur Şopenhauer və Fridrix Nitsşenin, eyni zamanda ispan filosofu Xose Orteqa-i Qassetin araşdırmalarında əks edilmişdir. A.Şopenhauer özünün “Dünya iradə və təsəvvür kimi” əsərində estetik dəyərlərdən bəhs etmiş, estetik idrakın əhəmiyyətini ön plana çəkmişdir. F.Nitsşe “Musiqinin ruhundan faciənin doğulması”, “İnsani, həddən artıq insani – azad ağıllar üçün kitab”, “Şən elm”, “Zərdüşt belə demişdir – Hamı və heç kəs üçün bir kitab”, “Vaqner məsələsi” əsərlərində cəmiyyətdə imtiyazlı vəziyyətə malik olan unikal insanın istedadının, qabiliyyətinin məhsulu olan mədəniyyət nümunələrinə malik “fövqəlinsan” ideyasını irəli sürmüşdür. F.Nitsşenin elmi baxışları müasir elitar nəzəriyyələrin inkişafına güclü təsir göstərmişdir. Xose Orteqa-i Qasset özünün “Kütlələrin üsyanı”, “İncəsənətin dehumanizasiyası” əsərlərində mədəniyyəti elitar və kütləvi mədəniyyətlər olmaqla iki hissəyə bölmüşdü. Alimin fikrinə görə kütlənin fəaliyyətində məntiq yoxdur və buna görə də kütlə tərəfindən yaradılan mədəniyyət bəsitdir. Qassetə görə Qərb mədəniyyəti böhran iərisindədir ki, bunun da səbəbi kütlələrin üsyanındadır. Kütlə özünü istedadsızlığın, adiliyin daşıyıcısı kimi hiss edir (7, s. 51).

İtalyan sosioloqu, iqtisadçısı, mühəndisi Vilfredo Pareto və italyan politoloq alimi Hayetano Moska öz elmi əsərlərində elitar cəmiyyət konsepsiyasının müstəqil formada

formalaşmasından bəhs etmişlər və bir-birlərindən xəbərsiz olaraq bu sahədə dəyərli töhfələrini vermişlər. Onlar seçilən təbəqənin elitaya daxil edilməsi üçün sosial mühiti, yaradıcılıq sahəsindəki üstünlükləri, dini, mənəvi, əxlaqi və estetik baxışların olmasını vacib sayırdılar. Kütləvi mədəniyyətdə isə belə keyfiyyətlərə rast gəlinmədiyini qeyd edirdilər.

Mənbələrdən məlum olmuşdur ki, ayrı-ayrı tarixi dövrlərdə müxtəlif fəlsəfi cərəyanlar da elita haqqında fərqli nəticələrə gəlmişlər. Volyuntarizmin nümayəndələri insan psixologiyasında iradəni əsas amil hesab edir, tarixi prosesləri yalnız insan iradəsinin məhsulu kimi qiymətləndirirdilər. Fatalistlər isə dünyada fövqəltəbii qüvvənin olduğunu, məhz bu qüvvə vasitəsilə tarixi proseslərin ardıcıllığı, gedişini, müəyyən edildiyini, bunun da elita vasitəsilə reallaşdırıldığını iddia edirdilər. Kütləvi cəmiyyət isə konforist xüsusiyyətə malikdir. Fransız alimi L.Boden qeyd edirdi ki, konforizm kütləvi cəmiyyətin yaratdığı mədəniyyətdə də əks olunmuşdur. Bu baxımdan konforist davranış modelli hər bir fərd kütlənin ayrılmaz bir parçasına çevrilməklə kütlə ilə harmoniya yaradır, sanki kütləyə baş əyir.

Tanınmış italyan filosofu Nikkolo Makiavelliyə görə cəmiyyət daxilində insanlar idarə edən elita və idarə olunan kütlə olaraq iki yerə bölünür. Elit təbəqə aydın şəkildə öz məqsədini seçir. Makiavelliyə görə kütlələr qısamüddətli arzuları ilə irrasional davranışa meyllənirlər. Buna görə də kütlənin eqoizmi öz azadlıqları ilə uyğunlaşdıqlarından onlar başqaları tərəfindən idarə edilməlidirlər. Ancaq elit təbəqənin eqoizmi isə ağıla əsaslanır, fəal olduğundan xudbin və özündənrazı insanlar kimi formalaşırlar.

Amerikalı sosioloq-alim Çarlz Rayt Millsə görə elit sinif siyasi gücə malikdir və bu sinfə siyasətçilər, siyasi rəhbərlər və hərbi liderlər daxildir. Elit sinif hakim sinifdən fərqlidir. Hakim sinif birbaşa zənginlik və yaxud təhsildən dövlət siyasətinə qədərki geniş spektri əhatə edir.

Məşhur fransız tarixçi-alimi Meksis de Tekvidlin “Amerikada demokratiya” adlı dörd cildlik əsərində müasir cəmiyyətin irsi prinsiplər və ənənəvi bağlılıq münasibətləri tərəfindən deyil, həyatın hər sahəsini əhatə edən materialist və ictimai bərabərlik tərəfindən idarə edildiyini göstərir.

Alman alimi Osvald Şpenqler, ingilis tənqidçisi Tomas Eliot, rus kulturoloqu P.Sorokin və digər tədqiqatçılar öz əsərlərində elitar və kütləvi mədəniyyətlərə müasirik nöqteyi-nəzərindən yanaşmışlar. Müasir dövrdə də elitar və kütləvi mədəniyyətlərin mahiyyəti, xüsusiyyətləri, bəşər cəmiyyətinin inkişafının təsiri aspektlərin barədə araşdırmalar aparılmışdır. Beləliklə, apardığımız araşdırmalardan məlum olmuşdur ki:

- elita, elitarlıq, elitar və kütləvi mədəniyyətlərlə bağlı fəlsəfi fikir tarixində fərqli və ziddiyyətli mövqelər mövcuddur;
- elitar və kütləvi mədəniyyətlərin qarşılıqlı əlaqəsi cəmiyyətdə öz müsbət təsirini göstərir;
- ayrı-ayrı tarixi dövrlərdə elitar mədəniyyətin kütləvi mədəniyyətin inkişafına təkanverici təsiri özünü göstərmişdir;
- inkişafın ayrı-ayrı sahələri üzrə elitanın əldə etdiyi yeniliklər, digər sahələrlə yanaşı, mədəniyyətdə də inkişafetdirici qüvvəsini sübut etmişdir;
- hüquqi, siyasi, iqtisadi, dini, elmi və digər sahələr üzrə elitaların mədəniyyətin inkişafında mühüm rolu olduğu kimi, mədəni elitanın da digər sahələrin inkişafında əhəmiyyəti bütün tarixi dövrlərdə özünü göstərmişdir.

**Elitar və kütləvi mədəniyyətlərin səciyyəvi xüsusiyyətləri.** Hazırda kütləvi xarakterə malik milli mədəni nümunələr digər mədəniyyətlər tərəfindən assimilyasiyaya məruz qalaraq, milli xarakterə malik olan nümunələr özünəməxsusluğunu itirir. Nəticədə milli mədəniyyətin unudulması kimi problemlər yaranır.

Elitar və kütləvi mədəniyyətlərin qarşılıqlı əlaqə prosesində müasir innovasiyalardan istifadənin əhəmiyyəti böyükdür. İnformasiya mübadiləsi və qarşılıqlı təsir ictimai-mədəni

prosesləri sürətləndirir. Bu zaman müxtəlif mədəni sahələrdə dialoq zamanı informasiya bolluğu və yaxud əksinə, informasiya qıtlığı mədəni innovasiyanın təşəkkülü üçün mənbə rolunu oynayır (14, s. 412).

Kütləvi mədəniyyət ilk mədəni dəyərlərin təşəkkülü ilə bilavasitə bağlıdır. Müqəddəs kitabların kütləvi auditoriya üçün nəzərdə tutulmuş formalarını buna misal göstərmək olar. Avropada kitab çağının meydana gəlməsi sayəsində kütləvi mədəniyyət inkişaf etmiş, dini ədəbiyyatla bərabər macəra və dedektiv romanın yayılması nəticəsində müvafiq oxucu auditoriyası artmışdır.

Elitar mədəniyyət innovasiyaya dəyər vermək nöqteyi-nəzərindən də kütləvi mədəniyyətdən məzmun etibarilə fərqlənir, mütərəqqi sosial hadisə kimi özünü göstərir. Qeyd edək ki, elitar təbəqə və onun bəxş etdiyi mədəniyyət nümunələri kütləvi mədəniyyətə nisbətən azlıq təşkil edir. Elitar şüurun kütləvi şüurdan fərqliliyi də özünü göstərir. Belə ki, elitar şüur:

- keçmişə nəzər salır, müasirliyi qoruyaraq gələcək inkişafa cəhd edir;
- gündəlik zehni fəaliyyətini zərurətini anlayır;
- daim yeni yaradıcılıq məkanı axtarışındadır;
- təbiətə, cəmiyyətə və insana yeni yanaşmalar axtarışındadır (9, s. 741).

Çoxmədəniyyətli cəmiyyətlərdə milli mədəniyyətlər zənginliyi və rəngarəngliyi ilə fərqlənir. Bu baxımdan multikultural cəmiyyətlərdə milli məzmunlu kütləvi mədəniyyətin öz forma və məzmununu qoruması üçün daha münbit şərait mövcud olur. Ölkəmizdə də multikultural ənənələr hökm sürdüyündən etnik birliklərin həm elitar, həm də kütləvi mədəniyyət nümunələri öz varlığını qoruyub saxlamaqdadır.

Kütləvi mədəniyyətin səciyyəvi xüsusiyyətləri Qustav Lebonun “Xalqların və kütlənin psixologiyası”, Ziqmund Freydin “Kütlə psixologiyası və insan “mən”inin analizi”, L.Veytolovksinin “Kollektiv psixologiyaya dair esselər”, “İctimai hərəkatların psixologiyası”, Qabriel Tardın “Xalq və izdiham” əsərlərində ətraflı şəkildə şərh edilmişdir.

Hazırda kütləvi mədəniyyət sosial-mədəni həyatın ayrılmaz hissəsi kimi təzahür edir. Kütləvi mədəniyyətin yaradıcılarının yaradıcılıq qabiliyyətləri və bacarıqlarının zəif olmasına görə onlar bəzən elitar mədəniyyətin yamsılanması qismində çıxış edirlər. Yaradıcılıqda məhdudluğa görə kütləvi informasiya vasitələrinə imkan yaratmaq, önəm vermək kütləvi mədəniyyət yaradıcılarının əsas səciyyəvi xüsusiyyətlərindəndir.

**Elitar və kütləvi mədəniyyətlərdə insan əsas yaradıcı varlıq kimi.** İstər elitar, istərsə də kütləvi mədəniyyətlərdə tarixi dövrdən asılı olmayaraq insan amili əsas rol oynamışdır. Xalqının tərkibində öz zehni inkişafı ilə fərqlənən insan amili əsas rol oynamışdır. Bu proseslər mühitində baş verən hadisələrdən asılı olaraq idraki proseslərdən də asılılığını göstərmişdir. Beləliklə, “ ... fikri baxımdan zəngin, yaxud “kasıb” idrakların mövcud olduğu qruplar, xalqlar, ölkələr müvafiq inkişafda olduqlarından, inkişaf fərqliliyi özünü qabarıq şəkildə göstərmişdir (4, s. 3-4).

Ümumiyyətlə, mədəniyyətin inkişafı elitar mədəniyyətin inkişafı ilə bilavasitə bağlı olmuşdur. Məhz insan zəkasının inkişafı sayəsində bu proseslər mövcud olmuşdur. İnsan zəkası ayrı-ayrı tarixi dövrlərdə mərhələlərlə maddi və mənəvi dəyərlərin yaradılmasını, qorunmasını, kütləviləşməsini, gələcək nəsillərə ötürülməsini təmin etmişdir (5, s. 9). Alim-tədqiqatçılara görə ümumi inkişafın, ictimai həyatda baş verən bütün dəyişikliklərin mərkəzində insan dayanır, hətta dünya qəhrəmanları insanlardır (6, s. 20).

Elitar və kütləvi mədəniyyətlərdə insan əsas yaradıcı varlıq kimi öz yaratdıqlarını mənəviləşdirir. Yəni, tarixi dövrlərdə maddi nemətlərin istehsalından sonra bu nümunələrə əsasən zəngin məlumatlar, biliklər əldə edilir. Bunun nəticəsində də adətlər, ənənələr, bayramlar, mərasimlər yaranır, sonrakı tarixi dövrdə mərhələlərlə gələcək nəsillərə ötürülür. Beləliklə, zaman-zaman maddiləşən yazılı qaynaqlar şəklində mövcud olan, qorunan mədəni

sərvətlər kimi bu irs öyrənilmiş və qədim mədəniyyətlərin dərk mənbəyi kimi mühüm amilə çevrilmişdir. Bu səbəbdən elitar və kütləvi mədəniyyətlərlə bağlı müxtəlif nəzəriyyə və baxışların araşdırılması, öyrənilməsi mümkün olmuşdur.

Mədəniyyətlə bağlı araşdırmalardan, fikir və mülahizələrdən belə nəticəyə gəlmək olar ki, mədəniyyət üçün məkan, mənbə cəmiyyətdir, yəni cəmiyyətsiz mədəniyyətin mövcudluğu mümkün deyil. Cəmiyyət yarandıqdan sonra mədəniyyət təşəkkül tapmağa başlamışdır ki, bu da sivilizasiyanın inkişafı ilə bilavasitə bağlıdır. Öz növbəsində sivilizasiyanın inkişafında isə insan tərəfindən mənimsənilən bilik, bacarıq, vərdişlər, təcrübə, əxlaq, incəsənət, adətlər, qabiliyyətlər kompleksi əsas əhəmiyyət ksəb edir. Elitar və kütləvi mədəniyyətlər müxtəlif istiqamətli, səviyyəli yaradıcı insanların cəmiyyətə bəxş etdikləri ideyalar, yaradıcılıq istiqamətlərinin nəticələri, nümunələri vasitəsilə inkişaf yolunda olmuşdur (16, s. 25). Yaradıcı insan elitar və kütləvi mədəniyyətlərin yaradıcısı, inkişaflarına təkan verən, həmçinin sivil cəmiyyətin aparıcı qüvvələri hesab edilirlər. Bütün bu proseslər hər bir milli mədəniyyətin daxili məzmununu təşkil edir. Həmçinin yaradıcı insanlar – şəxsiyyətlər, yüksək bacarıq və qabiliyyətə malik olanlar, fitri istedadlar, elm və incəsənət xadimləri, digər seçilmişlər milli mədəniyyətin inkişafı zəminində həmin xalqın mədəniyyətinin kütləvi xarakter almasına səbəb olmaqla, eyni zamanda bəşər mədəniyyətində elitar fenomenlərə çevrilərək mədəniyyətin dünya miqyasında kütləviliyinə yardım etmiş olurlar.

**Nəticə.** Qeyd etmək lazımdır ki, elitar və kütləvi mədəniyyətlərdə "millilik" məfhumu barədə alim-tədqiqatçılarda rəy müxtəlifliyi mövcuddur. Hər bir milli mədəniyyətin yaranması, inkişafı və tərəqqisində həm mühit, həm də təkamül baxımından qarşılıqlı əlaqələrin məqsədyönlülüyü əhəmiyyət baxımından özünü göstərir. Elitar mədəniyyətdə məkan və şəraitin əhəmiyyəti böyükdür. Elitar incəsənətin formalaşdırılmasında mühit, şəraitlərlə yanaşı, fərdlərin yüksək yaradıcılıq bacarıqları getdikcə millilikdən bəşəriliyə çevrilir. Çünki, belə yaradıcıların "yaradıcılıq manevrləri" üçün daha geniş məkan, dünyəvi şərait tələb olunur.

Beləliklə, yaradıcı insan tərəfindən ərsəyə gətirilən mədəni sərvətlər ayrı-ayrı tarixi dövrlərdə müxtəlif məzmunda və formalarda olmuş, sivilizasiyanın tərkib hissəsi kimi, mifoloji və dini hadisələrlə yanaşı, əksər hallarda real fəaliyyəti özündə əks etdirə bilmişdir.

Apardığımız araşdırmadan aşağıdakı nəticəyə gəlmək olar:

- elitarlıqda mövcudluq milli xarakterə əsaslanır. Bu prosesdə maddi və mənəvi dəyərlərə yaradıcı münasibətin təşəkkülü, coğrafi mövqe, mühit, şərait, tarixi dövr ifadə olunur;
- elitar mədəniyyətdə maddi və mənəvi yaradıcılığın məzmununu ehtiva edən milli təfəkkür mühüm amil hesab olunur;
- elita tərəfindən bəşər mədəniyyətinə təqdim olunan milli mədəniyyətdə milli xarakter özünü büruzə verir;
- elitar və kütləvi mədəniyyətlərdə ənənəviliklə tarixi varisliyin vəhdəti qarşılıqlı əlaqədə olur;
- elitar mədəniyyətin kütləvi mədəniyyətə çevrilməsində yaranan ziddiyyətlər getdikcə müvafiq tarixi dövr ərzində öz həllini tapır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Abdullayeva S.M. "Şəxsiyyət, mədəniyyət və sivilizasiya sistemində" mövzusunda fəlsəfə elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2006, 155 s.
2. Bayramov Ə.S. "Şəxsiyyətin təşəkkülünün aktual-psixoloji problemləri". Bakı: Azərnəşr, 1981, 188 s.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-Çap, 2001, 287 s.
4. Əmirxanov S. "Muzeyşünaslıq". Tədris-metodik vəsait. Bakı Biznes Universiteti, 2012, 112 s.

5. Əmirxanov S. “Muzeyşünaslıq”. Bakı: Mars-Print, 2001, 448 s.
6. Əmirxanov S. “Yuxarı sinif şagirdlərinin estetik tərbiyəsinin formalaşmasında incəsənət muzeylərindən istifadənin təsiri” mövzusunda pedaqogika elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 1996, 169 s.
7. Əsədov A. “Siyasətin fəlsəfəsi: mahiyyətin gerçəkləşdirilməsinə yönələn insani iradə və onun tarixi taleyi üzərində düşüncələr (insan, cəmiyyət, hakimiyyət və siyasət spiritualist aristokratizm fəlsəfəsi kontekstində). // Fəlsəfi pentologiya: 5 cilddə, V cild. // Yenidən işlənmiş və genişləndirilmiş nəşri. Bakı: Təknur MMC, 2013, 464 s.
8. Hacıyev O. Orta əsrlər İslam Şərqində sosial-fəlsəfi ideyalar. “Dövlət və din” jurnalı, №1 (60), 2019, s. 32-36.
9. Hüseynov İ. Əfəndiyev T. Kulturologiya tarixu. Dərslik, Bakı, “Mars-Print” NPF, 2012, 876 s.
10. Xacə Nəsirəddin Tusi. “Əxlaqi-Nasiri”. Bakı: Lider, 2005, 297 s.
11. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı: Şərq-Qərb, 2006, 279 s.
12. Məmmədov Z. Şərq fəlsəfəsi (IX-XII əsrlər). Bakı Universiteti nəşriyyatı, 1999, 304 s.
13. Platon. “Dövlət”. Bakı: Təbib, 1000, 358 s.
14. Rzaquliyev P. Mədəniyyətdə ənənə və innovasiya münasibətləri. “Qloballaşma şəraitində kulturoloji innovasiyalar və sosial-mədəni inkişaf” mövzusunda beynəlxalq konfrans. Bakı: Təknur MMC, 2012.
15. Барт Р.Б. Избранные работы: семиотика: Поэтика: Пер. с. фр./сост., общ. ред. и вступ. ст. Г.К.Косикова. – М.: Прогресс, 1989, 616 с.
16. Геллнер Э. Прищестьиу национализма. Мифы нации и класса. М.: Прогресс, 1982, 389 с.

**Мехсети Джафарова**

## ЭТАПЫ РАЗВИТИЯ ЭЛИТАРНЫХ И МАССОВЫХ КУЛЬТУР

***Резюме***

Поэтапная трансформация отдельных культур, созданных в различные исторические периоды и хранимых с передачей от поколения к поколению является естественным процессом. Этот процесс продолжается регулярно, несмотря на заведомо искусственные противоречия между народами. Таким образом, культура всегда увековечивается в контексте преемственности и современности, отражая уникальные материальные и духовные памятники и богатства народов, которым она принадлежит.

**Цель –** исследовать этапы развития элитных и массовых культур, сделать обобщения и получить результаты.

**Методология** – изучение научно-теоретических основ этапов развития элитарной и массовой культур, изучение форм, способов и средств применения.

**Результат** – этапы трансформации элитной культуры разных народов в разные культуры путем использования разных источников, последовательного анализа научной, моральной и практической основы проблемы.

**Ключевые слова**: *элитарная культура, массовая культура, творческий человек, философия, культурология, социология, национальный характер*

**Mahsati Jafarova**

## STAGES OF DEVELOPMENT OF ELITE AND MASS CULTURES

***Summary***

It is a natural process that different cultures, created and preserved in different historical periods and transmittedfrom generation to generation, are gradually transformed into human culture. This process continues on a regular basis, despite deliberately artificial contradictions between nations. Thus, culture is always immortalized in the context of succession and modernity, reflecting the unique material and spiritual monuments and riches of the people to which it belongs.

**Purpose –** to study the stages of development of elite and mass cultures, to make generalizations and to obtain results.

**Methodology** – study of the scientific and theoretical foundations of the stages of development of elite and mass cultures, the study of application forms, ways and means.

**Finding** – first study of the stages of transformation of the elite culture of different peoples belonging to different historical period into mass culture through the use of various sources, the sequential analysis of the scientific, moral and practical basis of the problem.

***Keywords****: elite culture, mass culture, creative man, philosophy, culturology, sociology, national character*

**Qəbul edilib: 18.04.2021**

**UOT1:001**

**Könül Şəkiyeva**
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,***
***kiçik elmi işçi***

# E-HÖKUMƏT TƏDQİQATLARININ TƏHLİLİ: FƏLSƏFƏSİ, NƏZƏRİYYƏSİ VƏ PRAKTİKASI

*Məqalədə elektron hökumətin tətbiqinin dövlət hakimiyyət orqanlarının vətəndaşlar, təşkilatlar və e-ekonomikanın digər subyektləri arasında rəqəmsal qarşılıqlı fəaliyyətin təşkilinin normativ-hüquqi təmin edilməsi təhlil edilir, bu zaman informasiya texnologiyalarının və İnternet şəbəkəsinin yaratdığı geniş imkanlar göstərilir.*

**Məqsəd** – məqalədə elektron hökumətin tətbiqinin perspektivləri, fəlsəfəsi, nəzəriyyəsi və praktikası araşdırılır, İT və e-hökumətin tətbiq edilməsinin dövlət idarəçiliyində ictimai iştirakın səviyyəsinin yüksəlməsində və cəmiyyətin bütövlükdə demokratikləşməsində rolu təhlil edilir.

**Metodologiya** – tədqiqat işində sistem-nəzəri yanaşma metodundan istifadə olunub.

**Tədqiqatın nəticələri** – e-hökumət və İT tətbiq edilməsi sayəsində dövlətin, biznesin və vətəndaşın qarşılıqlı fəaliyyətinin yeni modeli formalaşmış, dövlət idarəçiliyinin keyfiyyəti müəssisələr arası qarşılıqlı fəaliyyətin optimallaşdırılması yolu ilə yüksəlmişdir.

***Açar sözlər*** *– İnformasiya texnologiyaları, İnternet, virtual, elektron hökumət, rəqəmsal hökumət, elektron imza*

Elektron hökumət – (ing. E-Government) dövlət hakimiyyət orqanlarının müxtəlif qolları ilə vətəndaşlar, təşkilatlar və e-ekonomikanın digər subyektləri arasında rəqəmsal qarşılıqlı fəaliyyətin təşkilinin normativ-hüquqi təmin edilməsi, tələb olunan təşkilati işlərin toplumu və texnologiya paketidir. Elektron hökumət dövlət orqanlarının fəaliyyəti haqqında informasiyanın təqdim edilməsinin səmərəli üsulunu vətəndaşlara, biznesə, dövlət orqanlarının digər qollarına və dövlət məmurlarına dövlət xidmətinin göstərilməsini nəzərdə tutur, burada dövlət ilə şikayətçi arasında şəxsi qarşılıqlı fəaliyyət ən aşağı səviyyədədir və informasiya texnologiyalarının, mobil texnologiyaların və İnternet şəbəkəsinin verdiyi imkanlardan maksimum istifadə edilir.

Son bir neçə onillikdə dünya tədqiqatçılarının diqqət mərkəzində olan mövzulardan biri İT və elektron hökumət (ing. elektronic government, e-government) mövzusudur. Biz burada İngiltərəli tədqiqatçılar Riçard Heeks və Savita Bailurun bir tədqiqatını araşdırmağa çalışacağıq. Müəlliflər ingilis dilli ədəbiyyat içərisində bu mövzuya həsr edilmiş 84 nəşri hərtərədli təhlil etmişlər (1).

Müəlliflər İT və e-hökumətin tətbiqi ilə bağlı olan təsirləri, həm də bu təsirin səbəbləri ilə bağlı nəticənin perspektivinin başa düşülməsi üçün ümumi təsəvvürlərdən başlayırlar. İT və elektron hökumətin tətbiqinin təsirinin araşdırılması bir neçə üsulla ola bilər: məsələn, dövlət orqanlarında baş verən dəyişilmələri başa düşmək yolu ilə və ya indiki halda olduğu kimi, e-hökumət haqda yazan şərhçilərin fikirlərini təhlil etməklə. Bu struktur iki səviyyədə qurulmuşdur. Birincisi, texnologiyaların bir sıra perspektiv təsirləri, optimizmdən pessimizmə qədər. Optimist adlanan bəzi şərhçilər, İT tətbiqinin təsirini

əhəmiyyətli dərəcədə müsbət hesab edir, xərclərin azalması və dövlət xidmətinin keyfiyyətinin yaxşılaşması haqda fikirlər söyləyirlər. Digərləri – pessimist mövqedə olanlar isə, İT tətbiqini əhəmiyyətli dərəcədə neqativ təsirlərlə əlaqələndirir və bunun böyük xərclərə səbəb olacağını və ya ictimai məsuliyyətin itiriləcəyini iddia edirlər. İkinci yanaşma isə, təsir səbəblərinə dair texnoloji determinizmdən sosial determinizmə qədər fikirlərin davamıdır. Texnoloji determinist şərhçilər hesab edirlər ki, bu yanaşma əsasən İT və e-hökumət tətbiqinin təsirini müəyyən edən texnologiyalara xasdır. Onlar bu təsirləri birbaşa texnologiyaya bağlayır, bu işin maya dəyəri və s. haqda fikirlər irəli sürürlər. Məsələn, hesab edilir ki, kompüterlərin tətbiqi dövlət sektorunda işçi yerlərinin azalmasına səbəb olacaq. Digərləri – sosial deterministlər – hesab edirlər ki, sosial strukturlarda insanların seçimini, əsasən İT tətbiqinin təsiri müəyyən edir. Onlar insan amilini fəaliyyətlə bağlayan dəyər haqda ifadələrdən istifadə edirlər. Məsələn, kompüterləşmə ilə bağlı hər hansı iş yerinin itirilməsi, rəsmi menecerlərin işçiləri normadan artıq işlətdikləri vaxt baş verir (2).

Hər bir kontiniuum (proses) təsirlərə münasibətdə neytrallığa müvafiq orta mövqeyə malik olur (məs. istər yaxşı, istərsə də pis təsirlərin dəyərliliyi barədə ifadələr) və bu təsirlərin səbəblərinin həm şərti, həm də sosial-texniki əsaslandırılması (məs. insan faktorunu rəhbər tutaraq, nəticələri müdafiə edir və ya İT dəstəkləməyə imkan verən dəyərlərin təsdiq edilməsi). Belə struktur hökmən mürəkkəb reallığı sadələşdirir, amma o, informasiya texnologiyaları və dövlət idarəçiliyi sahəsində olan müxtəlif yanaşmaların başa düşülməsi üçün istifadə edilə bilər. İT və e-hökumətin təsirlər baxımından təhlili göstərir ki, İT dövlət sektorunda tətbiqi istər müsbət, istərsə də mənfi qavranılan təsirlərlə bağlı ola bilər. Eyni bir təsir bunda marağı olan bir insan tərəfindən müsbət, digər maraq sahibi tərəfindən mənfi qarşılana bilər. Elektron hökumətlə bağlı təsirlərin səbəbini axtaranda görürük ki, bu, əsasən, sosial kontekstdə formalaşan insan fəaliyyətinin nəticəsidir. Texnologiya ən azı insan niyyətlərinin və seçimlərinin formalaşmasında rol oynayır və özü də insanın niyyətləri və seçimləri ilə müəyyən edilir. Bizim üçün nəticəyə “yarıyadək boş stəkan” baxışı (bədbin baxış) bundan ibarətdir ki, təhlil edilən məqalələrin demək olar ki, hamısı, pozitiv və texnoloji determinist mövqe tutur (3).

Konkret olaraq texnologiyanın fəsadları haqda sübutların inkar edilməsinin və e-hökumətdən imtina edilməsinin səbəb olduğu böyük xərclərin görməzdən gəlinməsinin səbəbi, İT hökumət üçün “yaxşı şey” hesab edən, bizim sadəlövh optimizm kimi xarakterizə etdiyimiz, bu mövzuya həsr edilmiş məqalələrin yarıdan çoxunda tarazlığın olmamasıdır . Bütün bunlar e-hökumət ətrafında olan ümumi səs–küy səbəbindən yarana bilər. Əlbəttə, e-hökumət barədə yazılan ədəbiyyatda böyük əksəriyyət nikbin ruhdadır. E-hökumət mövzusunda işləyən tədqiqatçıların əksəriyyəti nisbətən gəncdir. Yeni müəlliflərin yarısı e-hökumtə münasibətdə müsbət mövqedədir; nüfuza sahib olan tədqiqatçıların dörddə birindən azı tam müsbət fikir söyləmişlər. Əgər tədqiqatçı bu sahədə yenidirsə, onlar öz fikirlərində az inamlı olurlar (məs., e-hökumətin müsbət təsiri haqda olan ajiotajda olduğu kimi ). Biz e-hökumət haqdakı müzakirələrdə olan güclü optimizmin daha bir izahını təklif edə bilərik: bu şəxsi maraqdır. Belə ki, bu mövzuda yazan on beş müəllif məqalələrində bəhs etdikləri layihələrdə, məhsullarda və ya xidmətlərdə birbaşa rol oynamışlar. Onlardan cəmi 5 nəfər qarışıq və ya qarışıq-müsbət fikirdə idilər; e-hökumət haqda qalanların fikri tam müsbət idi. Başqa sözlə, e-hökumət mövzusundan bəhs edənlərin üçdə ikisi onu müsbət qiymətləndirirlər. Bu məsələdə marağı olmayanların üçdə birindən azı da eyni ilə bu cür mövqe tuturlar. Ancaq “yarıyadək dolu stəkan” baxışı, yəni nikbin yanaşma da var. Müəlliflərin yarıdan çoxu hesab edir ki, e-hökumətin üstünlükləri haqda olan reklama bir neçə sual işarəsi əlavə edilməlidir. E-hökumət tədqiqatçılarının

əksəriyyəti, burada insan amilinin və sosial amillərin hansısa bir rol oynaya biləcəyini qəbul edərək, kobud texnoloji determinizmi rədd edirlər. Beləliklə, hesab edirik ki, e-hökumət tədqiqatçılarının çoxunda bu işin uğur qazanacağına ümid üçün əsas var (4).

Riçard Heeks və Savita Bailur daha sonra qeyd edirlər ki, öz araşdırmalarına tədqiqat fəlsəfəsinin sadə modeli ilə: ifrat dərəcədə pozitivizm və sosial konstruksionizm ilə məhdudlaşan fəlsəfənin davamlılığı haqqında açıq görünməyən bir fikirlə (ifrat hallarının pozitivizm və sosial konstruksionizm ilə məhdudlaşdığı fəlsəfə kontinuumu haqda qeyri-aşkar təsəvvürlə) davam edirlər.

Bu mövqe ilə bağlı tənqidlər olsa da, digər fəlsəfi sxemlər iki və ya çox ölçülü strukturdan istifadə etmişlər, obyektiv olandan subyektiv olana qədər davam edən bu tip kontinuum tədqiqatları kateqorialar üzrə təsnif etmək üçün çox vaxt əsas konsepsiya kimi istifadə olunur. Prosesi konkretləşdirmək üçün onlar, əvvəlcə pozitivizm və e-hökumət münasibətlərini araşdırırlar. Pozitivist e-hökumətin tədqiqi real, obyektiv ontologiyanı (gereçəkliyin mahiyyəti haqqında mülahizələr toplusunu) ehtiva edir. Onlar güman edirlər ki, e-hökumətdə əsas dəyişənlər (məs. texnologiya, vərdişlər, iş prosesləri, əmək kültürü) həqiqətən mövcuddur: və onlar əsasda yerləşən və ümumiləşdirilmiş “qanunlarla” izah edilən səbəb-nəticə əlaqələrinin toplusu ilə bağlıdır. Pozitivistlərin e-hökumət xüsusunda tədqiqatları empirik epistemologiyadan (dünya haqda məlumatları necə toplamaq lazım olduğu haqda fərziyyələrin toplusu) ibarət olacaqdır.

Burada onlar güman edirlər ki, məlumat və məlumat toplanması müşahidəçidən, onun maraqlarından və xarakterindən asılı deyildir. Əksinə, sosial konstruktivistlərin elektron işləmələrinin (layihələrinin) tədqiqi subyektiv ontologiyadan ibarət olardı. Kompüter avadanlığı daxil, fiziki obyektlərin maddi varlığını qəbul etməklə onlar güman edirdilər ki, hər hansı – maddi və ya qeyri-maddi – dəyişən üçün əhəmiyyət kəsb edən hər bir insan tərəfindən bu dəyişənə verilən konkret qiymətdir (mənadır). Bu qiymətlər digərləri ilə qarşılıqlı təsir nəticəsində yaranan subyektiv törəmələrdir .

Beləliklə, e-hökumət sahəsində sosial konstruksionizmin tədqiqi araşdırmaların diqqət mərkəzində insanların e-hökumət aspektlərinə münasibətdə malik olduqları konkret konstruksiya və qiymətlərin olduğunu güman edən epistemologiyanı ehtiva edəcəkdir. Onlar təklif edirlər ki, tədqiqatçının şəxsi konstruksiyaları, dizaynları və maraqları tədqiqatdan ayrı tutula, dəyərləndirilə bilməz. Biz e-hökuməti və təşkilatçılıq kültürünü öyrənməyə cəhd etməklə fərqi təsvir edə, göstərə bilərik. Pozitivist tədqiqatda nəzərdə tutulur ki, kültür hər hansı bir fərddən asılı olmayan nisbi möcudluğa malikdir, onu müşahidə etmək olar və onun mövcudluğu və digər dəyişənlərlə əlaqəsi hansısa bir şəkildə ölçülə bilər. Məsələn, bu tədqiqatda kültürün gücünü və növünü, onun müəyyən dərəcədə ölçülə bilən e-hökumət miqyasında tərəqqi kimi nəticələrə təsirini ölçməyə cəhd etmək olar.

Adətən bu işi, respondentlərin böyük nümayəndəli yayılmış seçimi olan anket sorğusunun köməyi ilə etmək mümkündür. Sosial konstruksion (quraşdırma) araşdırmasında güman edilir ki, kültür obyektiv varlığa malik deyil. Kültürün mənası, - nəticədə təsiri – sosial qarşılıqlı təsirin vasitəsilə yaradılır, amma sonda, bu məna subyektiv olur və hər bir konkret insanın fərqli quruluşu, konstruksiyadır. Məsələn, bu tədqiqat kültürün dövlət qulluqçuları üçün nə olduğunu, kültürün mənasının necə yarandığını və hər bir insanla kültür və e-hökumət arasında hansı münasibətlərin olduğunu müəyyən etməyə cəhd göstərə bilər. Adətən, bunu bir neçə respondentlə hərtərəfli müsahibə, sorğu vasitəsilə görmək olar (5).

Kəskin yanaşmaları xarakterizə etmək asan olsa da, hər hansı bir aralıq mövqenin xarakteristikası daha az aydındır, çünki bəziləri kəskin yanaşmalar haqda baza fikirlərini həddən artıq, ölçüyə gəlməz dərəcədə hesab etdikləri üçün, bu orta məxrəcə gəlməyə mane

olur və tədqiqatda digər fəlsəfi yanaşmalar, diqqətə alınması gərəkən yeni ölçülər irəli sürürlər. Buna baxmayaraq biz, "aydın olmayan mövqe" roluna namizəd qismində tənqidi realizm və relyativizm kimi yanaşmaları nəzərdə tuturduq. Məqalələri təhlil edərkən, 84 nəşrin heç birində, - hətta keçici olsa belə - ontologiya, pozitivizm, epistemologiya, paradiqma və s. kimi fəlsəfi yanaşmalara istinada rast gəlmədik. Ona görə biz, tədqiqatın əsas fəlsəfəsini tədqiqatçıların başlıca olaraq əsas hadisələrə necə yanaşdıqlarından asılı olaraq çıxarmağa məcbur olduq. Bu hadisələr real və obyektiv olaraq qəbul edilibmi? Onlar sosial konstruksiya kimi qəbul edilibmi, yoxsa onlar bir başqa cür nəzərdən keçirilir? Bu cür ontoloji nəticələrlə yanaşı, biz bəzi epistemoloji nəticələr çıxarmağa ümid edirdik, ancaq belə yanaşmaya bir çox məqalələrdə rast gəlmədik. Aşağıda qeyd edəcəyimiz kimi, ancaq beş tədqiqat işində pozitivim ilə açıq şəkildə assosiasiya edən statistik, etibarlı və böyük həcmli sorğudan istifadə edilib. Araşdırdığımız məqalələrdən dörddə birindən azında real metodologiya hiss olunur.

Tədqiqatların əksəriyyətində müəlliflər öz məlumatlarını bəzi elmi nəşrlərin və ya hökumət sənədlərinin kifayət qədər sistemsiz təhlili zamanı əldə etmişlər. Tədqiqat apararkən biz başa düşdük ki, bu cür işlərdən epistemoloji nəticələr çıxara bilməyəcəyik, çünki, əksər işlərdə metodların seçilməsi səbəbi aydın deyildi. Böyük ehtimalla, belə seçim ciddi səyləri deyil, düşünülməmiş epistemologiyanı əks etdirir. Bu cür problemlərlə biz, ümumiləşməyə və hipotetik-deduktiv və induktiv yanaşmanın yararsız dəyərləndirilməsi zamanı rastlaşırıq, yalnız 4 məqalədə bu yanaşmaya dəqiq əməl edilir. Buradan belə bir ümumi nəticəyə gəlirik ki, tədqiqatların olduqca məhdud, bizim hesablamalara görə, dörddə birindən azında pozitivist yanaşma var: əsas amilləri real və obyektiv, ölçülə bilən və səbəb-nəticə əlaqələrinə qarışan kimi araşdıraraq. Hətta bu cür yanaşma belə pozitivizmə kifayət qədər sərbəst baxış tələb edir. Əgər biz eyniləşdirməyə Orlikovski-Barudinin yanaşmasını tətbiq etsəydik – "formal fikirlərin sübutlarını, dəyişənlərin kəmiyyətcə ölçülməsi, yoxlanılmış fərziyyələr və nəticə haqda nəticə, sonuc" ancaq bir məqalə həqiqi pozitivist olaraq hesab edilə bilər- qalanlarının demək olar ki, hamısı daha zəif və ya daha dolaşıq, qarışıq pozitivizmə misal ola bilər. Bununla biz hesab edirik ki, onlar amillər real və obyektiv olduqda onları araşdırırdılar; onlar ölçülə bilən və səbəb-nəticə əlaqəsi ilə bağlı olanda isə onları araşdırmırlar: və ya onlar bəzi faktorları açıq pozitivist mövqedən dəyərləndirirlər, digər hallarda məqalələrə qarşılıqlı subyektivlik və ya hətta subyektiv konstruksiya anlayışları əlavə edilir (6) .

Heç bir məqalə sosial konstruktivist mövqeyinə söykənərək yazıla bilməz. Biz araşdırmamızda tənqidi ənənəyə əsaslanan (konkret subyektlərə təsir edən sistemli və ziddiyyətli sosial strukturun tənqidi mənada araşdırılması) heç nəyə rast gəlmədik.

Təhlil etdiyimiz məqalələrin cəmi altısı hansısa bir "mərkəzi" mövqedə dayanır. Bir qayda olaraq, bu kritik realizmin çeşidli təzahürüdür; əsas amillərin gerçəklik kimi şərh edilməsinə baxmayaraq, bu amillərin qəbul edilməsində subyektivlik və ya qarşılıqlı subyektivlik elementləri qəbul edildi. Bu, e-hökumət tədqiqatlarında darıxdırıcı monokültür təhlükəsi yaradır.

Relyativist mövqedən yanaşsaq, biz e-hökumətə aid bir sıra hələ aşkarlanmayan – e-hökumətin nə üçün istifadə olunması ilə bağlı suallar və ya onun həqiqi dəyəri və onun elan edilən üstünlükləri – interpretativistlərin yoxluğu və ya zəif pozitivizmin dominant olması səbəbindən tənqidi məqalələrin yoxluğu üzündən faktiki məlumat və ideyalar görə bilərik.

Bu da həmçinin e-hökumət tədqiqatlarında tədqiqat fəlsəfəsinin olmadığı məsələsini irəli sürür.

Bizim təhlil etdiyimiz tədqiqat işlərində tədqiqatın dəqiq, aydın fəlsəfəsinin şərhi,

ifadəsi yoxdur. Birbaşa, açıq söyləsək, əgər bu tədqiqatın fəlsəfəsi araşdırılmır və istifadə olunmursa, günah kimdədir – tədqiqatçılarda, yoxsa tədqiqatın fəlsəfəsi anlayışında? Hər halda, ən azı, məqalələrin bir hissəsi praktiki tövsiyyələr verir və / və ya e-hökumətin digər tədqiqatçıları tərəfindən istinad edilir və ona görə bəzi akademik və ya praktiki mənada xeyirli ola bilir. Beləliklə, e-hökumət tədqiqatlarında tədqiqat fəlsəfəsinin vacibliyi və rolu məsələsi açıq qalır. Burada biz iki fikir təklif edə bilərik. Bir tərəfdən, tədqiqatın fəlsəfəsinin qəbul edilməsi özünün inkişafına, onların öz işlərini və başqalarının, həmçinin tədqiqat sahəsində akademik etibarlılığını təhlil etmək bacarığına kömək edir. Digər tərəfdən, tədqiqat ənənələrindən yazanlar belə qəbul edirlər ki, burada qeyd edilən həd-dindən artıq mənfi mövqe, nə real filosofların, nə də real tədqiqatçıların hərəkətlərinə az da olsa aidiyyatı olmayan nəzəri stereotiplərdir. Əlbəttə, görünən odur ki, “hazır” fəlsəfəyə olan münasibət çərçivəsindən kənara çıxmaq cəhdi məhdud dəyərə malikdir: məsələn, e-hökumət tədqiqatlarına müxtəlif yanaşmaların üstünlüklərini və çatışmazlıqlarını müzakirə etməklə vaxt keçirmək. Fəlsəfi mövqelərin əsaslılığı və ardıcıllığına münasibətdə qeyri-müəyyənlik bu cür müzakirələri zəiflədir. Qarışıq sahələrdə belə müzakirələr “müzakirə üçün nəzəriyyə mövzusu olmadıqda əyləndirmək və diqqəti yayındırmaq” üçün vasitə kimi xarakterizə edilir.

Elektron hökumət – informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq edilməsi sayəsində təşkilatların və vətəndaşların dövlət xidmətinin və dövlət orqanlarının fəaliyyətinin nəticələri haqda, operativliyin keyfiyyətcə yeni səviyyəsi və münasibliyi sayəsində informasiyanın alınmasını təmin edən dövlət orqanlarının fəaliyyətinin təşkilinin yeni formasıdır.

Elektron hökumət – dövlət orqanlarına və vətəndaşlara yeni informasiya texnologiya-sından istifadə etməklə qarşılıqlı fəaliyyət göstərməyə imkan verən xüsusi kommunikativ infrastrukturdur. Elektron hökumət informasiya texnologiyalarından, xüsusilə də İnternet-dən istifadə etməklə dövlət xidmətlərini tamamilə yeni, daha uyğun və daha ucuz üsulla, istehlakçıya xidmət edir (7).

Tədqiqatçı A.A.Sidorova e-hökumət anlayışının müəyyən edilməsində iki yanaşma olduğunu qeyd edir: məhdud və geniş yanaşma (8). Məhdud yanaşma hökumətin səviyyələri, vətəndaşlar və işgüzar dairələr arasında elektron vasitələrin köməyi ilə hökumətin fəaliyyətini öyrənir. Geniş yanaşma elektron hökuməti, dövlətin, vətəndaşların və biznesin qarşılıqlı fəaliyyətinin keyfiyyətcə yeni səviyyədə dövlət idarəçiliyi prosesində ictimai iştirakın yüksək səviyyəsini təmin edən xüsusi sistem kimi araşdırır.

Məhdud yanaşma aşağıdakı müəyyən etməni nəzərdə tutur. Elektron hökumət dövlət orqanlarının fəaliyyətinə yardım məqsədi ilə informasiya və informasiya-kommunikasiya texnologiyasından istifadə edilməsini həyata keçirir.

E-hökumətin şərh edilməsihdə “yumşaq” və “radikal” yanaşmaları da fərqləndirirlər. “Yumşaq” yanaşma dövlətin idarə edilməsində yeni informasiya texnologiyalarından istifadə edilməklə təkmilləşdirilməsini əks etdirir, bu isə son nəticədə əhaliyə göstərilən xidmətlərin səmərəliliyini yüksəltməyə imkan verir. “Radikal” yanaşmada e-hökumət təşkilat daxili münasibətlərin yeni xarakterini ifadə etməklə qalmır, həm də dövlət idarəetməsinin cəmiyyətlə münasibətlərinin bütün kompleksinin transformasiyasını göstərir.

Elektron hökumət cəmiyyət ilə dövlətin qarşılıqlı münasibətlərində şəxsi amili praktiki olaraq heçə endirir. Hər bir hərəkət avtomatik olaraq qeydə alınır, həmişəlik saxlanılır, bu isə idarəçilikdə korrupsiyanın qarşısını alır. Elektron hökumət dövlət ilə vətəndaş cəmiyyəti arasında daha səmərəli qarşılıqlı münasibət qurmaq imkanları açdı, dövlət siyasətinin hazırlanması və həyata keçirilməsi prosesinə vətəndaşların cəlb edilməsi

üçün yeni üsullar yaratdı.

E-government texnologiyasının dövlət idarəçiliyi praktikasına tətbiqi göstərilən islahatların ümumi çərçivəsi daxilində həyata keçirilməsinə baxmayaraq, elektron hökumət sisteminin qurulması əksər hallarda inzibati dəyişilmələrin ənənəvi Veberçi modeldən kənara çıxmağı nəzərdə tutmur, bürokratik aparatın işinin baza prinsiplərini dəyişmədən, adi bürokratik prosedurların informasiya-kommunikasiya texnologiyası əsasında təkmilləşdirməyi həyata keçirir.

Bunu hökumətin bir çox digər funksiyaları haqda da demək olar. Rəsmi sənədlərin alınması, vergilərin, sosial ödənişlərin ödənilməsinin sənədləşdirilməsi və s. – bütün bu funksiyalar məzmunca dəyişməmişdir, amma e-government texnologiyalarının tətbiqi, onların reallaşmasını istər dövlət, istərsə də sadə vətəndaşlar baxımından sadələşdirdi.

Elektron hökumət dövlət miqyasında təşkil edilmiş, paylanılan informasiya-telekommunikasiya infrastrukturu üzərində qurulur. Bu işin nüvəsini elektron sənəd dövriyyəsi, ölkə miqyasında idarəçilik proseslərinin bütün mahiyyətinin avtomatlaşmasına əsaslanan və dövlət idarəçiliyinin səmərəliliyinin ciddi şəkildə yüksəldilməsi və cəmiyyətin hər bir üzvü üçün sosial kommunikasiyanın çətinliklərinin azalması məqsədinə xidmət edən dövlət idarəçiliyi sisteminin avtomatlaşdırılması təşkil edir. Elektron hökumətin yaradılmasına aid milli proqramlar sənədlərlə idarəetmənin və onların emalı prosesi ilə bağlı vəzifələrin tam spektrini reallaşdıran ictimai idarəetmənin ümumdövlət səviyyəsində bölünməsi sisteminin mərhələli qurulmasını nəzərdə tutur.

E-hökumət dövlət, ölkə, özəl sektor, dövlət işi və dövlət qurumlarında vaxt, əmək və maliyyə qənaəti səmərəliliyi və effektivliyini artıran bir təşkilati sistemdir. Bu tərifdən belə qənaətə gəlirik ki, bu sistem bu günkü texnologiyadan bizə əvəzsiz avantajdır. Qloballaşma ilə texnoloji vasitələrin inkişafı, cəmiyyətin bu texnologiyadan, iqtisadi sosial dəyişiklikdə ictimai xidmətlərə olan tələbatını artırdı. Bununla dövlət, tələbatı qarşılamaq üçün daha səmərəli və məhsuldar bir iş görmək məcburiyyətində qaldı. Dövlətin bütün hərəkətləri, vətəndaşlara bürokratik maneələrlə rastlaşmadan asanlıqla bunu etməyə imkan verəcəkdir.

Fikrimizcə, e-government texnologiyaları bazasında dövlət idarəçiliyinin yenilənməsinə yeni yanaşmalardan biri kimi, keyfiyyət menecmenti və onun əsasında proqramlaşdırılan dövlət modeli ola bilər.

Daxil olan informasiya və kommunikasiya texnologiyaları nəticəsində Qərb ölkələrinin elektron hökumət strukturuna keçidi inkişaf etməkdə olan ölkələrdən daha sürətli və asan olmuşdur. Burada elektron hökumətə keçid üçün zəruri resurslar, hazırlıqlı işçi qüvvəsi və düzgün strategiya olduqca vacibdir. E-hökumət dövlətin gündəlik idarəetməsini asanlaşdırmaq üçün ünsiyyət və informasiya texnikasıdır. Elektron hökumət, informasiya texnologiyalarının dövlət idarə strukturları ilə vətəndaşlar, müəssisələr və digər dövlət qurumları arasındakı əlaqədir.

Elektron hökumət infrastrukturunun hazırlanmasında prioritet addımlar aşağıdakılardır: 1) Hüquqi infrastruktur sahəsində online xidmətlərə keçid edərkən zəruri hüquqi qaydalar reallaşdırılmalıdır. Bu çərçivədə elektron imza və elektron sənədlərə hüquqi etibarlılıq təmin etmək üçün qanuni tənzimləmələr edilməsi tələb olunur. 2) Texnoloji infrastrukturda e-hökumət vəziyyətinə görə, dövlət və vətəndaşlar arasındakı əlaqələrdən zəruri hallarda, zəruri informasiya və sənədlərə şəbəkə mühitindən, ictimaiyyətdən istifadə edilən, şəbəkə üzərində xidmətlərin həyata keçirildiyi bir təşkilat növüdür. Bu geniş kommunikasiya şəbəkələrinin yaradılmasını tələb edir. Online xidmətlər üçün texnoloji infrastrukturun dizaynı tətbiq planı hazırlanmalıdır. Elektron hökumət üçün informasiya və kommunikasiya sistemlərinin infrastrukturu bu sistemləri təhsilli və lazımi ixtisaslarla inkişaf etdirmək və istifadə etməkdir. Burada təlimli işçi qüvvəsinin lazım olduğu qeyd

edilir. Cəmiyyətin nəzərdə tutulan sistemlərə uyğunlaşdırılması üçün zəruri təlimlərin köməyi ilə bu dəyişikliklər idarə edilməlidir. E-hökumət ciddi maliyyə vəsaitlərini investisiyaya çevirir, klassik büdcə hazırlama prosedurları istisna olmaqla, yeni modellər yaradılır.

Bürokratik prosedurların hökumət funksiyalarının yerinə yetirilməsinin, icrasının e-government texnologiyalarına belə köçürülməsi sayəsində bu cür təkmilləşdirilməsi, sözsüz publik xidmətlərin (informasiyaya çıxışın genişləndirilməsi, sənədlərin verilməsinin sürətləndirilməsi və s.) və onların yerinə yetirilməsinə çəkilən xərclərin azaldılması dövlət aparatının işini xeyli yaxşılaşdırdı.

Ölkədə elektron hökumətin yaradılması bu xidmətləri İnternetə verməli, vətəndaşların və biznesin qarşılıqlı münasibətlərini asanlaşdırmalıdır. Dövlət orqanlarının öz aralarında qarşılıqlı münasibətlərinin əsasını elektron imzadan fəal istifadə ilə elektron (kağızsız) sənəd dövriyyəsi təşkil etməlidir. Dövlət təşkilatlarının bütün kağız sənəd dövriyyəsi də bu texnologiyaya keçirilməlidir.

Elektron hökumət sayəsində insanların idarəetmədə qəbul edilən qərarlara təsir etmək imkanları artır, onların fikirləri daha çox eşidilir, onlarda baş verənlərin iştirakçısı olduqları haqda hisslər formalaşır, əhalinin informasiyalılıq səviyyəsi yüksəlir. Ən yeni informasiya-kommunikasiya texnologiyaları əsasında dövlət idarəçiliyi modelinin sistemli və ardıcıl, davamlı islahatı təmin etmə qabiliyyəti olan bu yanaşmanın qəbul edilməsi, təkcə e-government sistemi sahəsində lider ölkələr üçün deyil, həm də tam elektron hökumət quruculuğuna yenicə başlayan dövlətlər üçün, o cümlədən müasir Azərbaycan üçün aktualdır.

Dövlətin fəaliyyət proseslərinin e-government mexanizmlərindən istifadə etməklə sonrakı təkmilləşdirilməsi, inzibati islahatlara və publik idarəetmə praktikasına informasiya-kommunikasiya texnologiyalarının implantasiya edilməsi, aşılanması yeni nəzəri yanaşmalar tələb edir.

E-hökumətin xidmət infrastrukturunun yaradılması sahəsindəki fəaliyyətdə nəzərə almaq lazımdır ki, elektron hökumətin infrastrukturunu yaradan zaman effektiv və səmərəli xidmət üçün lazım olan elementlərin başlanğıcında xidmət infrastrukturunun yaradılması, qurumlar arasında məlumat ötürülməsini asanlaşdıran xidmət mexanizmlərinin yaradılması, vahid mərkəzdən təşkilatların əlaqələndirilməsi, mərkəzin yaradılmasında və fəaliyyətinin qiymətləndirilməsində vacibdir. E-hökumət quruculuğunda uğur gətirəcək səbəbləri qeyd etmək vacibdir. Burada istifadəçilərə ən səmərəli şəkildə xidmət göstərilir. Xidmət mexanizminin yaradılması ilə birlikdə xidmət mexanizmi, sistem komponentləri yaratmaq, xüsusi iş prinsiplərinin müəyyən edilməsini tələb edir. Məlumatları alma, saxlama, paylaşma prinsipi xidmət mexanizmi tərəfindən müəyyən edilir. Bütün qurumlar arasında səmərəli məlumat mübadiləsi sistemi qurulmalıdır.

Elektron hökumətə keçid prosesində qiymətləndirmə aparmaq üçün kritik uğur faktorlarının təyin edilməsi lazımdır. E-hökumət quruculuğunda hüquqi, texniki və inzibati sahələrdə yaşanan problemləri nəzərdən keçirək.

Hüquqi məsələlər sahəsində buraya aşağıdakılar daxildir: - elektron sənədlərin dövlət tərəfindən qəbul edilməsi və identifikasiyası,- virtual korporativ şəxsiyyətin müəyyən edilməsi, - şəxsi məlumatların məxfiliyinin təmin edilməsi,- elektron imzanı qəbul etmə, - İnternetdə törədilmiş cinayətlərin araşdırılması, - istehlakçının qorunması, - müqavilə hüququ və dövlət satınalmaları haqqında qanunvericilik. Bunlardan başqa təşkilatlar arasında informasiya mübadiləsində qaydalar və standartların aşkarlanması, sahibkarlığı dəstəkləmək, ümumi dövlət siyasətinin və strategiyasının olmaması, yeni sistemə görə ictimaiyyətin hazırlanması, resursların itməməsi də var.

Texniki problemlərə bölgələr, şəhərlər və məhəllələr arasında xidmətlərə çıxış üçün lazım olan infrastruktur xidmətdən bərabər faydalana bilməmək, investisiya xərclərinin yüksək olması, məxfilik və təhlükəsizliyin təmin edilməsi, informasiya paylaşımında müəyyən standartların yaradılması, kommunikasiya infrastrukturunun olmaması daxildir.

İdarəetmə problemləri içərisində adoptasiya, ixtisaslı kadrlara ehtiyac olması, informasiya mərkəzlərinin aktiv işi, koordinasiya işinin yoxluğu da var. Elektron hökumət quruculuğunu effektiv həyata keçirmək üçün ümumi siyasət və strategiya, həmçinin maliyyə resursları olmalıdır.

E-hökumətin tətbiq edilməsi nəticəsində qazanılan aşağıdakı faydaları qeyd etmək olar: artan məhsuldarlıq - miqdar və keyfiyyət baxımından əvvəllər mümkün olmayan vəzifələrin icrası; təkmilləşdirilmiş xidmətin çatdırılması, dövlət xidmətlərindən bərabər istifadə imkanı təmin etmək, xidmət səviyyəsinin, keyfiyyətinin və təminat standartlarının (gizlilik daxil olmaqla) seçilməsi, uğursuzluqlar nəticədə əlavə xərclər tələb edir .

Altqat infrastrukturunun qeyri-kafi olması quruculuğun səviyyəsinin ən əhəmiyyətli çatışmazlıqlarından biridir. Buna görə də vaxt və keçid prosesi dəqiq müəyyənləşdirilməlidir. Bu zaman İnternet və informasiya texnologiyaları xidməti müasir üsullar ilə həyata keçirilir. Bu işdə vətəndaş, müştəri razılığı birinci sırada olmalıdır. Bu çərçivədə vətəndaşın tələbləri qiymətləndirilməlidir. Elektron hökumət informasiya texnologiyaları istənilən hədəfə, dövlət rəhbərliyinə çatmaq üçün vasitə olaraq görülməməlidir. Bu inkişafın məqsədi tələblərə tez və keyfiyyətli cavab verməkdir. Bu gün dövlət qurumlarının elektron hökumət strukturuna təqdim etdiyi xidmətlərə uyğunlaşma işləri davam etdirilməlidir. Təhlükəsizlik, səhiyyə, təhsil, ödənişlər, sosial təminat, bələdiyyə xidmətləri əsasən e-hökumət tərəfindən yerinə yetirilir. Mövcud proqram və kommunikasiya infrastrukturunun inventarlaşdırılması, təşkilatlararası əməkdaşlığın qurulması barədə məlumatlar verilməsi, təcrübə mübadiləsi, paralel proqram və tətbiqlərin qarşısının alınması təmin edilməlidir.

Elektron hökumətin inkişafına mane olan əsas texniki səbəblərdən biri elektron kommunikasiya iştirakçılarının identifikasiya edilməsidir. İnternetin açıq olması, elektron sənədin məzmununu dəyişmək imkanı, məlumatların ilkin məzmununun təhrif edilməsi təhlükəsini yaradır.

Elektron hökumət quruculuğunda rast gəlinən uğursuzluqların səbəblərini öyrənmək və uğura kömək edən amilləri daha yaxşı başa düşmək üçün e-hökumətin həyata keçirilməsindəki çətinlikləri araşdıraq. Qeyd etmək lazımdır ki, elektron hökumətin praktikada həyata keçirilməsi heç də asan deyil. Əslində, bütün e-hökumət layihələrinin 60% -dən çoxu uğursuz olmuşdur. Bunun səbəblərindən biri hər hansı bir dəyişməyə qarşı ümumi müqavimətdir. Həmçinin əsaslı şəkildə qüsurlu olan bir dəyişiklik nəzəriyyəsinə əsaslanan transformasiyanın tətbiq edilməsi səyləri səbəbindən, e-hökuməti bir dəyişiklik prosesi kimi təqdim etmək cəhdləri, tez-tez təşkilati dəyişiklik prosesini təşviq etmək üçün fərdi işçilərin davranış nümunələrinin ilk növbədə dəyişdirilməsinə ehtiyac olduğu fikrinə əsaslanır. Fərdi davranış təşkilatdakı insanların mövqelərindən və rollarından asılıdır. Bu konsepsiya, işçilərin vaxtından əvvəl həll olunmayan yeni bir təşkilati kontekstə daxil edilməsi yolu ilə davranışın dəyişməsini daha məqsədəuyğun hala gətirmək üçün istifadə edilə bilər. Amma ümumi təşkilati dəyişikliklər e-hökumət ilə yanaşı baş verir.

İnternet vasitəsilə təmin edilən informasiya xidmətlərinin məxfiliyi və təhlükəsizliyini iki səviyyədə nəzərdən keçirək. Birincisi, rəhbərlik vətəndaşlara və təşkilatlara xidmət göstərən qurumların istifadəsi zamanı, zərərli üçüncü tərəflər tərəfindən məlumatların əldə edilməsinin qarşısı alınmalıdır. Gizlilik və təhlükəsizliyin digər bir aspekti ictimai məlumatın milli təhlükəsizliyə təhlükə yarada biləcəyi ehtimalının olmasıdır.

İstifadəçilər məxfiliyin olmasına əmin olmalıdırlar. Təhlükəsizlik məsələsi üçün ümumi tətbiq sahəsi elektron imza və rəqəmsal imza vasitəsilə həyata keçirilir. E-imza, istifadəçinin real şəxsiyyətidir, rəqəmsal imza da virtual bir möhürdür. Bu işlər təhlükəsizlik üçün əhəmiyyətli vasitələr olaraq istifadə edilir.

Səmərəli elektron hökumətin qurulması bütün inzibati funksiyaların, bürokratik aparatın maksimal məhsuldarlığına yönəlmiş, səmərəli işləyən bir sistemdə dəqiq birləşməsi və tənzimlənməsini tələb edir. Aydındır ki, belə bir nəticəyə elektron hökumətin ancaq mövcud bürokratik təşkilatların və prosedurların informasiyalaşmaya və avtomatlaşmaya əsaslanaraq qurulması səbəb ola bilər.

Yuxarıda dediklərimizdən belə bir nəticəyə gələ bilərik ki, e-hökumətin əsas məqsədi vətəndaşlara daha yaxşı və səmərəli xidmət göstərmək, hökumətin etibarını artırmaq və bu sahədə demokratik prosesi gücləndirməkdir.

Beləliklə, müasir dövrdə elektron hökumət, İnformasiya Kommunikasiya Texnologiyalarının tətbiq edilməsi sayəsində dövlətin, biznesin və vətəndaşın qarşılıqı fəaliyyətinin yeni modelinin formalaşmasına kömək edən, dövlət idarəçiliyinin keyfiyyətinin daxili və müəssisələr arası qarşılıqlı fəaliyyətin optimallaşdırılması vasitəsi ilə yüksəltməyə yönəlmişdir. E-hökumət dövlət xidmətinin yüksək keyfiyyətlə təqdim edilməsini təmin edən, dövlət idarəçiliyində ictimai iştirakın və cəmiyyətin bütövlükdə demokratikləşməsinin səviyyəsinin yüksəldilməsini təmin edən publik hakimiyyətin təşkilinin keyfiyyətcə yeni səviyyəsini təmsil edən qurumdur.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT**


1. Heeks R., Bailur S. Analysing e-government research: Perspectives, philosophies, theories, methods and practice // Governmentinfomation quarterly. – Amsterdam, 2007. – Vol. 24, №2
2. Heeks R., Bailur S. Analysing e-government research: Perspectives, philosophies, theories, methods and practice // Governmentinfomation quarterly. Səh-5
3. Heeks R., Bailur S. Analysing e-government research: Perspectives, philosophies, theories, methods and practice // Governmentinfomation quarterly. Səh-6
4. Heeks R., Bailur S. Analysing e-government research: Perspectives, philosophies, theories, methods and practice // Governmentinfomation quarterly. Səh-7
5. Heeks R., Bailur S. Analysing e-government research: Perspectives, philosophies, theories, methods and practice // Governmentinfomation quarterly. Səh-8
6. Heeks R., Bailur S. Analysing e-government research: Perspectives, philosophies, theories, methods and practice // Governmentinfomation quarterly. Səh-9
7. Heeks R., Bailur S. Analysing e-government research: Perspectives, philosophies, theories, methods and practice // Governmentinfomation quarterly. Səh-10
8. Сидорова А.А. Электронное правительство. М.,Издательство Юрайт. 2017. 165 с.
9. Сурин А.В. Стратегии развития электронного правительства// Вестник Московского Университета. Серия 21. Управление (государство и общество). – М., 2006. – №2.
10. Павроз А.В. «Электронное правителство» и современные административные реформы / А.В. Павроз // Политич. Наука. – 2008.
11. Сморгунов Л.В. От электронного государства к электронному правлению: смена парадигм // Политическая наука: сб. науч. тр./ РАН. ИНИОН. – М., 2007. – №4.
12. Малитиков Е.М. Электронное правительство – цивилизационная неизбежность // Федеральная газета. 2009. №1. с.4-5.
13. Lawson G. NetState: Creating electronic government. – L.: Demos, 1998
14. Riley Th. E-government vs, e-govermance: Examining the differences in a changing public sector climate // İnternational tracking survey report. – L., Ottawa, 2003. – №4.
15. Стырин Е.М. Электронное правительство: стратегии формирования и развития: дис. канд. социол. наук. М., 2006.

**Конул Шакиева**
*Институт философии и социологии НАНА, младший научный сотрудник*

**АНАЛИЗ ИССЛЕДОВАНИЙ ЭЛЕКТРОННОГО ПРАВИТЕЛЬСТВА: ФИЛОСОФИЯ, ТЕОРИЯ И ПРАКТИКА**

***Резюме***

В статье анализируется нормативно-правовое обеспечение применения электронного правительства в организации цифрового взаимодействия органов государственной власти, граждан, организаций и других субъектов электронной экономики, а также показывается широкий спектр возможностей, создаваемых информационными технологиями и Интернетом.

**Цель** – в статье рассматриваются перспективы, философия, теория и практика электронного правительства, анализируется роль информационных технологий и электронного правительства в расширении участия общественности в государственном управлении и демократизации общества в целом.

**Методология** – в исследовании использован метод системно-теоретического подхода.

**Результат** – благодаря внедрению электронного правительства и информационных технологий сформирована новая модель взаимодействия государства, бизнеса и граждан, улучшено качество государственного управления за счет оптимизации взаимодействия между предприятиями.

***Ключевые слова****: информационные технологии, интернет, виртуальное, электронное правительство, цифровое правительство, электронная подпись*

**Konul Shakieva**
*Institute of Philosophy and Sosiology of ANAS, Junior Researcher*

**ANALYSIS OF E-GOVERNMENT RESEARCH: PHILOSOPHY, THEORY AND PRACTICE**

***Summary***

The article analyzes the legal framework for the use of electronic government in organizing digital interaction between government bodies, citizens, organizations and other entities of the electronic economy, and also shows a wide range of opportunities created by information technology and the Internet.

**Purpose** – the article discusses the prospects, philosophy, theory and practice of e-government, analyzes the role of information technology and e-government in expanding public participation in public administration and democratizing society as a whole.

**Methodology** – the method of the system-theoretical approach used in the study.

**Findings** – thanks to the introduction of electronic government and information technology, a new model of interaction between the state, business and citizens has been formed, the quality of public administration has been improved by optimizing the interaction between enterprises.

***Keywords:*** *information technology, the Internet, virtual, e-government, digital government, electronic signature*

**Qəbul edilib: 15.02.2021**

# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**UOT 33.338**

**Vilayət İsmayılov**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
ismaylov1953@mail.ru

## AZƏRBAYCANDA NEFT-QAZ SƏNAYESİNİN SPESİFİK PROBLEMLƏRİ VƏ NEFT-QAZIN QİYMƏTİNİ FORMALAŞDIRAN ƏSAS KOMPONENTLƏR

*Məqalədə neft-qaz sənayesinin problemləri açıqlanmış, Azərbaycanın neft sənayesi müəssisələrinin inkişaf tarixi qısa təhlil edilmişdir.*

*Eyni zamanda, keçmiş sovetlər ittifaqı ölkələri də daxil olmaqla dünya ölkələrinin neft-qaz sənayesinin iqtisadi statistikası hərtərəfli təhlil edilmiş, neft-qazın qiymətini formalaşdıran əsas komponentlər müəyyənləşdirilmişdir.*

***Məqsəd*** **–** Azərbaycanda neft-qaz sənayesinin spesifik problemlərinin və neft-qazın qiymətini formalaşdıran komponentlərin müəyyənləşdirilməsi.

***Metodologiya*** **–** tədqiqat işi kəmiyyət və müqayisəli təhlil metodlarına əsaslanmış və hesablamalarda iqtisadi-statistik təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri və praktiki əhəmiyyəti*** **–** neft-qaz sənayesinin iqtisadi statistik göstəriciləri təhlil edilmiş və satışdan əldə edilən gəlirlərdən səmərəli istifadə istiqamətində təkliflər verilmişdir.

***Elmi yenilik*** **–** neft-qazın qiymətini formalaşdıran real komponentlər müəyyən edilmişdir.

***Açar sözlər:*** *neft-qaz sənayesi, göstəricilər, hasilatın həcmi, problemlər, komponentlər*

### Giriş

Neft-qaz sənayesi Azərbaycan iqtisadiyyatının əsas tərkib hissələrindən biridir və ölkədə rifahın səviyyəsinin yüksəldilməsini təmin edir. Neft-qaz sənayesi ölkəmizin iqtisadi inkişafında, onun energetik cəhətdən müstəqilliyində mühüm və həlledici rol oynayır [5,13].

Ölkənin neft-qaz sənayesinin problemləri mövcuddur ki, bunları da həmin sahənin xüsusiyyətləri adlandırmaq olar. Bu tip problemlərə aiddir:

- Azərbaycanın neft resurslarından neft hasilatının ümumi həcminin azaldılması;
- neft hasilatının monopolist kompaniyalardan yüksək asılılıq dərəcəsi;
- xərclənmiş investisiyaların qaytarılması və mənfəət əldə etmək üçün real risklər;
- əmək haqqının əsaslandırılmamış diferensiasiyası, mükafatlandırma sisteminin

qeyri-şəffaflığı;

- əmək haqqının artım tempinin aşağı səviyyədə olması;
- bədbəxt hadisələrin baş vermə ehtimalının qarşısının alınmasının tələb edilən səviyyədə təmin edilə bilməməsi və s.

Nef-tqaz kompleksi Azərbaycanın yanacaq-energetika bazasının əsas hissədir, bu kompleksin tərkibində neft emalı zavodlarında neftin emalı əməliyyatı, onunla əlaqəli məhsulların, yəni neft emalı məhsullarının istehsalı prosesi həyata keçirilir. Lakin qeyd etmək lazımdır ki, neft məhsullarının bir çoxunun istehsal prosesi bu gün də tələbata cavab vermir və onların yeni texnoloji avadanlıqlarla təmin edilmə prosesi mühüm şərtlərdəndir və bu da tədqiqat işinin aktuallağını ifadə edir.

**Möcvud ədəbiyyatlara istinad və problemin tədqiq edilmə səviyyəsi**

Qeyd edək ki, netin nəql etdirilməsində də bir sıra problemlər vardır. Belə ki, neftdən fərqli olaraq qazdan istifadə etməzdən əvvəl ciddi hazırlıq tələb edilmir, lakin o istehlakçıya dərhal çatdırılmalıdır. Azərbaycanın neft sənayesi müəssisələrinin inkişaf tarixinin təhlili göstərir ki, XX əsrin əvvəllərində Bakıda 167 neft müəssisəsi fəaliyyət göstərmiş, bundan da 55-i erməni, 49-u azərbaycan, 21-i rus, 19-u yəhudi, 6-ı gürcü və 19-u xarici kompaniya sahibkarlarına məxsus olmuşdur. İri və orta müəssisələrin sahibkarları içərisində erməni və rus sahibkarları üstünlük təşkil etmişdir [7]. Azərbaycan sahibkarlarına isə əsasən kiçik və orta tipli müəssisələr məxsus olmuşdur. Həmin dövrdə (1923-cü il) Bakı əhalisinin tərkibində 31,3% azərbaycanlı, 28,3% rus,15,2% erməni, 14,7% fars və 5,7% cuhud yaşamışdır. Eyni zamanda 1926-cı ildə “Azneft”-in işçilərinin tərkibi aşagıdakı nisbətdə olmuşdur: ruslar-45,7%, farslar-17,7%, ermənilər-14,6%, azərbaycanlılar-9,7%, kazan tatarları-4,3%, ləzgilər-2,8%, yəhudilər-1,9%, gürcülər-0,3%, digərləri-3,0% [19-20]. İşçilərin struktur tərkibindən və sahibkarların millətlər üzrə müqayisəsindən göründüyü kimi, həmin dövrdə ümumi əhalinin tərkibində erməni millətli işçilərin sayının üçüncü sırada olmasına baxmayaraq neft sənayesi müəssisələrinin sahibkarları göstəricisində onların sayı birinci sırada yer almışdır [22]. Həmin dövrdə keçmiş SSRİ-nin tərkibində olan respublikamızda kadrların “yerliləşmə”si siyasəti həyata keçirilməyə başlasa da, onların təhsil səviyyəsinin aşağı olması (təhsilli azərbaycanlılar ümumi təhsilli əhali içərisində 1,0% təşkil etmiş, ondan da 14 nəfərin ali təhsili olmuşdur) səbəbi azərbaycanlıların rəhbər vəzifələrə çəkilməsinə maneçilk göstərirdi. Sonrakı 10 il müddətində neft sənayesi işçilərinin 19,3%-i azərbaycanlılar olmuşdur ki, bu da başlanğıc dövrə nisbətən 2,0 dəfə artımın olduğunu göstərir [8].

Müstəqillik ilinin əvvəlində (20 sentyabr 1994-cü il) Bakıda üç neft yataqlarının (“Azəri”, “Çıraq” və “Günəşli”) birgə işlənilməsi haqqında 8 ölkənin 13 iri neft kompaniyası arasında irimiqyaslı beynəlxalq müqavilə imzalandı. “Əsrin müqaviləsi” imzalandıqdan sonra “AMO”-un Rəhbərlik komitəsi və texniki, maliyyə və təşkilati işlərin həyata keçirilməsi üçün Məsləhət şurası yaradıldı. Həmin dövrdə bu yataqlardan gözlənilən neft ehtiyatlarının ilkin hesablamalara əsasən 511 milyon ton müəyyənləşdirilməsinə baxmayaraq, qazmaların qiymətləndirilməsində 731 milyon ton neftin olduğu aşkar edildi və yataqların işlənilməsinə 11,5 milyard ABŞ dolları həcmində investisiya qoyuluşu qəbul edildi [9]. Hal-hazırda Azərbaycanda bütün kateqoriyalar üzrə karbohidrogen ehtiyatları 4 milyard ton təşkil edir.

Son dövrlərdə ölkəmizdə həyata keçirilən önəmli layihələrdən biri uzunluğu 1774 km. olan XXI əsrin ən böyük enerji layihəsi Bakı-Tbilisi-Ceyhan boru kəmərinin (Sanqaçal terminalından Türkiyənin Ceyhan dəniz limanına qədər uzanan) tikintisinə 4 milyard dollar

sərf edilməsi və bu kəmər vasitəsilə neftin Türkiyəyə, oradan da Avropa bazarına çıxarılması imkanlarının yaradılması xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biridir [10]. Bu neft kəmərinin tikilməsi və istismara verilməsi üzrə layihənin operatoru BP kompaniyasıdır, onun aksiyaları: BP-30,1%, SOCAR-25%, Shevron-8,9%, Statoil-8,71%, TPAO-6,53%, ENİ-5%, Total-5%, Itochu-3,4%, İNPEX-2,5%, Conocol Phillips-2,5% və Amerada Hess-2,36% şirkətlərinə məxsusdur və neft boru kəməri Azərbaycan, Gürcüstan, Türkiyə, Avropa və bütün dünya üçün iqtisadi, sosial, həmçinin enerji təhlükəsizliyinin təminatı baxımından çox əhəmiyyətlidir [14-15].

Ölkəmizdə "Yeni neft strategiyası" nın həyata keçirilməsi, neft sənayesinə iri həcmli investisiya axını, neft əməliyyatlarında müasir texnologiya və avadanlıqların tətbiqi qazkondensat yatağı "Şahdəniz"–in tapılması ilə nəticələndi, bu yatağın və Bakı-Tbilisi-Ərzurum qaz xəttinin aksiyaçıları QNKAR (10%), Statoil (25,5%), BP (25,5%), TotalFinaElf (10%), LukAcip (10%), Olik (10%) və TPAO (9%)-dır. "Şahdəniz" neft yatağı layihəsinin 2-ci mərhələsində Türkiyə və Avropaya TANAP və TAP truba boruları vasitəsi ilə ixrac nəzərdə tutulur. 14 sentyabr 2017-ci ildə Azərbaycan və beynəlxalq konsorsiumu "Əsrin yeni müqaviləsi" üzrə üç neft yatağının - "Azəri", "Çıraq" və "Günəşli" işlənilməsinin uzadılmasını imzaladılar və burada ARDNŞ-nin (SOCAR) payı 11%-dən 25%-ə yüksəlmişdir. Bu zaman ARDNŞ-nin 3,6 milyard dollar bonus alacağı planlaşdırılır. Bu layihəyə yaxın 32 ildə yatırılacaq investisiyanın həcmi 40 milyard dollardan çox olacaqdır [2-3]. ARDNŞ-nin məqsədləri aşağıdakılardan ibarətdir:

- neft-qaz müqavilələrinin həyata keçirilməsindən əldə edilmiş vəsaitin toplanması;
- neft gəlirlərinin səmərəli idarə edilməsi;
- əldə ediləcək vəsaitlərin gələcək nəslə saxlanılması;
- gələcək nəsil üçün iqtisadi bazanın yaradılması, neftdən əldə edilən gəlirlərin saxlanılması və artırılması;
- sosial tələbatı, iqtisadi tərəqqi tələblərini və ölkənin inkişafını nəzərə almaqla indiki nəsil üçün vəsaitlərin istifadəsi və s.

ARDNŞ-nin qarşısında aşağıdakı məsələlər qoyulur: xarici valyuta daxilolmalarının artımından yaranan mənfi təsirlərdən ölkə iqtisadiyyatının qorunması (manatın qiymətinin kəskin bahalaşması və yerli istehsalın rəqabət qabiliyyətinin azalması), makroiqtisadi tarazlığın saxlanılması və maliyyə intizamındakı ziyanın qarşısının alınması. ARDNŞ-nin İstanbul, Tehran, Astana, Buxarest, Frankfurt, Ceneva, London, Vena, Tbilisi və Kiyev şəhərlərində nümayəndəliyi vardır. 2006-cı ildə ARDNŞ-nin Gürcüstanda "SOCAR Energy Georgia" MMC tərəfdaşlıq şirkəti yaradılmış, onun fəaliyyəti Gürcüstanda neft satışına, neft məhsullarının, mayeləşdirilmiş qazın ixracına və s. hədəflənmişdir. Həmçinin kompaniya neft terminallarının və saxlama qurğularının tikilməsi ilə də məşğuldur və Gürcüstanda satılan neftin 72%-nə nəzarət edir. Bundan əlavə İsveçrədə "SOCAR Trading SA" (2008-ci ildə yaradılmış və Avropaya neft satışını həyata keçirir), Ukraynada "SOCAR Energy Ukraine" (2008-ci il), Rumınyada "SOCAR Petroleum SA Romaniya" (2011-ci il) yaradılmış və 2017-ci ildən AR DNK SOCAR İsveçrədə A1 və Pronto Oil avstriya kompaniyalarının YDS şəbəkəsini əldə etmişdir.

**Neftin ölçü vahidi haqqında qısa məlumat**

Dünya bazarında neftin ölçü vahidi olaraq barrel qəbul edilmişdir və neft istehsalı haqqında qısa məlumat onun bu ölçü vahidinin daha geniş aydınlaşdırılmasına imkan verir.

Dünya bazarında bir qayda olaraq neftin ölçü vahidi barrel ilə götürülməsi səbəbsiz deyil və əsaslı izahı vardır. Barrel Azərbaycan dilində çəllək mənasını verir və 159 litrə (daha dəqiq 158,988 litr) bərabərdir. XIX əsrin ortalarında (1866-cı ildə) neft sənayeçiləri

Pensilvaniyanın Tirusvil şəhərciyində görüşərək neftin istehlakçılara çatdırılması üçün standart ölçülü qabların yaradılmasını müzakirə edir və neftin 1 barrelinin ölçüsünün 42 qallon olması qərara alınır. 1872-ci ildə Amerikanın Neft Sənayeçiləri Assosiasiyası rəsmi şəkildə 42 qallonluq çəlləyi–barreli neftin ölçü standartı kimi təsdiqləyir [6].

Azərbaycanın neft hasilatının təhlili göstərir ki, 2017-ci ildə 386,884 milyon barrel, 2016-cı ildə isə 259,07 milyon barrel olmuşdur (1 barrel=42 qallon=159 litr=0,1364 ton).

**Keçmiş sovetlər ittifaqı ölkələrinin neft-qaz hasilatı göstəricilərinin təhlili**

Azərbaycan Rusiya və Qazaxıstandan sonra keçmiş sovetlər ittifaqı ölkələri içərisində neft hasilatına görə üçüncü yeri almışdır. Belə ki, ölkəmizdə heft hasilatı Rusiyadan – 14,6 dəfə, Qazaxıstandan – 1,69 dəfə azdır və həmin ölkələrin birgə neft hasilatının 5,8%-ni təşkil edir. Bu göstəricidə Rusiyanın payı – 84,0%, Qazaxıstanın payı - 9,7% təşkil etdiyi halda, digər neft hasilatlı ölkələrin (Belorus, Ukrayna, Litva, Tacikistan) birgə payı – 0,5%-dir (cədvəl 1).

***Cədvəl 1***

**Keçmiş sovetlər ittifaqı ölkələrinin iqtisadi statistikası üzrə göstəricilər**

| S/N | Ölkələr | 2016-cı ildə neft hasilatı, mlyn. barel | 2016-cı ildə təbii qaz hasilatı, mlyd.$m^3$ | Adam-başına ÜDM-in istehsalı, min ABŞ dolları | Orta əmək haqqı, ABŞ dolları | Benziinin orta qiyməti, ABŞ dolları | Dizel yanaca-ğının orta qiyməti, ABŞ dolları |
|---|---|---|---|---|---|---|---|
| 1 | Azərbaycan | 259,07 | 17,083 | 18,03 | 238,25 | 0,74 | 0,35 |
| 2 | Ermənistan | 0 | 0 | 8,492 | 279,85 | 1,33 | qiymət yoxdur |
| 3 | Belorus | 12,102 | 0,215 | 17,775 | 382,57 | 0,64 | 0,65 |
| 4 | Gürcüstan | 0 | 0 | 9,591 | 285,8 | 0,89 | 0,87 |
| 5 | Qazaxıstan | 438,655 | 20,808 | 25,912 | 385,82 | 0,54 | 0,47 |
| 6 | Qırğızıstan | 0 | 0 | 3,395 | 218,42 | 0,63 | 0,56 |
| 7 | Latviya | 0 | 0 | 24,652 | 724,15 | 1,37 | 1,27 |
| 8 | Litva | 0,46 | 0 | 28,413 | 799,18 | 1,34 | 1,23 |
| 9 | Moldava | 0 | 0 | 5,047 | 257,12 | 1,01 | 0,9 |
| 10 | Rusiya | 3794,711 | 642,242 | 25,965 | 626,2 | 0,71 | 0,68 |
| 11 | Tacikistan | 0,133 | 0 | 2,835 | 212,95 | 1,26 | qiymət yoxdur |
| 12 | Türkmənistan | 0 | 74,16 | 16,478 | 0 | 0,29 | 0,26 |
| 13 | Özbəkistan | 0 | 59,287 | 6,081 | 0 | 0,52 | 0,49 |
| 14 | Ukrayna | 10,93 | 17,606 | 7,987 | 221,64 | 1,01 | 0,93 |
| 15 | Estoniya | 0 | 0 | 28,65 | 1117,67 | 1,43 | 1,48 |

*Qeyd: cədvəl [11]-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Müqayisə edilən ölkələrdə adambaşına istehsal olunan ÜDM-in həcminə görə Estoniya, Litva, Rusiya, Qazaxıstan və Latviyadan sonra ölkəmiz 6-cı sırada yer almışdır. Adambaşına istehsal olunan ÜDM-in həcminə görə Azərbaycan ilk sırada yerləşən Estoniya və Litvadan 1,58 dəfə, Rusiyadan-1,44 dəfə, Qazaxıstandan-1,43 dəfə və Latviyadan-1,36 dəfə geri qalır. Bu göstəriciyə görə ilk beşinci sırada Estoniya (28,65 min ABŞ dolları), Litva (28,413 min ABŞ dolları), Rusiya (25,965 min ABŞ dolları), Qazaxıstan (25,912 min ABŞ dolları), Latviya (24,652 min ABŞ dolları) və sonuncu sıralarda isə Moldova (5,047 min ABŞ dolları), Qırğızıstan (3,395 min ABŞ dolları), Tacikistan (2,835 min ABŞ dolları) yerləşmişdir.

Orta əmək haqqına görə həmin ölkələr içərisində Azərbaycan Estoniya, Litva, Latviya, Rusiya, Qazaxıstan, Belorus, Gürcüstan və Moldavadan sonra 10-cu sırada yer alır. Bu göstəricinin müqayisəsinə görə ilk sırada Estoniya (1117,67 ABŞ dolları), son sırada isə Tacikistan (212,95 ABŞ dolları) yerləşmişdir. Müqayisə edilən ölkələr üzrə ilk və son sıralarda yerləşmiş ölkələrin orta əmək haqqı arasında fərq 904,72 ABŞ dolları həcmində və ya 5,25 dəfə çox olmuşdur.

Benzinin orta qiymətinə görə müqayisədə ilk sırada yerləşən Türkmənistanla (0,29 ABŞ dolları) 7-ci sırada yerləşən Azərbaycan (0,74 ABŞ dolları) arasında fərq 0,45 ABŞ dolları və ya 0,765 manat təşkil edir. Həmin ölkələr içərisində benzinin ən yüksək orta qiyməti Estoniyada-1,43 ABŞ dolları təşkil edir.

Müvafiq məlumatlarının təhlili göstərir ki, bütün müqayisə edilən ölkələr sırasında işsizlik səviyyəsi Ermənistanda (16,4%), Ukraynada (10,8%), Latviyada (10,3%) və Tacikistanda (9,95%) təşkil etmişdir. Həmin ölkələr sırasında ən yüksək işsizlik səviyyəsinə malik olan Ermənistanla (16,4%) ən aşağı işsizlik səviyyəsinə malik olan Belorus (0,5%) arasında fərq 15,9%-dir. Bu da onu göstərir ki, Belorusda işsizlik səviyyəsi Ermənistana nisbətən 33 dəfə azdır. Azərbaycanla müqayisədə Ermənistanda işsizlik səviyyəsi 3,73 dəfə çoxdur. Orta göstəriciyə malik olan Litva ilə müqayisədə isə işsizlik səviyyəsi Ermənistanda 2 dəfə çoxdur (şəkil 1).




**Şəkil 1. Keçmiş SSRİ-nin tərkibində olmuş ölkələrin bəzi iqtisadi göstəriciləri**

Qeyd: [2-3], [11]-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Təhlil edilən məlumatlara əsasən neft hasilatı üzrə ilk 10 ölkə sırasında 1-5 sırada SƏ (3828,48 milyon barel), Rusiya (3794,711 milyon barel), ABŞ (3249,816 milyon barel), İrak (1701,123 milyon barel), Çin (1460,918 milyon barel) yer almışdır. Həmin ölkələrin dünya üzrə ümumi neft hasilatındakı xüsisi çəkisi müvafiq olaraq SƏ-da 14,5%; Rusiyada-14,4%; ABŞ-da-12,3%; İrakda-6,5% və Çində-5,5% təşkil etmişdir. Ümumilikdə 1-5-ci sırada yerləşmiş ölkələr dünya heft hasilatının ümumi miqdarının 53,3%-ni təşkil edir. Beləliklə, yuxarıda qeyd edilən məlumatlar göstərir ki, düynada heft hasilatının yarıdan çox hissəsi bu beş ölkənin payına düşür (şəkil 2).




**Şəkil 2. Bəzi ölkələrdə neft hasilatının həcmi və ölkələrin ümumi neft hasilatında payı**
Qeyd: [3], [11]-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bundan əlavə, sıralanmada 1-10-cu yerləri almış ölkələrin cəmi heft hasilatının xüsusi çəkisi dünya neft hasilatının 75,5%-ni əhatə edir. Stattur –un dünya ölkələri üzrə iqtisadi məlumatları əsasında apardığımız tədqiqatın nəticəsi göstərir ki, 1-15-ci sırada yerləşmiş ölkələrin cəmi neft hasilatı 22696,538 milyon barel olmuş və bunların dünya neft hasilatındakı birgə xüsusi çəkisi 86,2% təşkil edir. Ümumilikdə dünya ölkələrinin neft hasilatında 6-10-cu sırada yerləşmiş ölkələrin (Kanada, İran, Küveyt, BƏƏ, Venesuela) xüsusi çəkisi 22,2% və ya 4980,879 milyon barel olmuşdur. Eyni zamanda, 11-15-ci sırada yerləşmiş ölkələrin (Braziliya, Meksika, Nigeriya, Anqola, Qazaxıstan) xüsusi çəkisi isə 12,7% və ya 3355,68 milyon barelə bərabərdir.

Keçmiş sovetlər ittifaqı ölkələrinin cəmi neft hasilatı 4516,061 milyon barel və ya ümumilikdə dünya ölkələrinin neft hasilatında onların xüsusi çəkisi 17,15%-ni təşkil edir. Bu ölkələrin ayrı-ayrılıqda cəmi dünya ölkələrinin neft hasilatında xüsusi çəkisi Rusiyada-14,4%; Qazaxıstanda-1,7%; Azərbaycanda-1,0%, digər dörd ölkədə (Belorus (12,102 milyon barel), Ukrayna (10,93 milyon barel), Litva (0,46 milyon barel), Tacikistanda (0,133 milyon barel)) - 0,05% təşkil edir. Beləliklə, əldə edilmiş nəticələri ümumiləşdirərək qeyd etmək olar ki, keçmiş sovetlər ittifaqı ölkələrinin birlikdə neft hasilatı təkcə SƏ-da neft hasilatından 687,581 milyon barel və ya 2,6% çoxdur.

Eyni zamanda qeyd etmək lazımdır ki, 195 ölkənin neft hasilatının həcmində ilk sıralarda yerləşən 21 ölkənin ümumi heft hasilatı 24858,066 milyon barel təşkil etmişdir və bu da ümumi hasilatdan 1472,025 milyon barel azdır. Qeyd edilən 21 ölkənin neft hasilatında ümumi hasilata görə payı 94,4% təşkil edir. Digər 174 ölkə içərisində 129 ölkədə neft hasilatı olmadığından (neft hasilatı haqqında məlumatları olmayan ölkələr də

daxil olmaqla) onların payı 0% təşkil edir və 45 ölkənin bu göstəricidə birgə payı isə 5,6%-dir [11] .

Beləliklə, dünya ölkələrinin neft-qaz sənayesinin bəzi iqtisadi məlumatlarının təhlilindən belə bir nəticəyə gəlmək olat ki, dünyada iri neft hasilatı ilə məşğul olan ölkələrin (Rusiya daxil edilmədən) ümumi neft hasilatının həcmi keçmiş SSRİ-nin tərkibində olmuş 7 ölkənin (neft hasilatı olmayan ölkələr daxil edilmədən) birgə neft hasilatının həcmindən 5724,276 milyon barel və ya 2,27 dəfə çoxdur.

Dünya ölkələrinin statistikasına əsasən keçmiş SSRİ ölkələrinin iqtisadi göstəricilərinin müqayisəsi göstərir ki, neft hasilatına görə Azərbaycan Rusiya və Qazaxıstandan sonra 15 ölkə içərisində üçüncü yerdə, qaz hasilatına görə isə Rusiya, Türkmənistan, Özbəkistan və Qazaxıstandan sonra beşinci yerdə sıra almışdır [11].

Qaz hasilatı üzrə göstəricilərin təhlilindən görünür ki, müqayisə edilən ölkələr sırasında 1-5 sırada ABŞ (749,727 milyon $m^3$), Rusiya (642,242 milyon $m^3$), Qətər (174,057 milyon $m^3$), Kanada (173,606 milyon $m^3$) və Çin (136,628 milyon $m^3$) yerləşmişdir. Bu ölkələrin birgə qaz hasilatının həcmi 1876,26 milyon $m^3$-dir ki, bu da dünyada birgə qaz hasilatının 56,1%-ni təşkil edir.

Müqayisə edilən ölkələr sırasında 6-10 sırada İran (122,408 milyon $m^3$), Norveç (120,193 milyon $m^3$), SƏ (102,38 milyon $m^3$), Əlcəzair (94,782 milyon $m^3$) və Türkmənistan (74,16 milyon $m^3$) yerləşmişdir. Bu ölkələrin birgə qaz hasilatı (513,923 milyon $m^3$) tədqiqarda qeyd edilmişdir ki, bu göstərici də dünya ölkələrinin birgə qaz hasilatının 15,4%-ni təşkil edir. Qaz hasilatı üzrə 1-10 sırada yerləşmiş ölkələrin birgə qaz hasilatının həcmi 2390,183 milyon $m^3$ olmuşdur ki, bu da cəmi ölkələrin qaz hasilatında 71,5% xüsusi çəkiyə malikdir.

Müqayisə edilən ölkələr sırasında 11-15 sırada Malayziya (64,428 milyon $m^3$), Özbəkistan (59,287 milyon $m^3$), Avstraliya (56,287 milyon $m^3$), BƏƏ (54,245 milyon $m^3$), və Niderland (50,543 milyon $m^3$) yerləşmişdir. Bu ölkələrin birgə qaz hasilatı 284,923 milyon $m^3$-dir ki, bu da dünya ölkələrinin birgə qaz hasilatının 8,5%-ni təşkil edir. Qaz hasilatı üzrə 1-15 sırada yerləşmiş ölkələrin birgə qaz hasilatının həcmi 2675,106 milyon $m^3$ olmuşdur ki, bu da cəmi ölkələrin qaz hasilatında 80,0% xüsusi çəkiyə malikdir (şəkil 3).




**Şəkil 3. Bəzi ölkələrdə qaz hasilatının həcmi və ölkələrin ümumi qaz hasilatında payı**

Qeyd: [3], [11]-in məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Müqayisə edilən ölkələrdə qaz hasilatı $Y=369,71e^{-0,135x}$ tənliyinə müvafiq eksponensial paylanma qanununa uyğun gəlir və modelin reqressiya əmsalı $R^2=0,8163$-ə bərabərdir ki, bu da qurulan modelin adekvatlığını ifadə edir.

Tədqiqatı aparılan 195 ölkə içərisində 16-30 sırada yerləşmiş ölkələrin birgə qaz hasilatı (486,593 milyon $m^3$) bütün ölkələrin birgə qaz hasilatının xüsusi çəkisinin 14,5%-ni təşkil edir. 30-cu sıradan sonrakı digər qaz hasilatı olan ölkələr isə cəmi ölkələrin qaz hasilatının 5,5% xüsusi çəkisini təşkil edir.

Azərbaycanda 2017-ci ildə dənizdə və quruda neft hasilatı 283,724 milyon barrelə çatmış və 2005-ci illə müqayisədə 1,89 dəfə artım təşkil etmişdir. İllər üzrə neft hasilatı ən çox 2010-cu ildə olmuş və bu göstərici 372,434 milyon barrelə çatmışdır ki, bu da 2017-ci illə müqayisədə 88,71 milyon barrel çox hasilat deməkdir. Həmçinin, 2014-2015-ci illərdə neft hasilatının ümumi həcmində də 2010-cu ilə nisbətən azalma müşahidə edilmiş, bu azalma müvafiq olaraq 63,783 və 67,449 milyon barrel olmuşdur. 2010-cu illə müqayisədə isə 2016-cı ildə 146,279 milyon barrel az neft hasilat edilmişdir [1, səh.459].

Eyni zamanda yadda saxlamaq lazımdır ki, neft və qazın qiyməti həmişə sabit qalmır. Neft-qazın qiymətinin formalaşmasına bir sıra əsas komponentlər təsir göstərir:

- neft-qaz mədənləri, hasilat prosesi və nəqliyyatı üzrə investisiyalar – neft-qazın maya dəyərinin formalaşmasını təmin edir;
- neft-qaz ehtiyyatlarının həcmi – onlara olan tələbatın faktiki göstəricisidir;
- siyasi və iqtisadi hadisələr – neft-qazın qiymətinə təsir edən əhəmiyyətli fatkordur və s.

Maraqlı bir faktı qeyd etmək olar ki, neft-qaz hasilatı bazarının mövcud həcmi, bir qayda olaraq, artıq qiymətdə nəzərə alınır. Məsələn, bu növ məhsulların hasilat həcmi aşağı düşdükdə belə, qiymət artmır, bu zaman təəccübli bir şeyin olmadığı aydın görünür. Burada heft-qaz hasilatı planı bazar oyunlarına daxil olur ki, bu da öz növbəsində yeni yataqların işlənilməsindən, qazma qurğusunun inkişafından və s. asılıdır. Beləliklə, həm hasilat planını, həm də hasilatın həcmini, həmçinin onların biri-biri ilə mütənasibliyini yoxlamaq lazımdır. Əgər hasilat planları böyük həcmə malikdirsə, iri neft-qaz yataqları isə gözlənilmədən tükənilirsə, bu zaman həmin növ məhsulların qiymətinin artma ehtimalı yüksək olur. Bu halda gözləmələr və reallıqlar arasında fərq kütləvi emosiyaya, investorlar üçün isə panikaya səbəb olur.

Bu gün neft-qazın qiymətinə təsir edən bir sıra əhəmiyyətli amilləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- ❖ neft-qaz hasilatının həcmi, eyni zamanda gələcəkdə ölkələr tərəfindən müəyyənləşdirilən planlar;
- ❖ müxtəlif texnologiyalarla neft-qaz hasilatının maya dəyəri və onun hər barrellə qiymətinə mütənasibliyi;
- ❖ siyasi və iqtisadi, həmçinin təbii fəlakətlər (risklər);
- ❖ mövcud olan neft-qaz ehiyatları;
- ❖ enerjiyə qənaət və hasilatla əlaqəli innovasiya texnologiyaları;
- ❖ neft-qaz ixrac edən ölkələrin iqtisadi artım;
- ❖ spekulyativ münasibət (neft-qaz bazarında əsas spekulyativ amillərə birja ticarəti və ABŞ dollarının kursu aiddir) və bazar manipulyasiyası.

Həmçinin neft-qazın qiymətinə təsir edən amillərə saxlanmanın infrastrukturu və karbohidrogen xammalının çatdırılması, həmçinin onların vəziyyəti də aiddir.

Beləliklə, yuxarıda qeyd edilən amilləri ümumiləşdirərək qeyd etmək olar ki, Azərbaycan neft-qazının dəyərinə aşağıdakılar təsir edir:

- neft hasilatının həcmi. OPEK ölkələrinin neft-qaz bazarında tələb və təklifin

tarazlaşdırılması məqsədi ilə hasilatın həminin azaldılması qərara alınmışdır;

- perspektivli yataqlar-ölkəmizin ərazisində çoxlu perspektivli neft-qaz yataqları vardır ki, onlardan hələlik istifadə edilmir;
- satış mənbələri və qadağalar. Hal-hazırda ölkəmizdə bu növ məhlulların satışına qadağalar mövcud deyildir;
- yeni neft borukəmərlərinin tikilməsi-müxtəlif marşrutlardan istifadənin gerçəkləşdirilməsi neft-qazın ixrac edilməsinə yeni imkanlar açır.

**Nəticə**

Aparılmış təhlil göstərir ki, neft-qaz sənayesində ön sıralarda yer alan ölkələrin hamısında əhalinin rifah səviyyəsinin yüksəldilməsi təmin edilir, bu da təbii ki, neft-qaz məhsulların satışından əldə edilən vəsaitin hesabına əldə edilir. Lakin, onu da qeyd etmək lazımdır ki, bu tip sərvətlər tükənən olduğundan onların satışdan əldə edilən gəlirlərin səmərəli idarə edilməsi, vəsaitlərin gələcək nəslə saxlanılması, gələcək nəsil üçün iqtisadi bazanın yaradılması, mütəmadi olaraq gəlirlərin artırılması şərtləri müvafiq normalar daxilində həyata keçirilməlidir.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


1. Azərbaycanın Statistik göstəriciləri. Bakı. 2018,806 s.
2. Azərbaycan Dövlət Neft Şirkətinin hesabatı. Bakı. 2014,38 s.
3. Azərbaycan Dövlət Neft Şirkətinin hesabatı. Bakı. 2018,34 s.
4. SOCAR-ın gəlirləri. "İsti Press" MMC. Bakı. 2017.
5. Бархатов В.И. и др. Экономическая теория. Москва. 2007, с. 848
6. Quliyev E.Neftin qiymeti və olcu vahidi haqqinda maraqli faktlar. Bakı.2019
7. The Baku Oil and Local Communities: A History. (edited by Leila Alieva) Baku, Qanun, 2009, 276 p. // стр. 125—126
8. Журнал "Нефть России", №1, 2005. "Национальная политика довоенного СССР в основных нефтедобывающих районах". Александр Иголкин, доктор исторических наук, профессор, член-корреспондент РАЕН, ведущий научный сотрудник Института российской истории РАН
9. CENTRAL ASIA and THE CAUCASUS. CA&CC Press® AB. www.ca-c.org. Проверено 19 августа 2017.
10. Нефтепровод Баку-Джейхан. travelgeorgia.ru. Проверено 19 августа 2017.
11. http://stattur.ru/statistics.php
12. https://cyberleninka.ru/article/v/osobennosti-ekonomicheskogo-razvitiya-neftegazovoy-otrasli
13. https://www.newsnow.co.uk/h/Industry+Sectors/Energy/Oil+&+Gas
14. http://www.eia.gov/
16. https://www.ogj.com/index.html
17. https://ru.investing.com/commodities/crude-oil-news
18. https://www.oilexp.ru/
19. http://oil.rftoday.ru/_prognozy__analitika
20. https://www.opec.org/opec_web/en/
21. https://barrel.black/ot-chego-zavisit-cena-na-neft.html
22. https://ru.wikipedia.org/wiki/

**Д.э.н. Вилаят Исмайлов**

## СПЕЦИФИЧЕСКИЕ ПРОБЛЕМЫ НЕФТЕГАЗОВОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ И ОСНОВНЫЕ «КОМПОНЕНТЫ» ФОРМИРУЮЩИЕ ЦЕНЫ НА НЕФТЬ И ГАЗ

***Резюме***

В статье освещены проблемы нефтегазовой отрасли, проанализирована история развития нефтяной промышленности в Азербайджане.

В то же время, экономическая статистика нефтегазовой отрасли стран мира, включая страны бывшего Советского Союза, была тщательно проанализирована, и были определены ключевые компоненты, формирующие цены на нефть и газ.

**Цель** – определение специфических проблем нефтегазовой промышленности Азербайджана и компонентов, формирующих цены на нефть и газ.

**Методология –** исследовательская работа была основана на методах количественного и сравнительного анализа, а в расчетах использовался метод экономико-статистического анализа.

**Результаты и практическая значимость исследовании –** проанализированы экономические статистические показатели нефтегазовой отрасли и даны предложения по эффективному использованию доходов от реализации.

**Научная новизна –** определены реальные компоненты, формирующие цену на нефть и газ.

***Ключевые слова:*** *нефтегазовая отрасль, показатели, объемы производства, проблемы, компоненты*

**Doctor of Economics Vilayat Ismayilov**

## SPECIFIC PROBLEMS OF OIL AND GAS INDUSTRY IN AZERBAIJAN AND THE MAIN COMPONENTS FORMING OIL AND GAS PRICES

***Summary***

The article highlights the problems of the oil and gas industry, analyzes the history of the development of the oil industry in Azerbaijan.

At the same time, the economic statistics of the oil and gas industry of the countries of the world, including the countries of the former Soviet Union, were carefully analyzed, and the key components that shape the prices of oil and gas were identified.

**Purpose of the research** – identification of specific problems of the oil and gas industry of Azerbaijan and the components that form the prices of oil and gas.

**Metodology –** the research work was based on the methods of quantitative and comparative analysis, and the method of economic and statistical analysis was used in the calculations.

**Findings and practical significance of the study –** the economic statistical indicators of the oil and gas industry are analyzed and proposals are made for the effective use of sales revenue.

**Scientific novelty** – the real components that form the price of oil and gas are identified.

***Keywords:*** *oil and gas industry, indicators, production volumes, problems, components*

**Qəbul edilib: 20.01.2021**

**UOT 004:372**

**Niyar Umarova**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, t.ü.f.d.***
niyar61@list.ru

# VİRTUAL TƏHSİL PROQRAMLARINDA İKT VASİTƏLƏRİNİN TƏTBİQİNƏ YENİ METODOLOJİ YANAŞMA

*Məqalədə müasir informasiya cəmiyyətində informasiya emalı texnologiyalarının rolu və tətbiqinin üstünlükləri, onun cəmiyyətdə oynadığı rol normativ yanaşma metodu ilə əlaqələndirilməsi açıqlanır.*

*Azərbaycan Respublikasında İKT vasitələri və proqramları, virtual təhsil proqramlarının tətbiqinə yeni metodoloji yanaşma və bu sferaının inkişafı məqsədilə tətbiq olunan sistemli tədbirlərdən bəhs edilir.*

***Məqsəd*** – İC-də İKT vasitələri, virtual proqramların, distant təhsilin tətbiqinin üstünlükləri üzrə metodoloji yanaşma və onun elmi cəhətdə əsaslandırılmasından ibarətdir.

***Metodologiya*** – məqalədə müvafiq əsaslandırma və məntiqi-sistemli təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – İC-də informasiya təsirinin hömkranlıq dərəcəsinin və internetlə elekrtikin ekvivlentliliyinin, həmçinin Azərbaycanda İKT avadanlıqlarına, virtual proqramlara, distant təhsilə verdiyi töhfənin müəyyən edilməsinin vacibliyi qeyd edilmişdir.

***Açar sözlər***: *İC, İKT, internet, distant təhsil, virtual proqramlar, sistemli tədbirlər*

## Giriş

Müasir cəmiyyətdə İKT və ona dayanan sistemlərin tətbiqi ilə bilik və informasiya resursları insan fəaliyyətinin bütün sferalarında əsas rol oynayaraq, onları maddi sərvətə çevirir. Hazırda informasiya və onu emal edən mikroelektron texnologiyası vasitələri cəmiyyətdə hökmranlıq edir, bu isə müasir informasiya cəmiyyətinin (İC) yaranmasına səbəb olmuşdur. Cəmiyyətin inkişafının dinamik yüksəlişinə uyğun olaraq informasiyanın emal edilməsi vasitələri və ondan istifadənin müasir tələblərə cavab verə bilən üsulları daima yenilənərək, işlənib hazırlanır. Bu isə informasiya emalı proseslərini həyata keçirən yeni texnologiyaların daha sürətli tətbiqinə, idarəetmədə avtomatik informasiyalaşdırma proseslərinin sürətlənməsinə, informasiya iqtisadiyyatı sektorunun daha güclü gəlir gətirən sahəyə çevrilməsinə səbəb olur. İnformasiya şəbəkələrinin yaradılması və yayılması prosesləri cəmiyyətdə öndə durur. Qloballaşan informasiya emalının əsasını təşkil edən və sürətli informasiya mübadiləsinə imkan yaradan İKT, onun inkişaf strukturu və tətbiqilə informasiya emalı texnologiyaları bütün sahələrə innovasiya olunaraq, ixtisasından asılı olmayaraq, istənilən sahə üçün asan və əlverişli mühit yaradır. Bu elm sahəsinin inkişaf sürətinin ən mühüm xüsisiyyəti tətbiq olunduğu digər sahələri də “özü” ilə paralel inkişaf etdirə bilməsidir.

XXI əsrdə savadsızlıq dərəcəsi yalnız oxuma və yazmanı bilməməyə görə deyil, həm də daim yenilənən texnologiyaların mənimsənilmə faizinə görə götürülür. XX əsrdə əsas informasiyalar daha çox kitablardan alınırdısa, bu əsrdə lazım olan məlumatlar internetdən, elektron sistemlərdən alınır və insan idrakından, intellektindən maksimum

dərəcədə istifadə olunur. Cəmiyyətdə texnoloji sistem o qədər güclənir ki, nəinki təhsil sisteminin, hətta bütün digər sahələrin inkişafının dövrlə ayaqlaşması üçün onu mənimsəmək və idarə etməyi bacarmaq zəruri həyati şərtlərin önündə durur.

İnformasiya emalı vasitələri və onları idarə edən proqramlar insan idrakının məhsulu olduğuna görə bizimlə paralel inkişaf edir. Bu isə İKT və ona dayanan sistemlərin, virtual əlaqələrin təsiri ilə cəmiyyətdə informasiyanın təsir gücünu günü-gündən atırır. Yəni, müasir cəmiyyətdə informasiya təsirinin hömkranlıq dərəcəsi insan idrakı ilə informasiyanın emalı texnologiyalarına əsaslanan intellektual sistemlərin vəhdətindən asılıdır. İKT-nin tətbiqi ilə internet-şəbəkə münasibətləri ölkələrin qarşılıqlı virtual əlaqəsinə, qlobal iqtisadi məkanın yaranmasına səbəb olur.  Bu baxımdan internetdən istifadənin sosial əhəmiyyəti əvəzedilməzdir, ona görə də hazırda mütəxəssislər internetlə elekrtiki ekvivlent hesab edirlər.

**I. İKT vasitələrinin virtual təhsildə tətbiqinin reallıq səbəbləri**

İKT vasitələrinin tətbiqi bütün digər sahələrdə olduğu kimi təhsil sistemində də aparıcı rola mallikdir. İKT-nin təhsildəki tətbiqi ilk növbədə sərbəst təhsil almaq imkanını yaratmaqla bərabər, eyni zamanda tələbələrə müasir dünyanın yeniliklərini də çatdırır. Onların öyrənmə istəyini, həvəsini, marağını artıraraq, intellektual qabiliyyətininin daha da inkişaf etməsinə, düşüncələrinin formalaşmasına kömək edir [3, s.12-19]. Bu sahədə öyrəncilərin ən yaxın köməkçiləri müasir təhsil sistemində istifadə olunan tədris vasitələridir. Şəkil 1-də İC-də tətbiq olunan virtual tədris vasitələri (elektron tədris nəşrləri, audio-video tədris materialları, öyrədici-kompüter sistemləri, virtual təris proqramlrı) göstərilmişdir:




**Şəkil 1. Müasir təhsil sistemində istifadə olunan virtual tədris vasitələri**

Ümumiyyətlə, İKT-nin tədrisə tətbiqi müasir dünyanın virtual təhsil reallığıdır və müxtəlif səbəblərdən ona  ehtiyac vardır, məsələn:

- İKT vasitələrindən, mobil texnologiyadan düzgün istifadənin tələbələrin gələcək karyerasında köməkçi vasitə olmasına görə;

- informasıya emalı texnologiyalarının tətbiqi ilə tələbə, müəllim və digər şəxslərlə səmərəli iş rejiminin istənilən vaxt virtual əlaqə ilə paralel şəkildə təşkilinə görə**;**

- yeni fikirlərin, ideyaların məsafədən asılı olmadan virtual məkanda qarşılıqlı müzakirələrin aparılmasına imkanı yaratdığına görə;

- virtual məkanda toplanan materiallardan, vasitələrdən sərhədsiz istifadəsinin mümkünlüyünə görə;

- İKT sahəsi üzrə kadr potensialının gücləndirilməsi, intellektual savadlı kadrların yetişdirilməsindəki müsbət roluna görə;

- yeniliyi mənimsəmə, təsir etmə və qarşılıqlı virtual müzakirələrin genişləndirilməsi və dünyanın inkişaf səviyyəsi ilə ayaqlaşmağa imkan yaratdığına görə və s.

Təhsil sistemində İKT infrastrukturunun inkişaf etdirilməsi, elektron tədris texnologiyalarının tətbiqinin genişləndirilməsi müxtəlif imkanları yaradır, məsələn:

1. İKT ilə mərkəzdən nəzarətin mümkünləşməsi, idarəetmənin informasiyalaşdırılması, təhsil sisteminin elektron idarə edilməsini.
2. Mobil kitabxanaların yaradılmasını.
3. Elektron məlumatların saxlanması və paylanmasını.
4. Təhsil sistemi iştirakçıları və öyrənənlər arasında şəbəkələşmə, qarşılıqlı informasiya mübadiləsi və qarşılıqlı əməkdaşlığı.
5. Elmi araşdırma, öyrənmə, tətbiq etmə proseslərinin qarşılıqlı virtual təşkilini və s.

Bügünkü dünya reallığında passiv öyrətmə metodları artıq öz effektivliyini itirmişdir. Dünyanı hərtərəfli əhatə edən pandemiya şəraiti istənilən tədris müəssiələrində təhsilin virtual məkanda aparılmasını məcbur edir. Ona görə də kompüter savadlılığının inkişafı günün tələbidir, bu eyni zamanda intellektual səviyyəni də artırır. İKT tədrisin təşkilində aparıcı vasitəyə çevrilərək, effektli təhsilə şərait yaradır.

*Müasir təhsildə* yeniləşən texnologiyanın mənimsədilməsi yeni nailiyyətlərə yol açmaqla bərabər, həmdə s*osial bərabərliyə* və yaşayış yerindən, sağlamlıq vəziyyətindən, maddi təminatından asılı olmadan hər kəsin təhsil almasına imkanı yaradır [8, 12, 14]. *Beynəlmiləlçiliyə şəraiti yaradan* öyrədici kompüter sistemləri və elektron tədris nəşrlərindən istifadə tələbələr üçün bir çox müxtəlif imkanları yaradır. Şəkil 2-də təhsil sistemində istifadə olunan müasir virtual proqramların tətbiqinin üstünlükləri və yaratdığı imkanlar ümumi şəkildə göstərilmişdir:

- *Çeviklik* (fənnin öyrənilməsində konkret vaxta və yerə ehtiyac olmadan məşğul olmaq);
- *Modulluq* (müstəqil tədris kurslarından fərdi və qrup tələbatlarına uyğun şəbəkə vasitəsi ilə qarşılıqlı tədrisin yaradılması);
- *Qənaətcillik* (nəqliyyat və dərs vəsaitlərinə şəkilən xərclərə və vaxta qənaət);
- *Paralellik və əhatəlilik* (məkanı dəyişmədən, paralel olaraq təhsil almaq və internet üzərindən bir çox tədris informasiyasına müraciət etmək, sürətli şəkildə informasiyalara yiyələnmək) və s.




**Şəkil 2. İnformasiya cəmiyyətində təhsil və onun yaratdığı imkanlar**

İKT, kompüter dəstəkli təlim metodları ilə təhsilin keçirilməsi tədrisin mənimsənilməsi prosesinə təsiri istiqamətində *bir çox müsbət cəhətləri* var [11, 4, s.21-27], Məsələn:

*1. Fənnin tədrisinə aid mövzu materiallarının öyrənilməsində aktiv şəraitin yaradılması.* Mövzulara uyğun virtual aləmlə real təsvirlərin yaradılması *tədrisi* maraqlı, yadda qalan və interaktiv edir. Öyrənmə və araşdırma proseslərində rolu əvəzedilməz olan İKT avadanlıqlarından istifadə fənnə, mövzuya marağı daha da artırır və təhsildə müasir yeniliklərin reallıqlarla çatdırılmasını təmin edir.

*2. Diskussiya və debat formaları.* Tədrisdə tətbiq olunan İKT avadanlıqlarının və internetin imkanlarından istifadə müxtəlif məsafədə yerləşən (dünyanın harasında olmasından asılı olmayaraq) tələbələrin bir-biri ilə virtual məkanla qarşılıqlı-görüntülü əlaqəsini yaradır. Bu forum vasitəsilə müxtəlif fikirli şəxslərin, tələbə və müəllimlərin qarşılıqlı müzakirələrinə, məsləhətləşmələrinə və heç tanınmayan öyrəncilərlə əlaqəsinə imkan yaradılır. Tələbələrin digər həmyoldaşları ilə qarşılıqlı disskussiyası, fikirlərini paylaşması, onlarda yeni bilginin yaranmasına və inkişafına səbəb olur.

*3. Planlı şəkildə yaradılan virtual işçi qruplar, yaxud istiqamətli-yönəldilmiş təhsil.* Onlayn (on-line) vasitəsilə yaradılmış tədris qrupları imkan verir ki, tələbələr tapşırığı birgə həll etsinlər, bu tələbələrin fərdi öyrənmə zəhmətlərini azaldır.

Tədris sistemində istifadə olunan yeni texnoloji avadanlıqlarla tələbələr öz istedadlarını daha da inkişaf etdirərək, akademik biliklərini dərinləşdirir və yaddaşda saxlanan fayllarla tapşırıqların icrasında böyük tutumlu müxtəlif informasiyalardan istifadə edə bilirlər. Bu isə təhsilalanın fərdi öyrənmə qabiliyyətinin inkişafına, marağına, həvəsinə müsbət təsir edir. Elektron tədrisdən, İKT avadanlıqlarının imkanlarından istifadə auditoriyaya mərkəzdən baxışa imkan verməklə bərabər, tədris müəssisələrinin, pedaqoji heyətinin qarşısında yeni tələblər və vəzifələr qoyulur [11. 6, s.17-34]. İC-nin təhsil prosesində İKT-dən istifadənin zəruriliyi hər bir müəllimdən *ECDL (European Computer Driving Licence – Avropada Kompüter Bacarıqları üzrə lisenziya Mərkəzi)* tələbatını ödəməyi tələb edir.

**II. Azərbaycan  təhsilində İKT-nin tətbiqini əks etdirən sistemli tədbirlər**

Yeniləşən informasiya emalı texnologiyalarına yiyələnmək və tətbiq etməyi bacarmaq, yenisini yaratmaq, savadlı kadrlar hazırlamaq ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynayan amillərdəndir. İnsanın həyat fəaliyyətində lazımi məsələlərin emalı proseslərində İKT vasitələrindən istifadə zaman və məkan problemlərini minimum səviyyəyə endirərək, qarşılıqlı şəkildə sürətli informasiya mübadiləsinə imkan yaradır. Hazırda iqtisadiyyatın bütün sahələrində güclü bir sistem kimi istifadə olunan və İC-nin texnologiyası, gücü hesab edilən İKT demokratikləşmə prosesində mühüm rol oynayır. Məsələn, cəmiyyətdə aşkarlığın, şəffaflığın bərqərar edilməsi, səmərəliliyin artırılması, elektron sənəd mübadiləsinin təşkili, elektron ticarətin tətbiqi, keyfiyyətin yüksəldilməsi, məsafəyə, vaxta qənaət edilməsi və s.

Azərbaycan  Respublikası Qafqaz regionunda İKT sahəsində liderlik edir və yalnız tədrisdə deyil, eyni zamanda istənilən sahədə, məsələn, iqtisadiyyatda, hərbidə, sənayedə, fərdi intellektual səviyyənin inkişaf etdirilməsində, təhsildə və s. uğurlar, nailiyyətlər qazanır. İKT müstəqil elm sahəsi kimi formalaşır, bu sahəyə investisiya qoyuluşu nəinki ölkəmizdə, hətta bütün dünyada sürətlə artır. Hazırda informasiya emalı texnologiyalarından istifadəyə yiyələnmək, yenisini yaratmaq üçün şəraitin hazırlanması istiqamətində mühüm işlər görülür [10, 12]. Məhz Azərbaycan  Respublikası Prezidenti cənab İlham Əliyevin 16.01. 2013-cü il tarixli  2664 nömrəli Sərəncamı ilə 2013-cü il Azərbaycan Respublikasında *"İnformasiya-kommunikasiya texnologiyaları ili"* elan edilməsi də bunun bariz nümunəsidir.

İstənilən ölkədə təhsilin səviyyəsinin yüksək olması gələcəyə zəmanət və inamlı addım deməkdir. Ölkənin gələcəyi təhsilin səviyyəsi ilə bilavasitə mütənasib əlaqədar olduğu üçün bu sahəyə maraq və yenilikləri tətbiq etmək daim diqqət mərkəzindədir.

XXI əsrin əvvəllərindən etibarən bütün dünyada olduğu kimi ölkəmizdədə bu sahənin inkişafı üçün bir çox diqqətə layiq işlər görülmüşdür [12,13,14]. Azərbaycanda 2012-ci ildə İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun, Yüksək Texnologiyalar Parkının və Elektron Təhlükəsizlik Mərkəzinin yaradılması haqqında sənədlər imzalanıb. "Ümumtəhsil məktəblərinin İKT ilə Təminatı Proqramı (2005-2007)"; "Azərbaycan Respublikasında Rabitə və İnformasiya Texnologiyalarının İnkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı" (Elektron Azərbaycan)"; "Azərbaycan Respublikasının İnkişafı naminə İnformasiya və Kommunikasiya Texnologiyaları üzrə Milli Strategiya (2003-2012)"; "Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı (2008-2012)" və s. layihələr qəbul edillərək tətbiq olunub. Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində yaradılan "Elektron Hökumət Təlim-Tədris Mərkəzi" MMC ilkin olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin (ARNK) 17.12.2015-ci il tarixli qərarı ilə yaradılmış və ARNK-nin 12.07.2018-ci il tarixli digər qərarı ilə "İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzi" MMC adlandırılmışdır [15,17, 24].  Prezidentimizin 12.01.2018-ci ildə imzalaığı "Nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərmanı İKT sahənin tətbiqilə keyfiyyətli idarəetmənin təşkilində geniş imkanları yaratdı.

Dünya inkişaf səviyyəsi ilə ayaqlaşan gənc respublikamızda təhsil sənədlərinə aid məlumat bazasının elektron formada mərkəzləşdirilməsi və təhsil sistemində *idarəetmənin informasiyalaşdırılması* istiqamətində daima yeni layihələr qəbul edilərək, tətbiq olunur. Respublikamızın tədris ocaqlarında İKT avadanlıqlarından istifadə yönümündə bir çox işlər görülür [4, 13, 15, 18]. Məsələn, *tədrisdə "Vahid Təhsil Portalı"nın* yaranması, təhsil müəssisələrində olan kompüterlərin lisenziyalı proqramlarla təminatı, *"Xalq kompüteri"* layihəsinin həyata keçirilməsi *"1 şagird : 1kompüter"* təhsil modelinin tətbiq olunması,

*“Elektron məktəb”* layihəsinin həyata keçirilməsi, “*Məlumat və Resurs (Data) Mərkəzi”nin* yaradılması*,“Təhsildə Əməkdaşlıq”* proqramından istifadə və s. *Bulud texnologiyaları* əsasında yaradılan *“Microsoft Virtual Academy” və “Microsoft IT Academy” proqramları* [6, səh. 26-41] hər bir tələbəyə olayn (on-line) rejimdə, internet vasitəsilə əlavə təlimlər keçməyə və imtahan verərək sertifikat almağa imkan yaradır.

Prezidentin “*Hökumət buludu*" layihəsi ilk dəfə 06.12.2016-cı il fərmanında öz əksini tapmışdır [12, 24]. "Telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə “Hökumət buludu" layihəsi müvafiq dövlət qurumlarının qarşısında inkişaf istiqaməti kimi qoyulub. 03.06.2019-cu il tarixində cənab İlham Əliyev "Hökumət buludu"nun yaradılması və "Bulud xidmətlərinin göstərilməsi sahəsində tədbirlər haqqında" fərman imzalayıb. “Hökumət buludu" mərkəzləşmiş şəkildə, sürətli, məsafəli idarə oluna bilən bulud texnologiyasıdır. Hazırda təhsildə innovativ texnologiyalar - Müəllim və Tələbələrin İnteraktiv İdarə Etmə Sistemi və ya Tədris Prosesinin Elektron İdarəetmə Sistemi kimi müxtəlif proqramlardan bir çox ali təhsil müəssisələrində istifadə olunur.

Azərbaycan Respublikasının təhsil sistemində İKT-nin tətbiqi ilə əlaqədar müxtəlif istiqamətlərdə planlı işlər həyata keçirilir, layihələr hazırlanır, qərarlar qəbul edilir. Məsələn:

1. Təhsil müəssisələrinin İnternet/İntranet xidmətlərinin yüksək səviyyədə işlənməsi;
2. İC-nin tələblərinə uyğun olan və dünya standartlarına cavab verə bilən müasir virtual təhsil sisteminin qurulması;
3. Təhsil Sosial şəbəkəsinin yaradılması; Elektron sənəd dövriyyəsinin təmin olunması; Təhsil sahəsinin rəqəmsal informasiya ehtiyatlarının yaradılması;
4. Tədris proseslərində İKT avadanlığına texniki nəzarət və dəstək sisteminin təkmilləşdirilməsi, kompüter avadanlığı və digər zəruri rəqəmsal avadanlıqlarla təminatı işinin yaxşılaşdırılması;
5. Təhsil sistemində “Təhsilin İdarəolunmasının Məlumat Sistemi”nin *(TİMS),* (Education Management Information System, EMIS) yaradılması;
6. “Azərbaycan – 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyasının qəbul edilməsi;
7. “2011-2021-ci illər üçün Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya”nın hazırlanması istiqamətində Sərəncamın imzalaması və s.

İqtisadi-siyasət yönümündə dövlətin həyata keçirdiyi fəaliyyətlər sırasında qeyri-neft sektoru inkişafına aid üstünlük təşkil edən bir çox məqsəd yönümlü işlər görülür [12], məsələn, “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiq edilməsi” haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (16.03.2016-cı il tarixli 1897 nömrəli Sərəncamı) əsas yerlərdən birini tutur. Qəbul edilən Sərəncamda – Strateji yol xəritələri istiqamətində - 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışını özündə əks edir (burada - 1.11. “Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi” - əlavə olunur).

İC-nin son nailiyyətlərini özündə əks etdirən, innovatif yeniliklərə daha sürətlə keçməsinə şərait yaradan, informasiya emalı vasitələrinin ən son texnoloji sistemini və rəqəmsal cəmiyyətin inkişafını dəstəkləyən və İKT sahəsi üzrə yüksək ixtisaslı kadrların, mütəxəssislərin hazırlanması istiqamətində sosialyönümlü dövlət modelinə əsaslanan layihə qəbul edilmişdir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”i Azərbaycan Respublikası Prezidentinin 02.02.2021-ci il tarixli Sərəncamı ilə təsdiq

edilmişdir [1] (Sənəddə 5 strateji hədəf və hər hədəfə uyğun altı prioritetlər müəyyən edilib. İKT sahəsinin inkişafı beş bölmə içərisində üçüncüsündə - *3. “Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı”*nda daha ətraflı əks olunur).

Gənc nəslin müasir texnologiyaların fəal istifadəçisi və yaradıcısı kimi formalaşdırılmasında mühüm rola malik olan SMLS ( Sistem istifadəçilərə Təhsil Sosial Şəbəkəsinin bütün imkanlarından istifadə etmək hüququnun verilməsi) məktəb rəhbərliyinə nəzarətetmə, idarəetmə, qarşılıqlı virtual əlaqə yaratma funksiyalarını həyata keçirmədə ən yaxın köməkçidir.

**III. Virtual məkanda distant təhsilin üstünlükləri**

İC-nin tələblərinə uyğun müasir təhsil sisteminin qurulması, onun dünya təhsil standartlarına cavab verməsi üçün İKT avadanlıqlarının, proqramların və uyğun sistemlərin təhsilə tətbiqi labüddür. Cəmiyyətin təhsil sistemində yeniliklərə imza atmaq, uğurlar, nailiyyətlər əldə etmək üçün yeni-yeni prinsiplər işlənib hazırlanaraq, tətbiq olunur. Təhsillə elmin vəhdətini inkişaf etdirmək üçün tədrısdə İKT vasitələrindən istifadə vacib amildir. Məsafədən virtual tədrisi mümkün edən “Distant təhsil” (DT) sisteminin qurulması bu yeniliklərə aiddir [6, s.196-207]. DT-in *birtərəfli təhsil formasında* öyrədici kadr tərəfindən öyrənənə mövzu və materiallar məsafəli şəkildə çatdırılır. *İkitərəfli DT-in təhsil metodunda* isə müəyyən məsafədən təhsılı verən və öyrənən qarşılıqlı fikir mübadiləsini həyata keçirə bilir. Hazırda inkişaf etmiş ölkələrdə bu təhsil metodu uğurla tətbiq olunur. DT-i tətbiq etmək, onun icrasını təmin etmək məqsədilə İKT avadanlıqlarından, texniki vasitələrdən, xüsusi proqramlardan istifadə olunur.

Məsafədən tədrisi mümkün edən DT-dən istifadənin əsas üstünlüklərindən biri mövzunu, sənədləri (faylları) elektron yaddaşda saxlayaraq, ona dəfələrlə müraciət etməyin mümkün olmasıdır. Mövzuların elektron variantının yaradılması dərslərdə iştirak etməyən, təlimdən geri qalan tələbələr üçün xüsusi əhəmiyyətə malikdir, çünki, tələbəyə əlavə vaxtlarda da işləmək imkanını verilir. Görüntülü virtual təlim metodu tətbiqinin digər üstünlüyü müxtəlif vaxtlarda, həm fiziki qüsurlu şəxslərin məsafədən təhsil almasına, həmdə ölkələr arası virtual təhsil almağa geniş imkanları yarada bilməsidir.

XX əsrin ortalarından etibarən distant təhsildə televiziya, radio, poçt vasitəsindən əlavə audio və video materiallarıdanda istifadə olunmuşdur. İnternetdən istifadə DT-in inkişafında çox böyük rol oynayır, çünki, simsiz rabitə ilə ölkələrin birləşdirməsi distant təhsilin imkanlarını genişləndirərək, onunla işləməyi asanlaşdırmışdır [16]. İlk dəfə 1995-ci ildə Amerikanın Penn Dövlət Universitetində Jerrold Maddoxun “İncəsənət haqqında şərh” adlı dərsi internet üzərindən onlayn (online) yayımlanmışdır. 1997-ci ildə Kaliforniya Virtual Universitetinin (California Virtual University, ABŞ),1999-cu ildə Jones Beynəlxalq Universitetinin (Jones İnternational University, ABŞ) saytlarında onlayn kursların kataloqu yerləşdirilmişdir.

İKT vasitələrinin köməyilə bu təhsildə müəllim və tələbə fərqli mühitlərdə, ayrı-ayrı məkanlarda və müxtəlif məsafələrdə ola bilir. Bu zaman qarşılıqlı əlaqə yaradan sistem kimi müxtəlif vasitələrdən istifadə edilir. DT-dən istifadənin üstünlüklərinə aiddir:

- işindən, olduğu yerindən ayrılmadan məsafəli təhsilə imkanı yaradır;
- təhsil təşkilatına qeydli olmayanlara təhsil alma imkanını verir;
- istifadəçi yeniləşən İKT vasitələrindən istifadəyə yiyələnir;
- tələbənin sərbəst öyrənmə prinsipi tətbiq olunu;
- yaş qrupuna görə heç kəs sıxılmır;
- əlavə təhsil almaq imkanını təmin edir;
- təhsildə fiziki qüsur rol oynamır;

- istənilən məsafədən fərdi məşğulluğa imkan yaradır və s.

Azərbaycan Respublikasında DT-in yaranması tarixi 19.06.2009-cu il hesab edilir. Belə ki, “Təhsil haqqında” yeni Qanunun 13-cü maddəsinə əsasən, əyani və qiyabi təhsil formaları ilə yanaşı, DT forması da qəbul olunmuşdur. Burada məqsəd informasiya emalı vasitələrindən istifadə etməklə məsafəli təhsil almada biliyin, fənnin, ixtisasın artırılması və təhsilalanlara şəraitin yaradılmasıdır. 2010-cu ildən etibarən Təhsil Nazirliyi tərəfindən *“Elektron Təlimləndirən Sistemlər*” - məsafədən təhsil layihəsinin icrasına başlanılıb və layihə çərçivəsində müraciət etmək üçün təhsil portalı yaradılmışdır (www.mesafedenmekteb.edu.az). Bu istiqamətdə nəzərdə tutulan işlər uğurla həyata keçirilir.

**IV. Virtual təhsil proqramları: Ms Teams proqramı, təyinatı**

Telekommunikasiya, İKT vasitələrinin tətbiqi ilə məsafəli təhsilin xüsusi növü hesab edilən DT tələbə və onu dəstəkləyən təhsil müəssisəsi kimi iki subyekti virtual rabitə ilə birləşdirir. Məsafədən təhsili həyata keçirmək üçün ümumtəhsil məktəblərində hazırda Təhsil Nazirliyi (TN) tərəfindən qəbul edilmiş "Virtual məktəb" layihəsindən daha çox istifadə olunur. Bu proqramla müəllimlər tədrisi teledərslərlə aparır, şagirdlərlə qarşılıqlı şəkildə görüntülü və səsli əlaqə yarada bilirlər [19, 20]. (“Virtual məktəb” layihəsi TN və "Microsoft" firması ilə əməkdaşlıq çərçivəsində tətbiq olunur, qarşılıqlı real əlaqə üçün “Chat” funksiyasından istifadə edilir və s. Bu portalın mobil tətbiqi mövcuddur, bunun üçün “AppStore” və “Google Play” marketlərindən “Microsoft Teams” adlı tətbiq proqramını yükləyib, qeydiyyatdan keçmək lazımdır).

DT vasitəsilə tədrisin reallaşdırılması üçün müəyyən avadanlıqlardan, qurğulardan, müxtəlif proqramlardan, onlayn jurnaldan, faks, poçt və ya e-poçt kimi fərqli üsullardan istifadə edilir. Onlayn (online) tədris prosesində istifadə olunan qurğulara misal olaraq, kompüter, planşet, nauçnik, kamera, mobil telefon, internet əlaqə vasitələri və s. göstərmək olar [16,18]. Təhsilin rəqəmsal informasiya ehtiyatlarını yaradan, eyni zamanda nəqliyyat və dərs vəsaitlərinə çəkilən xərclərə, vaxta qənaətə şərait yaradan və müxtəlif funksiyalara malik olan elektron proqramlar vasitəsilə virtual məkanda görüntülü əlaqələr təmin edilir. Hazırda tədris prosesində istifadə olunan proqramlardan biri Microsoft firması tərəfindən hazırlanan və müxtəlif funksiyaları özündə birləşdirən Ms Teams (az.dilində - “qrup”) proqramıdır. Hazırda Ms Teams proqramı ilə yanaşı Zoom proqramından geniş şəkildə istifadə olunur. Bu istiqamətdə müxtəlif firmalar tərəfindən hazırlanan və virtual konfransların keçirilməsində, virtual təhsilin təşkilində istifadə olunan video çat (video chat) proqramlarına misal olaraq, paltalk, skayp (bu proqramlar hazırda çox az istifadə olunur), google hangouts və s. göstərmək olar. Şəkil 3-də müxtəlif firmalar tərəfindən hazırlanmış virtual görünüşun təşkilinə imkan yaradan proqramların ümumi görünüşü göstərilib.

Sivilizasiyanın bütün inkişaf mərhələlərinin yüksək pilləsi sayılan müasir informasiyalaşmış cəmiyyətdə *“Covid 19”* korona virus epidemiyasının dünya üzərindən sürətlə yayılması hazırda bütün sahələrdə İKT vaitələrindən, internet-şəbəkə sistemlərindən istifadəyə ehtiyacı artırır. XXI əsrin 2020-ci ilində başlanan *pandemiya* (koronavirus xəstəliyi, epidemiyası, onun yayılmasə və təhlükəsi bütün dünyanı iflic vəziyyətinə saldı, cox təəsüflər olsun ki, onun yeni mutasion versiyaları hələ də davam edir) yalnız insanlara ağır xəstəlik gətirmədi, eyni zamanda dünya ölkələrinin istənilən sahəsinə zərəz vurdu. Belə sahələrdən biri də təhsil sahəsidir.

Qloballaşan dünyada hökmranlıq edən *qrip pandemiyasina* qarşı hazirliq üzrə aparılan *milli planlaşdırma* istiqamətlərində bir çox qərarlar qəbul edilir, bunlardan biri də distant təhsilin, virtual tədrisin ümumi şəkildə ölkədə tətbiqidir.




**Şəkil 3. Virtual görüşlərin və təhsilin təşkilində istifadə olunan proqramlar**

Məlum olduğu kimi Azərbaycan Respublikasının təhsil müəssisələrində koronavirus təhlükəsinin yayılmasının qarşısını almaq üçün Nazirlər Kabinetinin qərarı ilə real tədrisi virtual tədris metodu əvəz etdi [17]. Təhsilin tam şəkildə davam etdirilməsində virtual tədrisin tətbiqi üçün internet-şəbəkə sistemindən, İKT və ona dayanan vasitələrdən, virtual əlaqə proqramlarından istifadə olunur.

Ölkəmizdə bu yönümdə istifadə olunan ən aktiv proqramlardan biri Misrosoft firması tərəfindən yaradılan Teams tətbiqi proqramıdır. MS Teams proqramı virtual iclaslar aparmaq, toplantılar keçirmək, dərs keçmək, söhbətlər etmək və s. yönümlü işləri özündə birləşdirən bir platformadır. Windows, Mac OS, Linux, İOS, Android əməliyyat sistemləri üzərində işləyə bilir [14, 5, s.5-9]. Proqram özünün üzvlüyünə daxil olan şəxslərə (istifadəçilərə) “Bulud texnologiyası”nda (One Drive) 1Tb yer (informasiya tutumu məkanı) və müxtəlif əlavələrlə birlikdə tims (Teams) proqramını da təklif edir. Ms Teams proqramının ilkin versiyası 2016-ci ilin noyabr ayında tanınmış və 14.03.2017-ci ildən istifadəyə verilmişdir. Bu proqram kütlə ilə qarşılıqlı şəkildə işləmək üçün nəzərdə tutulmuşdur. Hazırda müxtəlif ölkələrdə (təqribən 183 ölkədə) müxtəlif dillərdə, (təqribən 19) çoxlu sayda istifadəşi (təqribən 46 milyon) tərəfindən Ms Teams video çat (video chat) proqramından istifadə olunur.

Ms Teams proqramı qarşılıqlı-görüntülü əlaqələrdə informasiya mübadiləsini təmin edir. Tədris prosesində ondan əlverişli qarşılıqlı virtual əlaqə vasitəsi kimi (telekonfrans, distant təhsil və s.) istifadə olunur. Ms Teams proqramını istənilən kompütərə, planşetə, mobil telefona yükləmək mümkündür. Proqrama daxil olmaq üçün İnternet brauzerlərdən istifadə edilir. Məsələn, Google Chrome → Microsoft office 365 və ya MS Teams yazmaqla proqramı yükləməklə aktivləşdirmək olar. Və ya saytda internet brauzerlər üzərindən proqrama daxil olaraq, açılan korporativ ünvanla proqramı aktivləşdirmək mümkündür. İnternetdə yarana biləcək problemlərlə (məsələn, informasiyanın mübadilə sürəti) əlaqədar olaraq təhlükəsizlik baxımından proqramı kompütərə yükləmək əlverişlidir, proqrama daxil olarkən:

1. Açılan dialoq pəncərəsində korporativ e-mail ünvanı yazaraq, girişi təstiqləmək lazımdır;

2. Yeni pəncərə açılır, burada da verilən parolu (əvvəlcədən administrator tərəfindən təyin olunanan) yazaraq proqrama daxil olaraq, sonra etibarlılıq üçün yeni parolu daxil etmək olar.

Ms Teams proqram pəncərəsi müxtəlif interfeys elementlərini (istifadə ilə qarşılıqlı əlaqə elementləri ) və müvafiq funksiyaları özündə birləşdirir [5]. Bu proqramın sistemində

təhlükəsizliyin qorunmasının nisbətən yüksək dərəcədə olması (çünki, korporativ e-mail üzərindən daxil oluruq) və ondan istifadənin asan olması proqrama marağı artırır. Ms Teams tətbiqi proqramı vasitəsilə virtual məkanda bir çox funksiyaları yerinə yetirmək mümkündür, məsələn:

1. Video konfransların, virtual dərslərin təşkili; və ya qarşılıqlı-görüntülü virtual əlaqələrin, tədrisin təşkili.
2. Dərs cədvəlinin tərtibi; komandaların yaradılması.
3. Elektron lövhələrdən istifadənin mümkünlüyü; ekran paylaşımının təşkili.
4. Yoxlama testlərinin və ya müxtəlif materialların, tarşırıqların yerləşdirilməsi.
5. Kollektiv əməkdaşlıq; audio və çat zəngləşməsi.
6. Lazımi informasiyaların, istənilən faylların, müxtəlif sənədlərin qarşılıqlı paylanması, yadda saxlanması, lazım olan məlumatların burada yerləşməsi, faylların yüklənməsinin mümkünlüyü və s.

Ms Teams proqram pəncərəsinin əlaqə elementləri ümumi şəkildə Şəkil 4-də göstərilmiş və verilən rəqəmlərə uyğun elementlərin iş funksiyası funksiyası haqqında qısa məlumat:

1-Teams proqramının interfeys elementləri; 2- istifadəçinin adı və soyadının baş hərfləri və ya profil düyməsi; 3-profil düyməsinin elementləri; 4 -*“Команды”* rejimində seçilən qrupda tədrisə aid əlaqələrin yaradılması, tapşırıqların verilməsi, faylların yerləşdirilməsi və s. üçün istifadə olunan menyu əmrləridir; 5- lazımi axtarışları aparmaq üçün istifadə olunur; 6- tələbələrə verilən tapşırıqlar, onlara baxış və cavablandırılması; 7- yeni söhbətlər; 8 - rejiminin əmrlərilə seçilən qruplar idarə olunur; 9 – verilən tarşırıqlara baxış; **10** – seçilən qrupun qeydiyyatdan keçən qrup uzvləri ilə tanışlıq, seçilən qrupda iştirakçı sayı, qrupun bağlanması, nömrəsi və s. və s. Buradan  → alt əmri vasitəsilə lazım olan iştirakçını axtarmaq mümkündür və s. Burada da proqrama aid verilənlər üzərində alt və kontekst menyu əmrləri vastəsilə müxtəlif funksiyaları icra etmək mümkündür və s.




**Şəkil 4. MS Teams proqram pəncərəsi və pəncərə elementlərinin ümumi şəkildə görünüşü**

Elmi araşdırmalarda, öyrənmə proseslərində və yeniliyi mənimsəmədə əvəzsiz xidməti olan son texnoloji vasitələr, virtual proqramlar elektron sənəd dövriyyəsinin bünövrəsini təşkil edir və İKT-nın təsiri və tətbiqi sayəsində virtual məkan bir-birinə bağlanır.

**Nəticə**

Mütəxxəssislərin fikrincə, y*eniləşən texnologiyalara yiyələnmək, İKT-dən istifadə insanın məntiqi təvəkkürünü inkişaf etdirir, müasir cəmiyyətin tələbatına uyğun intellektual səviyyəni artırı və* potensialı gücləndirir. Eyni zamanda İKT dövlət və ictimai sektorlarda mühüm rol oynayır, *iqtisadi yüksəlişə imkan yaradır.* İnkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycan Respublikasında da İKT-nin iş funksiyasına yiyələnmək, digər sahələrə innovasiya etdirmək məqsədi ilə bir çox işlər görülür. Lakin iqtisadi araşdırmalar göstərir ki, hələlik İKT və onun proqramlarının imkanlarından kifayət qədər istifadə olunmur və bu sahənin özünündə bir sıra probemləri var.

Hazırda İKT sahəsində problemlərin həlli üçün xüsusi qurumlar müəyyən maliyyə vəsaiti ayrıraraq bu sahənin inkişafı üçün bir çox işlər görür, məsələn:

- İKT üzrə savadlı (güclü) kadrların hazırlanması istiqamətində pulsuz kursların təşkili;
- İnformasiya mühafizəsi yönümündə qoruyucu-proqramlı vasitələrin tətbiqi və s.

Görülən tədbirlərə baxmayaraq gənc nəslin hərtərəfli intellektual şəxs kimi yetişdirilməsi və bu sahənin inkişafı üçün, orada olan və yarana biləcək problemlərin qarşısının alınması üçün müəyyən tədbirlərin həyata keçirilməsi labüddür:

1. Sosial şəbəkələrdən düzgün istifadə yönümündə planlı işlərin görülməsi;
2. Kompüter oyunlarından, İKT avadanlıqlardan planlı istifadənin düzgün təşkili;
3. Öz mütəxəsislərimizin yaratdığı və interfeys elementləri azərbaycan dilində tərtib olunmuş virtual tədris proqramlarından istifadə olunsun və bunun üçün dünyanın tanınmış mütəxəssislərinin və firmalarının praktikasından istifadəyə maddi imkan yaradılsın;
4. Tədris prosesində dərs saatların təyinində vaxtı bildirən səsli və ya zəngli saat tətbiq olunsun;
5. Pulsuz virtual tədris kursları təşkil olunsun (kursları yaradılsın) və ya tədris ilinin əvvəlində mütəxəssislər tərəfindən maarifləndirici seminarlar keçirilsin.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” Bakı. 2021
2. R.Q.Ələkbərov, t.e.n., AMEA İnformasiya Texnologiyaları İnstitutu, "Tədris və İnnovasiya Mərkəzi". Mühazirə. Bakı. 2014.
3. N.Ə.Umarova. “İnformasiya cəmiyətində müəllim və tələbə. Təhsildə bilinqvizm”. Dərs vəsaiti. Səh. 12-39. Bakı. 2015
4. İ.Mərdanov N.Mahmudov. “İnformatika və informasiya texnologiyaları” Səh. 47-86. Bakı. 2005.
5. N.Ə.Umarova “Ms Teams proqramı və tədrisi metodikası adlı” Metodiki vəsait. Bakı - 2020
6. N.Ə.Umarova “İnformatika”. Dərslik. Səh. 9-12, 17-34. İTİ nəşriyyati Bakı. 2015
7. R.Əliquliyev, İ.Ələkbərova. “Vikipediya” virtual ensiklopediya. Bakı. 2010
8. Mahmudov R.Ş. “İnformasiya cəmiyyətinin əsaslari”. Mühazirələr. Bakı. 2013
9. İnformasiya cəmiyyəti problemləri, 2013. №2(8), 31-41

10. Elektron Hökumət Bülleteni. Noyabr 2015.
11. AMEA İTİ https://ict.az/Mobile/az/content/88
12. https://president.az/
13. http://edu.gov.az/
14. http://az.wikipedia.orq
15. http://e-tehsil.net
16. https://muallim.edu.az/news.
17. https://nk.gov.az/
18. https://mesafedenmekteb.edu.az/
19. https://az.wikipedia.org/wiki/
20. www.microsoft.com.az
21. http://.ik-tex.com/
22. http://.web.com.az/
23. www.e-qanun.az
24. https://xalqqazeti.com/mobile/az/news/24293

***Нияр Умарова***

**НОВЫЙ МЕТОДОЛОГИЧЕСКИЙ ПОДХОД К ВНЕДРЕНИЮ СРЕДСТВ ИКТ В ВИРТУАЛЬНЫЕ ОБРАЗОВАТЕЛЬНЫЕ ПРОГРАММЫ**

***Резюме***

В статье раскрывается роль и преимущества применения технологий обработки информации в современном информационном обществе, роль, которую она играет в обществе, и ее связь с методом нормативного подхода.

Речь идет о средствах и программах ИКТ в Азербайджанской Республике, новом методологическом подходе к внедрению виртуальных образовательных программ и системных мерах, применяемых с целью развития этой сферы.

***Цель*** – заключается в методологическом подходе и научном обосновании преимуществ применения средств ИКТ, виртуальных программ, дистанционного образования в ИО.

***Методология*** – в статье использованы соответствующие рассуждения и метод логико-системного анализа.

***Результаты исследования*** – подчеркнута важность определения степени открытости информационного воздействия в ИК и эквивалентности интернета и электроники, а также вклада оборудования ИКТ, виртуальных программ, дистанционного образования в Азербайджане.

***Ключевые слова:*** *ИО, ИКТ, Интернет, дистанционное обучение, виртуальные программы, систематические мероприятия*

**Niyar Umarova**

**A NEW METHODOLOGICAL APPROACH TO THE INTRODUCTION OF ICT TOOLS IN VIRTUAL EDUCATIONAL PROGRAMS**

***Summary***

The article reveals the role and advantages of using information processing technologies in the modern information society, the role that it plays in society, and its connection with the method of the normative approach.

We are talking about the means and programs of ICT in the Republic of Azerbaijan, a new

methodological approach to the introduction of virtual educational programs and systematic measures used to develop this area.

***Purpose –*** it consists in a methodological approach and scientific justification of the advantages of using ICT tools, virtual programs, and distance education in the IS.

***Methodology*** – the article uses the appropriate reasoning and the method of logical-system analysis.

***Findings –*** The importance of determining the degree of openness of information impact in the IR and the equivalence of the Internet and electronics, as well as the contribution of ICT equipment, virtual programs, and distance education in Azerbaijan, was emphasized.

***Keywords***: *IC, ICT, internet, distance education, virtual programs, systematic events*

**UOT 338.012**

**Vilayət İsmayılov**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d.***
ismaylov1953@mail.ru
**Nihad Almasov**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, dissertant***
nahid.almasov@mail.ru

# AZƏRBAYCAN İQTİSADİYYATININ TRANSFORMASİYASINDA TİKİNTİ FİRMALARININ ROLU

*Məqalədə tikinti sahələrindəki problemlər dərindən araşdırılır və tikinti təşkilatlarının ölkə iqtisadiyyatında rolunu müəyyən edən əsas funksiyaları (büdcə, şəhər formalaşdırma, institusional, konsolidasiya və stabilləşmə) göstərilir. Eyni zamanda tikinti sektorundakı problemlərin, o cümlədən yaşayış binalarının keyfiyyətlə tikilməsi, tikintiyə çəkilən xərclərin minimum səviyyədə olması, tikintisi başa çatmış sosial evlərin vətəndaşlara paylanması və s. kimi sosial məsələlərin həllinin vacibliyi qeyd edilir.*

*Həmçinin, bu sahədə dövlət-özəl tərəfdaşlığının ölkədə fəaliyyət göstərən tikinti şirkətlərinə şamil edilməsinin xüsusi əhəmiyyəti vurğulanır və müasir şəraitdə tikinti sferasının səmərəli fəaliyyətinə maneçilik göstərən əsas amillərin təhlili əsasında müvafiq təkliflər verilir.*

***Məqsəd*** **–** ölkə iqtisadiyyatının inkişafında tikinti firmalarının rolunun müəyyənləşdirilməsi və səmərəli fəaliyyətinə maneçilik göstərən amillərin təhlilinə əsasən müvafiq təkliflərin verilməsidir.

***Metodologiya*** **–** tədqiqar işində müqayisə və analitik göstəricilər sisteminin qurulmasi metodlarindan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** **–** tikinti sferasının səmərəli fəaliyyətinə maneçilik göstərən əsas amillərin təhlil edilərək qeyd edimişdir ki, bu sahə ölkənin istehsal-iqtisadi potensialının inkişafında, həyat və istirahət şəraitinin yaxşılaşdırılmasında4 həlledici rol oynayır.

***Açar sözlər*** **–** *tikinti, iqtisadiyyat, istehsal-iqtisadi potensial, inkişaf, səmərəli fəaliyyət, iqtisadiyyatda rolu*

## Giriş

Cəmiyyətin inkişaf mərhələsində dövlətin iqtisadiyyatı müxtəlif sahələrdən ibarət olan mürəkkəb istehsal-təsərrüfat kompleksini təşkil edir. Bu istehsal-təsərrüfat komplekslərinin hər biri ölkə iqtisadiyyatının ayrılmaz komponentidir və onun inkişafına öz töhfəsini verir. Bu baxımdan da, həmin komponentlərdən biri tikinti sənayesi hesab edilir. Ölkənin iqtisadiyyatında tikinti sənayesi iqtisadi artımın lokomotivi olmaqla, oraya investisiya cəlb edir və dövlətin inkişaf etməsinə imkan yaradır. Mövcud çətin vəziyyətə baxmayaraq, həm iqtisadi planda, həm də bütövlükdə ölkədə onlar öz tempini stabil şəkildə aşağı salmır. Bundan əlavə, tikinti müəssisələri, istənilən istehsalın maddi əsasını təşkil edən istehsal və ictimai təyinatlı binalarla, nəqliyyat unfrastrukturu ilə təmin etmək yolu ilə, iqtisadiyyatın bütün sahələrinin fəaliyyət göstərməsinə imkan yaradır.

Tikinti sahəsindəki problemlərin dərindən aydınlaşdırılması üçün ilk növbədə tikinti

subyektlərinin fəaliyyətinin təsnifatı məsələlərinə baxılmalıdır ki, tədqiq edilən hadisələrin vacib tərəfləri, ən maraqlı xüsusiyyətləri müəyyənləşdirilsin və onların mahiyyətinə nisbətən daha da dərin daxil olmaq mümkün olsun. Fikrimizcə, tikinti təşkilatlarının subyektlərinin təsnifatı onların xarakterik xüsusiyyətlərinin və təqdim edilən məlumatların tələb edilən səviyyədə verilməsini şərtləndirir və onun tədqiqini aktuallaşdırır.

**Əlaqəli ədəbiyyatlara istinad**

Xalq təsərrüfatı kompleksində istənilən sahənin yeri və ictimai istehsalda rolu onun fəaliyyətindən əldə edilən son nəticənin təsirindən, həmçinin digər sahələrlə əlaqəsindən müəyyən edilir. İstehsal prosesinin genişləndirilməsində tikinti təşkilatları dominant rol oynayır. Planlaşdırılan tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi, istehsal sahələrinin və obyektlərin vaxtında istismara verilməsi, yenidənqurma, texniki silahlanma, yeni tikilən və ya mövcud müəssisələrin genişləndirilməsi məqsədi ilə istismara verilməsi, istehsalın texniki səviyyəsinin və onun səmərəliliyinin yüksəldilməsi tikinti sənayesinin birbaşa vəzifələri hesab edilir [Bukreeva və Qolub, 2013: 50-60].

Tədqiqatın nəticəsi olaraq, müəlliflər aşağı enerji istehlakı olan binaların biznes üçün maraqlı və etibarlı imkan hesab edildiyi qənaətinə gəlirlər və investisiya təhlili göstərir ki, aşağı enerji istehlakı olan evlər (xüsusilə passiv) adi yaşayış binalarına nisbətən investisiya üçün daha cəlbedici ola bilər [Agneşka və s., 2012: s.211-228].

Əhalinin mənzillə təmin edilməsi, onun keyfiyyəti və komfortluğunun yüksəldilməsi, istismardakı mənzil fondunun və mədəni-məişət təyinatlı obyektlərin yenidən qurulması və təmiri ilə bağlı olan kompleks problemlərin həlli, yalnız tikinti təşkilatlarının iştirakı zamanı mümkündür. Tikinti, iqtisadiyyatın digər sahələri ilə təkcə onların inkişafında birbaşa iştirak etməklə deyil, həmçinin bütün sahələrin məhsul istehlakı ilə də üzvi şəkildə bağlıdır [Atacanova, 2016: s.347-351]. Beləliklə, tikinti təşkilatları bina və qurğuların tikintisi zamanı daşınan bütün yüklərin 30%-dən çoxunu, maşınqayırma, kənd təsərrüfatı məhsullarının və demək olar ki, tikinti materialları sənayesinin, xüsusilə də qara metallurgiya, meşəçilik, ağac emalı, kimya və digər sənaye sahələrinin bütün məhsullarını istehlak edir.

**Tikinti təşkilatlarının ölkə iqtisadiyyatının inkişafında rolu**

Tikinti təşkilatlarının ölkə iqtisadiyyatındakı rolu büdcə, şəhər formalaşdırma, institusional, konsolidasiya, stabilləşmə və s. funksiyalarla müəyyən edilir. Bir sıra podratçı və ixtisaslaşmış tikinti təşkilatları, tikinti materialları və konstruksiyaları sənayesi müəssisələri, mexanizasiya və nəqliyyat, layihə və elmi-tədqiqat institutları, təhsil müəssisələri, tikinti birjaları, mühəndislik, konsaltinq, idarəetmə və tikinti sahəsində iş və xidmətlərin icrası üzrə ixtisaslaşmış digər təşkilatlar birlikdə tikinti kompleksini özündə əks etdirir. Həmçinin, tikinti kompleksinin tərkibinə, özünün funksional istiqamətinə görə tikinti məhsullarının yaradılmasında əlaqəli olan, iştirak edən və ya köməklik göstərən, bütün istehsal təsərrüfat subyektləri və infrastruktur sferasını, sahə idarəetmə orqanlarını daxil etmək olar.

Azərbaycan iqtisadiyyatının inkişafı bilavasitə onun bütün sahələrinin hərtərəfli inkişafından asılıdır. Bu baxımdan, ölkə üzrə ÜDM-in həcminin ildən-ilə artması bütün sahələrin, o cümlədən tikintii sferasının inkişafını təmin edir. Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı (DB) mütəmadi olaraq hər il dünya ölkələri üzrə ÜDM-in həcmini

hesablayaraq sıralama aparır. Bu təşkilatların 2019-cu ildə 193 ölkənin məlumatları üzrə apardığı hesablamalara əsasən 2018-ci ilin göstəricilərinə görə Çin, ABŞ, Hindistan, Yaponiya və Almaniya ilk beşinci sırada yerləşməklə 25279-4343 milyard dollar hüdudunda ÜDM-in həcminə malikdirlər. Keçmiş sovetlər birliyinin 15 ölkəsinin bu göstəriciyə görə tutduğu yerə görə ardıcıllıq şəkil 1-də verilir.




**Şəkil 1. Keçmiş sovetlər birliyi ölkələri üzrə ÜDM-in həcmi və artım faizi**
Qeyd: [4] məlumatları əsasında müəllif tərtib etmişdir

ÜDM-in həcmi və artımına görə birinci sırada yerləşmiş Rusiya müqayisə edilən 193 ölkə içərisində 6-cı, Qazaxıstan 42-ci, Ukrayna 49-cu, Üzbəkistan 62-ci, Belorus 71-ci və Azərbaycan 73-cü sırada yer almışdır. Müqayisə edilən ölkələrdən Tacikistan 130-cu, Ermənistan 134-cü, Moldava 140-cı, Qırğızıstan 141-ci sırada yer almışlar. Ölkələrdə 2017-ci ilə nisbətən ÜDM-in artımı göstəricisində isə ilk üç sırada Tacikistan (9,8%), Türkmənistan (8,6%) və Özbəkistan (7,7%) yer almışlar. Bu göstəriciyə görə son sıralarda Belorus və Qırğızıstan (5,6%), Rusiya (4,7%) və Azərbaycan (3,4%) yer almışlar. Buradan belə bir nəticəyə gəlmək olar ki, əvvəliki ilə nisbətən artım faizi aşağı olan Belorus, Qırğızıstan, Rusiya və Azərbaycanda ÜDM-in həcmi dinamik artıma görə tarazlı artıma malikdir və bu baxımdan da digər ölkələrə nisbətən həmin ölkələrdə artım stabil olaraq hər il davam edir.

Azərbaycanda fəaliyyət göstərən tikinti müəssisələrinin səmərəli fəaliyyətinin təşkilinə təsir göstərən əsas göstəricilərdən biri də ölkədə ÜDM-in həcmində tikinti sektorunun xüsusi çəkisinin yüksək olmasıdır. Statistik məlumatlar və artım proqnozu göstəriciləri əsasında 2015-2019-cu illərdə ÜDM-in həcmində tikinti sektorunun xüsusi çəkisi 9,8-13,4% hüdudunda dəyişmişdir ki, bu da tikinti sektorunun ölkənin iqtisadi inkişafında həlledici rol oynadığını müəyyənləşdirir (şəkil 2). Onu da qeyd etmək lazımdır ki, ölkəmizdə ÜDM-in həcminin yüksək artım tempinə malik olmasına baxmayaraq tikinti kompleksinin onun tərkibində xüsusi çəkisi 2015-ci ilə nisbətən 2019-cu ildə 1,4 dəfə

azalmışdır. Bu onu göstərir ki, həmin sahənin inkişaf etdirilməsinə istiqamətləndirilmiş tədbirlərin vaxtında və keyfiyyətlə icra edilməsinə baxmayaraq burada hələ yenə də həll edilməli problemlər çoxdur və bu işdə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsinin rolu gücləndirilməlidir.




**Şəkil 2. ÜDM-in həcminin və ÜDM-in strukturunda tikinti sektorunun xüsusi çəkisinin dəyişmə tendensiyası**

Qeyd: *-artım proqnozu nəticəsində əldə edilmiş məlumatı göstərir;
Mənbə: [1, s.230-244] əsasında müəllif tərtib etmişdir.

Müqayisə edilən dövrdə Azərbaycanda ÜDM-in həcminin dəyişməsini əks etdirən qrafikdə trend xətti Microsoft Excel proqramı vasitəsilə qurularaq xətti reqressiya tənliyi y=9,171x+43,537 şəklində müəyyən edilmiş və approksimasiyanın etibarlılıq kəmiyyəti $R^{2*}$=0,9912 təşkil etmişdir. Determinasiya əmsalının kəmiyyəti $R^2$=0,9955 göstərir ki, y asılı dəyişəninin variasiyasının yüksək həddə (99,55%) olması x sərbəst dəyişənin variasiyası ilə izah olunur.

Azərbaycanın tikinti kompleksi iqtisadiyyatın vacib sahələrindən biridir, onun dayanıqlığını və sosial yönümlüyünü təmin edir, respublikanın istehsal potensialının, cəmiyyətin ən vacib sosial-iqtisadi problemlərinin, o cümlədən prioritet-mənzil tikintisinin inkişafına töhfə verir. 2019-cu ildə Azərbaycanın tikinti kompleksi onun fəaliyyəti ilə əlaqəli olan 1650-yə yaxın podratçı təşkilatları, tikinti material və konstruksiyaları sənayesi müəssisələrini, layihə, elmi-tədqiqat, mühəndislik və digər müxtəlif mülkiyyət formalarının strukturunu birləşdirmişdir ki, bu göstərici də 2014-cü ilə nsbətən 10,1%; 2015-ci ilə nisbətən 14,2%; 2016-cı ilə nisbətən 15,8%; 2017-ci ilə nisbətən 8,3%; 2018-ci ilə nisbətən 1,0% artmışdır. Respublikanın tikinti kompleksində çalışan işçilər 2015-ci ilə nisbətən 2019-cu ildə azalaraq 69,5% olmuş və bu göstərici iqtisadi fəaliyyət növləri üzrə məşğul əhalinin ümumi sayının 7,2%-ni təşkil etmişdir. Tikinti kompleksində məşğul işçilərin sayı göstəricisinə görə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq; ticarət, nəqliyyat vasitələrinin təmiri və təhsil sahəsində məşğul olanlardan sonrakı dördüncü sırada yer alır. Əsas fondların istifadəyə verilməsi göstəricisinə görə tikinti kompleksi

2012-ci illə (14,4%) müqayisədə 2019-cu ildə 2,5% azalaraq 11,9% təşkil etmişdir. Tikinti materialları istehsalı sənayesi üzrə əsas fondların istifadəyə verilməsini də nəzərə alsaq bu göstəricinin 2012-ci ildə 14,9% və 2019-cu ildə 12,8% təşkil etdiyini və ya 2,1% azaldığını qeyd edə bilərik (şəkil 3).

Şəkildən göründüyü kimi, Azərbaycan iqtisadiyyatı sahələri üzrə əsas fondların istifadəyə verilməsi göstəricisində tikinti sənaye sahəsindən sonra ikinci sırada yer alaraq onun xüsusi çəkisi 0,128 təşkil etmişdir ki, bu da tikintinin sənayedən 0,488 vahid və ya 3,8 dəfə az xüsusi çəkiyə malik olduğunu göstərir. Ölkə iqtisadiyyatının sahələri üzrə əsas fondların istifadəyə verilməsi məlumatlarının müqayisəsi göstərir ki, tikinti və tikinti materialları istehsalı sənayesinin trend əyrisi qanunauyğun artım dinamikasına malik olmuşdur. Tikinti və tikinti materialları istehsalı sənayesinin əsas fondlarının istifadəyə verilməsi üzrə göstəricilərin qrafiki trend xətti Microsoft Word proqramının tətbiqi ilə qurulmuş və qrafiki xəttin reqressiya tənliyi y=29,998x+1645,2 müəyyənləşdirilmiş və approksimasiyanın etibarlılıq kəmiyyəti $R^{2*}$=0,097 təşkil etmişdir. Eyni zamanda qeyd etmək lazımdır ki, ölkənin tikinti kompleksində tikinti kompleksində məşğul olan işçilərin sayı 108,5 mindən çoxdur və ya bu, iqtisadiyyatda məşğul olanların sayının 2,2% -ni təşkil edir [1, s.157-158]




**Şəkil 3. Bəzi istehsal sahələri üzrə əsas fondların istifadəyə verilməsi**
Qeyd: [1, s.134-138] əsasında müəllif tərtib etmişdir

Azərbaycan iqtisadiyyatının inkişafında tikinti təşkilatlarının rolunun daha geniş tədqiq edilməsi məqsədi ilə tikintinin inkişafının digər iqtisadi sahələrin inkişafına təsirinin araşdırılması da vacib məsələlərdən biridir. Belə ki, əsaslı tikinti çox sayda iş yerləri yaradır və bir çox sənayenin məhsullarını istehlak edir. Tikintinin inkişafının iqtisadi səmərəsi konkret olaraq tikintiyə qoyulan vəsaitin multiplikasiya səmərəsinə əsaslanır. Multiplikasiya səmərəsi dedikdə milli gəlirin tarazlıq səviyyəsinin nəzərdə tutulmuş planlaşdırılan xərclərdəki dəyişikliyə nisbətən daha çox dəyişməsi başa düşülür. Belə ki, tikinti sektorunda yeni bir iş yerinin yaradılması digər qarışıq sahələrdə daha altı iş yerinin yaradılmasını təmin etmiş olur. Eyni zamanda qeyd etmək lazımdır ki, tikinti sənayesinin

inkişafı aşağıdakı sahələrin inkişaf etməsinə təsir göstərir: tikinti materialları və əlaqədar avadanlıqların istehsalı, maşınqayırma sənayesi, metallurgiya və metal emalı, neft-kimya, şüşə istehsalı, ağac emalı və çini qablar sənayesi, yerüstü nəqliyyat, energetika, məişət xidmətləri və s. Həmçinin, iqtisadiyyatın heç bir sahəsi, tikinti sferası kimi kiçik biznes müəssisələrinin, xüsusilə də tamamlama və təmir işləri, yığma mebellərin istehsalı və qurulması və digər işlər üzrə ixtisaslaşmış sahələrin inkişafına öz töhfəsini verə bilmir.

Eyni zamanda nəzərə almaq lazımdır ki, tikinti sənayesinin dayanıqlı inkişafı istər-istəməz ölkədə iqtisadi artımın yüksəlməsi və bir çox sosial problemlərin həlli üçün lazımi şəraitin yaranmasına səbəb olur. Lakin tikinti sənayesinin müasir mərhələdə inkişafı bu sənayenin hər hansı bir rəqabət qabiliyyəti haqqında danışmağın mümkünlüyünü əks etdirmir. Əgər regional səviyyədə əhəmiyyətli gücünə və investisiya cəlbediciliyinə görə iri şəhər, inkişaf etmiş regionlarında fəaliyyət göstərən tikinti təşkilatları açıq bir tendensiya ilə üstünlüyə malikdirsə, qlobal səviyyədə Azərbaycanın tikinti sənayesi bəzi yeniliklərin həyata keçirilməsinə lazım gələn maliyyə və təşkilati işlərə görə nisbətən geri qalır.

Bu baxımdan, Azərbaycanın iqtisadi rayonlarında fəaliyyət göstərən tikinti müəssisələrinin əsas texniki-iqtisadi göstəricilərinin inkişaf tendensiyasını müəyyənləşdirmək üçün 2014-2019-cu illərin məlumatlarının təhlili aparılmış və əsas meyletmələr müəyyənləşdirilimişdir.

Ölkənin iqtisadi rayonlarında fəaliyyət göstərən tikinti müəssisələrinin sayının təhlilindən görünür ki, 2014-cü ilə nisbətən 2015-ci ildə tikinti müəssisələrinin sayında 53 vahid və ya 3,5%; 2016-cı ildə-73 vahid və ya 4,9% azalma; 2017-ci ildə-26 vahid və ya 1,8%; 2018-ci ildə-137 vahid və ya 9,2% artım olmuşdur. Proqnoz hesablamalar nəticəsində 2019-cu ildə artım tendensiyası davam edərsə bu zaman tikinti müəssisələrinin ümumi sayında orta hesabla 15 vahid və ya 1,0% artım gözlənilir. İqtisadi rayonlar (İR) üzrə fəaliyyət göstərən tikinti müəssisələrinin əsas göstəricilərinin qruplaşdırılmış şəkildə təhlilinin aparılması məqsədilə ilə şərti olaraq onlar I qrup - Bakı şəhəri, Aran İR; Abşeron İR; Gəncə-Qazax İR və Naxçıvan MR; II qrup - Şəki-Zaqatala İR, Lənkəran İR, Quba-Xaçmaz İR, Yuxarı-Qarabağ İR, Kəlbəcər-Laçın İR və Dağlıq Şirvan İR kimi adlandırılmışdır.

Azərbaycanın İR üzrə fəaliyyət göstərən tikinti müəssisələrinin sayında 2014-cü ildə Bakı şəhəri üzrə müəssisələrin xüsusi çəkisi 59,3%; Aran İR-13,1%; Abşeron İR-6,3%; Gəncə-Qazax İR-5,2%; Naxçıvan MR-da-2,8% (cəmi I qrup-86,7%) və Şəki-Zaqatala İR-3,7%, LənkərAn İR-3,2%, Quba-Xaçmaz İR-1,9%, Yuxarı-Qarabağ İR-2,0%, Kəlbəcər-Laçın İR-0,8% və Dağlıq Şirvan İR-1,7% (cəmi II qrup-13,3%)təşkil etmişdir. 2015-ci ildə bu göstərici müvafiq olaraq I qrup İR-87,5% və II qrup İR-12,5%; 2016-cı ildə-I qrup İR-88,2% və II qrup İR-11,8%; 2017-ci ildə-I qrup İR -88,0% və II qrup İR-12,0%; 2018-ci ildə-I qrup İR-88,6% və II qrup İR-11,4% təşkil etmişdir. Məlumatlara əsasən artım proqnozunun hesablanması [14] göstərir ki, Azərbaycanda tkinti şikətlərinin fəaliyyəti üçün əlverişli şərait mövcuddur, 2019-cu ildə onların sayı artıma meylli olacaq və ümumi sayda 15 vahid və ya 1,0% artım müşahidə ediləcəkdir.

Tikinti işlərinin dəyəri göstəricisinin həcmində xüsusi çəki 2014-cü ildə I qrup İR-97,2%, II qrup-3,8 təşkil etmiş və cəmi 8591,92 milyon manat; 2015-ci ildə I qrup İR-97,9%, II qrup-2,1%; 2016-cı ildə I qrup İR-98,1%, II qrup-1,9%; 2017-ci ildə I qrup İR-

96,2%, II qrup-3,8%; 2018-ci ildə I qrup İR-95,7%, II qrup-4,3% olmuş və 2019-cu ilin artım proqnozuna əsasən xüsusi çəkinin I qrup İR-95,6%, II qrup-4,4% təşkil edəcəyi gözlənilir.

Azərbaycanda fəaliyyət göstərən tikinti təşkilatları üzrə bir müəssisəyə düşən tikinti işlərinin dəyərinin ümumi həcmində xüsusi çəki 2014-cü ildə I qrup İR-80,1%, II qrup-19,9%; 2015-ci ildə I qrup İR-84,4%, II qrup-15,6%; 2016-cı ildə I qrup İR-84,9%, II qrup-5,1%; 2017-ci ildə I qrup İR-76,2%, II qrup-23,8%; 2018-ci ildə I qrup İR-70,7%, II qrup-29,3% və 2019-cu ilin artım proqnozuna əsasən xüsusi çəkinin I qrup İR-62,7%, II qrup-37,3% təşkil edəcəyi gözlənilir.

Təhlil nəticəsində belə bir qənatə gəlmək olar ki, iqtisadi rayonlar üzrə tikinti müəssisələrinin əsas göstəricilərinin ümumi həcmində tikinti işlərinin xüsusi çəkisi 2014-cü ilə nisbətən 215-ci ildə 14,8%; 2016-cı ildə-10,9%; 2017-ci ildə-9,7% və 2018-ci ildə-1,7% azalma müşahidə edilmişdir. Bu onu göstərir ki, 2014-cü ilə nisbətən tikinti müəssisələrində tikinti işlərinin həcminin hər il aşağı düşməsinə baxmayaraq ildən-ilə müvafiq artım olmuş və bu artım ən çox 2018-ci ildə nəzərə çarpmış, həmin ildə bu göstəricinin həcmində çox az miqdarda (144,5593 milyon manat) azalma olmuşdur. Fikrimizcə, artım proqnozuna əsasən bu göstəricinin 2014-cü ilə nisbətən 2019-cu ildə 4,5% və ya 378,457 milyon manat həcmində çoxalması son dövrlərdə ölkəmizdə qeyri-neft sektorunun, o cümlədən tikinti sektorunun inkişaf etdirilməsi istiqamətində müvafiq dövlər proqramlarının hazırlanması və onun müddəalarının pillələrlə həyata keçirilməsi üzrə görüləcək işlərin həyata keçirilməsi ilə əsaslandırıla bilər.

Azərbaycanda tikinti müəssisələrinin yerinə yetirdiyi tikinti işlərinin dəyəri 2018-ci ildə 8448,3 milyon manat olmuş və bu da ölkə üzrə ÜDM-in 11,2%-ni təşkil etmişdir. Son illərdə tikinti kompleksinin gördüyü işlər investisiya fəallığının artması ilə xarakterizə olunur ki, bu da istehsal həcminin, layihə və tikinti-quraşdırma işlərinin, tikinti təşkilatlarının və tikinti materialları sənayesi müəssisələrinin əksəriyyətinin gücündən tam istifadə edilməsinə səbəb olmuşdur (cədvəl 1).

***Cədvəl 1***

**Tikinti müəssisələri üzrə makroiqtisadi göstəricilər**

| S/N | Tikinti müəssi-sələrinin makroiqtisadi göstəriciləri | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019* |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Əlavə dəyər, cari qiymətlərlə, mlyn. manat | 5507,9 | 6753,7 | 7454,4 | 6499,5 | 6338,9 | 6750,6 | 6353,8 | 6385,5 |
| 2 | Ümumi mənfəət , zərər (-), cari qiymətlərlə, mlyn. manat | 129,7 | 291,3 | 308,9 | 556,3 | 583,2 | 782,8 | 1023,6 | 1279,5 |
| 3 | Tikinti işlərinin dəyəri, mlyn. manat | 7716,0 | 8721,2 | 8591,9 | 7319,6 | 7660,4 | 7762,1 | 8448,3 | 8970,4 |

Qeyd: - proqnoz qiymətdir;
Mənbə: [1, s.157-160] əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Makroiqtisadi göstəricilərin təhlilindən görünür ki, tikinti müəssisələrində əlavə dəyər 2012-ci illə müqayisədə 2013-cü ildə 1,23 dəfə; 2014-cü ildə-1,35 dəfə; 2015-ci ildə-1,18 dəfə; 2016-cı ildə-1,15 dəfə; 2017-ci ildə-1,23 dəfə; 2018-ci ildə-1,15 dəfə və 2019-cu ildə-1,16 dəfə artım təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, bu artımın ən yüksək həddi 2014-cü ildə olmuş və bu 2012-ci illə müqayisədə 35,3% təşkil etmişdir. Müqayisə edilən dövrdə ən aşağı artım tempi 2016cı il və 2018-ci illərdə olmuşdur ki, bu da 2012-ci illə müqayisədə müvafiq olaraq 15,1% və 15,4 % təşkil etmişdir.

Təhlil edilən dövrdə tikinti müəssisələri mənfəətlə fəaliyyət göstərmiş, bu göstəricinin qiyməti 2018-ci ildə 2012-ci ilə nisbətən 7,9 dəfə çox olmuşdur. Eyni zamandahəmin illərdə tikinti müəssisələrinin mənfəətinin artımı 893,9 mlyn. manat təşkil etmişdir. Müqayisə edilən illərdə tikinti müəssisələrinin yerinə yetirdiyi tikinti işlərinin dəyəri yalnız 2015-2016-cı illərdə 2012-ci ilə nisbətən aşağı olmuş, bu da müvafiq olaraq 396,4 mlyn. manat və 55,6 mlyn. manat təşkil etmişdir. Müqayisə edilən dövrdə 2012-ci ilə nisbətən tikinti işlərinin dəyərinin artımı 2014-cü ilə təsadüf edir ki, bu artım da 875,9 mlyn. manat və ya 11,4%, 2018-ci ildə 732,3 mlyn. manat və ya 13,3%, 2019-cu ildə isə 877,6 mlyn. manat və ya 15,9% təşkil etmişdir.

Tikinti müəssisələrinin cari qiymətlərlə əlavə dəyəri keçmiş illə müqayisədə 2013-cü ildə 122,6%, 2014-cü ildə 110,4%, 2015-ci ildə 87,3%, 2016-cı ildə 97,5%, 2017-ci ildə 106,5%, 2018-ci ildə 94,1% və 2019-cu ildə 100,5% təşkil etmişdir. Təhlilin nəticələri göstərir ki, tikinti müəssisələrinin cari qiymətlərlə əlavə dəyəri 2015-2016-cı illərdə əvvəlki 2014-cü illə müqayisədə 0,85-0,87 dəfə və 2018-2019-cu illərdə isə 0,85-0,86 dəfə azalma müşahidə edilmişdir ki, bu da həmin göstərici üzrə müəssisələrdə dinamik artımın olmadığını əks etdirir.

Tikinti müəssisələrinin ümmumi mənfəət və ya zərərin təhlilindən göründüyü kimi, müqayisə edilən dövrdə onlar hər il mənfəətlə işləmiş və bu dinamiki artımla müşahidə edilmişdir. Həmin dövrdə keçmiş ilə nisbətən ən yüksək mənfəət faizi 2013-cü ildə 224,6% və ən az mənfəət faizi isə 2016-cı ildə 104,8% olmuş, bu göstəricinin müqayisə edilən dördə orta artımı 142,4% təşkil etmişdir.

Tikinti işlərinin dəyəri göstəricisində isə ən yüksək artım 2013-cü ildə (113,0%) və ən çox azalma isə 2015-ci ildə (14,8%) nəzərə çarpır. Onu da qeyd etmək lazımdır ki, 2013-2014-cü illərdən sonra bu göstəricidə azalma olmasına baxmayaraq 2015-2019-cu illərdə müvafiq olaraq hər artım müşahidə edilmiş və bu artım 101,3-108,8% hüdudunda təşkil etmişdir. Fikirimizcə, 2013-2014-cü illərə nisbətən növbəti illərdə artımın azalmasına baxmayaraq bu müddətdə tikinti işlərinin dəyərinin kifayət qədər yüksəlməsi tikinti şirkətlərinin fəaliyyətinə dövlət dəstəyinin yüksək səviyyədə olması ilə əlaqələndirilə bilər.

Azərbaycanda fəaliyyət göstərən iri, orta və kiçik tikinti təşkilatlarının yerinə yetirdiyi işlərin strukturundan görünür ki, 2012-2019-cu illərdə tikinti, yenidənqurma, genişləndirmə, texniki vasitələrin yenidən təchiz olunmasının ümumi tikintinin həcmində xüsusi çəkisi 60,8-71,2% hüdudunda, əsaslı təmirin ümumi tikintinin həcmində xüsusi çəkisi 10,1-17,6% hüdudunda, cari təmirin ümumi tikintinin həcmində xüsusi çəkisi 2,6-7,6% hüdudunda, sair işlərin ümumi tikintinin həcmində xüsusi çəkisi 12,2-21,5% hüdudunda olmuşdur (şəkil 4).




**Şəkil 4. Tikinti işlərinin strukturu**
Qeyd: [1, səh.161-163] əsasında müəllif tərtib etmişdir

Şəkildən görünür ki, Azərbaycanda fəaliyyət göstərə tikinti şirkətlərinin tikinti işlərinin ümumi həcmi 2012-2019-cu illərdə 7319,5519-8970,377 milyon manat hüdudunda olmuşdur. Belə ki, tikinti işlərinin ən yüksək həcmi 2013-cü ildə olmuş və bu əvvəlki ilə nisbətən 1005,1448 milyon manat və ya 13,1 % artım təşkil etmişdir. Əvvəlki illə müqayisədə tikinti işlərinin həcmində 2018-ci ildə artım 686,2155 milyon manat və ya 8,8% təşkil etmişdir.

Müqayisə edilən dövrdə sair işlərin tikintinin ümumi həcmində xüsusi çəkisi üzrə göstəricilərin qrafiki trend xətti Microsoft Excel proqramının tətbiqilə qurularaq xətti reqressiya tənliyi y=1,2905x+10,293 müəyyənləşdirilmiş və approksimasiyanın etibarlılıq kəmiyyəti $R^{2*}$=0,7686 təşkil etmişdir. Determinasiya əmsalının kəmiyyəti $R^2$=0,8767 göstərir ki, y asılı dəyişəninin variasiyasının 87,67% olması x sərbəst dəyişənin variasiyası ilə izah olunur.

Qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatının inkişafına yönəldilmiş investisiyaların həcminin artması tikinti şirkətlərinin səmərəli fəaliyyətinin yüksəldilməsinə təsir göstərən əsas amillərdən biri hesab edilir. Azərbaycan iqtisadiyyatı və sosial sferanın inkişafına istifadə edilmiş investisiyaların həcminin təhlili göstərir ki, iqtisadiyyatın və sosial sferanın inkişaf etdirilməsi məqsədi ilə cəmi investisiya qoyuluşunun həcmi 2005-ci ilə nisbətən 2010-2019-cu illərdə dinamiki artımla yüksəlmiş və bu artım 2019-cu ildə 23,1706 milyard manat və ya 3,44 dəfə təşkil etmişdir. Bu sahəyə istifadə edilmiş investisiyaların tərkibində xarici investisiyaların xüsusi çəkisi 2005-ci ildə 68,7% olduğu halda 2010-cu ildə-46,9%; 2014-cü ildə-41,9%; 2015-ci ildə-54,8%; 2016-cı ildə-71,4%;

2017-ci ildə-65,8%; 2018-ci ildə-62,8% və 2019-cu ildə-60,0% təşkil etmişdir. Daxili investisiyaların həcmi isə müvafiq illərdə 31,3-58,1% hüdudunda dəyişmişdir. Belə ki, müqayisə edilən illərdə ən çox daxili investisiyanın həcmi 2014-cü ildə 12,715 milyard manat olmuşdur. Eyni zamanda 2005-ci ilə nisbətən daxili investisiyaların artım həcmi 10,6101 milyard manat və ya 26,8% təşkil etmişdir (şəkil 5).




**Şəkil 5. İqtisadiyyatın və sosial sferanın inkişafına istifadə edilmiş investisiyalar**
Qeyd: Mənbə: [1, s.192-201] əsasında müəllif tərtib etmişdir

Azərbaycanın tikinti kompleksində kiçik müəssisələrin inkişafı ilə bərabər iri səhmdar cəmiyyətlər və MMC-lər və şirkətlər də fəaliyyət göstərir ki, bunların da sırasında “Kristal Abşeron”, “AS Group İnvestment”, “AROC LLC”, “Evrascon”, “ANT Group”, “Avesta Concern”, “Şərur MTK”, “EM Group İnşaat” MMC və digərlərini qeyd etmək olar. Qeyd edilən iri şirkətlərin fəaliyyəti əsasən investisiya və işgüzarlıq aktivliyinin yüksəldilməsini, təsərrüfat əlaqələrinin stabilləşməsini, tikinti təşkilatlarının rəqabət qabiliyyətinin yüksəldilməsini, yerinə yetirilmiş podrat işlərə görə sifarişçilərin ödəniş etməməsi təsirinin azaldılmasını, podrat işləri bazarının inkişafını təmin edir.

Yuxarıda qeyd edilənlərə əsasən aşağıdakı nəticələrə gəlmək olar:

1. Tikinti kompleksi və onu təşkil edən ayrı-ayrı təşkilatlar ölkənin istehsal-iqtisadi potensialının saxlanılması və inkişafında, material cəhətdən təminatın, həyat və istirahət şəraitinin yaxşılaşdırılmasında həlledici rol oynayırlar.

2. Ölkədə nisbətən əlverişli mühitin olmasına baxmayaraq, tikinti şirkətləri bu gün həm makroiqtisadi göstəricilərlə, həm də idarəetmədə daxili böhranla əlaqəli çətin şəraitlə üzləşirlər.

Azərbaycan iqtisadiyyatının inkişafı prosesində son illərdə investisiya istiqamətində aktivləşmə müşahidə edilir. Lakin əsas fondlarda yüksək aşınma dərəcəsinin olması xarak-

teri, investisiya qoyuluşlarının iqtisadiyyatın real sektorlarına istiqamətləndirilməsi üzrə istehsal gücünün yenilənməsi və genişləndirilməsi, həmçinin iqtisadi artımın sürətləndirilməsi məqsədi ilə daxili və xarici investorların cəlb edilməsinə nisbətən əlverişli mühitin yaradılmasını şərtləndirir. Onu da qeyd etmək lazımdır ki, investisiya aktivliyinin artırılmasına istehsal xərclərinin artımı, yüksək inflyasiya səviyyəsi maneçilik göstərir. Eyni zamanda investisiya prosesinə əhalinin əmanətləri də zəif cəlb edilir. Əmanətlərin artım strukturundakı dəyişiklik onların ən likvid formalardakı (nağd xarici və milli valyuta) xüsusi çəkisinin yüksəlməsinin sabit bir tendensiyanı əks etdirir. Əmanətlərin “Azərbaycan Fond Bazarı İştirakçılarının Assosiasiyası” İctimai Birliyinin (AFBİA) vasitəsilə investisiyalara çevrilməsi ümumilikdə zəifdir, belə ki, AFBİA-nın bu istiqamətdə fəaliyyəti həddən çox zəifdir. Azərbaycandakı tikinti şirkətlərinin fəaliyyətini və onlarla əlaqəli işlərdə, o cümlədən sifariş edilmiş tikinti, yaşayış, iaşə və digər məqsədli obyektlərin vaxtında, keyfiyyətlə tikilib təhvil verilməsi və digər sorgu suallarının cavablandırılmasında iştirak etmiş sifarişçilər və vətəndaşların qiymətləndirmə nəticələri və sorğu məlumatları əsasında müəllif tərəfindən şəkil 6 tərtib edilmişdir.

Məlumatlardan görünür ki, Azərbaycandakı tikinti şirkətlərinin müxtəlif məqsədli obyektlərin vaxtında və keyfiyyətlə tikilməsi ilə əlaqəli sifarişçi və vətəndaşların qiymətləndirmə sorğusunda ölkədə onların fəaliyyətinə yaradılmış iqtisadi vəziyyət üzrə ən yüksək qiymətləndirmə 17,3% təşkil etmişdir. Yüksək diymətləndimə sırasında ikinci yerdə şirkətlərin fəaliyyətinin keyfiyyət cəhətdən qiymətləndirilməsi-8,0%; üçüncü yerdə tikinti və s. avadanlıqlarla təmin edilmə-7,3%; son üç sırada isə tikinti şirkətlərinin istehsal gücündən istifadə səviyyəsi-6,0%; işin planlaşdırılmış müddətə yerinə yetirilməsi-4,0% və onların sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsi-3,4% təşkil etmişdir.




**Şəkil 6. Tikinti şirkətlərinin fəaliyyətinin sorğu əsasında qiymətləndirilməsi**
Qeyd: Bakı ş., Gəncə ş. və Sumqayıt ş. fəaiyyət göstərən tikinti şirkətləri üzrə müəllif sorğusunda 220 nəfərə suallar təqdim edilmiş, ondan 150 nəfər sorğunu cavablandırmışdır

Orta qiymətləndirmə səviyyəsində ilk üç sırada şirkətlərin fəaliyyətinə ölkədə yaradılmış iqtisadi vəziyyət - 62,0%; istehsal gücündən istifadə - 49,3%; şirkətlərin tikinti və s. avadanlıqlarla təmin edilməsi - 40,7% olduğu halda, son üç sırada şirkətlərin sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsi - 39,3%; şirkətlərin fəaliyyətinin keyfiyyət cəhətdən qiymətləndirilməsi - 38,0% və işin planlaşdırılmış müddətə yerinə yetirilməsi - 35,3% müəyyənləşdirilmişdir.

Aşağı qiymətləndirmə səviyyəsində ilk üç sırada işin planlaşdırılmış müddətə yerinə yetirilməsi - 60,7%; şirkətlərin sahibkarlıq fəaliyyətinin qiymətləndirilməsi - 57,3% və onların fəaliyyətinin keyfiyyət cəhətdən qiymətləndirilməsi - 54,0% təşkil etmiş, sonrakı 4-6-cı sırada isə şirkətlərin tikinti avadanlıqları ilə təmin edilməsi - 52,0%; tikinti şirkətlərinin istehsal gücündən istifadə səviyyəsi - 44,7% və onların fəaliyyətinə ölkədə yaradılmış iqtisadi vəziyyət - 20,7% olmuşdur.

**Nəticə**

Təhlil göstərir ki, Azərbaycanda tikinti şirkətlərinin fəaliyyətinə ölkədə yaradılmış iqtisadi vəziyyətin orta və yüksək göstəricisinin ən yüksək faiz (79,3%) təşkil etməsinə baxmayaraq onların digər sorğu göstəricilərindəki xüsusi çəkisinin istehsal gücündən istifadədə - 55,3%; şirkətlərin tikinti və s. avadanlıqlarla təmin edilməsi - 48,0%; onların fəaliyyətinin keyfiyyət cəhətdən qiymətləndirilməsi - 46,0%; şirkətlərin sahibkarlıq fəaliyyətinin bütünlükdə qiymətləndirilməsi - 42,7% və işin planlaşdırılmış müddətə yerinə yetirilməsi - 39,3% səviyyəsində olması bu müəssisələrin mövcud vəziyyətdən kifayət qədər yüksək istifadə edə bilməməsini əks etdirir. Buradan belə bir fikir formalaşır ki, ölkədə tikinti şirkətlərinin fəaliyyətinə optimal şərait yaradılmışdır, lakin onların mövcud fəaliyyəti bir o qədər də yüksək qiymətləndirilə bilməz, çünki bu sahədə ortaya çıxan problemlər həm tikinti şirkətlərinin fəaliyyəti və onların idarə edilməsindən qaynaqlanır, eyni zamanda tikinti işlərinin planlaşdırılmış müddətə başa çatdırılmaması, həm də onların istehsal gücündən səmərəli istifadə edilməməsi və s. ilə şərtləndirilə bilər. Bu yaranmış problemlərin, xüsusilə də yaşayış binalarının keyfiyyətlə tikilməsi, tikintinin hər kvadrat metrinə çəkilən xərclərin minimum səviyyədə olması, 2018-ci ildən başlayaraq tikintisi başa çatmış sosial evlərin bu mənzilləri almaq hüququ olan vətəndaşlara paylanması və s. kimi sosial məsələlərin həlli vacibdir. Beləliklə, bu problemlərin həllində "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nda nəzərdə tutulmuş müxtəlif təyinatlı obyektlərin vaxtında tikilərək istifadəyə verilməsinin və bu sahədə dövlət-özəl tərəfdaşlığının ölkədə fəaliyyət göstərən tikinti şirkətlərinə şamil edilməsinin xüsusi əhəmiyyət kəsb etməsi vacibdir.

Fikrimizcə, tikinti sferasının səmərəli fəaliyyətini şərtləndirən əsas amillərin ölkə iqtisadiyyatında rolu yüksək əhəmiyyət kəsb edir və danılmazdır.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycanda tikinti. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı. 2019, 264 s.
2. Agneşka Z.Y., Qans L., Staffan X. Low energy consumption compared to conventional residential homes: cost and profit. Journal of European research in the field of real estate. 2012, 5(3), pp.211-228

3. Атажанова Д.А. Проблема взаимообусловленности транспарентности строительной отрасли и инвестиционного климата регионов // Труды Вольного экономического общества России. 2016, Т. 198, с. 347–351.
4. Методика анализа эффективности организации производственных систем [Текст] / И.Н.Букреева, Н.Н.Голубь; под ред. Е.П.Ениной // Формирование экономической стратегии предприятия в современных условиях: монография. - Воронеж: ФГБОУ ВПО «Воронежский государственный технический университет». 2013, с. 50-60. 5.https://ru.wikipedia.org/wiki/ Список_стран_по_ВВП (ППС)

**Вилаят Исмайлов**
**Нахид Алмасов**

## РОЛЬ СТРОИТЕЛЬНЫХ ФИРМ В ТРАНСФОРМАЦИИ ЭКОНОМИКИ АЗЕРБАЙДЖАНА

***Резюме***

В статье подробно рассматриваются проблемы строительной отрасли и указываются основные функции (бюджетная, городостроительная, институциональная, консолидационная и стабилизационная) строительных организаций, определяющие их роль в экономике страны. В то же время отмечается проблемы в строительной отрасли, в том числе важность решения таких социальных вопросов, как: качественное строительство жилых домов, минимизация затрат на строительство, распределение законченных строительством социальных домов гражданам и т.д.

Также подчеркивается особое значение государственно-частного партнерства в этой сфере для действующих в стране строительных компаний и на основе анализа основных факторов, препятствующих эффективному функционированию строительной сферы в современных условиях, даются соответствующие предложения.

***Цель*** – определение роли строительных фирм в развитии экономики страны и внесение соответствующих предложений на основе анализа факторов, препятствующих их эффективной деятельности.

***Методология*** – в исследовательской работе были использованы методы построения системы сравнительных и аналитических показателей.

***Результат*** – проанализировая основные факторы, препятствующие эффективной деятельности строительной сферы, отмечается, что эта сфера играет решающую роль в развитии производственно-экономического потенциала страны, а также в улучшении условий жизни и отдыха.

***Ключевые слова*** – *строительство, экономика, производственно-экономический потенциал, развитие, эффективная деятельность, роль в экономике*

**Vilayat Ismayilov**
**Nahid Almasov**

**THE ROLE OF CONSTRUCTION FIRMS IN THE TRANSFORMATION OF THE AZERBAIJANI ECONOMY**

***Summary***

The article deals in detail with the problems of the construction industry and specifies the main functions (budget, urban planning, institutional, consolidation and stabilization) of construction organizations that determine their role in the country's economy. At the same time, problems in the construction industry are noted, including the importance of solving such social issues as: high-quality construction of residential buildings, minimizing construction costs, distributing completed social homes to citizens, etc.

It also emphasizes the special importance of public-private partnership in this area for the construction companies operating in the country and, based on the analysis of the main factors that hinder the effective functioning of the construction sector in modern conditions, makes appropriate proposals.

***Purpose*** **–** determining the role of construction companies in the development of the country's economy and making appropriate proposals based on the analysis of factors that hinder their effective activities.

***Methodology*** **–** In the research work, the methods of constructing a system of comparative and analytical indicators were used.

***Findings*** **–** After analyzing the main factors that hinder the effective operation of the construction sector, it is noted that this sector plays a crucial role in the development of the country's production and economic potential, as well as in improving living and recreation conditions.

***Keyword:*** *sconstruction, economy, production and economic potential, development, effective activity, role in the economy*

**Daxil olub: 27.01.2021**

**UOT 332.05**

**Pərvin Məmmədova**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası***
p.q.memmedova@gmail.com

# XARİCİ BAZARLARDA DAVİD ÇAYININ DƏYƏR TƏKLİFİNİN FORMALAŞDIRILMASI XÜSUSİYYƏTLƏRİ

*Məqalədə xarici bazarlara daxil olmaqla şirkətlərin payının genişləndirilməsində öz təcrübələrinin tətbiq edilməsi imkanları geniş açıqlanmaqla təşviqat strategiyasının gücləndirilməsində KİV və digər reklam vasitələrdən istifadə edilməsi xüsusiyyətləri qeyd edilir. Həmçinin, françayzinin biznesinin Rusiya bazarında işləmə xüsusiyyətinin göstərmək üçün A.Osterwalder və I.Pite'nin kətan biznes modelindən istifadə edilməklə David çayının dəyər təklifi formalşdırılmış, gəlirlərin mənbəyi, gəlirləri artırmağın yolları müəyyənləşdirilmişdir. Eyni zamanda, xərclərin növləri qeyd edilmiş və xərcləri qiymətləndirmək üçün investisiya planı tərtib olunmuşdur.*

***Məqsəd*** **–** xarici bazarlarda David çayının dəyər təklifinin formalaşdırılması xüsusiyyətlərinin müəyyən edilməsidir.

***Metodologiya*** – tədqiqat işində biznes modeli və müqayisəli təhlil metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticəsi*** **–** David çayının dəyər təklifi, gəlirlərin maksimallaşdırılması yolları müəyyənləşdirilmiş, xərcləri qiymətləndirmək üçün investisiya planı tərtib olunmuşdur.

***Açar sözlər:*** xarici bazar.reklam, françayzinq, investisiya planı, çayın xərcləri

## *Giriş*

Müasir dünyada beynəlmiləlləşmənin sürəti şirkətlərin böyüməsinə təsi göstərən vacib amillərdən biridir. Xarici bazara çıxmaq şirkətlərə daha geniş auditoriya cəlb etmək, istehsalı genişləndirmək, yeni təcrübə və bilik qazanmaq imkanı verir. Beynəlxalq şirkətlər inkişaf etməkdə olan ölkələrdə yeni bazarlara çıxmağa çalışırlar. Sürətlə böyüyən istehlak bazarlarına daxil olmaq şirkətlərə bazar payını artırmaq və genişləndirmək üçün öz təcrübələrini tətbiq etmək imkanı verir [5, s.37].

Tədqiqatın araşdırma obyekti, Monrealda yerləşən uğurlu bir Kanada "David's Tea"çay zənciridir. Şirkətin əsas fəaliyyəti eksklüziv çay qarışıqlarının satılmasına və isti içkilərin hazırlanmasına yönəldilir.

Məqalə, bazarda əsas rəqibləri hərtərəfli tanınmış şirkətlər olan yeni bir oyunçunun reklamının hərtərəfli olmasını və onun şirkətə verəcəyi töhfəni əhatə edır. David's Tea-nın Rusiya bazarında təmsil olunmaması və istehlakçılara tanış olmaması nəzərə alınaraq təşviqat strategiyasının əsas məqsədi Sankt-Peterburq bazarında marka məlumatlılığının artırılmasından ibarət olacaqdır. Bundan əlavə, əvvəllər qurulduğu kimi, David's Tea-nın potensial rəqiblərindən üstünlüyü onun daha aktiv marketinq fəaliyyətləri ilə məşğul olması hesab edilir [1]. Şirkət rəhbərliyi əmindir ki, markanı inkişaf etdirməyin ən yaxşı yolu müxtəlif reklam növlərini birləşdirməkdir. Bu səbəblərdən, təşviqat strategiyasını gücləndirmək üçün küçə, televiziya, sosial media və blloggerlər vasitəsilə reklamlardan istifadə edilməsi nəzərdə tutulmuşdur.

**1.KİV və digər təbliğat vasitələrindən istifadənin təsirliliyi**

**1.1. Küçə reklamı.** Reklamlardan istifadənin xarici bazarlarda mövcud çay növləri üçün tipik olmamasına baxmayaraq, David Çayı üçün bu tip reklamlar parlaq marka brendi səbəbindən olduqca təsirlidir. Bu məqsədlə əhali sıxlığı nisbətən yüksək olan metro stansiyalarında və avtobus dayanacaqlarda reklamın verilməsi məqsədəuyğun hesab olunur. Metroda bu tip reklamların xərci bahalıdır (1 billboard = ayda 70400 rubl), eyni zamanda ən təsirlidir. Yüksək qiymətə görə, park lövhələrinin təxmini istifadə müddəti dörd ay təşkil edir və bu zaman aşağıdakılar davamlı olaraq quraşdırılmalıdır:

• metro vaqonlarında 10 reklam (1 stiker = 1200 rubl);

• avtobus dayanacaqlarında 5 reklam (1 poster = 5600 rubl).

**1.2. Televiziya reklamı.** Bazarda daha çox insanın yeni bir şirkətin reklamını görmə ehtimalını artırmaq üçün, markanın istehlakçı məlumatlılığının formalaşması mərhələsində intensivliyi xüsusilə yüksək olan televiziya reklamlarından istifadə edilməsi məqsədəuyğundur. Reklamların başlanması üçün hədəf auditoriyası David Çayının tələblərinə cavab verən CTC kanalı seçilmişdir. Bu kanalın ümumi izləyicilərinin 39%-i 25-39 yaş arasında olan insanlardır. Orta və daha yüksək gəlirə malik olan tamaşaçıların payı bütün televiziya kanallarının izləyicilərinin 68%-ni təşkil edir. Eyni zamanda kanal optimal populyarlıq-qiymət nisbətinə əsasən seçilmişdir.

**1.3. Sosial Mediya.** Texnologiyanın sürətli inkişafı sosial media marketinqinin populyarlığının sürətlə artmasına səbəb olur. Həm David Çayı özü, həm də rəqibləri bu təbliğ metodundan fəal şəkildə istifadə edirlər. Bu, şirkət haqqında tam məlumat təqdim etməyin və hədəf istehlakçılarla yüksək dərəcədə dəqiqliklə əlaqə qurmağın ən təsirli yoludur. Üstəlik, sosial medianın istifadəsi yalnız şirkət haqqında məlumat verməyə deyil, həm də tanış olmayan bir bazara yeni bir marka çıxararkən vacib olan rəyləri almağa imkan verəcəkdir.

Rusiyada sosial şəbəkələrin sıralamasında lider mövqelər (populyarlığın azalma sırası ilə): V kontakte, Odnoklassniki, Facebook, Instagram-dır. Bu şəbəkələrdə franşiz sahibləri markanı fəal şəkildə tanıtmaqla tematik qruplar yaratmağa təşviq ediləcəklər: müntəzəm olaraq foto qalereyasını, promosyonlar və xüsusi təkliflər barədə məlumatları yeniləməklə yanaşı müştərilərdən rəy almaq və məhsulların gözləntilərinə uyğun məhsul hazırlamaq üçün ictimai müzakirələr təşkil etmək.

Sosial şəbəkələrə, həmçinin şirkət üçün David Çayının tələblərinə uyğun olaraq rus dilində rəsmi bir veb sayt yaratmaq lazımdır. Şirkətin formalaşma mərhələsində bazarda onlayne satış olmadığı üçün sayt məlumat xarakterli olacaqdır. Saytın əsas bölmələrində tam məhsul çeşidi, xüsusi təkliflər və promosyonlar haqqında məlumat olacaqdır. Platforma, kolleksiyaların mütəmadi olaraq yeniləndiyi satış yerində mövcud olan məhsula uyğun olaraq məhsul çeşidini qorumaq üçün davamlı şəkildə yenilənməlidir.

**1.4. Bloggerlər vasitəsi ilə reklam.**Texnologiyanın sürətli inkişafı getdikcə daha çox insanın sosial şəbəkələr vasitəsilə yeni şirkətlər haqqında məlumat əldə etməsinə səbəb oldu və sağlam qidalanma populyarlığının artması səbəbindən insanları həvəsləndirən, bəslənməyə kömək edən və idmana ruhlandıran çox sayda blogger var. Beləliklə, bu cür insanlar vasitəsilə təşkil olunan David Çayının reklamı çox sayda hədəf istehlakçısına çatacaqdır. Orta hesabla, 1000 abunəçi üçün rus bloggerlərin qiyməti təxminən 145 rubldur. Məsələn, şirkət məşhur Peterburq bloggeri, idmançı qadın və sağlam qida qurusu Natalya Sobolevanı şirkətinin istehlakçılarının təbii və sağlam məhsullar satması kimi qəbul etmələrini cəlb edə bilər. Onun 75,8 min nəfər abunəçisi vardır, buna görə də bir reklamın yerləşdirilməsi təqribən 11000 rubla başa gələcəkdir.

**2. Satış prosesinin təşviqi**

David's Çayının satışların təşviqinə çox əhəmiyyət verdiyi, xüsusən şirkətin istehlakçılarını müntəzəm şəkildə yenilənən yeni ləzzətlərlə tanış etmək üçün gündəlik olaraq iki növ çayın dequstasiyası keçirilir. Əlbətdə ki, franşize sahibinin bu təşəbbüsü davam etdirməsi lazımdır.

Əlavə olaraq, satışa çıxarıldıqdan sonrakı ilk ay ərzində istehlakçıları şirkətin çeşidinin bəzi qeyri-adi dadları ilə tanış etmək üçün hər bir müştəriyə David's Tea markalı çay və çay içkilərinin pulsuz kiçik nümunələrini almaq üçün mükafatlandırılma tövsiyə olunur.

Nəhayət, şirkət haqqında daha geniş məlumat yaymaq üçün, sağlamlığı, forması və qidalanması ilə maraqlanan insanların ən çox toplandığı yerlərdə David's Tea broşuralarının paylanmasına başlamaq lazımdır. Beləliklə, bu vəziyyətdə fitness otaqları və SPA mərkəzləri ən uyğun paylama kanalları kimi istifadə edilə bilər. 20000 broşur çapı şirkətə orta qiymətlə 16.500 rubla başa gələcək. Bütün marketinq təşviqi xərcləri investisiya planına daxil ediləcəkdir [3].

Françayzinin biznesinin Rusiya bazarında necə işləyəcəyini göstərmək üçün A.Osterwalder və I.Pite'nin kətan biznes modelindən istifadə edilmişdir (cədvəl 1) [4].

Rusiyada iş layihəsinin başlanması və həyata keçirilməsi üçün tələb olunan xərcləri qiymətləndirmək üçün investisiya planı tələb olunur. Kanada və ABŞ-dakı David's Çayının, Sankt-Peterburq bazarında rəqabət edən şirkətlərin mövcud fəaliyyətinə, habelə işin fəaliyyəti ilə əlaqəli potensial xərclərin qiymətləndirilməsinə əsaslanacaqdır. İnvestisiya planı, şirkət üçün hazırlanmış strategiyaya uyğun olaraq tərtib ediləcəkdir.

**Cədvəl 1. Françatzi biznesinin bazarda satışı üçün kətan biznes modeli**

<table>
<tr><th>Əsas tərəfdaşlar</th><th>Əsas fəaliyyətlər</th><th>Dəyər təklifi</th><th>İstehlakçılarla əlaqə</th><th>İstehlakçı seqmentləri</th></tr>
<tr><td rowspan="3">-David Çay Şirkəti<br><br>-Çay məhsulları və tamamlayıcı malların tədarükçüləri<br><br>-Nəqliyyat şirkətləri</td><td>-Çay məhsulları və tamamlayıcı malların satışı<br><br>-Rəsmi sayt dəstəyi<br>-Təchizat idarəetməsi<br>✓ Təchizat həcmlərinin koordinasiyası<br>-Məhsul çeşidinin təşviqi<br>-Marketinq qarışığı</td><td rowspan="3">-Sağlamlığına diqqət yetirənlər üçün ənənəvi və qeyri-ənənəvi çay içkiləri<br><br>-İstənilən tətillər üçün hazır hədiyyələr və markalı çay qabları almaq imkanı<br>-Çaydan bir metal qabda adi bir plastik torbada olduğu kimi eyni qiymətə almaq imkanı<br>-Xoş və əyləncəli alış-veriş prosesi</td><td>-Fərdi xidmət<br>✓ çay məsləhətçisi müştərini alışın bütün mərhələlərində müşayiət edir<br><br>- Rəsmi sayt<br>-Sosial şəbəkələr<br>✓ Вконтакте<br>✓ Одноклассники<br>✓ Instagram<br>✓ Facebook</td><td rowspan="3">-Həm ənənəvi, həm də qeyri-ənənəvi çay növlərini sevənlər<br>-Mövcud tendensiyaları izləyənlər<br>✓ sağlam həyat tərzi sürün (sağlam qidalanma populyarlığı sayəsində meyvə, giləmeyvə və bitki mənşəli çayların istehlakı artır)<br><br>-Gəlir səviyyəsi<br>✓ orta və ortalamadan yuxarı<br>-Yaş<br>✓ □ 25-45 yaş</td></tr>
<tr><td>Əsas mənbələr</td><td>Satış kanalları</td></tr>
<tr><td>• Fiziki<br>- Binalar, mebel, avadanlıq<br>• Ağıllı<br>-Güclü marka<br>-Tərəfdaş bazası<br>- Şirkət veb saytı<br>• Əmək<br>- Çay mütəxəssisləri<br>-Ləzzətli qarışıqları hazırlayanlar</td><td>-Özəl mağazalar<br>-Onlayn Satış<br>-Rəsmi veb sayt, sosial şəbəkələr, xarici reklamlar<br>-Çay içkiləri yeməkləri<br>-Spa, fitness otaqları və bloggerlər vasitəsi ilə reklam verin</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| | -Məhsul dizaynerləri<br>- Keyfiyyətə nəzarət heyəti<br>• Maliyyə<br>-Şirkətin fəaliyyətini dəstəkləmək üçün investisiyalar | | | |
| **Struktur xərclər** | | | **Gəlir axınları** | |
| • Birdəfəlik ödəmə və qonorar<br>• Malların alınması<br>• Marketinq fəaliyyəti<br>• Tərəfdaş xidmətləri üçün ödəniş | • İşçilərin inkişafı<br>• Kirayə haqqının ödənilməsi<br>• İşçilərin əmək haqqı | | • Çay və çay içkilərinin satışı<br>• Çay qabları və aksesuarlarının satışı<br>• Çay içkilərinin satılması | |

*Mənbə: [4] əsasında hazırlanmışdır*

**3. Françayzerin investisiya xərcləri**

Təhlil həm françayzer üçün, həm də franşiz alıcısı üçün qarşıdan gələn bütün xərclərin qiymətləndirilməsini və təxmini özünü ödəmə müddətini əks etdirəcəkdir, çünki əsas şirkətə satmaq üçün franşiz sahibinə çəkəcəyi təxmini investisiya xərcləri, eyni zamanda birdəfəlik ödəmə miqdarı və məbləği haqqında məlumat vermək lazımdır.

Hesablamalardan sonra alınan dəyərlər cədvəl 2-də təqdim olunur.

***Cədvəl 2.* Françayzerin investisiya xərcləri**

| Xərclərin növü | Məbləğ (rubl) |
|---|---|
| Birdəfəlik ödəmə | 500 000 |
| Royalti | gəlirlərdən 2% |
| Mebel + əsas avadanlıq | 250 000 |
| Əlavə et. Avadanlıq (kassa və s.) | 100 000 |
| Otaq bəzəyi | 300 000 |
| Məhsul + sarf materialları | 1 100 000 |
| Françayzer investisiya məbləği | 2 250 000 |
| Təxmini özünü ödəmə müddəti | 24 ay |

*Mənbə:* [6] əsasında hazırlanmışdır

Ounce və Cantata'dan alınan məlumatlar mebel və əsas avadanlıq xərclərini qiymətləndirmək üçün istifadə edildi və Şimali Amerika bazarlarındakı David Çayı ilə müqayisə edildi. Əlavə avadanlıq üçün xərclər, saytlara keçidləri aşağıda verilmiş Sankt-Peterburq bazarındakı operatorların qiymətləri əsasında müəyyənləşdirilmişdir. Hesablamalarda tələb olunan avadanlıq üçün orta qiymət istifadə edilmişdir. Bir otağı bitirmək üçün 70-90 kv. m. Sankt-Peterburqdakı inşaat təşkilatlarının orta qiymətindən istifadə edilmişdir. Baxılan təşkilatların qiymətləri kvadrat metr üçün 2500 rubldan (pay üçün) 4500 rubla qədər dəyişir. Mallar və sərf materialları (çantalar, birdəfəlik stəkanlar, qablaşdırma) üçün qoyulan investisiyaların miqdarı ilk 4-5 ay ərzində onların mövcudluğunu təmin edir.

Birdəfəlik ödəmənin 500000 rubl (12000 CAD) səviyyəsində təyin edilməsi tövsiyə olunur. Qiymət həm franşiz alan üçün, həm də françayzer üçün gəlir proqnozları və özünü ödəmə müddətinin təhlili əsasında müəyyən edilmişdir. Bazardakı potensial rəqiblərin

birdəfəlik töhfələri də nəzərə alınmışdır. Royalti dərəcəsi, franşiz alanın gəlirinin 2%-ni təşkil edir. Ümumiyyətlə, içki satışında franşiz dərəcəsi 1,5-5% aralığındadır. Sankt-Peterburq bazarında əsas potensial rəqiblər üçün orta qonorar dərəcəsi var. Bu səbəbdən David Çayı üçün tövsiyə olunan dəyər 2%-dir. Bu da rəqiblərdən daha yüksək olmayacaq və franşiza seçərkən investor üçün əlavə bir cəlbedici amil olacaqdır.

Hesablamaların nəticələrinə görə, David Çay çıxışının proqnozlaşdırılan geri ödəmə müddəti iki ildir. Şimali Amerika bazarlarında geri ödəmə əldə etmək daha qısa bir müddət tələb edir, ancaq Rusiyada tədqiqat aparılan brend marka tanış deyildir və bunu tanıtmaq üçün daha uzun bir müddətə ehtiyac vardır. Bu özünü ödəmə müddəti, Sankt-Peterburqdakı çay butik franşizaları üçün investisiya gəliri ilə müqayisə edilə bilər. Françayzinin iki illik dövr üçün pul vəsaitlərinin cari dəyəri təxminən 2278997 rubl təşkil edəcək. Gəlir nisbəti 12%-ə bərabərdir. Rusiya Federasiyasındakı risksiz gəlir dərəcəsi (8%) + ölkə riski mükafatı (4%). İnvestorun öz vəsaitlərindən tam istifadə edəcəyi (françayzerin franşizin ödəmə qabiliyyətinə zəmanət tələbi) olduğu güman edilir. Françayzinin əsas ticarət və inzibati xərcləri aşağıdakılardır: pərakəndə icarə, işçilərin əmək haqqı, məhsulların daşınması və reklam.

Bundan əlavə, françayzerin xərclərinə franşizanın təmin edilməsi ilə bağlı xərclər də daxildir (cədvəl 3).

*Cədvəl 3.* **Françayzerin ilkin sərmayəsi (rubl)**

| | |
|---|---|
| **ticarət güzəşt müqaviləsinin qeydiyyatı üçün dövlət rüsumu**<br>(ticarət nişanı + qorunan obyektlər üçün 5 sertifikat) | **44 000** |
| **giriş təlimi** (7 gün 8 saat): | **307 658** |
| - Montreala uçuşlar (gediş-dönüş) | 30 000 |
| - təlim heyəti + sarf materialları, iaşə və s.<br>(maaş 2 işçi / saat 30 dollar + pul müavinəti / gün 100 dollar + yemək 500 dollar) * | 205 200 |
| - yaşayış (1 otaq, 7 gecə, Novotel Montreal Center oteli) | 67 958 |
| - visa (ziyarətçi vizası haqqı = 100 $) | 4 500 |
| **Ümumi:** | **351 658** |

*Mənbə: müəllif tərəfindən tərtib edilmişdir*

Layihənin dizaynı üçün təxmin edilən xərc, David's Tea hesabatındakı məlumatlara görə təyin edilmişdir. Bir tövsiyə paketi hazırlamaq üçün David's Tea işçilərindən təxminən 3 gün (25 saat) bir dizayner lazımdır. Maliyyələr tələb olunan vaxta və Kanada-dakı bir iş üçün orta əmək haqqına (saatda 20 dollar) əsasən müəyyən edilmişdir. Françayzer üçün biznes dəstəyinin xərcləri maliyyə analitik üçün tövsiyələr hazırlamaq üçün tələb olunan vaxt nəzərə alınmaqla oxşar şəkildə hesablanmışdır. Xüsusi bir vəziyyətə uyğunlaşdırılan proqnozlar vermək üçün standart şablonlardan istifadə edildiyi üçün onlar böyük deyildir.

**Nəticə**

Məqalədə xarici mühitin təhlili və David Çayının rəqiblərlə müqayisəsi əsasında şirkətin özəl strategiyaları müəyyənləşdirilmiş və David Çayının Rus istehlakçısı üçün dəyər təklifi formalaşdırılmışdır. Çıxış forması olaraq birbaşa françayzinq lehinə seçilmişdir ki, bu da ilk növbədə şirkətin bazarda təcrübəsinin azlığı və istehlakçıların marka barədə məlumatsızlığının müəyyən risklərlə üzləşməsi ilə əsaslandırılmışdır.

Nəticədə hədəf auditoriyası və Rusiya bazarında David çayının dəyər təklifi, eyni zamanda da gəlirlərin mənbəyi, gəlirləri artırmağın yolları müəyyənləşdirilmişdir. Gəlirlərlə yanaşı sturuktur xərclər barədə məlumatlar verilmiş, xərclərin növləri qeyd edilmiş və xərcləri qiymətləndirmək üçün investisiya planı tərtib olunmuşdur.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Российский рынок чая. Товарный и рекламный аспекты. [Электронный ресурс]: Обзор рынков AdIndex Market // Сайт AdIndex. ─ URL: https://adindex.ru/markets2/tea.phtml
2. Рынок чая России в 2001-2016 гг. [Электронный ресурс]: Investor relations regulatory filings // Экспертно-аналитический центр агробизнеса "АБ-Центр". ─ URL: http://ab-centre.ru/news/rynok-chaya-rossii-v-2001-2016-gg
3. Маркетинг в социальных сетях [Электронный ресурс] // Artox Media. – URL: https://smm.artox-media.ru/wiki/smm-marketing.html
4. Маркетинговое сопровождение [Электронный ресурс] // Новые Бизнес Технологии. – URL: http://www.gk-nbt.ru/service/marketing.php
5. Anoop Madhok, «Cost, Value, and Foreign Market Entry Mode: The Transaction and the Firm», Strategic Management Journal, vol. 18 (1997), p. 37.
6. https://www.davidstea.com/


**Парвин Мамедова**

## ХАРАКТЕРИСТИКИ ФОРМИРОВАНИЯ ЦЕНОВОГО ПРЕДЛОЖЕНИЯ НА ЧАЙ ДАВИД НА ВНЕШНИХ РЫНКАХ


***Резюме***

В статье подчеркиваются особенности использования СМИ и других рекламных средств в усилении стратегии агитации с широким раскрытием возможностей применения собственного опыта в расширении доли компаний при выходе на внешние рынки. Также, чтобы показать специфику работы бизнеса франчайзи на российском рынке, с помощью льняной бизнес-модели А.Остервальдера и И.Пита формализовано ценностное предложение David Tea, определен источник доходов, и пути к максимизации доходов. При этом фиксировались виды затрат и составлялся инвестиционный план по оценке затрат.

***Цель*** – определить особенности формирования ценностного предложения чая Давид на зарубежных рынках.

***Методология*** – в исследовательской работе использовались бизнес-модель и метод сравнительного анализа.

***Результаты исследования*** – определение ценностного предложения чая Давид, способы максимализма доходов и разработка инвестиционного плана для оценки затрат.


***Ключевые слова:*** *внешний рынок, реклама, франчайзинг, инвестиционный план, расходы чая*

**Parvin Mammadova**

## CHARACTERISTICS OF FORMATION OF DAVID TEA PRICE SUPPLY IN FOREIGN MARKETS

***Summary***

The article highlights the peculiarities of using mass media and other advertising means to strengthen the campaign strategy with a wide disclosure of the possibilities of applying their own experience in expanding the share of companies when entering foreign markets. Also, to show the specifics of the franchisee's business in the Russian market, using the linen business model A.Osterwalder and I.Piet formalized the value proposition of "David Tea", defined the source of income, and ways to maximize income. At the same time, the types of costs were recorded and an investment plan was drawn up to assess the costs.

***Purpose*** – this is the definition of the features of the formation of the value proposition of David's tea in foreign markets.

***Metodology –*** the research work used a business model and a comparative analysis method.

***Findings –*** determining the value proposition of David Tea, ways to maximize revenue, and developing an investment plan to assess costs.

***Keywords:*** foreign market.advertising, franchising, investment plan, tea costs.

**Qəbul edilib: 25.02.2021**

**UOT 378.48**

**Aygün Səmədova**
***Azərbaycan Kooperasiya Universiteti, dissertant***
aygün.samedova@yahoo.com

**Ülviyyə Xəlilzadə**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant***
ulya_kerimova1992@mail.ru

# ƏHATƏ MATRİSİ GÖSTƏRİCİLƏRİ ƏSASINDA AZƏRBAYCANDA BEYNƏLXALQ TURİZM SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİ

*Azərbaycanda turizmin inkişafına təkan verən beynəlxalq turist axınının cəlb edilməsinin sürətləndirilməsi və əhatə matrisi göstəriciləri əsasında ölkələrin reytinqinin qiymətləndirilməsi məsələləri tədqiq edilmişdir.*

*Beynəlxalq turist axınının sürətləndirilməsi istiqamətində bir sıra tədbirlərin yerinə yetirilməsi qeyd edilmiş, praktiki əhəmiyyətli nəticə və təkliflər verilmişdir.*

***Məqsəd*** – Azərbaycanda beynəlxalq turizm səviyyəsinin əhatə matrisi göstəriciləri əsasında yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsidir.

***Metodologiya*** – tədqiqar işində müqayisə və analitik göstəricilər sisteminin qurulması metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – əhatə matrisi göstəriciləri əsasında ölkələrin reytinqinin qiymətləndirilməsi məsələləri tədqiq edilmiş, Azərbaycanın bu istiqamətdə reytinqi müəyyənləşdirilmiş və onun yüksəldilməsi üzrə müvafiq təkliflər verilmişdir.

***Açar sözlər:*** *beynəlxalq turizm, inkişaf, amillər, beynəlxalq turist axını, reytinq, yüksəldilmə*

## Giriş

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 06 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”-də 2020-ci ilədək iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışının hazırlanması nəzərdə tutulmuşdur. Bu inkişaf strategiyasının prioritet istiqamətlərdən biri kimi ixtisaslaşmış turizmin müəyyənləşdirilməsi turizmin inkişafı istiqamətində görülən işlərin davamlılığına xidmət edir. Həmin strategiya Azərbaycan Respublikasının cəlbedici turizm məkanı kimi qabaqcıl mövqe tutmasına imkan yaratmaqla ölkə ərazisində olan turizm potensiallarından səmərəli istifadə edilməsinə, turizm sektorunda fəaliyyət göstərən müəssisələrin əməkdaşlığının inkişafına və bu sahədə keyfiyyətin yüksəldilməsinə gətirib çıxaracaqdır. Strateji Yol Xəritəsi nəzərdə tutulmuş müddətlər ərzində turizm sektorunun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksək keyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması, müasir ideya və innovasiyalara əsaslanan yeni investisiya layihələrinin cəlb edilməsi və turizmin inkişafı ilə əlaqədar aidiyyəti orqanların qarşılıqlı koordinasiyası kimi tədbirləri özündə ehtiva edir [3, s.4-9].

Qeyd etmək lazımdır ki, həm xarici, həm də daxili amillər turizmin inkişafına, beynəlxalq turizm axınının dəyişməsinə, xüsusilə turizm sahəsində investisiya və digər fəaliyyət istiqamətlərinə nisbətən sahənin gəlirliliyinə müsbət və mənfi təsir göstərə bilər. Odur ki, turizmin inkişafına təsir edən əsas amillər və əhatə matrisi göstəriciləri əsasında Azərbaycanda beynəlxalq turizmin reytinqinin tədqiq edilməsi xüsusi aktuallıq doğurur.

Tədqiqatın predmeti beynəlxalq turizm səviyyəsinin əhatə matrisi göstəriciləri əsasında təlili, qiymətləndirilməsi və yüksəldilməsindən ibarətdir.

Tədqiqat obyekti beynəlxalq turizm axınını təmin edən ölkələrdir.

İşin elmi yeniliyi beynəlxalq turizm səviyyəsinin qiymətləndirilməsi alqoritminin işlənib hazırlanmasını və dünya turizm bazarında liderlik edən və keçmiş sovetlər ittifaqı ölkələri timsalında turist axınının sürətləndirilməsini ehtiva edir. Müəllifin fərziyyəsinə görə, Azərbaycanda beynəlxalq turizm səviyyəsinin yüksəldilməsi şəraitində əhatə matrisi göstəricilərindən istifadə etməklə turist axınının sürətləndirilməsinin qiymətləndirilməsi onun aktuallığını artırır.

**Mövcud ədəbiyyatlara istinad**

Turizmin inkişafına təkan verən əsas amillərdən biri ölkəyə beynəlxalq turist axınının cəlb edilməsinin sürətləndirilməsidir. Beynəlxalq turizmin səmərəli inkişaf etdirilməsi dövlətlərarası müqavilə münasibətləri əsasında həyata keçirilir. Beynəlxalq turizmin səmərəli inkişafını əks etdirən dövlətlərarası müqavilənin predmeti turistdir. Odur ki, dövlətlərarası müqavilə müasibətləri müəyyənləşdirilmədən beynəlxalq turizmin həyata keçirilməsi, həmçinin onun şərtlərinin həyata keçirilməsi mümkün deyildir. Belə ki, dövlətlər arasında bağlanılan razılaşmalarda yalnız beynəlxalq turist göndərmələri, dəyişmələrin prinsipləri, müqavilənin məqsəd və vəzifələri deyil, həmçinin turistlərin səyahət zamanı onlara bu müqavilədə öz əksini tapmış gömrük imtiyazlarının həcmi, müxtəlif ölkələrdə olduqları müddətdə onların hərəkətetmə və sığortalanmasını təmin edən şərtlərlə bərabər sərhəddində olduğu qonşu dövlətin ərazilərinə tranzit qismində keçmə müddəti də göstərilməlidir [İsmayılov, 2018:85-91].

Beynəlxalq turizmin inkişaf meyilləri xarici və daxili amilləri əhatə edən bazarın tələbat konyunkturasından və insanların səyahətləri həyata keçirmək istəyindən, həmçinin müxtəlif səfərlərdən müsbət təəssüratlar əldə etməsindən asılıdır [Lavrova, 2017: 6-17].

Beynəlxalq turist münasibətləri kompleks şəkildə həyata keçirlir, onlar dövlətlərarası münasibətlərə bilavasitə təsir göstərir, həmçinin beynəlxalq ictimai hüquq normalarını tənzimləyir.

Beynəlxalq turizm (xarici turizm) – digər ölkəyə səyahətlərdir və “Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin başqa ölkəyə səyahətləri” kimi müəyyənləşdirilir. Başqa sözlə, beynəlxalq turizm daimi yaşadığı ölkənin hüdudlarından kənara turist məqsədi ilə səyahət edənlərdir, daha dəqiq desək: beynəlxalq turizm - ölkələrarası müqavilələr əsasında həyata keçirilən səyahətlər sistemi başa düşülür [İsmayılov, 2019: 29].

Beynəlxalq turist münasibətləri kompleks şəkildə həyata keçirlir, onlar dövlətlərarası münasibətlərə təsir göstərir, beynəlxalq ictimai hüquq normalarını tənzimləyir:

- beynəlxalq şəxsi hüquq normlarını tənzimləyən xarici hüquqi şəxslərin münasibətləri;
- vətəndaş - hüququ tənzimlənməyə aid olan, iştirakçı ölkələrin hər hansı birinin hüdudları ilə məhdudlaşmayan turist dəyişməsi zamanı meydana çıxan münasibətləri və s. [İsmayılov, 2019: s.30].

Beynəlxalq turizm fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi istiqamətində

aparılmış tədqiqatlarda əsas göstəricilər qrupları, həmçinin səmərəliliyin hesablanması üsulları təhlil edilmişdir. Həmçinin, beynəlxalq turizm fəaliyyətinin aşkar edilmiş xüsusiyyətləri əsasında səmərəlilik dərəcəsinə təsir göstərən amillər qrupunun, o cümlədən beynəlxalq turizm fəaliyyətinin səmərəliliyinin əsas meyarlarının ayrılması təklif olunur. Təklif olunan göstəricilər sistemi əsasında fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi və Rusiya və Çin turizm şirkətlərinin müvafiq müqayisəli təhlili aparılmışdır [Kostin, 2019: 540-553].

Beynəlxalq turizmin inkişaf etdirilməsi istiqamətində tədqiqatçıların əldə etdikləri nəticələri ümumiləşdirməklə, belə bi fikir formalaşdırmaq olar ki, bi sferanın ölkə iqtisadiyyatında rolu yüksəkdir və onun UDM-də, ÜMM-də xüsusi çəkisinin getdikcə artması həmin sahədə xərclərin həcminə mütənasib olaraq yüksək gəlirin əldə olunması gözləniləndir və bu da bilavasitə ölkədə dayanıqlı iqtisadiyyatı təmin edən əsas amillərdən biri hesab edilir.

**Azərbaycanda beynəlxalq turizmin reytinqinin qiymətləndirilməsi**

Reytinq ingilis dilindən götürülmüşdür. Rus dilində reytinq sözü XX əsrin ortalarında əvvəlcə idman sahəsində fərdi göstəricilər üzrə nailiyyətlərin əhəmiyyətinin müəyyənləşdirilməsində, sonradan isə digər idman növlərində aktiv istifadə olunmağa başlamışdır. XX əsrin ikinci yarısından bu termin hər hansı bir təşkilatın, televiziya və ya radio verilişlərinin, tanınmış şəxslərin geniş populyarlıq göstəricisi kimi şərh edilməyə başlanılmışdır.

Dominant iqtisadi dəyərlərdə reytinq sözünün istifadəsinə keçən əsrin 90-cı illərindən, yəni bazar iqtisadiyyatı formalaşan dövrdən başlanılmışdır. Lakin bu dəyərlər ingilis dilinin maliyyə-iqtisadi leksionunda olan fikirlər spektrini əks etdirir.

Beynəlxalq turizmin səmərəlilik səviyyəsi və ölkədə onun reytinqinin yüsəldilməsi çox sayda amillərdən asılıdır. Belə amillərə turizm müəssisələrinin fəaliyyət göstərdiyi ölkənin maliyyə-iqtisadi fəaliyyətinin ümumi inkişaf səviyyəsini, investisiya, fiskal və maliyyə siyasəti məsələlərini, strateji siyasətin formalaşdırılmasında dövlətin prioritetlərini, konkret şəkildə dəyər dəstinin iqtisadi qiymətləndirilməsi göstərilərini, habelə turizm sahəsində fəaliyyət göstərən müəssisələrin fəaliyyətinin elektron mühitə keçməsinə gətirib çıxaran rəqəmsal iqtisadiyyatın və dövlətlərdə informasiya-kommunikasiya texnologiyalarının inkişafını da aid etmək olar [Kostin, Berezovskaya, 2017: 4071-4086].

Beynəlxalq turizmin fəaliyyətinin səmərəliliyinə təsir göstərən əsas spesifik amillərə aiddir:

- turizm destinasiyalarının cəlbediciliyi;
- xidmətlərin (əsas və əlavə) kəmiyyət və keyfiyyəti;
- turizm xidmətlərinin qiymətləri;
- beynəlxalq turistlərin ödəməqabiliyyətli olmaları;
- turizm destinasiyalarında pul resurslarının xərclərinə olan meyllilik;
- turizmin mövsümüliyi;
- turizm sferası müəssisələrinin beynəlxalq turistlərə satdıqları yollayışların sayı;
- turizm sferası müəssisələrinin gəlirləri və s.

Onu da qeyd etmək lazımdır ki, beynəlxalq turizmin inkişafına təsir göstərən amillər müsbət və mənfi təsirlidir (cədvəl 1).

Qeyd etmək lazımdır ki, beynəlxalq turizm fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi üçün iki variant vardır və bunlar şəkil 1-də verilir. Beləliklə, şəkildən belə nəticə çıxarmaq olar ki, beynəlxalq turizm fəaliyyətinin səmərəliliyinin hesablanmasına birmənalı yanaşma yoxdur və deməli, bu məsələ aktualdır. Beynəlxalq turizm fəaliyyətinin iqtisadi səmərəliliyi maliyyə-təsərrüfat fəaliyyətinin ümumi səmərəliliyinin elementlərindən birini

təşkil edir, müəyyən göstəricilər və onların əhəmiyyətlilik meyarları vasitəsilə müəyyən edilir.

***Cədvəl 1***

**Beynəlxalq turizmin inkişaf amillərinin təsnifatı**

| S/N | Turizmin inkişafına müsbət təsir göstərən amillər | Turizmin inkişafına mənfi təsir göstərən amillər |
|---|---|---|
| 1 | - Ölkənin coğrafi vəziyyəti;<br>- dəniz və okean çimərliklərinin miqdarı;<br>- təbiət parklarının miqdarı. | - Nəqliyyat marşrutlarından uzaqlığı və turistlər üçün ölkə ərazilərinə gəlmə çətinliyi;<br>- su hövzələrinin, dəniz və okean çimərliklərinin olmaması. |
| 2 | - Komfortlu iqlim şəraiti və temperatur rejimi | - Sərt iqlim, günəşli və isti günlərin sayının azlığı |
| 3 | - Zəngin təbii-resurs potensialının mövcudluğu | - Eyni formalı lanşaftların miqdarı, müxtəlif formalı flora və faunanın olmaması |
| 4 | - Müxtəlif komfortluga malik obyektlərin miqdarı;<br>- kurort istirahəti obyektlərinin bir-birindən kəskin fərqliliyi;<br>- beynəlxalq şəbəkəli mehmanxanaların (otellərin) miqdarı | - Yüksək səviyyəli mehmamxanaların (otellərin) ölkənin mərkəzi şəhərlərində yerləşməsi;<br>- turistlərin yerləşdirilməsi vasitələrinin çatışmazlığı;<br>- kurort istirahəti obyektlərinin çatışmazlığı və inkişaf etməməsi |
| 5 | - Mədəni-tarixi əhəmiyyətli obyektlərin miqdarı;<br>- ölkə ərazisində səyahət marşrut şəbəkələrinin hərtərəfli inkişafı | - Mədəni-tarixi əhəmiyyətli obyektlərin olmaması;<br>- səyahət marşrut şəbəkələrinin pis inkişafı |
| 6 | - turistlərin təhlükəsizliyinin yüksək səviyyədə olması;<br>- ölkədə siyasi sabitlik;<br>- terror təhlükələrinin aşağı səviyyəsi | - turistlərin təhlükəsizliyinin kifayətedici səviyyədə olması;<br>- siyasi qeyri sabitliyin mövcudluğu;<br>- terror təhlükələrinin yuxarı səviyyəsi |
| 7 | - Əhalinin rifanının yüksək səviyyədə olması<br>- turistlərə sosial təminatın olması;<br>- turistlərə servis və səhiyyə xidmətinin yüksək olması | - Əhalinin rifanının aşağı səviyyədə olması;<br>- sosial təminatın zəif inkişaf etməsi;<br>- turistlərə servis və səhiyyə xidmətinin aşağı olması |
| 8 | - Ölkənin inkişafının texnoloji səviyyəsinin yüksək olması;<br>- mobil əlaqə və internetin inkişafı;<br>- yaşayış və istirahət üçün komfortlu şəraitin mövcudluğu | - Ölkənin inkişafının texnoloji səviyyəsinin aşağı olması;<br>- mobil əlaqə və internetin kifayət səviyyədə olmaması;<br>- yaşayış və istirahət üçün komfortlu şəraitin olmaması |
| 9 | - Əhalinin ödəmə qabiliyyəliliyinin yüksəldirlməsi;<br>- iqtisadi stabillik, böhranların olmaması | - Əhalinin ödəmə qabiliyyəti səviyyəsinin aşağı düşməsi;<br>- iqtisadi stabilliyin aşağı səviyyəsi, böhranların yaranması fazasının artması |

*Qeyd: [5-7] məlumatları əsasında müəlliflər tərtib etmişdir*

Beynəlxalq turizm fəaliyyətinin reytinqi onun səmərəliliyini müəyyənləşdirir. Bu baxımdan da reytinq bir çox mənalarda istifadə edilir. Beləliklə, reytinqdən qiymətli kağızların keyfiyyətinin və ya potensial borclarının ödəməqabiliyyəti səviyyəsinin qiymətləndirilməsi kimi də iqtisadiyyatda istifadə edilir. Odur ki, konkret şəkildə beynəlxalq turizmin dəyər dəstinin iqtisadi qiymətləndirilməsində dərəcə, qiymətləndirmə; maliyyə vəziyyətinin qiymətləndirilməsi; dəyərin müəyyən edilməsi; təsnifat (dərəcə, kateqoriya); dərinlik; vergitutma; vergilərin cəmi; nominal güc, nominal xarakteristika; məhsuldarlıq və s.istifadə edilə bilər.




**Şəkil 1. Beynəlxalq turizm fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi yanaşmaları**
Qeyd: [3] əsasında müəlliflər tərtib etmişdir

Qeyd edilən bu göstəricilər əsasında reytinq agentlikləri və ya kredit reytinqləri agentliyi borc qiymətli kagızların və ya borcalanların ödəmə qabiliyyətini və riskini daha dəqiq qiymətləndirə bilir. Bu zaman, müvafiq agentliklər investorları və kreditorları məlumatlandırmaq üçün etibarlılıq dərəcəsinə görə sıralamaqla onların bu və ya digər reytinqə malik olduğunu təyin edirlər.

**Əhatə matrisi göstəriciləri əsasında ölkələrin reytinqinin sıralanması**

Dünya ölkələrinin reytinqi bir sıra müəyyənləşdirilmiş göstəricilər əsasında hesablanır. Bu göstəricilərə ölkələrin iqtisadiyyatı, demoqrafiya, energetika, torpaq resursları, kənd təsərrüfatı, nəqliyyat, səhiyyə, telekommunikasiyalar, müdafiə qüdrəti, xarici ticarət, təhsil, turizm, cinayətkarlıq, ətraf mühit, dünya üzrə kasıblıq reytinqi, ərzaq təhlükəsizliyi, su ehtiyatları, tədqiqatlar və işlənilməsi və s. aid edilir. Qeyd edilmiş bu 19 sayda göstəricilər əsasında bəzi ölkələrin müqayisəli təhlil əsasında reytinqini müəyyənləşdirmək olar.

Reytinqin müəyyənləşdirilməsi üzrə iqtisadi göstəricilər sırasına sabit qiymətlərdə ÜDM-in artım tempi, ÜDM, alıcılıq qabiliyyəti paritetində (AQP) ÜDM, adambaşına ÜDM, adambaşına AQP-də ÜDM, istehlak qiymətləri indeksi (İQİ), işsizlik səviyyəsi, cari əməliyyatların hesabı balansı, ÜDM-də faizlə cari əməliyyatların hesabı balansı, cəmi dövlət borcu, kasıblıq səviyyəsi, beynəlxalq ehtiyatlar daxildir.

Keçmiş sovetlər ittifaqı və bir neçə qonşu ölkələrin yuxarıda qeyd edilən 19 göstərici əsasında reytinqi ölkələr üzrə hesablanmış məlumatlara əsasən sıralanır . Reytinqin dəqiq müəyyənləşdirilməsi zamanı ölkələr üzrə daha ətraflı təhlil aparılması məqsədilə məlumatlar əhatə matrisindən istifadə göstəricisindən əldə edilmişdir (cədvəl 2) [9-11].

*Cədvəl 2*

**Keçmiş sovetlər ittifaqı ölkələri və bəzi qonşu ölkələrin məlumatlar əhatə matrisinin göstəriciləri**

| Ölkələr | Göstəricilər | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **Kasıblıq** | **Xarici ticarət** | **Su ehtiyatları** | **Demoqrafiya** | **Səhiyyə** | **Torpaq resursları** | **Tədqiqatlar və işləmələr** | **Dünya reytinqləri** | **Müdafiə** | **Təhsil** | **Ətraf mühit** | **Cinayətkarlıq** | **Ərzaq təhlükəsizliyi** | **Kənd təsərrüfatı** | **Telekommunikasiyalar** | **Nəqliyyat** | **Turizm** | **İqtisadiyyat** | **Energetika** | **Cəmi** |
| 0 | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| Estoniya | 259 | 189 | 58 | 397 | 463 | 42 | 64 | 64 | 7 | 799 | 187 | 39 | 9 | 513 | 190 | 96 | 139 | 520 | 140 | 4175 |
| Latviya | 258 | 189 | 57 | 390 | 465 | 43 | 43 | 61 | 7 | 801 | 176 | 43 | 8 | 536 | 186 | 100 | 136 | 511 | 140 | 4150 |
| Litva | 255 | 192 | 59 | 383 | 443 | 43 | 46 | 60 | 7 | 787 | 181 | 45 | 8 | 529 | 188 | 101 | 137 | 509 | 149 | 4122 |
| Türkiyə | 226 | 144 | 49 | 260 | 347 | 16 | 63 | 78 | 7 | 52 | 135 | 41 | 8 | 203 | 166 | 72 | 58 | 304 | 131 | 2828 |
| Rusiya | 10 | 66 | 23 | 103 | 92 | 9 | 53 | 77 | 7 | 79 | 45 | 23 | 8 | 106 | 13 | 27 | 34 | 61 | 55 | 891 |
| Ukrayna | 10 | 68 | 22 | 93 | 60 | 6 | 12 | 64 | 5 | 40 | 32 | 15 | 7 | 101 | 9 | 24 | 18 | 45 | 73 | 704 |
| Gürcüstan | 10 | 61 | 22 | 96 | 59 | 6 | 10 | 56 | 4 | 39 | 29 | 12 | 6 | 78 | 9 | 19 | 12 | 43 | 57 | 628 |
| Moldova | 10 | 59 | 22 | 93 | 58 | 3 | 9 | 52 | 4 | 41 | 29 | 13 | 6 | 67 | 8 | 21 | 10 | 44 | 62 | 611 |
| Azərbaycan | 9 | 50 | 22 | 106 | 61 | 3 | 10 | 49 | 4 | 35 | 25 | 11 | 7 | 67 | 9 | 20 | 11 | 43 | 29 | 571 |

| 0 | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ermənistan | 11 | 49 | 22 | 96 | 59 | 3 | 9 | 52 | 4 | 43 | 25 | 13 | 6 | 64 | 9 | 15 | 10 | 43 | 22 | 555 |
| Belorus | 8 | 49 | 22 | 91 | 57 | 5 | 10 | 45 | 4 | 29 | 27 | 12 | 7 | 80 | 7 | 17 | 14 | 42 | 27 | 553 |
| Qazaxstan | 11 | 46 | 22 | 45 | 56 | 3 | 8 | 62 | 4 | 32 | 27 | 14 | 7 | 72 | 11 | 18 | 12 | 32 | 41 | 523 |
| Qırğızıstan | 11 | 42 | 22 | 47 | 59 | 3 | 6 | 52 | 4 | 33 | 23 | 15 | 6 | 60 | 8 | 9 | 9 | 31 | 21 | 461 |
| İran | 6 | 49 | 20 | 23 | 43 | 3 | 7 | 52 | 4 | 25 | 23 | 10 | 7 | 77 | 8 | 15 | 13 | 27 | 41 | 453 |
| Tacikistan | 9 | 40 | 21 | 46 | 55 | 3 | 6 | 48 | 3 | 31 | 22 | 11 | 5 | 59 | 7 | 7 | 9 | 28 | 17 | 427 |
| Özbəkistan | 9 | 40 | 20 | 43 | 55 | 3 | 6 | 37 | 4 | 28 | 23 | 6 | 6 | 58 | 6 | 9 | 9 | 25 | 19 | 406 |
| Türkmənistan | 9 | 37 | 20 | 32 | 51 | 3 | 4 | 30 | 3 | 24 | 21 | 8 | 6 | 55 | 6 | 8 | 8 | 24 | 24 | 373 |

*Qeyd: [9-11] məlumatları əsasında müəlliflər hazırlamışdır*

Məlumatların təhlilindən göründüyü kimi, qiymətləndirmə vahidinin ən yüksək qiymətləri bir sıra göstəricilərdə, o cümlədən kasıblıq üzrə Estoniya, Latviya, Litva və Türkiyə üzrə 226-259 hüdudunda, xarici ticarət və su ehtiyatına görə Litvada 192 və 59, demoqrafiyaya görə Estoniya 397 və s. olmuşdur. Həmçinin, yuxarıda qeyd edilən göstəricilərin cəmi üzrə ən yüksək pillədə Estoniya (4175 q.vahidi), növbəti pillərdə isə Latviya, Litva və Türkiyə yerləşmişdir. Rusiya, Ukrayna, Gürcüstan və Moldavadan sonra Azərbaycan 9-cu sıradadır. Müqayisə edilən ölkələr içərisində son üç pillədə Tacikistan, Özbəkistan və Türkmənistan yerləşmişdir. Qeyd etmək lazımdır ki, öndə yerləşmiş ölkələrdə əsas yüksək qiymətləndirilmə kasıblıq, xarici ticarət, səhiyyə, demoqrafiya, təhsil, ətraf mühit, kənd təsərrüfatı, telekommunikasiyalar, turizm, iqtisadiyyat və energetika sahələrində nəzərə çarpır. İlk beşlikdə yer almış ölkələr üzrə bu göstəricilərdən alınmış qiymətləndirmə vahidləri Estoniyada cəmi ümumi qiymətləndirmə vahidinin 90,9%-ni, Latviyada 91,2%-ni, Litvada 91,1%-ni, Tükiyədə 71,6%-ni və Rusiyada 74,5%-ni təşkil etmişdir. Azərbaycanda reytinq göstəricilərinin yüksək səviyyəyə çatdırılması məqsədilə dövlət və müvafiq təşkilatları Srtateji Yol Xəritələri üzrə tədbirlər planı və Dövlət Proqramları hazırlamaqla xarici təcrübələrdən bəhrələnməli və onun həyata keçirilməsi istiqamətində müvafiq işlərin yerinə yetirilməsini təmin etməlidir.

**Azərbaycanda beynəlxalq turizm dinamikasının təhlili**

Turizm sferasında reytinqin müəyyənləşdirilməsi üzrə göstəricilərə gəlmə və getmələr üzrə turistlərin sayı, turizmin xərcləri, idxalın cəmində faizlə turizm xərcləri, sərnişin nəqliyyatı xərcləri, səyahət üçün əmtəələrin xərci, beynəlxalq turizmdən daxilolmalar, ixracın cəmində faizlə beynəlxalq turizmdən daxiollmalar, sərnişin nəqliyyatından daxilolmalar, səyahət üçün əmtəələrdən daxilolmalar aiddir.

Daha geniş mənada turizm sferası üzrə reytinqin müəyyənləşdirilməsində əsasən aşağıdakı göstəricilər mühüm hesab edilir:

- turizmin açar göstəriciləri: gəlmə və getmə turistlərinin sayı, ABŞ dolları ilə cari qiymətlərdə cəmi xərclər, ümumi idxalda faizlə beynəlxalq turizmin xərcləri, sərnişin daşınmasına xərclər, səfərlər və alış veriş xərcləri, ABŞ dolları ilə cəmi gəlirlər, ümumi ixracda faizlə beynəlxalq turizmin gəlirləri, sərnişin daşınmasından gəlirlər, səfərlər və alış verişdən gəlirlər;
- səyahət və turizmin ÜDM-də həcmi: milli valyuta ilə səyahət və turizmin ÜDM-də həcmi, səyahət və turizmin ÜDM-də real həcmi, səyahət və turizmin ÜDM-in artımında birbaşa həcmi, ÜDM-də faizlə səyahət və turizmin ÜDM-in artımında birbaşa həcmi;
- ÜDM-də turizmin ümumi həcmi: milyard ABŞ dolları ilə ÜDM-də ümumi həcmi, milyard vahid milli valyuta ilə ÜDM-də ümumi həcmi, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində ÜDM-də ümumi həcmi, real ÜDM-in artım tempi üzrə ÜDM-də ümumi həcmi, faiz nisbətində ÜDM-də ümumi həcmi;
- ölkə daxilində beynəlxalq turistlərin xərcləri: milyard vahid milli valyuta ilə ölkə daxilində beynəlxalq turistlərin xərcləri, milyard ABŞ dolları ilə ölkə daxilində beynəlxalq turistlərin xərcləri, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində ölkə daxilində beynəlxalq turistlərin xərcləri, faizlə real artım tempində ölkə daxilində beynəlxalq turistlərin xərcləri, faiz nisbətində ölkə daxilində beynəlxalq turistlərin xərcləri;
- məşğulluqda turizmin birbaşa həcmi: faizlə real artım tempində məşğulluqda turizmin birbaşa həcmi, faizlə məşğulluqda turizmin birbaşa həcmi, min nəfər üzrə məşğulluqda turizmin birbaşa həcmi;
- məşğulluqda turizmin ümumi həcmi: faizlə real artım tempində məşğulluqda turizmin ümumi həcmi, faizlə məşğulluqda turizmin ümumi həcmi, min nəfər üzrə məşğulluqda turizmin ümumi həcmi;
- ölkə daxilində ümumi turiz tələbatı: milyard vahid milli valyuta ilə ölkə daxilində ümumi turiz tələbatı, milyard ABŞ dolları ilə ölkə daxilində ümumi turiz tələbatı, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində ölkə daxilində ümumi turiz tələbatı, faizlə real artım tempində ölkə daxilində ümumi turiz tələbatı, faiz nisbətində ölkə daxilində ümumi turiz tələbatı;
- şəxsi səyahət xərcləri: milyard vahid milli valyuta ilə şəxsi səyahətə xərclər, milyard ABŞ dolları ilə şəxsi səyahətə xərclər, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində şəxsi səyahətə xərclər, faizlə real artım tempində şəxsi səyahətə xərclər, faiz nisbətində şəxsi səyahətə xərclər;
- ölkə daxili sakinlərin turizm xərcləri: milyard vahid milli valyuta ilə ölkə daxili sakinlərin turizm xərcləri, milyard ABŞ dolları ilə ölkə daxili sakinlərin turizm xərcləri, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində ölkə daxili sakinlərin turizm xərcləri, faizlə real artım tempində ölkə daxili sakinlərin turizm xərcləri, faiz nisbətində ölkə daxili sakinlərin turizm xərcləri;
- işgüzar səfərlərə xərclər: milyard vahid milli valyuta ilə işgüzar səfərlərə xərclər, milyard ABŞ dolları ilə işgüzar səfərlərə xərclər, milyard ABŞ dolları ilə 2011-ci ilin

sabit qiymətlərində işgüzar səfərlərə xərclər, faizlə real artım tempində işgüzar səfərlərə xərclər, faiz nisbətində işgüzar səfərlərə xərclər;

- turizmə dövlət xərcləri: milyard vahid milli valyuta ilə turizmə dövlət xərcləri, milyard ABŞ dolları ilə turizmə dövlət xərcləri, milyard ABŞ dolları ilə 2011-ci ilin sabit qiymətlərində turizmə dövlət xərcləri, faizlə real artım tempində turizmə dövlət xərcləri, faiz nisbətində turizmə dövlət xərcləri;
- kapital qoyuluşu: milyard vahid milli valyuta ilə kapital qoyuluşu, milyard ABŞ dolları ilə kapital qoyuluşu, milyard ABŞ dolları ilə 2011-ci ilin kapital qoyuluşu, faizlə real artım tempində kapital qoyuluşu, faiz nisbətində kapital qoyuluşu;
- gəbul edilmə turizminin göstəriciləri: qəbul edilmələr, sərnişin daşımaları, qəbul edilən turistlər, ölkə daxilində gəbul edilmə üzrə turizm xərcləri;
- göndərilmə turizminin göstəriciləri: göndərilən turistlər, sərnişin daşımaları, göndərilən turistlər, ölkə daxilində göndərilmə üzrə turizm xərcləri.

Beynəlxalq gəlmə turizmi (gecələyən ziyarətçilər)-12 aydan artıq olmamaqla onların adi yaşayış yerlərindən və səfər etdikləri ölkənin mənbəyindən ödənilən fəaliyyətin əsas məqsədi olmayan ölkəyə gələn turistlərin sayıdır [1]. Bu göstərici olmadıqda turistlər, səyahətçilər, gəmi səyahətində olan sərnişinlər və gəmi heyətinin üzvlərinin sayı üzrə məlumatlar əsas götürülür. Göstəricinin yığım mənbələri və metodları müxtəlif ölkələrdə bir-birindən fərqlənir. Bəzi hallarda məlumatlar sərhəd xidmətləri statistikasından (polis, immiqrasiya xidməti və s.) götürülür və kadastr sorgusu ilə tamamlanır. Digər hallarda isə turistləri yerləşdirməklə məşğul olan təşkilatlardan götürülür. Bəzi ölkələr üçün gəlmə turizmində hava xətti vasitəsi ilə turistlərin gəlməsinə görə, digərlərində isə turistlərin gəlmə payı üzrə mehmanxanalarda yerləşdirilməsinə görə məhdudiyyətlər qoyulur. Hətta, bir sıra ölkələr xaricdə yaşayan öz həmvətənlərinin gəlməsini də bu göstəriciyə aid edirlər. Müxtəlif ölkələrin gəlmə turizmi göstəricisi çox diqqətlə müqayisə edilməlidir, belə ki, göndərilən turistlərinin məlumatı ümumi səfərlərin sayına aid edilir, lakin səyahət edən insanların siyahısına aid edilmir. Beləliklə, müəyyən müddət ərzində bir neçə səyahət etmiş turist olduqda, bu halda o yeni gələn turist kimi hesablanmalıdır [İsmayılov, 2019: 33].

Azərbaycan respublikası üzrə 2005-2017ci illərdə qəbul edilən beynəlxalq turistlərin sayı dinamikası şəkil 2-də verilir [2].




**Şəkil 2. Azərbaycanda beynəlxalq turistlərin qəbulu dinamikası**
Qeyd: [2] məlumatları əsasında müəlliflər tərtib etmişdir

Məlumatların təhlili göstərir ki, müqayisə edilən illər ərzində ölkə üzrə qəbul edilən beynəlxalq turistlərin sayı 2007-2014-cü illərdə artım tendensiyasına malik olmuşdur. Lakin, 2006 və 2015-2016-cı illər ərzində bu tendensiya azalma meylində olmuşdur. 2015-2016-cı ildə azalma tendensiyası bilavasitə turizm sektorunda əmək haqqı göstəricisinin bütün il boyu bərabər olmaması ilə izahlandırıla bilər. Eyni zamanda qeyd etmək lazımdır ki, 2017-ci ildə dövlətin qeyri neft sektorunun ümumi iqtisadiyyatda xüsusi çəkisinin artırılması istiqamətində qəbul etdiyi düzgün qərarlar turizm sektoruna da şamil olmuş və beynəlxalq turistlərin sayı hətta 2013-2014-cü illərdən də yüksək olmuş və bu illər ilə müqayisədə 1,25-1,26 dəfə çox olmuşdur.

Həmçinin, 2017-ci illə müqayisədə 2018-ci ildə ölkəmizdə qəbul edilmiş beynəlxalq turistlərin sayı 5,7% artmış və 2,696745 milyon nəfər təşkil etmişdir. 2019-cu ildə isə bu göstərici 2017-ci ilə nisbətən 17,6% və ya 473,7 min nəfər; 2018-ci ilə nisbətən isə 11,25% və ya 320,8 min nəfər artıma malik olmuşdur.

Onu da qeyd edək ki, 2018-2019-cu illərdə ölkəmizdə qəbul edilmiş beynəlxalq turistlərin sayı 2014-cü illə müqayisədə müvafiq olaraq 1,24 və 1,8 dəfə yüksəlmişdir. Bu illər ərzində artım 0,552 milyon və 0,873 milyon nəfər təşkil etmişdir.

Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayında isə 2014-cü ilə nisbətən 2018-ci ildə 200,66 min nəfər, 2019-cu ildə isə 1323,4 min nəfər olmuşdur.

2005-ci illə müqayisədə ən yüksək artım 2013-cü, 2014-cü, 2017-ci, 2018-ci və 2019-cu illərdə olmuş və bu artım müvafiq olaraq 1,437 min nəfər; 1,467 min nəfər; 2,003 min nəfər; 2,019 min nəfər və 2019-cu ildə 2,3398 min nəfər təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, 2015-2016-cı illərdə ölkəmizə gələn beynəlxalq turistlərin sayında 2014-cü ilə nisbətən müvafiq olaraq 12,69% və 2,13% azalma müşahidə edilmişdir. Azərbaycan respublikasında beynəlxalq turistlərin qəbulu və yerləşdirilməsində digər ölkələrlə müqayisədə heç bir problem olmamış, hətta mehmanxana və mehmanxana tipli yerləşdirmə müəssisələrində müvafiq dövrdə boş yerlərin də qaldığı qeyd edilmişdir.

**Beynəlxalq turizm xərclərinin reytinq sıralanması**

Dünya ölkələrinin turizm sferasının inkişafında önəmli göstəricilərdən biri beynəlxalq turist axını hesab edilir. 2017-ci ildə cəmi 1,1 mlyrd. beynəlxalq turist səyahət etmişdir və BMT-nin ÜTT-nın məlumatına əsasən bu göstərici ötən ilə nisbətən 7% çox olmaqla 70 mlyn nəfər təşkil edir. UNWTO-nun qiymətləndirməsinə görə dünya turizminin bu artımı iqtisadiyyatın yüksəlməsini xarakterizə edir. Dünyada sürətlə inkişaf edən regionlar orta artım göstəricisi 8% olan Avropa və Afrika hesab edilir. Sürətlə inkişaf edən region göstəricisi Şimali Afrikada ötən illə müqayisədə turist axınının 13% artması ilə izahlandırıla bilər [12].

Qəbul edilən və göndərilən beynəlxalq turistlərin sayı əsasən Avropanın ərazisində yerləşmiş bir sıra ölkələrdə Avstriya, İsveçrə, Finlandiya, Danimarka, Almaniya, Türkiyə, Çexiya və s. konsentrasiya edilir ki, bu ölkələrdə də Şimali Amerika ölkələrinin çox sakinləri normal səyahət edir. Bu, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında müəyyən tarazlıq yaradır. Aşagı və orta gəlir səviyyəli ölkələr təxminən beynəlxalq turizm xərclərinin 30%-ni özündə cəmləşdirir [10].

Turizm xidmətlərinin iri ixracatçılarına İspaniya, Fransa, İtaliya, ABŞ, Meksika, Tayland, Böyük Britaniya, idxalçılarına isə Türkiyə, Yaponiya, Sinqapur, Qonkonq, Çin və s. aiddir. Beynəlxalq turizm sferasında aktiv balansa malik olan ölkələr (Almaniya, ABŞ), nisbətən özlərinin daxili bazarlarında turizm xidməti səviyyəsi və dəyəri yüksək olduğuna görə, səyahətçiləri digər ölkələrə göndərirlər. 2017-ci ildə beynəlxalq turizm xərclərinin həcminə görə Çin (261,129 mlyrd.ABŞ dolları), ABŞ (160,818 mlyrd.ABŞ dolları),

Almaniya (87,423 mlyrd.ABŞ dolları), Böyük Britaniya (79,321 mlyrd.ABŞ dolları) və Fransa (49,024 mlyrd.ABŞ dolları) ilk pillələri ardıcıl olaraq bölüşürlər. Keçmiş sovetlər ittifaqı ölkələrində bu göstərici Rusiya Federasiyasında (27,652 mlyrd.ABŞ dolları), Ukraynada (5,323 mlyrd. ABŞ dolları), Azərbaycanda (2,593 mlyrd.ABŞ dolları), Qazaxıstanda (1,769 mlyrd.ABŞ dolları) və Estoniyada (1,297 mlyrd.ABŞ dolları) həcmində olmaqla müvafiq olaraq 9; 38; 58; 63 və 72-ci pillələrdə yerləşmişdir.

Müxtəlif ölkələrdə bir beynəlxalq turistə çəkilmiş xərclər şəkil 3-də verilmişdir.

Məlumatların təhlilinə əsasən beynəlxalq turizm xərclərinin çoxluğuna görə Moldava, Azərbaycan, Rusiya Federasiyası, Ermənistan və Fransa müvafiq ilk pillələrdə durur. Bu ölkələr sırasında ən az beynəlxalq turizm xərcinə Gürcüstan, Türkiyə, Belorus, Qırgızıstan, Tacikstan, Qazaxstan və Ukrayna yerləşir. Gürcüstan və Türkiyəyə nisbətən ölkəmizdə beynəlxalq turizm xərcləri müvafiq olaraq 11,4 və 7,6 dəfə çoxdur. Bu göstərici Belorus, Qırğızıstan və Ukraynaya nisbətən 6,7; 6,3 və 3,2 dəfə çoxdur.




**Şəkil 3. Beynəlxalq turizm xərcləri, ABŞ dolları / nəfər**

Qeyd: [2] məlumatları əsasında müəllif tərəfinfdən hazırlanmışdır

Beləliklə, ölkəmizdə son dövrlərdə turizmin inkişaf etdirilməsi istiqamətində göstərilən cəhdlərə baxmayaraq hələlik turizm məhsulları və xidmətlərinin xərcləri olduqca yüksək səviyyədədir. Hətta, turizm sferası normal inkişaf edən İtaliya, Meksika (3,4 dəfə), İspaniya (4,9 dəfə), Malayziya (3,2 dəfə), Tayland (3,7 dəfə) olkələrilə müqayisədə ölkəmizdə bu göstəricinin xərcləri çoxdur. Azərbaycana bütünlükdə turist axınını, o cümlədən beynəlxalq turist axınını sürətləndirmək məqsədilə Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini vacib şərtlərdən hesab edirik.

Aparılan tədqiqatdan belə bir fikir formalaşdırmaq olar ki, Azərbaycana beynəlxalq turist axınını sürətləndirmək məqsədilə dövlət və turizm sferası müəssisələri birgə fəaliyyət çərçivəsində işlərini aşağıda qeyd edilən məsələlərin həllinə yönəltməlidirlər:

- iqtisadiyyatın mühüm və əlverişli sahələrindən biri olan turizmə xarici və daxili investisiya qoyuluşunun sürətləndirilməsində investorlara stimul yaradıcı şərtlərin təmin edilməsi;
- ölkəmizdə müxtəlif turizm növlərinin inkişafını şərtləndirən xarıcı təcrübənin tətbiqi yolu ilə yüksək ixtisaslı mütəxəssislərin cəlb edilməsi, bu sahədə normativ-hüquqi aktların hazırlanması və onlardan səmərəli istifadə şərtlərinin əlçatan olması;
- Dövlət proqramları çərçivəsində turizm sferasının inkişafını təmin edən yeni

layihələrin hazırlanması və tətbiq edilməsi üçün xüsusi kreditlərin ayrılması;

- beynəlxalq turizm xərcləri aşağı olan ölkələrin təctübəsinə əsaslanan iqtisadi inteqrasiya aktivlərinin ölkəmizdə bu sferanın formalaşması və inkişafına cəlb edilməsi və s.

**Nəticə**

Beynəlxalq turist münasibətləri kompleks şəkildə həyata keçirlir, onlar dövlətlərarası münasibətlərə təsir göstərir, beynəlxalq ictimai hüquq normalarını tənzimləyir. Turizmin inkişafına təkan verən əsas və həlledici amillərdən biri ölkəyə beynəlxalq turist axınının cəlb edilməsinin sürətləndirilməsidir. Beynəlxalq turizmin səmərəli inkişaf etdirilməsi dövlətlərarası müqavilə münasibətləri əsasında həyata keçirilir.

Dünya ölkələrinin reytinqi bir sıra müəyyənləşdirilmiş göstəricilər, o cümlədən ölkələrin iqtisadiyyatı, demoqrafiya, energetika, torpaq resursları, kənd təsərrüfatı, nəqliyyat, səhiyyə, telekommunikasiyalar, müdafiə qüdrəti, xarici ticarət, təhsil, turizm, cinayətkarlıq, ətraf mühit, dünya üzrə kasıblıq reytinqi, ərzaq təhlükəsizliyi, su ehtiyatları, tədqiqatlar və işlənilməsi və s. aid edilir. Azərbaycana bütünlükdə turist axınını, o cümlədən beynəlxalq turist axınını sürətləndirmək məqsədilə Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərin vaxtında və kefyiyyətli icra edilməsi vacib şərtlərdəndir.

Azərbaycana beynəlxalq turistlərin axınını cəlb etmək və onu sürətləndirmək məqsədilə dövlət və turizm sferası müəssisələrinin birgə fəaliyyəti aşağıdakı məsələlərin həllinə istiqamətləndirilməlidir: - iqtisadiyyatın mühüm və əlverişli sahələrindən biri olan turizmə investisiya qoyuluşunun sürətləndirilməsi məqsədilə investorlara xüsusi stimul verən şərtlərin təmin edilməsi; - müxtəlif turizm növlərinin inkişafını şərtləndirən xarıcı təcrübələrdən istifadə etməklə yüksək ixtisaslı mütəxəssislər cəlb edilməli, bu sahədə normativ-hüquqi aktlar hazırlanmalı və onlardan səmərəli istifadə şərtlərinin əlçatan olması təmin edilməlidir; - Dövlət proqramları çərçivəsində beynəlxalq turizmin inkişafını təmin edənvə strateji cəhətdən əlverişli hesab edilən layihələrin hazırlanması və tətbiq edilməsi üçün xüsusi kreditlərin ayrılması; - beynəlxalq turizm xərcləri aşağı olan ölkələrin təctübəsinə əsaslanan iqtisadi inteqrasiya aktivlərinin ölkəmizdə bu sferanın formalaşması və inkişafına cəlb edilməsi və s.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

1. “Turizm haqqında” Azərbaycan respublikasının qanunu. Bakı.1999

2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan Statistik göstəriciləri. Bakı. 2018, 814 s.

3. Turizm_sənayesinin_inkişafına_dair_strateji_yol_xəritəsi. pdf

4. İsmayılov V.İ. Azərbaycanda turist rekreasiya klasterinin formalaşmasının aktual problemləri. Əmək Sosial Münasibətlər jurnalı. Bakı. 2018. №9, səh. 85-91

5. İsmayılov V.İ. Turizmin iqtisadiyyatı. Bakı: İndiqo. 2019, 397 s.

6. Kostin K.B., Man Li. Development of criteria and methods for assessing the effectiveness of international tourism activities. Journal of international economic affairs. 2019, №9, pp. 540-553

7. Kostin K.B., Berezovskaya A.A. Current state and prospects of development of the world electronic business. // Russian entrepreneurship. 2017, №24, pp. 4071-4086

8. Lavrova T.A. Analysis of international tourism development tendencies in modern conditions. St. Petersburg economic journal. 2017. pp.6-17

9. http://www.mfa.gov.az/files/file/44.pdf

10. https://knoema.ru/atlas/matrix

11. https://knoema.ru/atlas/topics/

12. http://uchebnikirus.com/turizm/mizhnarodniy_turizm_i_sfera_poslug_malska_mp/

geografiya_svitovih_turistskih_potokiv.htm
13.http://internationalinvestment.biz/tourism/70-v-2017-godu-chislo-turistov-sovershivshih-mezhdunarodnye-poezdki-vyroslo-na-70-millionov.html

**Айгюнь Самедова**
**Ульвия Халилзаде**

**ПОВЫШЕНИЕ УРОВНЯ МЕЖДУНАРОДНОГО ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ НА ОСНОВЕ ПОКАЗАТЕЛЕЙ МАТРИЦЫ ОХВАТА**

***Резюме***

Изучены вопросы ускорения привлечения международного туристского потока, стимулирующего развитие туризма в Азербайджане, и оценки рейтинга стран на основе показателей матрицы охвата.

Отмечено выполнение ряда мероприятий, направленных на ускорение международного туристского потока, даны практические результаты и предложения.

**Цель** – опрд еление направлений повышения уровня международного туризма в Азербайджане на основе показателей матрицы охвата.

**Методология** – в исследовательской работе использованы методы построения системы сравнительных и аналитических показателей.

**Результат** – на основе показателей матрицы охвата исследованы вопросы оценки рейтинга стран, определен рейтинг Азербайджана в этом направлении и даны соответствующие предложения по его повышению.

***Ключевые слова:*** *международный туризм, развитие, факторы, международный туристический поток, рейтинг, повышение*

**Aygun Samadova**
**Ulviya Xalilzada**

**INCREASING THE LEVEL OF INTERNATIONAL TOURISM IN AZERBAIJAN BASED ON THE INDICATORS OF THE COVERAGE MATRIX**

***Summary***

The issues of accelerating the attraction of the international tourist flow, stimulating the development of tourism in Azerbaijan, and evaluating the rating of countries based on the indicators of the coverage matrix were studied.

The implementation of a number of measures aimed at accelerating the international tourist flow was noted, practical results and proposals were given.

**Purpose** – determination of directions for increasing the level of international tourism in Azerbaijan based on the indicators of the coverage matrix.

**Methodology** – the research paper uses methods for constructing a system of comparative and analytical indicators.

**Findings** – based on the indicators of the coverage matrix, the issues of assessing the rating of countries are studied, the rating of Azerbaijan in this direction is determined and appropriate proposals for its improvement are given.

***Keywords:*** *international tourism, development, factors, international tourist flow, rating, promotion*

**Daxil olub: 15.01.2021**

**UOT 338.48**

**Nicat Musayev**
***Azərbaycan Texniki Universiteti, dissertant***
Nijat.musaev@gmail.com

# AZƏRBAYCANDA TURİZMİN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə Azərbaycanda turizm sənayesinin mövcud vəziyyətinin təhlili əsasında daxili turizmin inkişaf etdirilməsinin əsas problemləri aşkar edilmiş və beynəlxalq turistlərin sayının orta illik artım tempi müəyyən edilmişdir.*

*Həmçinin bir sıra ölkələrdən Azərbaycana gələn turist axını müqayisə edilərək belə bir fikrə gəlinmişdir ki, bəzi ölkələrdən gələn beynəlxalq turistlərin sayında azalmanın olmasına baxmayaraq Azərbaycanın turizm sferasının rəqabətqabiliyyətliyinin beynəlxalq reytinqinin (4,7 vahid) yüksək olması (bu göstəriciyə görə dünya üzrə ən yüksək reytinqə malik İsveçrə və ABŞ-dan 1,2 vahid az) digər ölkələrdən turist axınını təmin edə bilmişdir. Bu baxımdan da, ölkəmizi səyahət etmək istəyən beynəlxalq turistlərin sayında mütəmadi olaraq artımın baş verməsi qanunauyğun hesab edilə bilər.*

***Məqsəd –*** Azərbaycanda turizm sferasının inkişafının mövcud vəziyyətinin qiymətləndirilməsidir.

***Metodologiya –*** tədqiqatda statistik-iqtisadi və balans metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri –*** daxili turizmin inkişaf etdirilməsi problemləri aşkar edilmiş, beynəlxalq turistlərin orta illik artım tempi hesablanmış və onun baş verməsinin qanunauyğun olması nəticəsinə gəlinmişdir.

***Açar sözlər:*** *turizm, sfera, təhlil, artım tempi, qanunauyğunluq, qiymətləndirmə*

## Giriş

Uzunmüddətli dövr ərzində xaricdə turizm sənayesinin intensiv inkişafi onu müxtəlif xidmətlər istehsalı üzrə insanların fərqli tələbatının ödənilməsini təmin edə bilən gəlirli sahəyə, həçinin kütləvi tələbat sferasına çevirmişdir. Turizm sənayesinin inkişaf dinamikası turizm növlərinin müxtəlifliyində öz əksini tapmışdır ki, bu müxtəliflik də insanın həyat fəaliyyətinin ayrılmaz hissəsi hesab edilir.

Son illərdə işgüzar turizmlə birgə turizmin digər istiqamətləri, o cümlədən intensiv-turizm, konqres, klub, kooperativ, elmi, elitar, etnomədəni, ekstremal, dağ velosipedi turizmi və s. kimi yeni fəaliyyət növləri yaranmış və aktiv şəkildə inkişaf etməkdədir, bu isə öz növbəsində müxtəlif məqsədli turizm səyahətlərini əks etdirir [Möhbalıyev, 2020: 72-78].

## Sosial-iqtisadi aspektdə turizmin əsas funksiyaları

Sosial-iqtisadi aspektdə ölkənin dövlət büdcəsinin formalaşmasını, yeni iş yerlərinin açılmasını, turizm biznesi ilə məşğul olan müəssisələrin gəlirlərinin təmin edilməsini və s. kimi turizmin vacib funksiyaları cəmləşir. Bu baxımdan, turizmin inkişaf etdiyi ölkələrdə olduğu kimi, Azərbaycanda da dövlətin turizm siyasətinin həyata keçirilməsi mühüm şərtlərdəndir və burada əsas məqsədlər aşağıdakılar hesab edilir:

- ölkə əhalisinin istirahət, sərbəst gəzintilərdə iştirakı və digər hüquqlarının təmin

edilməsi;
- ətraf mühitin mühafizəsi;
- turistlərin tərbiyələndirilməsinə, təhsilinə və saglamlığına istiqamətləndirilmiş fəaliyyətinə şəraitin yaradılması;
- vətəndaşların tələbatını və səyahət zamanı gözlədikləri nəticəni təmin edə bilən turizm sənayesinin inkişafı [İsmayılov, 2019: 85-93].

Müasir dövrdə Azərbaycanda turizm ən vacib və dinamik inkişaf edən, gəlir gətirən sferalardan biri kimi fəaliyyət göstərir. Turizmin inkişafı ÜDM-in və ÜMM-in formalaşması üçün olduqca vacibdir. Turizm sənayesində servis xidmətinin və digər əlaqəli sahələrin inkişafı ölkəmiz üçün olduqca əhəmiyyətlidir. Belə ki, turizm milli iqtisadiyyatın iqtisadi cəhətdən sərfəli və ekoloji təhlükəsiz sahəsi, həmçinin ölkənin innovativ inkişafının əsas halqalarından biri hesab edilir. Odur ki, dövlətimiz son dövrlərdə Azərbaycanın nisbətən əlverişli sosial-iqtisadi inkişaf konsepsiyasının işlənilməsinə çalışır. “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” nda və “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi” ndə turizmə Azərbaycan Respublikasının büdcə sistemi gəlirlərinin maliyyə mənbəyi, məşğulluğun artırılması və əhalinin həyat səviyyəsinin yüksəldilməsi vasitəsi, vətəndaşların sağlamlığının saxlanılması üsulu, sosiomədəni mühitin inkişafı və patriotizm rühündə tərbiyələndirmə üçün əsas, həmçinin vətəndaş cəmiyyətinin işıqlandırılması və mədəni inkişaf platformasının güclü aləti kimi baxılır.

**Azərbaycanda turizm sənayesinin inkişaf dinamikası**

Azərbaycan gəlmə və getmə turizminin inkişaf etdirilməsində böyük potensial imkanlara malikdir. Ölkənin təbii və mədəni-tarixi müxtəlifliyi praktiki olaraq turizmin bütün növlərinin, o cümlədən turizm-rekreasiya zonalarının, mədəni-idrak, işgüzar, idman, sağlamlıq-müalicə, dağ-qış, dağ velosipedi, çimərlik, ovçuluq, ekoloji və s. kimi davamlı turizm potensialının inkişaf etdirilməsinə əlverişli şəraiti formalaşdırır. Azərbaycanda turizm sənayesinin sanatoriyalar, istirahət müəssisələri və turizm bazalarının inkişaf dinamikasına nəzər yetirək (şəkil 1).




**Şəkil 1. Sanatoriyalar, istirahət müəssisələri və turizm bazalarının sayı dinamikası**

Qeyd: [3, səh.68-70] məlumatları əsasında müəllif tərtib etmişdir

Sanatoriyalar, istirahət müəssisələri, turist bazaları və istirahət ocaqlarının sayının təhlili göstərir ki, 2006-2018-ci illərdə sanatoriyalar və istirahət ocaqlarının sayında 23 vahid və ya 27,4%; turist bazaları və digər istirahət ocaqlarının sayında isə 13 vahid və ya 48,1% azalma müşahidə edilmişdir. Sanatoriyalar və istirahət ocaqlarının sayının azalması 2012-ci ilə kimi 9 vahid və ya 10,7%, sonrakı 2013-2018-ci illərdə isə 14 vahid və ya 16,7% təşkil etmişdir. Turist bazaları və digər istirahət ocaqlarının sayında 2011-ci ilə kimi 2 vahid və ya 7,4%, sonrakı 2011-2018-ci illərdə isə 11 vahid və ya 40,7% azalma olmuşdur. Həmçinin, yerli istirahət müəssisələrində yerli və beynəlxalq turistlərin istirahətə olan tələbatının azalmasını nəzəri funksiyanın approksimasiya tənliyindən də aydın görmək olar [3, səh.11-19].

Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrin iqtisadi göstəricilərinin təhlilindən göründüyü kimi, bu tip müəssisələrin sayında 2006-2018-ci illərdə 97,5%; məhsul və xidmətlərin istehsalına çəkilən xərclərdə 3,44 dəfə; müəssisələrin əldə etdiyi gəlirdə isə 2,83 dəfə artım olmuşdur [3, səh.47-68]. Fikrimizcə, həmin tip müəssisələrdə məhsul və xidmətlərin istehsal xərcinin, eyni zamanda əldə edilən gəlirin artımı ölkədəki stabil vəziyyətin bərpa edilməsi nəticəsində həm yerli, həm də xarici turistlərin ölkəmizə səyahət maraqlarının artması ilə izahlandırıla bilər. Bu baxımdan, müasir inkişaf dövründə xarici, həmçinin yerli turistlər üçün Bakı şəhəri, Quba-Xaçmaz iqtisadi rayonu, Şəki-Zaqatala iqtisadi rayonu, Gəncə-Qazax iqtisadi rayonu, Naxçıvan MR və Azərbaycanın digər məkanlarının spesifik dəyərlərini özündə əks etdirən xüsusi turist xidmət paketlərinin hazırlanması perspektivli hesab edilir. Lakin, buna baxmayaraq, turist idxalı (ölkədən gedən turistlərin sayı) yenə də turist ixracını (ölkəyə gələn turistlərin sayı) üstələyir. Bu isə öz növbəsində onu göstərir ki, ölkədən çıxarılan pullar gətiriləndən çox miqdardadır. Azərbaycana turizm məqsədilə gələn və gedən turistlərin sayı 2012-ci illə müqayisədə 2017-ci ildə müvafiq olaraq 1,24 və 1,22 nisbətində artım dinamikasına malik olmuşdur (şəkil 2). Ölkəyə gələn turistlərin sayında 2018-ci ildə 1,42 dəfə, 2019-cu ildə isə 1,59 dəfə artım olmuşdur.




**Şəkil 2. Azərbaycana turizm məqsədilə gələn və gedən turistlərin sayı dinamikası**
Qeyd: [3, səh.22-23] məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

Belə ki, gələn tutistlərin sayında 468,1 min nəfər, gedən turistlərin sayında isə 618,5 min nəfər artımın olduğu müşahidə edilir. Eyni zamanda, qeyd etmək lazımdır ki, Azərbaycandan gedən yerli vətəndaşların sayı gələn xarici vətəndaşların sayını xeyli üstələmişdir. Bu göstərici 2017-ci ildə 52,4%; 2018-ci ildə 72,2% və 2019-cu ildə 60,6% təşkil etmişdir. Gəlmə və getmə turizminin inkişafına maneçilik edən əsas amillərə turistik infrastrukturun tələb edilən səviyyədə inkişaf etməməsi, investisiya üçün hərtərəfli mühitin tam formalaşmaması, turistlərə xidmət keyfiyyətinin standartlara uyğun gəlməməsi, beynəlxalq və daxili bazarda Azərbaycanın turist ölkəsi kimi yüksək imicinin hələlək tam formalaşmaması aid edilir ki, bunlar da ölkənin turizm sektorunun reytinq göstəricilərinə neqativ təsir edir.

**Azərbaycanda daxili turizmin inkişaf problemləri**

Turizmin forması turistin öz ölkəsinin dövlət sərhəddini keçməsi ilə əlaqəlidir. Belə ki, turizmin formalara bölünməsinin əsasında bir əlamət durur. Bu əlamətə görə turizmin fərqləndirilən formasından biri də daxili turizmdir. Daxili turizm-ölkə daxilindəki turizmdir.

27 sentyabr-10 oktyabr 1980-ci ildə Manildə (Filippində) Ümumdünya Turizm Təşkilatı (ÜTT) tərəfindən təşkil ounan və keçirilən turizm üzrə beynəlxalq konfrans xüsusi olaraq Hindistan nümayəndəliyinin fərdi təklif etdiyi daxili turizmin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Bəzi ölkələr daxili turizmi özləri müəyyənləşdirir. Milli turist resursları üzrə komissiya daxili turistlərə öz yaşayış yerindən 50 mildən (80,48 km) az olmamaqla daimi yaşadığı yeri tərk edərək hər hansı yerə (ölkəyə) getmək məqsədi olan insanların aid edilməsini müəyyənləşdirmişdir.

Daxili turizmin məqsədlərinin müxtəlif peşə fərqləri ola bilər: məşğulluq, gündüz yerdəyişmələr, iş yerinə görə yerdəyişmələr və s. Yerli turistin təyin olunmuş yerdə 24 saatdan çox qalmasına ehtiyac yoxdur, yəni o, təyin olunmuş yerdə gecələyə və ya həmin gün evə qayıda bilər.

Kanadada qəbul olunmuş müəyyənləşdirməyə əsasən, daxili turizm-daimi yaşayış yerindən müəyyən edilmiş yerə, yəni turistin yaşayış yerindən səyahət məqsədilə müəyyən edilmiş yerə olan məsafədən 25 mildən (40, 24 km) az olmamaqla onun hərəkəti başa düşülür.

Azərbaycan qanunvericiliyinə əsasən daxili turizm “Azərbaycan Respublikasında yaşayan vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının hüdudları daxilində səyahətləri” kimi müəyyənləşdirilir.

Beləliklə, Azərbaycanda daxili turizmin inkişaf etdirilməsinin əsas problemlərini aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

- yerləşdirmə vasitələri problemi. Bura kütləvi halda turist qəbuluna istiqamətləndirilmiş yerləşdirmə vasitələrinin sayının kifayət qədər olmaması, həmçinin fəaliyyət göstərən yerləşdirmə vasitələrində yüksək qiymət səviyyəsinin olması daxildir;
- nəqliyyat problemi. Avtomobil nəqliyyatı ilə səyahət etmək üçün infrastrukturun: aşağı keyfiyyətli yolların, yolkənarı kafelərin, mehmanxanaların, dayanacaqların azlıq təşkil etməsi. Fəaliyyətdə olan müəssisələr aşağı keyfiyyətdə turizm xidməti göstərir, eyni zamanda həddən çox yüksək qiymət qoyurlar. Həmçinin, nəqliyyat xidməti vasitələrinin (hava və dəmir yolu nəqliyyatı) dəyəri

də həddən çox yüksəkdir;

- turizm sənayesinə investisiya qoyan investorların marağının zəif olması və onların fəaliyyətinə əlverişli şəraitin təmin edilməməsi. Bu turizm sferasında investisiyaların aşağı gəlirli olması ilə şərtləndirilir. İnvestorların yaşayış komplekslərinin tikintisinə vəsait qoyuluşu mehmanxanalara nisbətən daha tez xərclərinin ödənilməsi ilə nəticələnir;
- xidmət səviyyəsinin aşağı olması. Turizmdə xidmət səviyyəsinin aşağı olması çox halda ixtisaslı kadrların çatışmazlığından yaranır;
- mədəni istirahət” səviyyəsinin aşağı olması. ”Mədəni istirahət” dedikdə turist qəbul edən region əhalisinin hazırlığı, həmçinin turizm sferası işçilərinin turistlərlə qarşılıqlı əlaqəsi, təcrübə mübadiləsi, qonaqpərvərlik və xoşməramlı hisslərinin, talerantlığın yaranması, eyni zamanda turistlərin səyahət etdikləri obyekt və ərazilərə, məişət və yerli əhali ənənələrinə, həyat tərzinə hörmət və ehtiramlı davranışı başa düşülür. Lakin əfsusluqla qeyd etmək lazımdır ki, Azərbaycanın hər bir regionunda yerli əhali istirahətə gələnlərə adekvat reaksiya vermir, bəzi hallarda isə öz narazılığını açıq şəkildə ifadə edir. Bunlar isə çox hallarda turistlərin davranışı və ətraf mühitə zərər verməsi, habelə istirahət edənlərin qəbul edilə bilməz davranışı ilə nəticələnmiş olur.

Azərbaycanda daxili rutizm də müsbət artım tendensiyasına malikdir. Belə ki, ölkə daxilində səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm yollayışlarının sayı 2012-ci ilə nisbətən 2017-ci ildə 729 vahid və ya 14,2% artım tendensiyasına malik olmuşdur. Baxmayaraq ki, ekspertlər yerli turaxınının 2018-2019-cu illərdə artımının həddən çox az olacağı və ya olmayacağını proqnoz etmişlər, burada da 2015-2016-cı illərə nisbətən orta hesabla 12,4% artım olduğu müşahidə edilir [3, səh.35].

2017-2018-ci illərin göstəricilərinə əsasən Dünya İqtisadi Forumu mütəxəssisləri tərəfindən turizm sferasında ölkələrin rəqabət qabiliyyətliyinin beynəlxalq reytinqi hesablanmışdır. Bu məlumata əsasən Azərbaycan qlobal rəqabətqabiliyyətlilik indeksinə görə 139 ölkə içərisində 35-ci sırada yer alaraq 4,7 indeksinə malik olmuşdur. Belə ki, Azərbaycan ilk beş sırada yer alan ölkələrdən İsveçrə və ABŞ-dan 1,2; Sinqapur, Hollandiya və Almaniyadan 1,0 vahid az indeks qiyməti üzrə özünə müvafiq yer almışdır. ÜTT-nin qiymətləndirməsinə əsasən Azərbaycan il ərzində 7-8 milyondan az olmamaqla yerli və beynəlxalq turist qəbul etmə imkanına malikdir, lakin 2019-cu ilin göstəricilərinə görə ölkənin həmin potensialı tam realizasiya edilə bilməmiş və yalnız onun 39,7-45,3%-i istifadə edilmişdir.

**Azərbaycana beynəlxalq turist axınının artım tempinin müəyyənləşdirilməsi**

Beynəlxalq turizmin bir neçə funksiyaları (iqtisadi, rekreasiya və humanitar) fərqləndirilir ki, bunların da həyata keçirilməsi prosesində turizmin ölkə iqtisadiyyatına təsiri baş verir və bu təsir özünü birbaşa və dolayı olmaqla iki formada göstərir. Ölkə iqtisadiyyatına turizmin birbaşa təsiri – bu kəmiyyət göstəricisi olub səyahət zamanı turistlərin tələbatının tam təmin edilməsi üçün lazım gələn malların və xidmətlərin alınmasına turistlərin xərclərinin həcmini (idxal edilən malların və xidmətlərin həvcmi çıxılmaqla) xarakterizə edir. Turizmin dolayı təsiri və ya “multiplikasiya səmərəsi”-turizm xərclərinin ölkədə dövr etməsi nəticəsində turizm sənayesinin ölkə iqtisadiyyatının digər sahələrinə qatqısını xarakterizə edir. Fikrimizcə, bir tətəfdən, turizm ölkənin iqtisadiyyatına aktiv təsir göstərərək təsərrüfat, sosial və humanitar sferaları üzrə inkişaf edir, digər tərəfdən isə

səyahətçiləri cəlb edən ərazi özünün təbii-coğrafi, mədəni-tarixi, etnoqrafik, elmi və digər resursları hesabına turist axınına təsir göstərir. Yəni, turizm və onun ölkə ərazisində inkişafı bir-birinə qarşılıqlı təsir edir, qarşılıqlı asılıdır və bir-birini tamamlayır.

Dünya və regional statistika məlumatlarının tərtib etdiyi reytinqə görə 2010-2018-ci ilər arasında ölkələr üzrə beynəlxalq turist axınında ən yüksək artıma Azərbaycan (3,39 dəfə), Yaponiya (3,34 dəfə), Tayland (2,24 dəfə), Meksika (1,69 dəfə), İspaniya (1,55 dəfə), Almaniya (1,40 dəfə), İtaliya və BB (1,33 dəfə), ABŞ (1,28 dəfə) və Türkiyə (1,2 dəfə) malik olmuşdur. Beynəlxalq turist axını azalan ölkələrə isə Ukrayna (1,49), Tunis (1,11 dəfə), Keniya (0,91 dəfə) və s. aiddir. Fikrimizcə, Ukraynada beynəlxalq turist axınının azalması ölkədəki mövcud siyasi vəziyyətlə, Tunis, Keniyada və s. isə beynəlxalq turistləri maraqlandıran turizm səyahət və istirahət obyektlərinin kifayət qədər azlıq təşkil etməsi və aşağı xidmət səviyyəsinin olması ilə əsaslandırıla bilər.

Fransaya 2018-ci ildə gələn beynəlxalq turistlərin payı dünya üzrə gəlmə turistlərinin sayının 6,79%-ni təşkil edir. Bu sahədə digər beş aparıcı ölkələrdən İspaniya, ABŞ, Çin və İtaliyaya gələn beynəlxalq turistlərin payı isə ümumilikdə 21,7% təşkil edir.

Azərbaycana gələn beynəlxalq turistlərin sayının təhlili göstərir ki, 2012-ci ilə nisbətən 2018-ci ildə artım 1,15 dəfə olmuşdur (şəkil 3). Bu onu göstərir ki, son dövrlərdə ölkəmizə gələn beynəlxalq turistlərin sayında artım tendensiyası vardır və bu artım tendensiyası davam etməkdədir. Lakin onu da qeyd etmək lazımdır ki, bu artım turizm sənayesi inkişaf etmiş ölkələrlə müqayisədə həddən çox azdır. Eyni zamanda, Azərbaycanın turizm potensialını əks etdirən turizm ehtiyatlarının tam istifadə edilməsi, təxmini hesablamalar nəticəsində, müəyyən etməyə imkan verir ki, beynəlxalq turistlərin sayının 3,5-4 dəfə artımına nail olmaqla turist qəbulunu təşkil etmək mümkündür [3, səh 13-14].




**Şəkil 3. Azərbaycana gələn beynəlxalq turistlərin sayı dinamikası**
Qeyd: [3, səh.22-23] məlumatları əsasında müəllif tərtib etmişdir

Göründüyü kimi, Azərbaycana gələn beynəlxalq turistlərin sayında Rusiya Federasiyasının payı 2012-ci ildə 35,3%, Gürcüstan-30,7%, İran və Türkiyənin birgə payı isə

23,3% təşkil etmiş, digər ölkələrdən gələn turistlərin payı isə 10,7% olmuşdur. 2017-ci ildə Rusiya Federasiyasından gələn turistlərin sayı 2012-ci ilə nisbətən 21,682 min nəfər və ya 2,5% azalmışdır. Azərbaycana gələn beynəlxalq turistlərin sayının azalması həmin dövrdə Gürcüstan vətəndaşlarına da şamil edilir və bu göstərici 225,038 min nəfər və ya 29,5% təşkil etmişdir. Lakin, həmin ölkələrdən gələn turistlərin sayı 2017-ci ildən başlayaraq başlayaraq yüksəlmiş və bu illə müqayisədə müvafiq olaraq artım Rusiya Federasiyasında 9,2% və Gürcüstanda isə 32,1% təşkil etmişdir. Fikrimizcə, 2019-cu ildə bu göstəricinin artması imkan verir ki, Rusiya Federasiyası və Gürcüstandan gələn turistlərin istirahət etmək üçün təkrar bizim ölkəni seçmə ehtimalının yüksək olduğu fərziyyəni yürüdə bilək.

Tədqiqatın nəticəsindən göründüyü kimi, Azərbaycana gələn beynəlxalq turistlərin sayının il ərzində orta artım tempi 2018-ci ildə 11,9%, 2019-cu ildə -11,4% təşkil edir. Eyni zamanda bu illər ərzində ən yüksək artım tempi 2016-cı ilə nisbətən 2017-2019-cu illərdə 19,9-41% hüdudunda olmuşdur. Qeyd etmək lazımdır ki, bir sıra ölkələrdən Azərbaycana turist axını müqayisə edilə dövrdə çoxalmış və hətta bəzi ölkələrdə bu kəskin sıçrayışla olmuşdur. Kəskin sıçrayışla turistlərin Azərbaycana gəlməsi əsasən Birləşmiş Ərəb Əmirliyi (BƏƏ), İraq, Səuduyyə Ərəbistanı (SƏ), Küveyt, Pakistan, İsrail, Bəhreyn kimi ölkələrə şamil edilir. Belə ki, 2014-cü illə müqayisədə 2019-cu ildə ən kəskin sıçrayışla turistlərin Azərbaycana axını BƏƏ-83,25 dəfə; SƏ-211,5 dəfə; Küveytdə-72,73dəfə, İraqda-68,7 dəfə, Bəhreyndə-52,6 dəfə, Qətərdə-35,86 dəfə, Pakistanda-25,65 dəfə və İsraildə-6,25 dəfə çox olmuşdur ki, bunu da approksimasiyanın parabolik tənliyindən də aydın görmək mümkündür. Fikrimizcə, həmin ölkələrdən gələn turistlərin Azərbaycanı seçməsi onu göstərir ki, artıq ölkəmizdə turizm sənayesi əvvəlki illərlə müqayisədə həm inkişaf etmiş, həm də regionlarda turizm ehtiyatlarından səmərəli istifadə prinsipi gözlənilməklə turistlərə xidmətin səviyyəsi də nisbətən yüksəldilmişdir.

2018-ci ilin məlumatlarına əsasən Azərbaycana gələn beynəlxalq turistlərin payında Rusiya Federasiyası 30,5%; Gürcüstan-19,2%; İran-12,9%; Türkiyə-10,8%; SƏ-3,7%; İraq-2,2%; Ukrayna-2,1% və digər ölkələr-18,6% təşkil etmişdir. 2012-ci ilin göstəriciləri ilə müqayisədə 2018-ci ildə Azərbaycana gələn beynəlxalq turistlərin payında Rusiya Federasiyası üzrə 4,8%; Gürcüstan üzrə azalma, eyni zamanda İran üzrə 1,5%; Türkiyə üzrə 0,4%; SƏ üzrə 3,68%; İraq üzrə 2,16%; Ukrayna üzrə 0,4% və digər ölkələr üzrə-9,66% artım müşahidə edilmişdir [3, səh.23].

Fikrimizcə, bəzi ölkələrdən gələn beynəlxalq turistlərin sayında azalmanın olmasına baxmayaraq Azərbaycanın turizm sferasının rəqabətqabiliyyətliyinin beynəlxalq reytinqinin (4,7 vahid) yüksək olması (bu göstəriciyə görə dünya üzrə ən yüksək reytinqə malik İsveçrə və ABŞ-dan 1,2 vahid az) digər ölkələrdən turist axınını təmin edə bilmiş və bu baxımdan da, ölkəmizi səyahət etmək istəyən beynəlxalq turistlərin sayında mütəmadi olaraq artımın baş verməsi qanunauyğun hesab edilə bilər.

Azərbaycanda turizm sənayesinin inkişaf etdirilməsi istiqamətində son dövrdə qəbul edilmiş “Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi”, “Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” və s. ölkəmizdə turizmin inkişafına dövlət qayğısının bariz nümunəsi hesab edilə bilər. Odur ki, fikrimizcə turizm sənayesində Dövlət proqramlarının həyata keçirilməsindən əldə edilmiş ümumi səmərəyə imic, iqtisadi, büdcə, sosial və ekoloji səmərələr şəklində birgə baxıla bilər. Azərbaycanda daxili və xarici turizmin inkişafı üzrə tədbirlərin həyata keçirilməsindən gözlənilən ümumi səmərənin nəticələri cədvəl 1-də verilir.

*Cədvəl 1*

**Daxili və xarici turizmin ölkədə inkişafı üzrə tədbirlərin həyata keçirilməsinin ümumi səmərəsi**

| Proqram tədbirlərinin həyata keçirilməsindən gözlənilən ümumi səmərə | | | | |
|---|---|---|---|---|
| İmic səmərəsi | İqtisadi səmərə | Büdcə səmərəsi | Sosial səmərə | Ekoloji səmərə |
| Azərbaycanın turizm ölkəsi kimi formalaşma-sına imkan yaradır | Dövlət-fərdi tərəfdaşlıq mexanizminin və biznes məqsədi və iqtisadi ərazilərin cəlbediciliyinin təmin edilməsi üçün əlavə investisiyaların turizm sənayesinə cəlb edilməsi yolu ilə nail olunacaqdır | Azərbaycan Respublikasının büdcə sisteminin büdcəsinə təklif edilən daxilolmaların həcmini əks etdirir | Digər sahələrin iqtisadiyya-tından fərqli olaraq turizm təbii ehtiyatların tükənməsinə gətirib çıxartmır | Turizm və istirahət infrastrukturunun inkişafı hesabına vətəndaşların həyat keyfiyyətinin yaxşı-laşdırılmasına, eyni zamanda əlavə iş yerlərinin yaradıl-ması hesabına sosial problemlərin həllinə şərait yaradılmasın-da özünü göstərir |

*Qeyd: müəllif tərəfindən tərtib edilmişdir*

**Nəticə**

Qeyd etdiklərimizdən belə bir fikir formalaşdırmaq olar ki, ölkəmizdə turizm sənayesi üzrə Dövlət proqramlarının həyata keçirilməsindən əldə edilmiş ümumi səmərəyə imic, iqtisadi, büdcə, sosial və ekoloji səmərələr şəklində özünü büruzə verir.

Fikrimizcə, Azərbaycanda ixtisaslaşmış turizm sənayesinin inkişafı bilavasitə daxili və xarici turizmin inkişaf etdirilməsinin əsas problemləri hesab edilən yerləşdirmə vasitələrinin (mehmanxana və mehmanxana tipli müəssisələrin) sayının artırılması və qiymət səviyyəsinin gözlənilməsi, nəqliyyat infrastrukturunun yeniləşdirilməsi, turizmin xidmət sferasının yüksəldilməsi, turizm sənayesinə investisiya qoyulması marağının artırılması, xidmət səviyyəsinin yüksəldilməsi məqsədi ilə ixtisaslı kadr hazırlığının təmin edilməsi, ölkəmizin regionlarında yerli əhalinin turistlərə davranışının tamamilə müsbət istiqamətə dəyişdirilməsi və s. kimi məsələlərin həllinə təkan verir. Bütün bu qeyd edilən-lər isə öz növbəsində Azərbaycanda turizm sənayesi infrastrukturunun keyfiyyətinin təhlili metodikasının işlənilməsini tələb edir.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**

1. "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı". 29 yanar 2019-cu il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
2. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". 6 dekabr 2016-cı il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm. Statistik məcmuə. Bakı.2020, 96 s.
4. Möhbalıyev F.F. Azərbaycanda turizm bazarı və aqroturizmin inkişaf parspektivləri. Əmək və Sosial Münasibətlər jurnalı. 2020, №1, s. 72-79
5. İsmayılov V.İ. Azərbaycanda beynəlxalq turizmin reytinqi vəinkişaf perspektivləri. Əmək və Sosial Münasibətlər jurnalı. 2019, №1, s. 85-93

**Ниджат Мусаев**

## ОЦЕНКА СОВРЕМЕННОГО СОСТОЯНИЯ РАЗВИТИЯ ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

На основе анализа текущего состояния туристической индустрии в Азербайджане выявлены основные проблемы развития внутреннего туризма и определены среднегодовые темпы роста числа международных туристов.

Также, сравнив туристические потоки в Азербайджан из ряда стран, было высказано мнение, что высокий международный рейтинг конкурентоспособности сферы туризма Азербайджана (4,7 единицы), несмотря на снижение числа международных туристов из некоторых стран (на 1,2 единицы меньше, чем у Швейцарии и США, имеющих самый высокий рейтинг в мире по этому показателю), смог обеспечить приток туристов из других стран. В связи с этим, также можно считать закономерным, что происходят регулярные всплески числа международных туристов, желающих посетить нашу страну.

**Цель –** Оценка текущего состояния развития сферы туризма в Азербайджане.

**Методология –** в исследовании использовался статистико-экономический и балансовый метод.

**Результат –** выявлены проблемы развития внутреннего туризма, рассчитаны среднегодовые темпы роста международных туристов и сделан вывод о закономерности его возникновения.

***Ключевые слова:*** *туризм, сфера, анализ, темпы роста, закономерность, оценка*

**Nijat Musayev**

## ASSESSMENT OF THE CURRENT STATE OF TOURISM DEVELOPMENT IN AZERBAIJAN

***Summary***

Based on the analysis of the current state of the tourism industry in Azerbaijan, the main problems of the development of domestic tourism are identified and the average annual growth rate of the number of international tourists is determined.

Also, comparing tourist flows to Azerbaijan from several countries, it was suggested that the high international ranking of competitiveness of tourism of Azerbaijan (4,7 units), despite a decline in the number of international tourists from certain countries (by 1,2 units less than in Switzerland and the USA having the highest rating in the world for this indicator), was able to ensure the influx of tourists from other countries. In this regard, it can also be considered natural that there are regular spikes in the number of international tourists who want to visit our country.

**Purpose –** Assessment of the current state of tourism development in Azerbaijan.

**Methodology** – the study used the statistical-economic and balance-sheet method.

**Findings –** the problems of domestic tourism development are identified, the average annual growth rates of international tourists are calculated, and the conclusion about the regularity of its occurrence is made.

***Keywords:*** *tourism, sphere, analysis, growth rate, pattern, assessment*

**Qəbul edilib: 18.04.2021**

**UOT 33.332.3**

**Abbas Səfərov**
***Aqrar Tədqiqatlar Mərkəzi***
abbas211@mail.ru

# KƏND TƏSƏRRÜFATINDA İSTEHSAL PROSESİNƏ RIÇAQ AMİLLƏRİN TƏSİRİNİN KOMPLEKS MODELİ

*Məqalədə Azərbaycanın aqrar siyasətinin həlledici rolu qeyd edilmiş, dünya ölkələrinin aqrar sənaye kompleksinin inkişaf strategiyasının prioritetləri göstərilmişdir. Həmçinin, Azərbaycanın aqrar-sənaye kompleksinin mövcud vəziyyəti, onun ehtiyatlar potensialı və gözlənilən perspektiv inkişafı geniş təhlil edilmiş, ölkə əhalisinin ərzaq təminatı üzrə yerli kənd təsərrüfatı məhsulları istehsalındakı bir sıra məhsul üzrə çatışmazlıqlar və onun aradan qaldırılması yolları göstərilmişdir.*

*Kənd təsərrüfatında istehsal prosesinə təsir göstərən amillərin qiymətləndirilməsi məqsədilə onların kompleks modeli işlənilmiş və kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən ənənəvi amilləri əks etdirən sxemlərdən fərqli cəhəti açıqlanmışdır. Həmçinin, kənd təsərrüfatı istehsalının iqtisadi mexanizmin əsas vəzifələri göstərilmişdir.*

***Məqsəd*** – aqrar sferada istehsal prosesinə təsir edən kompleks amillərin müəyyənləşdirilməsi və kənd təsərrüfatı istehsalının iqtisadi mexanizmin əsas vəzifələrinin göstərilməsidir.

***Metodologiya*** – tədqiqat işində iqtisadi-statistik və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – Azərbaycanda aqrar-sənaye kompleksinin dayanıqlı inkişafı məsələlərinin sürətli həllinə nail olunması kompleks (rıçaq) amillərin vaxtında qiymətləndirilməsi hesabına mümkündür.

***Açar sözlər***: *Aqrar sfera, kənd təsərrüfatı istehsalı, kompleks amillər, model, təşkilati-iqtisadi mexanizmlər*

## Giriş

Azərbaycanın aqrar siyasəti ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və aqrar biznes fəaliyyətinin sabitliyi məsələlərinin həllində mühüm rol oynayır. Dünya Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) həyata keçirdiyi islahatlar prosesi ölkələrin daxilində sosial-iqtisadi problemlərin kəskinləşməsi şəraitində ölkələrdə aqrar sektorunun modernləşdirilməsinə, kənd təsərrüfatının səmərəliliyinin artırılmasına və onların imicinin yaxşılaşdırılmasına yönəldilir. Dünya ölkələrində qəbul edilmiş aqrar sənaye kompleksinin inkişaf strategiyası bilavasitə aşağıdakı prioritetləri özündə ehtiva edir: -ərzaq istehsalının lazımi səviyyəsinin təmin edilməsi və onun əlçatanlığı; -ərzaq və qida səviyyəsinin keyfiyyətinin yaxşılaşdırılması; -ərzaq sferasında böhran vəziyyətlərinin qarşısının alınması və tənzimlənməsi [3, s.104]. Aqrar sənaye kompleksinin inkişaf strategiyası prioritetləri və aqrar sferanın dayanıqlı inkişafı məsələlərinin həlli mövzunun aktuallığını şərtləndirir.

Avropa İttifaqı (Aİ) və FAO-nun hesablamalarına görə, dünyada ərzaq təhlükəsizliyinin qəbul edilən səviyyəsini təmin etmək üçün hazırkı tendensiyaları qoruyub saxlamaqla hər il 30 mlrd. avro həcmində vəsait tələb olunur (2050-ci ilədək yer kürəsi əhalisinin sayının 9 milyard nəfər olacağı proqnozlaşdırılır). Aqrar sənayenin inkişaf strategiyasında nəzərdə tutulmuş bu prioritetlərin icra edilməsinin təminatı olaraq BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (ƏKTT) hər 2 ildən bir Qlobal Ərzaq Təhlükəsizliyi İndeksini (QƏTİ) hesablayır.

ƏKTT-nin hesabatına əsasən münaqişələrin və uzun sürən böhranın əhatə etdiyi ölkələrdə yoxsulluqdan əziyyət çəkən əhalinin xüsusi çəkisi digər inkişaf etməkdə olan ölkələrə nisbətən, demək olar ki, üç dəfə yüksəkdir. Hazırda təxminən 167 milyon tamdəyərli qidalanmayan insanlar əsasən uzun sürən böhranlı ölkələrdə yaşayırlar ki, bu da dünyada aclıq çəkənlərin ümumi sayının 1/5-ni təşkil edir. Bu problemdə ən çox uşaqlar əziyyət çəkirlər, çünki uşağın inkişafının kritik yaşında tamdəyərli qidalanmanın olmaması onun bütün həyatının qalan hissəsi üçün intellektual və fiziki nasazlıqlarla nəticələnə bilər. Hətta, münaqişələr cəmiyyətin inkişafında uzunmüddətli nəticələrə malik olmaqla bir neçə nəsilləri də əhatə edir [4, s.195-197]. Hesablamaya əsasən ərzaq məhsullarının əlçatanlığı və tələbatı səviyyəsi, ərzaq məhsullarının miqdarı və kifayətliliyi, ərzaq məhsullarının keyfiyyət səviyyəsi və təlükəsizliyi üzrə 28 göstəricini əhatə edən iki illik müddət ərzində 113 ölkə arasında Azərbaycan 2020-ci ildə 62,3 indeks göstəricisi ilə 56 sırada yer almışdır. Belə ki, bu göstəriclərə əsasən tərtib edilmiş indeks siyahısında keçmiş sovetlər ittifaqı ölkələri içərisində Azərbaycan Belorus (indeks-73,8), Rusiya (indeks-73,7), Qazaxıstan (indeks-70,8) və Ukraynadan (indeks-63,0) sonra beşinci sırada yer almışdır [6, s. 5-15].

FAO-nun təhlilinə əsaslanaraq müəllif qeyd edir ki, Azərbaycan dünya ölkələri sırasında əhalinin kənd təsərrüfatı məhsullarının təminatı səviyyəsinə görə özünə məxsus yer tutur və bu məsələnin həllində dövlət tərəfindən qəbul edilmiş “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli Sərəncamının icrasını təmin etmək üçün Nazirlər Kabineti tərəfindən təsdiqlənən Tədbirlər Planınında tikinti sektoru, dağ-mədən sənayesi, neft-kimya sənayesi, rəqəmsal iqtisadiyyat, nəqliyyat, ticarət və logistika, telekommunikasiya, daxili turizm fəaliyyət sahələri ilə yanaşı kənd təsərrüfatı və emal sənayesinin də seçilməsi həm də ölkəmizin ərzaq təhlükəsizliyi baxımından mühüm əhəmiyyətə malikdir. Burada nəzərdə tutulmuş tədbirlər planı çərçivəsində görüləcək işlərin icra edilməsi kənd təsərrüfatı məhsullarının istehsalı və ixracının artmasına, ölkənin ərzaq təhlükəsiliyinin güclənməsinə, həmçinin aqrar sektorda təminatsız mikrokreditlərin verilməsi üçün Aqrar Kredit və İnkişaf Agentliyinə 30 milyon manatın ayrılması kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə ehtiyaclarının qarşılanmasına xidmət edır.

## I. Aqrar sferanın müvcud vəziyyətinin təhlili

Azərbaycanın aqrar-sənaye kompleksinin mövcud vəziyyəti, onun ehtiyatlar potensialı və gözlənilən perspektiv inkişaf xüsusiyyətlərini əhatə etməklə aparılmış tədqiqat işinin nəticəsi göstərir ki, hazırda ölkə əhalisinin ərzaq təminatı üzrə yerli kənd təsərrüfatı məhsulları istehsalının bir çox növündə çatışmazlıqlar mövcuddur. 2000-2019-cu illərdə MDB ölkələrinin kənd təsəttüfatı məhsulları istehsalının müqayisəli qiymətlərlə fiziki həcm indeksinin təhlili göstərir ki, bu dövr ərzində Tacikistanda 39,7 dəfə, Ukraynada-15,5 dəfə, Qazaxıstanda-13 dəfə, Rusiyada-8,43 dəfə, Belorusda-7,74 dəfə, Azərbaycanda-7,04

dəfə, Qırğızıstanda-5,38 dəfə, Ermənistanda-3 dəfə və Moldovada-2,9 dəfə artım olmuşdur [1, s.638]. Təhlil nəticəsində qeyd etmək olar ki, əhalinin kənd təsərrüfatı məhsullarına artan tələbatının təmin edilməsi məqsədilə MDB ölkələrində də kənd təsərrüfatı məhsulları istehsalının artım tempi təmin edilir, lakin bu artım əhali sayının artım tempindən nisbətən yüksək olmalıdır. Qeyd edilən qanunauyğunluq Tacikistanda, Qırğızıstanda və nisbətən Qazaxıstanda təmin edilə bilmir, bu baxımdan da, həmin ölkələrdə istehsal həcminin daha yüksək artım tempində olması vacib şərtlərdəndir. Onu da qeyd edək ki, ölkə əhalisinin taxıl məhsulları ilə təminatında problemin yaranmaması üçün Nazirlər Kabinetinin 7 iyul 2009-cu il tarixli 105 nömrəli Qərarı ilə təsdiq edilmiş “Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları”nın 1 nömrəli əlavəsi ilə müəyyən edilmiş Dövlət Taxıl Fonduna tədarük olunan taxıl üçün qəbul edilmiş keyfiyyət göstəricilərinə cavab verən buğda qəbul edilməsi nəzərdə tutulmuşdur. Digər tərəfdən isə, Azərbaycan ərzaqlıq buğdanın bir hissəsini Rusiya və Qazaxstandan idxal edir.

Kartofla bağlı da ölkəmizin mövcud ehtiyatları tələbatın ödənilməsi üçün demək olar ki, kifayət edir. Lakin, onu da qeyd etmək lazımdır ki, kartofun düzgün texnologiyada saxlanılmaması və mövcud anbarların sayının azlığı bəzən ölkəmizə xaricdən kartof idxal edilməsini də şərtləndirir. Bundan əlavə, ölkəmizdə əlverişli iqlim şəraitində yetişdirilmiş faraş tərəvəzin, kartofun yerli və region bazarlarına erkən çıxarılması ölkənin xarici valyuta ehtiyatının çoxalmasını təmin edə bilər. Eyni zamanda, ölkə əhalisinin soğan və digər tərəvəzlərlə il ərzində təminatı vəziyyəti də mövcud anbar təsərrüfatının azlığı və saxlanılma texnologiyasının gözlənilməməsi səbəbindən bəzən ölkədə yerli istehsalın tükənməsinə gətirib çıxarır və nəticədə qonçu ölkələrdən həmin məhsulların idxal edilməsi ilə nəticələnir, halbuki, vaxtında görülmüş qabaqlayıcı tədbirlər bu problemin həllini təmin edə bilər. Statistik məlumatlara əsasən ölkəmizdə faktiki şəkər çuğunduru istehsalının həcmi təxminən 219 min tona bərabərdir ki, bu da yerli istehsal hesabına çəkər tələbatının 60-65% ödənilməsini təmin edə bilər [1, s. 385-386; s. 391-392; s. 404-405]. Azərbaycanda son ildə 12 min ton çəltik istehsal olunmuşdur ki, bu da yerli istehsal hesabına tələbatı təmin edə bilmir və həmin növ məhsulun əksər hissəsinə olan tələbat Hindistan, Pakistan, İran və digər ölkələrdən idxal edilmiş məhsul hesabına ödənilir [1, s. 373].

Qeyd etmək lazımdır ki, son illərdə dövlət tərəfindən lizinq yolu ilə xaricdən gətirilmiş damazlıq heyvanların, həmçinin qoyun və keçilərin əhaliyə lizinq yolu ilə satılması nəticəsində artıq demək olar ki, süd və ət tələbatı (bəzi növ məhsullar istisna olmaqla) da yerli istehsal hesabına təmin edilə bilir. Bundan başqa, ölkəmizdə istehsal olunan yerli brend məhsulları nar, xurma, feyxoa və s. yerli tələbatı ödəməklə, qonşu Rusiya, Belorus, Ukrayna və s. ölkələrin bazarlarında da kifayət qədər tələbata cavab verir, onların həmin bazarlarda realizasiyası nəticəsində əldə edilmiş pul vəsaiti ölkəmizin xarici ticarət həcminin artımında və valyuta ehtiyatlarının çoxalmasında həlledici rol oynayır.

**II. Kənd təsərrüfatı istehsal prosesinə təsir edən kompleks amillər**

Azərbaycanda aqrar-sənaye kompleksinin dayanıqlı inkişafı ilə bağlı məsələlərin sürətli həllinə, kənd təsərrüfatı istehsalının davamlı və sabit geniş təkrar istehsalı prosesinə nail olunması rıçaq amillərinin vaxtında qiymətləndirilməsi hesabına mümkündür. Həmçinin, aqrar sferanın davamlı və geniş tərar istehsalı üzrə beynəlxalq və yerli təcrübə kənd təsərrüfatı istehsalı proseslərinə təsir edən maksimum sayda amilləri müəyyən etməyə imkan verir.

Kənd təsərrüfatı istehsalının xüsusiyyətləri və istehsal prosesinə təsir göstərən amillərin qiymətləndirilməsi məqsədilə onların kompleks modelinin işlənilməsini vacib hesab edirik. Beləliklə, tədqiqat işinin gedişatında kənd təsərrüfatı istehsalı prosesinə rıçaq

amillərinin təsirinin kompleks modeli işlənilmişdir (şəkil 1).

Tədqiqatda işlənilmiş bu kompleks model kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən ənənəvi xarici və daxili mühit amillərini əks etdirən sxemlərdən fərqlənir. Bu modeldə kənd təsərrüfatı məhsullarının istehsal ilə bağlı məlum olan, lakin heç də həmişə nəzərə alınmayan bir sıra amillər təqdim olunur: kənd təsərrüfatı istehsalının təşkilati-istehsal xüsusiyyətləri ilə əlaqəli amillər; bazar münasibətləri ilə kənd təsərrüfatının inkişafı üçün məhsulların geniş təkrar istehsalında mühüm rol oynayan spesifikası.

Beləliklə, kənd təsərrüfatı istehsalı prosesinə təsir göstərən rıçaq amilləri ümumiləşdirilmiş və onun əsasında Azərbaycanda aqrar sənaye kompleksinin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsinə zəmin yaradan əsas elementlər müəyyənləşdirilmiş, onun dayanıqlı inkişafını təmin edən təşkilati-iqtisadi mexanizminin modelləşdirilməsi ilə bağlı nəzəri-metodoloji müddəaların müqayisəli təhlili əsasında konseptual aspektlər formalaşdırılmışdır ki, bu da, müəllifin fikrincə, ölkənin aqrar-sənaye kompleksinin idarə edilməsi keyfiyyətinin yeni səviyyəsini təmin etməlidir. Aqrar sənaye kompleksinin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizminin yeni səviyyəsi dedikdə, idarəetmə sahəsində yeni ideyaların tətbiqi, yeni idarəetmə forma və üsullarının işlənilməsi və tətbiqi, təşkilati idarəetmə sistemində yeniliklərin həyata keçirilməsi, idarəetmə qərarlarının kənd təsərrüfatı məhsullarının geniş təkrar istehalına uyğunluğunun kompleks qiymətləndirilməsi və dayanıqlı inkişaf üçün əlverişli şəraitin yaradılması başa düşülür (şəkil 2).




**Şəkil 1. Kənd təsərrüfatı istehsalı prosesinə rıçaq amillərin təsirinin kompleks modeli**

Qeyd: [2, s.12-14; 5, s.23-28] əsasında müəllif tərtib etmişdir




**Şəkil 2. Kənd təsərrüfatı istehsalının iqtisadi mexanizmləri**
Qeyd: müəllif tərəfindən tərtib edilmişdir

Tədqiqat işində kənd təsərrüfatı istehsalının iqtisadi mexanizminin elementlərinin müəyyənləşdirilməsi verilmişdir ki, bu da açıq və mürəkkəb sistem kimi daim inkişaf edən, bazar qanunları və dövlət siyasətinin təsiri altında formalaşan, onun dayanıqlı inkişafını təmin etmək məqsədi ilə istehsal prosesində bütün resurslardan səmərəli istifadə edilməsinə yönəldilmiş müxtəlif səviyyələrdə üzvi əlaqəli və qarşılıqlı tamamlayıcıdan ibarətdir. Həmçinin, kənd təsərrüfatı istehsalının iqtisadi mexanizmin əsas vəzifələri olaraq

aşağıdakılar qeyd edilir:

- kənd təsərrüfatı məhsulları istehsalının lazımi həcminin müəyyənləşdirilməsi;
- kənd təsərrüfatı məhsullarının istehsalı üçün ən effktiv iqtisadi zonanın əsaslandırılaraq seçilməsi;
- kənd təsərrüfatı məhsulları istehsalçılarına risklər, səmərəli layihələrin tətbiqi və s. üzrə instrumental dəstəyin formalaşdırılması;
- kənd təsərrüfatı istehsalının ixtisaslaşması sxemlərinin təkmilləşdirilməsi;
- iqtisadi rayonlar üzrə inkişaf institutları xidmətlərinin genişləndirilməsi;
- informasiya kommunikasiya texnologiyalarından səmərəli istifadənin təşkili.

Fikrimizcə, kənd təsərrüfatı istehsalının iqtisadi mexanizminin ən mühüm funksiyası kənd təsərrüfatı əmtəə istehsalçılarının bazara uyğunlaşması və səmərəli fəaliyyətinin təşkili baxımından prosesə təsir edən rıçaqlara prinsipial və yeni yanaşmanın formalaşdırılmasıdır. Odur ki, Azərbaycanın aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının keyfiyyətcə yeni təşkilati-iqtisadi mexanizminin modelləşdirilməsinin əsaslandırılmış konseptual aspektləri çərçivəsində aqrar-sənaye kompleksinin idarə edilməsi sistemində dəyişikliklərin aparılmasının alqoritmi işdə verilmişdir. Təklif edilən alqoritmə görə, aşağıda göstərilmiş tədbirlərin həyata keçirilməsi vacib hesab edilir:

- kənd təsərrüfatı məhsullarının istehsalı üçün ən effktiv iqtisadi zonanın əsaslandırılaraq seçilməsi;
- kənd təsərrüfatı məhsulları istehsalçılarına risklər, səmərəli layihələrin tətbiqi və s. üzrə instrumental dəstəyin formalaşdırılması;
- kənd təsərrüfatı istehsalının ixtisaslaşması sxemlərinin təkmilləşdirilməsi;
- iqtisadi rayonlar üzrə inkişaf institutları xidmətlərinin genişləndirilməsi;
- informasiya kommunikasiya texnologiyalarından səmərəli istifadənin təşkili.

Kənd təsərrüfatı istehsalının iqtisadi mexanizminin ən mühüm funksiyası kənd təsərrüfatı əmtəə istehsalçılarının bazara uyğunlaşması və səmərəli fəaliyyətinin təşkili baxımından prosesə təsir edən rıçaqlara prinsipial və yeni yanaşmanın formalaşdırılmasıdır. Odur ki, Azərbaycanın aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının keyfiyyətcə yeni təşkilati-iqtisadi mexanizminin modelləşdirilməsinin əsaslandırılmış konseptual aspektləri çərçivəsində aqrar-sənaye kompleksinin idarə edilməsi sistemində dəyişikliklərin aparılmasının alqoritmi işdə verilmişdir. Təklif edilən alqoritmə görə, aşağıda göstərilmiş tədbirlərin həyata keçirilməsi vacib hesab edilir:

- regionlar üzrə aqrar sferanın nəzarət sisteminin təhlili;
- regionlar üzrə aqrar sferanın idarəetmə sistemində “dar çərçvəli” yerlərin aşkar edilməsi;
- ölkənin kənd təsərrüfatı sistemində strateji və operativ dəyişikliklərin əsaslandırılması;
- regionların idarəetmə sisteminin məqsədli inkişaf prioritetlərinin müəyyən edilməsi;
- kənd təsərrüfatının idarəetmə sisteminin inkişafını təmin edən vəzifə və tələblərin hazırlanması;
- ölkənin aqrar sənaye kompleksinin idarəetmə sistemindəki dəyişikliklər üçün məhdudiyyətlər və fərziyyələrin tədqiqi;
- aqrar sənaye kompleksinin idarə edilməsi sisteminin inkişaf konsepsiyasının işlənilməsi, onun inkişaf ssenarisi və modelinin hazırlanması;
- iqtisadi rayonlarda idarəetmə sisteminin dəyişdirilməsi planları, proqramları və layihələrinin hazırlanması;
- idarəetmə sisteminə qəbul edilmiş dəyişikliklərin həyata keçirilməsinin təşkili;
- idarəetmə sistemində baş verən dəyişikliklərin səmərəliliyinin qiymətləndirilməsi.

Beləliklə, Azərbaycanın aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının keyfiyyətcə yeni təşkilati-iqtisadi mexanizminin modelləşdirilməsinin alqoritmi və onun əsaslandırılmış konseptual aspektləri bu sferanın müasir inkişaf tendensiyalarının

kompleks şəkildə qiymətləndirilməsini və səmərəli iqtisadi mexanizminin modelləşdirilməsini təmin edir. Həmçinin, kənd təsərrüfatının bitkiçilik, heyvandarlıq, quşçuluq və s. sahələrində kənd təsərrüfatı istehsalının digər resurslarından məhsuldar və səmərəli istifadə edilməsi vacib şərt hesab edilir.

Eyni zamanda, aparılmış tədqiqatlar əsasında aqrar-sənaye kompleksinin idarə olunmasının qanunauyğunluqları və prinsipləri göstərilmiş, idarəetmə sisteminin formalaşması və fəaliyyətinin metodoloji bazası aşkarlanmış və sistemləşdirilmişdir ki, bu da müəllifin aqrar sənaye kompleksinin dayanıqlı inkişafının yeni təşkilati-iqtisadi mexanizminin modelini işləməsinə imkan vermişdir (şəkil 3).




**Şəkil 3. Azərbaycanın aqrar sferasının dayanıqlı inkişafı təşkilati-iqtisadi mexanizminin modeli**

Qeyd: müəllif tərəfindən tərtib edilmişdir

Regionlarda kənd təsərrüfatının dayanıqlı inkişafının yeni modelində aqrar-sənaye kompleksinin şaxələndirilməsi üzrə proqram və monitorinqlərin aparılması blokları aparıcı rol oynayır. Modelin proqram bloku prioritet istiqamətlər dairəsini (ASK-nın rəqabət üstünlüklərinin təmin edilməsi və artırılması; kənd təsərrüfatı məhsullarının bazar strukturunun və əmtəə bazarlarının inkişafı; resurslardan kompleks və səmərəli istifadə; innovasiyaya istiqamətləndirmə; kənd təsərrüfatı sahələrinin investisiya cəlbediciliyinin təmin edilməsi; aqrobiznesin inkişafı üçün əlverişli şəraitin yaradılması; kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi; kənd təsərrüfatı kompleksinin dövlət tənzimlənməsi; müxtəlif növ kənd təsərrüfatı fəaliyyətinin regional əlaqələndirilməsi və s.) və tədbirləri (idarəetmə orqanları və kənd təsərrüfatı sahibkarlığında işçilərin bilik, bacarıq və yaradıcılıq səviyyəsinin artırılması; kənd təsərrüfatı istehsalının səmərəli yerləşdirilməsi proseslərinin sistemliliyi və ardıcıllığının formalaşdırılması; ziyanla işləyən kənd təsərrüfatı istehsalının azaldılması yollarının axtarışı; təchizat və satış proseslərini əhatə edən optimal sxemlərin tapılması; aqrar-sənaye kompleksinin iqtisadi, sosial, ekoloji, innovativ inkişaf sahələrinin regional proqramlarının işlənib hazırlanması; regionun sosial-iqtisadi inkişafı maraqlarının kənd təsərrüfatı məhsul istehsalçıları və əhalinin maraqları ilə uyğunlaşdırılması və s.) özündə birləşdirir.

Tədqiqatda verilən aqrar sənaye kompleksinin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizmi modelindən göründüyü kimi, burada monitorinq bloku xüsusilə əhəmiyyət kəsb edən mərhələdir. Aqrar-sənaye kompleksinin dayanıqlı inkişafını təmin edən monitorinqin uğurlu aparılması üçün müəllif region aqrar-sənaye kompleksinin strukturu ilə əlaqəli və aqrar-sənaye kompleksinin mövcud vəziyyətinin xarakteristikasını əldə etməyə imkan verən göstəricilər sistemini təklif etmişdir ki, bunlara: aqrar sənaye kompleksinin strukturu, kənd təsərrüfatı istehsalı vasitəsi kimi torpaqdan istifadənin səmərəliliyi, maddi-texniki baza, əmək resurslarının formalaşdırılması və istifadəsi, həmçinin elmi-texniki tərəqqinin yüksək nailiyyətindən səmərəli istifadə, kənd təsərrüfatı istehsalının informasiya, ixtisaslaşma və konsentrasiya göstəriciləri, bitkişilik və heyvandarlıq sahələrinin iqtisadi göstəriciləri, bazar strukturunun formalaşma göstəriciləri, sahibkarlıq təsərrüfatı subyektlərinin əsas istehsal fondlarından istifadənin səmərəlilik göstəriciləri və regionların iqtisadi, sosial, innovativ və ekoloji inkişafını müəyyənləşdirən monitorinqin tətbiqi kimi lokal şəbəkələri daxil etmək olar.

**Nəticə**

Fikrincə, regionların iqtisadi, sosial, innovativ və ekoloji inkişafını müəyyənləşdirən monitorinqdə aqrar-sənaye kompleksinin həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinin tətbiqi gələcək tədqiqatlar üçün bazanı yaratmış olur. Həmçinin qeyd edək ki, aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizmi modelinin keyfiyyətli fəaliyyətini yalnız ən yeni informasiya texnologiyaları və müasir kompüter texnologiyası, telekommunikasiya və proqram təminatından istifadə etməklə həyata keçirmək mümkündür. Belə ki, yeni informasiya texnologiyaları (sahə, təmin edici və funksional) regionlarda aqrar sferanın inkişafı haqqında informasiyanın əldə edilməsinə istiqamətlənmiş prosesdir. Bu prosesə kənd təsərrüfatını hərtərəfli əhatə edən informasiyanın toplanması, işlənməsi, saxlanması və təsvirini təmin edən metodlar, mərhələlər, əməliyyatlar, hərəkətlər, proqram və texniki vasitələr daxildir. İnformasiya texnologiyalarının əsas təyinatlarına bütün informasiyanın emal prosesinin mərhələlərə, əməliyyatlara, fəaliyyətə bölünməsinin yüksək dərəcəsini təmin etmək; aqrar-sənaye kompleksinin inkişafının təhlili mərhələlərinin vahidləşdirilməsinə və standartlaşdırılmasına köməklik etmək; regionların aqrar-sənaye kompleksinin inkişafının qiymətləndirilməsi üçün müəyyən informasiya bazisini daxil

etmək, müntəzəm xarakter daşımaq və s. aiddir.

Ümumilikdə, Azərbaycanın aqrar-sənaye kompleksinin inkişafının qiymətləndirilməsində informasiya-kompüter texnologiyalarının tətbiqi iqtisadi hadisələri və prosesləri daha dərindən və hərtərəfli araşdırmağa, amilləri daha dolğun öyrənməyə, həmçinin ayrı-ayrı regionların dayanıqlı inkişafını əhatə edən ehtiyatların aşkara çıxarılmasına imkan verir. Beləliklə, tədqiqat işində təklif olunan nəzəri müddəalar və metodiki tövsiyələr praktiki olaraq ölkənin aqrar-sənaye kompleksinin dayanıqlı inkişafının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsini həyata keçirməyə imkan verir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycan kənd təssərrüfatı. Rəsmi nəşr //- Bakı: [n. Y.], - 2020.-653 s.

2. Голубев, А.В. Внутренние резервы повышения эффективности аграрной экономики / А.В.Голубев, А.А.Голубева // -Москва: Экономика сельскохозяйственных и перерабатывающих предприятий, -2014. №3, -с. 12-14

3. Гончаров, В.Д. Продовольственная безопасность России: проблемы и перспективы / В.Д.Гончаров, З.А.Иванова, М.В. Селина; - Москва: ИНЭК, - 2017. - 104 с.

4. Растопчина, Ю.Л. Индикаторы устойчивого развития как инструмент оценки развития сельского хозяйства и сельских территорий / Ю. Л. Растопчина, Е. И. Ковалева //- Казань: Молодой ученый,- 2012. №11, с.195-197.

5. Третьякова, Л.А. Устойчивое сельское развитие в контексте ментальности населения сельских территорий России/ Л.А.Третьякова//-Москва: Национальные интересы: приоритеты и безопасность, - 2013. № 12, - с.23-28

6. The Global Food Security Index 2020. URL: https://gtmarket.ru/ratings/global-food-security-index

**Аббас Сафаров**

## КОМПЛЕКСНАЯ МОДЕЛЬ ВЛИЯНИЯ КЛЮЧЕВЫХ ФАКТОРОВ НА ПРОИЗВОДСТВЕННЫЙ ПРОЦЕСС В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

***Резюме***

В статье отмечена решающая роль аграрной политики Азербайджана, указаны приоритеты стратегии развития агропром комплекса стран мира. Также был проведен широкий анализ текущего состояния агропромышленного комплекса Азербайджана, его ресурсного потенциала и ожидаемого перспективного развития, указаны недостатки в производстве местной сельскохозяйственной продукции по продовольственному обеспечению населения страны и пути их устранения.

С целью оценки факторов, влияющих на производственный процесс в сельском хозяйстве, разработана их комплексная модель и раскрыта их отличительная черта от схем, отражающих традиционные факторы, влияющие на финансово-хозяйственную деятельность сельхозпроизводителей. Также, обозначены основные задачи экономического механизма сельскохозяйственного производства.

***Цель*** – определение комплексных факторов, влияющих на производственный процесс в аграрной сфере, и указание основных задач экономического механизма сельскохозяйственного производства

***Методология*** – в исследовательской работе были использованы методы экономико-статистического и сравнительного анализа.

***Результаты исследования*** – достижение быстрого решения вопросов устойчивого развития агропромышленного комплекса в Азербайджане возможно за счет своевременной оценки комплексных факторов.

***Ключевые слова:*** *аграрная сфера, сельскохозяйственное производство, комплексные факторы, модель, организационно-экономические механизмы*

**Abbas Safarov**

## A COMPREHENSIVE MODEL OF THE INFLUENCE OF KEY FACTORS ON THE PRODUCTION PROCESS IN AGRICULTURE

***Summary***

*The article highlights the crucial role of Azerbaijan's agricultural policy, and outlines the priorities of the strategy for the development of the world's agricultural complex. A broad analysis of the current state of the agro-industrial complex of Azerbaijan, its resource potential and expected long-term development was also carried out, shortcomings in the production of local agricultural products for the food supply of the country's population and ways to eliminate them were indicated.*

*In order to assess the factors that affect the production process in agriculture, a comprehensive model of them is developed and their distinctive feature is revealed from the schemes that reflect the traditional factors that affect the financial and economic activities of agricultural producers. Also, the main tasks of the economic mechanism of agricultural production are outlined.*

***Purpose –*** identification of complex factors affecting the production process in the agricultural sector, and indication of the main tasks of the economic mechanism of agricultural production.

***Metodology*** – methods of economic-statistical and comparative analysis were used in the research work.

***Findings*** – achieving a quick solution to the issues of sustainable development of the agro-industrial complex in Azerbaijan is possible due to the timely assessment of complex factors.

***Keywords:*** *agricultural sector, agricultural production, complex factors, model, organizational and economic mechanisms*

**Qəbul edilib: 30.03.2021**

**UOT 33.336.05**

**Orxan Yusubov**
***Azərbaycan Kooperasiya Universiteti***

# ÖLKƏDƏ İQTİSADİ ATRIMIN TƏMİN OLUNMASINDA BÜDCƏ XƏRCLƏRİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə ölkədə iqtisadi atrımın təmin olunmasında büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi məsələlərinə baxılmışdır. Bunun üçün ilk yanaşmada büdcəyə təsir edən əsas amil kimi neftin dünya bazarında qiyməti və neftə olan tələb üzrə beynəlxalq təşkilatın göstəriciləri verilmişdir. İkinci yanaşmada məcmu tələbə təsir edən amil kimi dövlət büdcəsinin xərcləri, əhalinin gəlirləri və istehlak xərcləri verilmişdir. Həmçinin, tədqiqat işində dövlət büdcəsinin xərc istiqamətləri üzrə beynəlxalq təcürbənin müqayisələri aparılmış və beynəlxalq təcrübə nümunələri göstərilmiş, büdcə multiplikatoru hesablanmış və onun ÜDM-ə təsiri müəyyənləşdirilmişdir.*

***Məqsəd –*** ölkədə iqtisadi atrımın təmin olunmasında büdcə xərclərinin səmərəliliyinin müəyyənləşdirilməsidir.

***Metodologiya -*** tədqiqat işində müqayisəli və sistemli yanaşma, məntiqi ümumiləşdirmə, təhlil, iqtisadi-riyazi üsullar metodları tətbiq edilmişdir.

***Tədqiqatın nəticələri –*** büdcə multiplikatorunun hesablanması onu deməyə əsas verir ki, dövlət büdcəsindən xərclənən vəsaitlər hər bir manat multiplikativ effekt yaradaraq ÜDM-in artmasına 0,401 manat məbləğində əlavə artım verəcəkdir.

***Açar sözlər:*** *ÜDM, büdcə, multiplikator, səmərəlilik, neftin qiyməti, məcmu tələb, iqtisadi artım*

## Giriş

Ölkədə iqtisadi atrımın təmin olunmasında büdcə siyasətinin effektivliyinin qiymətləndirilməsi üçün ilk növbədə dövlət büdcəsi üzrə xərclərin multiplikativ effektivliyinin ÜDM-yə təsiri qiymətləndirilməlidir. Belə bir qiymətləndirməyə keçməzdən əvvəl ilk növbədə dövlət büdcəsinin sosial-iqtisadi mahiyyəti və onun ÜDM-nin artması istiqamətində təsirlərini müəyyən etməyə çalışaq. Aydındır ki, dövlət büdcəsi Dövlət büdcəsi, hər hansı bir dövlətin bir qayda olaraq, bir il ərzində (1 yanvar – 31 dekabr) iqtisadi subyektlər tərəfindən gəlirinin toplanması və xərclərinin istifadəsini planlayan sənəddir. Dövlət büdcəsi, dövlətin fəaliyyət göstərməsi üçün ölkənin sosial-iqtisadi və hərbi-siyasi məsələlərinin həllinin maliyyə əsasıdır. Büdcənin köməyi ilə makro səviyyədə və bütün iqtisadiyyatda maliyyə tənzimlənməsi məsələləri həll olunur. Həmçinin dövlət büdcənin iqtisadi əhəmiyyəti məcmu tələbin əhəmiyyətli bir hissəsinin həll olunmasında əvəzsiz rola malikdir.

## 1. Neftin bazar qiyməti və büdcənin proqnozlaşdırılması

Məlumdur ki, Azərbaycanda dövlət büdcəsi proqnozlaşdırılarkən neftin dünyadakı qiyməti nəzərə alınır. Fikrimcə, dövlət büdcəsi qarşısında düran əsas məsələlərdən biri dünya bazarında neftin qiymətlərindən aslı olmayaraq büdcəsinin formalaşdırılması və bunun əsasında isə sağlam iqtisadi struktura malik iqtisadiyyatın təşkili, eləcədə onun

maliyyələşditilməsi olduqca aktual məsələdir. Azərbaycan Respublikasının dövlət büdcəsinin formalaşması neftin qiymətlərindən aslı olduğu üçün dünyada neftin qiymətlərinə nəzər salaq.

Enerji İnformasiya Administrasiyasının statistik məlumatlarına görə dünyada 2020-ci ildə xam neftə olan tələb əvvəlki, illə müqayisədə təqribən 9% azalmışdır. Bunun səbəbi qlobal aləmdə pandemiyanın yayılmasını qarşısını almaq üçün demək olar ki, əksər ölkələrin səyahət, turizmlə bağlı məhdudlaşdırıcı tədbirləri və nəticədə nəqliyyatdan istifadənin kəskin azalması neft istehlakının da azalmasını şərtləndirmişdir. Bunu dünya Enerji İnformasiya Administrasiyası təşkilatının statistikasının statistik məlumatlarından da görmək olar (şəkil 1).




**Şəkil 1. Dünya miqyasında xam neftə gündəlik tələb, təklif və neftin orta qiyməti, ABŞ dolları və milyon barel**

Mənbə: [1] əsasında müəllif tərtib etmişdir.

Cədvəl məlumatlarından göründüyü kimi dünyada neftə olan tələb elədə ciddi artmayacaqdır. Buna görə də dövlət büdcəsi vasitəsilə iqtisadiyyatın digər sahələrinin maliyyələşdirlməsinə və onun səmərəliliyinə xüsusi diqqət verilməlidir.

**2. Ölkədə iqtisadi atrımın təmin olunmasında büdcə xərcləri və əhalinin gəlirləri**

Büdcə xərcləri iqtisadi artıma təsirinin səmərəliliyi və ya ÜDM-nin artımına səmərli təsiri dövlətin ümumi əmtəə və xidmətlərə olan tələbindən aslıdır. Dövlət xərclərinin artması birbaşa tələbin artmasına səbəb olur. Başqa sözlə bu tələb iqtisadiyyatda məcmu təklifi stimullaşdıracaqdır (şəkil 2).

Daxili tələbin stimullaşdırılması baxımından və iqtisadi artıma nail olunması baxımından hökumətin xərclərıdə böyük əhəmiyyət kəsb edir. Bu baxımdan 2014-2019-cu illər üzrə dövlət büdcəsinin cərc maddələrinin təhlili maraqlıdır. Statistik məlumatlar göstərir ki, əhalinin son istehlak xərcləri 2014-cü ildə 86,3% təşkil edirdisə bu göstərici 2019-cu ildə 90,6% olmuşdur. Son istehlak xərcləri, istehlak, mənzil-kommunal xidmətləri, nəqliyyat, rabitə, səhiyyə və təhsil xərcvəri olduğunu nəzərə alsaq onda əhalinin sərəncamında olan qənaətlərinin azaldığını görürü. Başqa sözlə milli qənaətin azalmasını göstərir ki, bu da əhalinin iqtisadi vəziyyəti ilə birbaşqa bağlı olan məsələdir.




| | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Gəlirlər | 39 472,2 | 41 744,8 | 45 395,1 | 49 187,9 | 53 103,7 | 56 769,0 |
| Xərclər | 30 799,6 | 34 963,4 | 39 775,0 | 44 498,4 | 47 557,2 | 51 927,4 |
| Son istehlak xərcləri | 26 582,6 | 30 595,3 | 35 196,7 | 40 210,2 | 43 067,3 | 46 797,8 |

**Şəkil 2. Əhalinin gəlirləri və xərcləri, milyon manat**
Mənbə: [2] əsasında müəllif tərtib etmişdir.

Dövlət büdcəsinin xərcləri məcmu tələbin dəstəkləməsində əhəmiyyətli rola malik olmuşdur. Belə ki, 2014-ci ildə dövlət büdcəsinin xərcləri 18 709 milyon manat olmuşdursa bu göstərici 2019-cu illə müqayisədə 30,6% artmış və daxili tələbin inkişafında, artmasında əhəmiyyətli rola malik olmuşdur. 2019-cu il üzrə dövlət büdcəsinin həcmi əvvəlki illə müqayisədə isə 7.4% çox olmuşdur (cədvəl 1).

Büdcə xərcləri ilə bağlı beynəlxalq təsnifata nəzər salmaq da məqsədəuyğundur.

***Cədvəl 1***

**Dövlət büdcəsinin xərclərinin quruluşu və xüsusi çəkisi, faiz**

| Xərc maddələrinin adı | 2014 | % | 2015 | % | 2016 | % | 2017 | % | 2018 | % | 2019 | % |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İqtisadiyyata | 7598.7 | 40.6 | 6408.8 | 36.0 | 4124.0 | 23.2 | 4394.3 | 25.0 | 7822.7 | 34.4 | 7961.5 | 32.6 |
| Təhsil | 1553.9 | 8.3 | 1605.1 | 9.0 | 1754.4 | 9.9 | 1742.7 | 9.9 | 1966.6 | 8.7 | 2195.7 | 9.0 |
| Səhiyyə | 665.3 | 3.6 | 708.2 | 4.0 | 702.5 | 4.0 | 704.7 | 4.0 | 709.9 | 3.1 | 873.6 | 3.6 |
| Sosial müdafiə və sosial təminat | 1971.2 | 10.5 | 1857.2 | 10.4 | 2645.2 | 14.9 | 2350.2 | 13.4 | 2150.7 | 9.5 | 2281.0 | 9.3 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 294.0 | 1.6 | 272.4 | 1.5 | 687.4 | 3.9 | 253.3 | 1.4 | 299.5 | 1.3 | 335.8 | 1.4 |
| elmə | 124.2 | 0.7 | 113.2 | 0.6 | 110.2 | 0.6 | 109.8 | 0.6 | 117.8 | 0.5 | 122.3 | 0.5 |
| Məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq | 1103.6 | 5.9 | 1105.7 | 6.2 | 1117.1 | 6.3 | 1177.6 | 6.7 | 1316.4 | 5.8 | 1505.0 | 6.2 |
| qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanmasına | 449.7 | 2.4 | 430.9 | 2.4 | 470.1 | 2.6 | 552.2 | 3.1 | 627.4 | 2.8 | 774.5 | 3.2 |
| Sair xərclər | 4948.4 | 26.4 | 5283.0 | 29.7 | 6140.4 | 34.6 | 6309.7 | 35.9 | 7720.6 | 34.0 | 8376.5 | 34.3 |
| Cəmi -xərclər | 18709 | 100.0 | 17785 | 100.0 | 17751.3 | 100.0 | 17594.5 | 100.0 | 22731.6 | 100.0 | 24426 | 100.0 |

Mənbə: [1]

***Cədvəl 2***

**Dövlət büdcəsinin xərclər maddəsi**

| Xərclər | Beynəlxalq təcürbədə |
|---|---|
| Sosial xidmətlərə şəkilən xərclər: Xüsusilə, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, sosial müdafiə və sosial təminat və.s | 40-50% |
| Təsərrüfat xərcləri: infrastruktur, iqtisadiyyatda kapital qoyuluşları, dövlətin iqtisadi proqramının icrası ilə bağlı xərclər və s. | 10-20% |
| Hərbi və xarici saiyasətin maliyyələşdirilməsi ilə bağlı xərclər | 10-20% |
| İnzibati idarəetmə xərcləri, polis, hüquq ədliyyə və s. | 5-10% |
| Dövlət borcunun ödənilməssi ilə bağlı xərclər | 7-8% |

*Mənbə:* World Bank (2016)/ fiscal policy for growth and development.

Təhlillər göstərir ki, əgər beynəlxalq səviyyədə iqtisadiyyata büdcə xərclərinin 10-20% həcmində xərc çəkilirsə bu göstərici Azərbaycanda təhlil dövründə 40.6%- 32.6% arasında, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətə isə 24.7%-23.8% arasında olmuşdur. Azərbaycanda dövlət büdcəsinin ÜDM-də və qeyri-neft ÜDM-də xüsusi çəkisi aşağıda şəkil 3-də verildiyi kimidir.




**Şəkil 3. Dövlət büdcəsinin ÜDM-də və qeyri-neft ÜDM-də xüsusi çəkisi,%**
*Mənbə:*[1]

Ayrı-ayrı ölkələrdə büdcə xərclərinin ÜDM-də xüsusi çəkisinə baxmaqda faydalıdır. İnkişaf etmiş ölkələrin büdcə xərclərinin ÜDM-də xüsusi çəkisi əsasən 40%-dən çox olduğu halda inkişaf etmiş ölkələrdə isə bu göstərici orta hesabla 37% təşkil edir (cədvəl 3). Azərbaycanda isə *bu göstərici 2014-2019-cu illərdə dövlət büdcəsinin xərclərinin ÜDM-də xüsusi çəkisi ÜDM-in 25-33% arasında dəyişmişdir.*

*Cədvəl 3*

**Ayrı-ayrı ölkələrdə büdcə xərclərinin ÜDM-də xüsusi çəkisi, faiz**

| Ölkələr | ÜDM-də xüsusi çəkisi | Ölkələr | ÜDM-də xüsusi çəkisi |
|---|---|---|---|
| *İnkişaf etmiş ölkələrdə* | *Faizlə* | *İnkişaf etməkdə olan ölkələrdə* | *Faizlə* |
| Danimaka | 50,8 % | Çili | 25,5 % |
| Avstirya | 48,7 % | Kolumbiya | 31,2 % |
| Belçika | 52,1 % | Litva | 33,9 % |
| Fransa | 55,9 % | Latviya | 38,5% |
| Almaniya | 44,4 % | İsrail | 40,3 |
| İslandiya | 42,4% | Estoniya | 39,3% |
| İtaliya | 48,3% | Polşa | 41,5% |
| Yaponiya | 39,1% | Portuqaliya | 43% |
| Birləşmiş Kralıq | 41,0% | Kosto-Rika | 33,8% |
| Norveç | 49,2% | Çexiya | 40,1% |

*Mənbə:* https://data.oecd.org/gga/general-government-spending.htm

**3. Dövlət büdcəsinin xərclər üzrə diversifikasiya əmsalı**

Dövlət büdcəsinin gəlirlərinin və xərclərinin səmərəliliyini artırmaq ölkəmizin dövlət büdcəsi qarşısında duran ən əsas məsələlərdəndir. Dövlət büdcəsinin xərclərinin səmərəliliyini xarakterizə edən göstəricilərdən iri də xərc maddələri üzrə diversifikasiyadır. İqtisadiyyatda diversifikasiya əmsalı belə hesablanır.

$$D = \frac{S^2}{S_1^2 + S_2^2 + .... S_n^2}$$

diversifikasiya əmsalı ($1 \le D \le n$) vahidlə n arasında dəyişir. Bizim tədqiqtımızda n=9 olacaqdır, cünki təhlildə doqquz sahə üzrə maliyyləşdirmə verilmişdir. Diversifikasiya əmsalı n nə qədər böyük yaxındırsa ölkə iqtisadiyyatı bir o qədər inkişf etmiş və əksinə nə qədər kiçik bal alarsa bir o qədər zəif, inkişaf etməmiş olur.




**Şəkil 4. Diversifikasiya əmsalının dinamikası**

Burada; D - diversifikasiya əmsalını, kəsr xəttinin surətində qeyd olan $S^2$ - büdcə üzcə cəmi xərcləri, $S_1^2, S_3^2$ - isə ayrı xərc maddələrini göstərir. Əgər diversifikasiya əmsalının aldığı qiymət $D \succ \frac{n+1}{2}$ olduqda onda büdcə xərclərinin bərabər, tarazlı olmasını, $D \prec \frac{n+1}{2}$ olduqda isə xərclərin bölgüsünü qeyri-qənaət bəxş hesab etmək olar [3. s.24-28].

*Cədvəl 4*

**Dövlət büdcəsinin xərclər üzrə diversifikasiya əmsalı**

| İllər | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|---|
| Diversifikasiya əmsalı (D=) | 3.9 | 4.1 | 4.7 | 4.4 | 3.9 | 4.0 |
| $D \succ \frac{n+1}{2}$ | 5 | 5 | 5 | 5 | 5 | 5 |

*Qeyd:* Cədvəl müəllif hesablamalarına əsaslanır.

Məlumatlar göstərir ki, dövlət büdcəsi vasitəsilə həyata keçirilən xərclərin bölgüsünü qeyri-qənaətbəxşdir.

Müşahidələr təsdiqləyir ki, 2014-2020-cu illərdə ölkədə həyata keçirilən büdcə xərcləri ölkənin ümumi iqtisadi inkişafına xidmət etməklə yanaşı iqtisadiyyatın prioritet hesab edilən sahələrinin müasirləşdirilməsinə və onun səmərəliliyinin yüksəldilməsinə, uzunmüddətli prespektivdə iqtisadi dayanıqlılığın təmin edilməsinə və investisiya mühitinin yüksəldilməsinə yönəlmişdir.

### 4. Büdcə multiplikatoru

Müşahidələr təsdiqləyir ki, istənilən ölkədə büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi üçün istifadə edilən yanaşmalardan biri də iqtisadi atrımın təmin olunmasında istehlak xərclərinin, xalis ixrasın, vergilərin və ən başlıcası dövlət büdcəsinin xərclərinin multiplikatativ səmərəlilik göstəricilərinin müəyyən edilməsi, dövrü olaraq nəzərdən keçirilməsidir. Məlumdur ki, dövlət xərcləri hər bir ölkədə ÜDM-in vacib konpanentlərindən biridir. Belə ki, ÜDM xərclərə görə aşağıdakı formula ilə hesablanır.

$$Y = C + I + G + NX \qquad (1)$$

**Burada,** $Y - ÜDM$, $C-$ istehlakı, $I-$ investisiyaları, $G-$ dövlət xərclərini, $NX-$ xalis ixracı göstərir. Burada bildirmək zəruridir ki,
Riyazi olaraq (1) modelində göstərilən istehlakın funksiyasını göstərsək onda (1) modeli aşağıdakı kimi olacaqdır.

$$Y = C + I + G + NX$$
$$C = a + b * Y \qquad (2)$$

Burada $a$ -avtonom istehlakı, $b$ - istehlaka son hədd meyilliliyi göstərir. Əgər (2) funksiyasının qiymətini (1) funksiyasında nəzərə alsaq ondu bu (1) funksiyası aşağıdakı kimi dəyişəcəkdir.

$$Y = a + b * Y + I + G + NX \Rightarrow Y(1 - b) = a + I + G + NX$$

$$Y = \frac{1}{1-b}(a + I + G + NX) \qquad (3)$$

Burada alınan bu formula $\frac{1}{1-b}$ C.M.Keyns tərəfindən multiplikator $(a + I + G + NX)$ isə avtonom istehlak adlandırılmışdır. Burafa (2) modelində vergi daxil olmalarını nəzərə alsaq onda (3) modeli aşağıdakı kimi dəyişəcəkdir.

$$C = a + b(1 - t) * Y$$

$$Y = \frac{1}{(1-b)(1-t)}(a + I + G + NX) \qquad (4)$$

Qapalı iqtisadiyyatda $\frac{1}{(1-b)(1-t)}$ göstərilən formula xərclər multiplikatoru və t-isə vergi dərəclərinə son hədd meyilliliyi göstərir. Təbii olaraq müasir iqtisadiyytın daha çox açıq

iqtisadiyyat olduğunu və bunun kiçik ölkələr üçün iqtisadiyyatın açıqlıq dərəcəsinin xüsusi əhəmiyyət kəsb etdiyini nəzərə alsaq onda (1) modelində xalis ixracında əlavə edilməsini tətbiq etsək, daha dəqiq desək xalis ixrac funksiyasını nəzərə alsaq,

$$NX = g + m * Y$$

Onda dövlətin xərclər multiplikatoru aşağıdakı kimi olacaqdır.

$$Y = \frac{1}{(1-b)(1-t)+m}(a+I+G+g) \tag{5}$$

Burada m – idxala son hədd meyililiyi göstərir. Bildirmək zəruridir ki, dövlətin xərclər multiplikatorunun effektivliyi açıq iqtisadiyyat şəraitində, qapalı iqtisadiyyatla müqayisədə daha az olur. Yəni qapalı iqtisadiyyata dövlət xərclərinin multiplikativ effektivliyi açıq iqtisadiyyatla müqayisədə daha yuksəkdir. Bəzi iqtisadi ədəbiyyatlarda $Y = \frac{1}{(1-b)(1-t)+m}$ modelinə balanslaşdırılmış büdcə multiplikatoru da deyilir. Bu modelin işləmə mexanizmini müəyyən etmək üçün konkret hesablamalarla nəzərdən keçirək.

Nəzəri yanaşmalar təsdiqləyir ki, dövlət xərclərinin artması bir tərəfdən də ümumi qiymətlərin qalxmasına təsir edir ki, bu da nəticə etibarılə ev təsərrüfatlarının istehlak xərclərinə mənfi təsir göstərir. Bunun üçün də hesab edirik ki, büdcə xərclərinin artımı ilə ümumi vergi yığımlarının artımı tarazlaşdırılmalıdır. Həmçinin onu da nəzərə almaq lazımdır ki, dövlət xərclərinin artması və buna müvafiq vergilərin tənzimlənməsi müəssisələrin investisiya fəaliyyətinə mənfi təsir göstərməməsi üçün optimal vergi yükünün müəyyən edilməsi də önəmlidir. Əgər vergilərlə bağlı optimal qərar qəbul edilməzsə onda Belə yanaşma müəssisələrin investisiya layihələri üzrə gözlənilən gəlirliliyin azalmasına və gələcək investisiya qoyuluşlarına mane ola bilər.

Qeyd edilənləri nəzərə alaraq Azərbaycanda dövlət büdcəsinin xərclər multiplikatorunu hesablamaq üçün aşağıdakı göstəricilər bazasından istifadə edərək, istehlak, xalis ixrac və vergi funksiyalarını quraq.

***Cədvəl 5***

**Dövlət büdcəsinin xərclər multiplikatorunu hesablamaq üçün istifadə edilən göstəricilər bazası**

| İllər | UDM, mlyn.manat | Son istehlak xəcləri, mlyn.manat | UDM, mlyn. ABŞ dolları | NX, mlyn. ABŞ dolları | T-vergilər, mlyn.manat |
|---|---|---|---|---|---|
| 2008 | 520.0 | 13,286.2 | 48852.5 | 40,586.0 | 6725.00 |
| 2009 | 35601.5 | 15,048.9 | 44297,0 | 8,578.3 | 5128.2 |
| 2010 | 42465,0 | 16,528.5 | 52909.3 | 19,959.5 | 5266.8 |
| 2011 | 52082,0 | 19,216.0 | 65951.6 | 14,759.6 | 6395.3 |
| 2012 | 54743.7 | 21,389.9 | 69683.9 | 16,814.9 | 6975 |
| 2013 | 58182,0 | 24,150.0 | 74164,4 | 14,255.1 | 7654.2 |
| 2014 | 59014,1 | 26,582.6 | 75234,7 | 22,129.1 | 8370.2 |
| 2015 | 54380.0 | 30,595.3 | 52996.8 | 12,640.9 | 8791.3 |
| 2016 | 60425.2 | 35,196.7 | 37862.8 | 7,375.6 | 9031 |
| 2017 | 70337.8 | 40,210.2 | 40867.9 | 4,968.5 | 9356.2 |
| 2018 | 80092.0 | 4,123.1 | 47112.9 | 6,697.2 | 10587.3 |
| 2019 | 81681.0 | 4,328.2 | 48047.6 | 5,804.1 | 11755 |

*Mənbə:* https://www.stat.gov.az/

Verilmiş iqtisadi göstəricilər əsasında “Eviews” proqram paketinin istehlak, xalis ixrac və vergi funksiyaları aşağıdakı kimidir.

*Cədvəl 6*

**İstehlak, xalis ixrac və vergi funksiyaları**

| *Funksiyalar* | *Coefficient* | *Std. Error* | *$R^2$* | *DW* |
|---|---|---|---|---|
| İstehlak funksiyası | 5440.4 | 833.30. | 0.97 | 1.966 |
| | 0.648 | 0.0368 | | |
| Xalis ixrac funksiyası | 1079.8 | 301.2 | 0.86 | 1.875 |
| | 0.43 | 0.016 | | |
| Vergi funksiyası | 6741.2 | 521.9 | 0.79 | 1.415 |
| | 0.156 | 0.0128 | | |

*Mənbə:* "Eviews" proqram paketinin köməyi ilə hesablanmışdır.

Alınan rəqəmləri yerinə yazsaq, onda büdcə multiplikatoru aşağıdakı kimi olacaqdır.

$$Y = \frac{1}{(1-0{,}65)(1-0{,}16)} = 3{,}401$$

Belə hesablama onu deməyə əsas verir ki, 2020-ci ildə dövlət büdcəsindən xərclənən vəsaitlər hər bir manat multiplikativ effekt yaradaraq ÜDM-in artmasına 0,401 manat məbləğində əlavə artım vermişdir. Nəzərə almaq lazımdır ki, bu digər xərclər sabit qalmaqla şərtilə və xalis ixrac nəzərə alınmadandır. Hesablanmış model onu göstərir ki, vergi funksiyasının multiplikativ effektivliyindən büdcə xərclərinin effektivliyi daha təsirlidir. Başqa sözlə əgər dövlət ÜDM-nin həcmini artırmaq istəyirsə, daha yaxşı olar ki, dövlət xərclərinin artımı ilə buna nail olsun. Adətən verginin multiplikativ effektivliyi qısamüddətli olur və gələcək dövrlər üçün iqtisadi subyektlərin fəaliyyətində bu və ya digər formada çətinliklər yarada bilir. Dövlət büdcəsi vasitəsilə ÜDM-nin artımı və ya xərclər effekti uzunmüddətli dövrdə idxal tələbinin azalmasına, ixracın isə stimullaşdırılmasına xidmət edəcəkdir. Belə bir şəraitdə bankların faiz siyasətini, pula olan tələbin artmasını və ixracın artması nəticəsində milli valyutanın möhkəmlənməsini də yaddan çıxarmaq olmaz. Yəni investisiya tələbi adətən bankların faiz tələbindən aslı olduğu üçün, faizlərin yüksək olması investisiya tələbini azalmasına, cari və əvvəlki gəlirlərin az bir hissəsinin investiyaya çevrilməsinə səbəb olur ki, bu da nəticə etibarilə makroiqtisadi nöqtey-nəzərən əmtəə bazarında tarazlığın pozulmasına səbəb olacaqdır. Başqa sözlə, qısamüddətli dövrdə bankların faiz dərəcəsinin aşağı olması ÜDM-nin artımına müsbət təsir göstərən amil kimi çıxış edəcəkdir.

*Cədvəl 7*

**Büdcə xərclərinin səmərəliliyinin müəyyən edilməsi**

| *Problem* | *Həlli yolları* |
|---|---|
| Büdcə proqramlarının maliyyələşdirilməsinin bəzi hallarda az müəyyən edilməsi, onların həyata keçirilməsinə ya maneə olur və ya yarımçıq qalmasına səbəb olur. | Büdcə vəsaitlərindən istifadə zamanı məsuliyyət sərhədlərinin dəqiq müəyyənləşdirilməsi məqsədəuyğundur |
| Ayrı-ayrı nazirlik və ya idarələrin maraqlarının toqquşması nəticəsində büdcə proqramlarının maliyyələşdirilməsinin prioritetlik prinsipinin pozulması | Səmərəlilik idarəetmənin və ya büdcə xərclərini icra edənlər üçün stimul olmalıdır. |
| Büdcə proqramlarında hədəflərin qeyri-müəyyən tərtib edilməsi, onların səmərəlilik meyarlarının pozulmasına səbəb olur və ya gəlirlərin və xərclərin konkret maddələr üzrə verilməməsi | Büdcə vəsaitlərindən istifadənin səmərəliliyi meyarları dəqiq müəyyənləşdirilməli, faydaları göstərilməli və birbaşa icraçıların mövcudluğu səməreni müəyyən edir |
| Qısamüddətli dövrdə hökumətin öhdəlikləri ilə onun həyata keçirilməsi üçün maliyyə bazasından daha sürətli böyüdükdə maraq toqquşması olur | Büdcədən istifadənin səmərəliliyinə aralıq göstəricilər sisteminin mövcudluğu və vəziyyətin mütəmadi təhlili. |

*Qeyd:* Cədvəl müəllif yanaşmasına əsaslanır.

**Nəticə**

Müşahidələr göstərir ki, 2020-ci ilin əvvəlindən özünü göstərməyə başlayan qlobal pandemiyanın neqativ nəticələri əksər ölkələrin iqtisadiyyatında iqtisadi artım tempinin aşağı düşməsi ilə səciyyələnmişdir. Belə ki, məcmu təklifin daralması Azərbaycanda da iqtisadi aktivliyin aşağı düşməsini şərtləndirmiş və nəticədə əsas makroiqtisadi göstəricilərdən hesab edilən ÜDM-nin əvvəlki, ilin eyni dövrü ilə müqayisədə azalmasına səbəb olmuşdur. Buna görə də gələcək dövrdə məcmu tələbin stimullaşdırılması üçün dövlət büdcəsinin xərcləri əsas amillərdən biri kimi çıxış edəcəkdir. Gələcək dövrdə iqtisadi artımı stimullaşdırmaq üçün dövlət tələblərinin artması və büdcədə neftin qiymətinin 55 dollar olaraq götürülməsi perspektiv dövrdə fiskal dayanıqlığı dəstəkləyən amil kimi çıxış edəcəkdir.

Hesab edirik ki, belə bir şəraitdə fiskal siyasətdən maksimum dərəcədə səmərə əldə etmək üçün menetar siyasətlə uçlaşdırılmalıdır. Belə ki, iqtisadi artımın sürətli inkişafını təmin etmək üçün inflyasiysnın və qiymət sabitlyinin qorunub saxlanılması fonunda monetar siyasətdə yumşalmalar müsbət nəticələrin əldə edilməsinə səbəb olacaqdır. Həmçinin dövlət fiskal siyasətdən maksimum dərəcədə səmərəli istifadə etməsi üçün ilk növbədə dövlət düdcəsinin gəlirlərinin və ya xərclərinin ölkədə necə iqtisadi aktivliyə və biznes subyektlərinə təsir etdiyini müəyyən etməlidir.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


1. https://www.eia.gov/
2. www.stat.gov.az
3. Y.Həsənli, M.Murtuzayeva, S.Sadiq, İ.Əsgərov, İqtisadi inkişafın sahələr üzrə şaxələnməsi: diversifikasiya əmsalı.// AMEA İqtisadiyyat institutu, Elmi Əsərlər I buraxılış, 2010 s.24-28.
4. “Eviews” proqram paketi


**Орхан Юсубов**

**ОЦЕНКА ЭФФЕКТИВНОСТИ БЮДЖЕТНЫХ РАСХОДОВ В ОБЕСПЕЧЕНИИ ЭКОНОМИЧЕСКОЙ МОБИЛЬНОСТИ В СТРАНЕ**

***Резюме***

В статье проведена оценка эффективности бюджетных расходов в обеспечении экономического роста в стране. Для этого, в первую очередь, были приведены показатели международной организации по мировым рыночным ценам на нефть и спросу на нефть в качестве основных факторов, влияющих на бюджет. В качестве второго подхода в качестве фактора, влияющего на совокупный спрос, приводятся расходы государственного бюджета и доходы и потребление населения. Далее в исследовании были проведены сравнения с международной тенденцией по расходным направлениям государственного бюджета и приведены примеры из международного опыта. В следующем разделе исследования был рассчитан бюджетный мультипликатор и показано его влияние на ВВП.

***Цель*** – определение эффективности бюджетных расходов в обеспечении экономического роста в стране.

***Методология*** – в исследовании применялся методы сравнительного и системного подхода, логического обобщения, анализа, экономико-математических методов.

***Результаты исследования*** – расчет бюджетного мультипликатора дают основание говорить о том, что каждый манат расходуемых средств из госбюджета создаст мульти-

пликативный эффект и даст дополнительный прирост ВВП в размере 0,401 маната.
***Ключевые слова:*** *ВВП, бюджет, мультипликатор, эффективность, цена на нефть, совокупный спрос, экономический рост*

**Orkhan Yusubov**

**ASSESSMENT OF THE EFFECTIVENESS OF BUDGETARY EXPENDITURES IN ENSURING ECONOMIC GROWTH IN THE COUNTRY**

***Summary***

In the article, an assessment of the efficiency of budget expenditures was carried out to ensure economic growth in the country. For this purpose, the indicators of the International Organization on the world market price of oil and demand for oil were given as the main factor affecting the budget in the first place. The second approach was given to the expenditure of the state budget as a factor affecting the aggregate demand and the income and consumption expenditures of the population. Then, the study compared the cost directions of the state budget with international insurance and gave examples from international experience. In the later part of the study, budget multiplier was calculated and its effect on GDP was shown.

***Purpose of the research*** – determining the effectiveness of budget expenditures in ensuring economic growth in the country.

***Methodology*** – the research work uses methods of comparative and systematic approach, logical generalization, analysis, economic and mathematical methods.

***Findings*** – the calculation of the budget multiplier - suggest that each manat of funds spent from the state budget will create a multiplier effect and give an additional GDP increase of 0.401 manats.

***Keywords:*** *GDP, budget, multiplier, efficiency, oil price, aggregate demand, economic growth*

**Qəbul edilib: 20.02.2021**

**UOT 330.5.051**

**Xançoban Şahbazov**
***Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant***
shahbazov.khanchoban@hotmail.com

# İŞĞALDAN AZAD EDİLMİŞ RAYONLARIN İQTİSADİ POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

*Məqalədə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin iqtisadi potensialı müqayisəli təhlil edilərək proqnozlaşdırılma istiqamətləri verilmişdir.*

*Mövcud statistik göstəricilərə əsasən ölkənin müxtəlif sahələr üzrə iqtisadi potensialı qiymətləndirilmiş və işğaldan azad edilmiş rayonlar üzrə iqtisadi ehtiyyatların yerləşməsi və istifadə istiqamətləri şərh edilmişdir. Eyni zamanda, məqalədə iqtisadi potensiallar müqayisəli təhlil edilərək sistemləşdirilmiş və perspektiv imkanları müəyyənləşdirilmişdir.*

***Məqsəd*** – müqayisəli təhlilə əsaslanaraq işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi və istifadə olunma istiqamətlərinin müəyyən edilməsi.

***Metodologiya*** – işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının qiymətləndirilməsində iqtisadi-statistik modeldən istifadə edilmişdir.

***Tədqiqatın nəticələri*** – işğaldan azad edilən rayonların iqtisadi potensialının qiymətləndirilməsi aparılmış, sahələr üzrə investisiya qoyuluşunun səmərəliliyinin müəyyənləşdirilməsi və perspektiv inkişafın aspektləri üzrə ümumiləşmiş təkliflər verilmışdir.

***Açar sözlər:*** *iqtisadi potensial, mövcud imkanlar, təhlil, qiymətləndirilmə, perspektiv inkişaf*

## Giriş

Azərbaycan Respublikası Silahlı Qüvvələrinın Ali baş komandanı, Prezident İlham Əliyevin siyasi və hərbi rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu 1991-1993-cü illərdə seperatçı və düşmən qüvvələri tərəfindən işğal olunmuş əraziləri öz azadlığına qovuşdurmaqla ata-baba yurdlarından qaçqın düşmüş əhalinin uzun illik həsrətinə son qoydu. 27-28 illik bir müddətdə Azərbaycandan ayrı düşmüş, adları hər bir azərbaycanlının yaddaşında acı xatirələrlə qalan bu ərazilərin iqtisadi potensialı, mövcud imkanları və gələcək perspektivlərinın müqayisəli təhlil edilməsi və mövcud potensialların düzgün qiymətləndirilməsi və səmərəli istifadə edilməsi mövcud dövr üçün də aktuallıq kəsb edən bir məsələdir.

Onu da qeyd etmək lazımdır ki, bu ərazilərin Azərbaycan xalqı üçün tarixi-mədəni əhəmiyyəti hər hansı iqtisadi dəyərlərdən dəfələrlə yüksəkdir. Biz bunu 44 gün davam edən və Azərbaycanın bütövlükdə qələbəsi ilə başa çatan “Vətən müharibəsi” dönəmində xalqımızın dünya millətlərinə nümunə ola biləcək vahid birliyindən daha aydın şəkildə görə bildik. 2020-ci il iqtisadi çətinliklər ili kimi (həm mövcud pandemiya, həm də dünya iqtisadi böhranı) bütün dünya ölkələrinin iqtisadi vəziyyətində ciddi problemlər yaratmış və nəticədə ölkələr planlaşdırdığı müəyyən istiqamətlər üzrə siyasətlərini təxirə salmış, xərcləri tarazlamaq məcburiyyətində qalmışlar. Bu baxımdan da, Azərbaycan dövləti iqtisadi, sosial və səhiyyə sahəsindəki yarana biləcək çətinliklərə, vətən müharibəsinin gətirdiyi maddi ziyanlara, çoxsaylı maliyyə xərclərinə baxmayaraq, mənfur düşmən

tərəfindən planlaşdırılan təxribatın qarşısını almış,torpaqların azad edilməsi üçün əks hücum əməliyyatına başlamış və düşmənə layiqli cavab vermişdir. Bütün bunlar bir daha Azərbaycan dövləti üçün tarixi-mədəni dəyərlərin və həqiqətlərin ali olduğunu nümayiş etdirir.

Bununla belə, işğaldan azad olunan ərazilərin tarixi-mədəni dəyəri ilə yanaşı zəngin iqtisadi potensialı da mövcuddur və bu ərazilərin ölkə iqtisadiyyatına inteqrasiya olunması ilə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin çəkdiyi və bundan sonra da çəkəcəyi bütün maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir.

İşğaldan azad olunan ərazilərin iqtisadi potensialının əsas istiqamətlərinə nəzər yetirsək görərik ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam (rayon mərkəzi və ərazisinin böyük hissəsi), Füzuli (rayon mərkəzi və ərazisinin böyük bir hissəsi) inzibati rayonları 1991-1993-cü illərdə Ermənistan tərəfindən işğal olunmuş və işğal tarixindən bu günədək mənfur düşmənin dağıdıcı, talançı, qeyri-səmərəli istismarı nəticəsində regionun infrastrukturu istifadəyə yararsız vəziyyətə gətirilmişdir. Ona görə də gələcək bərpa, rekonstruksiya işləri ümumi infrastrukturun (nəqliyyat, qaz, su, elektrik enerjisi, rabitə) və ilkin olaraq yaşayış şəraitinin qurulmasından başlanmalı və sonrakı dövrlərdə isə mərhələli iqtisadi inkişaf layihələrinə keçilməlidir [14, səh.9]

**1. Ərazilərin sənaye potensialı**

Keçmiş sovet dövründə Dağlıq Qarabağ düzən Qarabağla və Azərbaycanın digər iqtisadi rayonları ilə sıx iqtisadi əlaqədə inkişaf edib. Bütün istiqamətlərdə keçən yollar bu iki ərazini iqtisadi cəhətdən bir-birinə möhkəm bağlamışdır. Dağlıq Qarabağın ermənilər tərəfindən işğal olunması və digər Azərbaycan rayonlarından ayrılması regionun əhalisi və təsərrüfatı üçün çox ciddi problemlər yaratdı. Uzun illərdən bəri Dağlıq Qarabağın ərazisində yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın rayonlarından gətirilən yanacaq, xammal və materiallar əsasında işləyirdilər, bir çoxları isə Bakının iri müəssisələrinin filialları kimi fəaliyyət göstərirdi. 70-ci illərdə Azərbaycanda 2-ci böyük ipək kombinatı olan və Xankəndi şəhərində fəaliyyət göstərən «Qarabağ İpək Kombinatı»nın yeni filialları yaradıldı. İpək Kombinatı Azərbaycan hökuməti tərəfindən yeni avadanlıqla təmin olundu və aynlan vəsaitin miqdarı 3 dəfə artırıldı. Nəticədə məhsul istehsahnın həcmi dəfələrlə çoxaldı. Təkcə bir faktı qeyd etmək yerinə düşərdi ki, 1929-cu illə müqayisədə 1975-ci ildə «Qarabağ İpək Kombinatı»nın məhsul istehsalı 250 dəfə artmışdır. 1985-ci ildə Qarabağın Xankəndindəki iri İpək Kombinatına daxil olan barama xammalının cəmi 8%-i Dağlıq Qarabağın özündə istehsal olunurdu, qalan 92%-i isə Azərbaycanın digər rayonlarından gətirilirdi. Belə ki, 1960-cı illərdə Qarabağ İpək kombinatında 2259 min kvadrat metr parça istehsal olunmuşdusa, 1985-ci ildə artaraq 16864 min kvadrat metrə çatmışdır [2. səh.82].

Dağlıq Qarabağ Vilayətinin 1986-cı ildə həyata keçirdiyi xarici iqtisadi əlaqələrin həcminin 0,3 %-i, idxalının isə 1,4 %-i Ermənistan Respublikasının payına düşdüyü halda, Azərbaycanda bu göstərici (ixracat) 33,3 % təşkil edirdi. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi həmin dövrdə Azərbaycanın dəmir yolu və şosse yoluna, həmçinin bütövlükdə respublikanın nəqliyyat-kommunikasiya sistemi ilə sıx bağlı olmuşdur. Belə ki, Xankəndindən Bakıya qədər olan dəmir yolunun uzinluğu 392 km.-dir. [12. səh.99].

Regionun gələcək inkişafı üçün dəmir yolunun mövcudluğu vacib amildir və infrastruktur layihələr işlənildikdə keçmiş sovetlər dövründə mövcud olan nəqliyyat loqistikası xəritələrindən istifadə edilməsi məqsədəuyğun hesab edilir. Təbii, zəbt olunmuş

rayonlarda illərdən bəri fəaliyyət göstərən vahid nəqliyyat-kommunikasiya sistemi Ermənistanın təcavüzü nəticəsində hal-hazırda dağıdılmış və yararsız vəziyyətə salınmışdır. Fikrimizcə, tədqiq edilən zonanın sənaye potensialına ilkin baxışda zəngin su təchizatı, elektrik enerjisi, sənaye rekreasiya imkanları və zəngin faydalı qazıntılardan ibarət olan azad olunmuş ərazilərin sənaye potensialının bağlılığı kimi baxmaq mümkündür.

**2. Təbii landşaftın potensial imkanları**

İşğaldan azad olunmuş ərazilərdə müxtəlif təbiət abidələri, nadir bitki və heyvanat növləri yayılmışdır. İşğaldan azad olunan Kiçik Qafqazın dağlıq zonası Azərbaycanın iri meşə rayonudur. Regionun ümumi meşə ilə örtülü sahəsi təxminən 246,7 min hektardır, o cümlədən bunun 13,197 min ha. qiymətli meşə sahələri hesab olunur. Məqsədyönlü şəkildə Azərbaycanda xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi hazırda 890 min hektara çatdırılıb ki, bunun da 42,997 min hektarı erməni işğalçıları tərəfindən zəbt edilmiş ərazilərə aiddir. Təbii landşaftı, nadir bitki və heyvanlar aləmini mühafizə etmək məqsədi ilə Kiçik Qafqazın işğaldan azad olan ərazilərində vaxtilə bir sıra qoruq və yasaqlıqlar təşkil olunmuşdur. Bunlardan Bəsitçay Qoruğunu, Laçın yasaqlığını göstərmək olar. Bəsitçay qoruğu Azərbaycanın cənub-qərbində bu günlərdə işğaldan azad edilmiş Zəngilan ərazilərində Bəsitçayın dərəsində 1974-cü ildə yaradılmışdır. Qoruğun sahəsi 107 hektardır. Burada qorunan obyekt şərq çinarıdır. Çay boyu çinar meşəliyi 12 km məsafədə uzanır. Burada bitən ağacların yaşı 500 ilə çatırdı və şərq çinarı "Qırmızı Kitab"a daxil edilmişdir. Laçın yasaqlığı Azərbaycanın işğaldan azad olunmuş Laçın rayonu ərazisində 1961-ci ildə təşkil edilmişdir. Sahəsi 21,4 min hektardır. Yasaqlıqda dağ keçisi, cüyür, çöl donuzu, turac, kəklik mühafizə olunurdu. Eyni zamanda, Dağlıq Qarabağda yerləşən Şuşa şəhərinin füsunkar təbiəti də turizm baxımından əlverişlidir. Azərbaycanda yeganə olaraq Şuşa rayonu ərazisində bitən xarı bülbül Qarabağın rəmzi hesab olunur [12, səh. 94; 14, səh. 9].

**3. Regionun su təchizatının potensial imkanları**

Son dövlərdə bütün dünyada olduğu kimi, iqlim dəyişikliyi və onun nəticəsində su qıtlığı ən aktual problemlərdən biridir. Su qıtlığı Azərbaycan üçün də önəmlidir. Onu da qeyd edək ki, ölkənin su ehtiyatları obyektiv coğrafi səbəblərdən daha kasaddır və əsas mənbələr qonşu ölkələrdədir. Ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası fəaliyyət göstərir [5].

Bu kontekstdə azad olunan ərazilərin zəngin su ehtiyatları ölkənin sənayesi və kənd təsərrüfatı üçün xüsusi əhəmiyyət kəsb edir. Sərsəng su anbarı 1976-cı ildə Tərtərçayın üzərində, Ağdərə (hazırda Tərtər) rayonu ərazisində inşa edilmişdir. Onun ümumi su tutumu 560 milyon m³, bəndinin hündürlüyü isə 125 m-dir. Sərsəng su anbarı respublikada bəndinin hündürlüyünə görə ən hündür bəndli su anbarlarından biridir. Sərsəng su anbarının daxil olduğu Ağdərə rayonunun tam azad olunması onun əhatə dairəsində yerləşən 6 rayonun 100 min hektara yaxın torpaq sahəsinin suvarma suyu ilə təmin edilməsinə imkan yaradacaqdır. Qeyd etmək lazımdır ki, keçmiş işğal zonasında Sərsəng su anbarından başqa ümumi tutumu 80 mln. m³ olan digər su anbarları da qalmışdır. Onların da ölkə təsərrüfatına qatılması əlavə 15 min hektar torpaq sahəsinin suvarılmasına şərait yarada bilər. Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad olunması 75 min hektar yeni ərazinin suvarılması və mövcud suvarılan ərazilərin suvarılmasının yaxşılaşdırılması deməkdir. Bu su anbarının həcmi bəzi hesablamalara görə 1,6 mlrd. kubmetrdir. Həmçinin regionda 11 yeraltı şirin su mənbəyinin yerləşdiyi ehtimal edilir. Digər ölçü ilə bu 1 milyon 968 min m3/gün yeraltı şirin su təchizatı deməkdir [12, s.99].

**4. Regionun elektrik enerjisi imkanları**

Regionun əsas elektrik enerjisi istehsalı su yığımı və təchizatı areallarına təsadüf edir. Söhbət təbii ki, Sərsəng və Xudafərin SES-dən gedir. Sərsəng SES və ya digər adı ilə Tərtər SES 1976-ci ildə Tərtərçayın üzərində, keçmiş Ağdərə (indiki Tərtər) rayonu ərazisində inşa edilmiş su elektrik stansiyasıdır. Hər birinin gücü 25 MVt olan 2 ədəd turbindən ibarət su elektrik stansiyası hazırda istifadəyə yararsız vəziyyətdədir. Stansiyanın təmir-bərpa işlərinə ehtiyacı var və yalnız bu işlər aparıldıqdan sonra, istehsal gücü daha da artırıla və ətraf rayonların elektrik enerjisinə tələbatının ödənilməsinə yönəldilə bilər. Xudafərin SES isə Araz çayı üzərində İranla Azərbaycan arasında imzalanmış razılaşmaya uyğun olaraq inşa edilməli idi, vətən müharibəsindən sonra bu torpaqlarımız da geri qaytarıldı və yenidən tikilməsi üçün İranla danışıqlar aparılaraq onun tikintisinə bərabər payda xərclərin qoyulması nəzərdə tutulur. Belə ki, 2016-cı ilin fevralında “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanmışdır. Araz üzərində elektrik stansiyalarının ümumi gücü 280 MVt-a çata bilər. Bu layihələrin reallaşması Azərbaycana illik 368 milyon kVt/saat elektrik enerjisi istehsalı gətirə bilər. Aydındır ki, Sərsəng və Xudafərin SES-ləri ətraf rayonların enerji təminatının yaxşılaşdırılmasında, azad edilmiş ərazilərin bərpa edilməsində aktiv istifadə ediləcəkdir. Ümumilikdə isə bu elektrik stansiyalarının ölkənin enerji sisteminə qatılması güclərin artırılması ilə yanaşı, mənbələrin coğrafi diversifikasiyası, yəni Abşeron, Şirvan və Mingəçevir üzərindən yüklərin azaldılması, həmçinin alternativ (bərpa olunan) enerji istehsalının ümumi istehsalda payının artırılması deməkdir [12, s.99].

**5. Regionun sənaye rekreasiya imkanları**

Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının 39,6%-i işğaldan azad olan rayonların payına düşür. Keçmiş zəbt olunmuş ərazilərdə böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları vardır. Digər ölçü ilə bu 7805 $m^3$/gün mineral su təchizatı deməkdir. Bunların içərisində Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda İlıqsu, Minkənd, Şuşa rayonunda Turşsu, Sırlan və başqa mineral sular diqqəti xüsusilə cəlb edirlər. Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə fərqlənir. İstisu bulağı üstündə keçən əsrin 80-ci illərində iri kurort və mineral sudoldurma zavodu tikilmişdir. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi. Turşsu mineral bulağı Azərbaycanın Şuşa şəhərindən 17 km. məsafədə yerləşir. Turşsu vasitəsi ilə müxtəlif daxili xəstəliklər müalicə olunur, kəmər vasitəsi ilə Şuşa şəhərinə su verilirdi. Beləliklə, regionun mineral su ehtiyatı içki sənayesində yeni emal güclərinin, içki sənayesi-turizm-rekreasiya üçbucağında müasir təşkil edilməsinə şərait yarada bilər [12, s.98].

**6. Regionun yeyinti sənayesi, faydalı qazıntı-xammal potensialı**

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının ümumilikdə 1,7 milyon hektar ərazisi işğal olunmuş idi. Bu torpaqların əksəriyyəti müxtəlif növ kənd təsərrüfatı məhsullarının becərilməsi üçün yararlıdır. Həmin məhsulların emalı yeyinti sənayesində yeni güclərin yaranmasına, etibarlı təchizat bazasının formalaşdırılmasına imkan verəcəkdir.

İşğaldan azad edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və

vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və s. ) yataqları yerləşir. Yuxarıda adı çəkilən növ faydalı qazıntılar Qızılbulaq, Mehmana, Dəmirli, Canyataq-gülyataq, Ağdərə, Şorbulaq, Şuşa, Şirlan, Turşsu, Xocalı, Zərinbax, Ağçay, Xankəndi, Ediş, Xocavənd, Söyüdlü, Ağduzdağ, Tutxun, Ağyataq, Levçay, Kilsəli, Keşdək, Keçəldağ, Çəlli, Yuxarı İstisu, Aşağı İstusu, Mozçay, Qoturlu, Çilkəz, Narzanlı, Əhmədli, Hoçaz, Laçın, Novruzlu, Yuxarı Əkərəçay, Quşçu, Minkənd, Hacılı, Xanlıq, Qubadlı, Vejnəli, Bartaz, Oxçuçay, Zəngilan, Şərifan, Tuluz, Qaracalı, Soltanlı, Çaxmax-çay, Göyərçin-Veysəlli, Minbaşılı, Ağtəpə, Cəfərabad, Şahverdilər, Çaxmaxqaya, Dövlət-yarlı, Diləgərdi, Kürdmahmudlu, Quruçay, Şahbulaq, Gülablı, Çobandağ, Boyəhmədli, Şahbulaq, Ağdam, Qarqarçay, Xaçınçay və s. yataqlarda aşkar edilib [12, s.94; 1, s. 50-51].

Sözügedən yataqlarda sənaye ehtiyatları təsdiq edilmiş 132,6 ton qızıl, 37,3 min ton qurğuşun, 189 milyon $m^3$ mişar daşı, 1 milyon 526 min ton gəc, 18 milyon 432 min $m^3$ üzlük daşı, 23 milyon 243 min $m^3$ gil, 57 milyon 965 min ton tikinti daşı, 96 milyon 987 min ton qum-çınqıl, 1898.4 ton civə, 4 milyon 473 min $m^3$ perlit, 2 milyon 144 min $m^3$ pemza, 129 milyon 833 min $m^3$ soda istehsalı üçün əhəngdaşı, 147 milyon 108 min ton sement xammalı və s. iqtisadiyyatın inkişafında vacib əhəmiyyət daşıyan faydalı qazıntılar aşkar edilib. Regionda nadir və qiymətli faydalı qazıntı yataqları yayılmışdır. Əhəmiyyətli mis-sink filizlərinin ehtiyatları Kiçik Qafqazın şərqində yerləşən Mehmana yataqlarında cəmlənmişdir. Burada istismara hazır olan filiz ehtiyatları vaxtilə öyrənilmişdir. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir. İşğal olunmuş ərazilər Azərbaycanın sənayesi və tikintisində böyük əhəmiyyəti olan müxtəlif növ tikinti materialları ilə çox zəngindir. Belə materialların böyük ehtiyatları Ağdam rayonu ərazisində yerləşən Çobandağ (əhəngin ehtiyatları 140 milyon ton və gillər 20 milyon ton ), Şahbulaq (25 milyon ton gil), Boyəhmədli (45 milyon ton gil) və digər yataqlardadır. Həmçinin, iri tikinti daş yataqları Xankəndində, mərmər isə Harovda yerləşir [12, səh.94-97]. Aşağıdakı cədvəldə işğaldan azad olunmuş rayonlar üzrə ayrı-ayrılıqda faydalı qazıntılar verilir:

| Rayonun adı | Faydalı qazıntı növü |
|---|---|
| *Ağdərə | Qızıl (Qızılbulaq), qurğuşun (Mehmana), sink, mis (Dəmirli, Canyataq- gülyataq), mişar daşı (Ağdərə, Şorbulaq-I, Şorbulaq-II), gəc (Ağdərə) |
| Şuşa | Üzlük daşı, gil, tikinti daşı |
| Xocalı | Gil, üzlük daşı, qum-çınqıl |
| Xocavənd | Üzlük daşı, tikinti daşı |
| Kəlbəcər | Qızıl, civə, mişar daşı, gil, perlit, qum-çınqıl, tikinti daşları, üzlük daşları, əlvan daşlar (obsidian, oniks, pefritoid, listvenit) |
| Laçın | Civə, mişar daşı, üzlük daşı, tikinti daşı, gil, qum-çınqıl, pemza, vermukulit, vulkan külü, əqiq, jad |
| Qubadlı | Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı |
| Zəngilan | Qızıl, gümüş, üzlük daşı, əhəng daşı, gil, tikinti daşı, qum-çınqıl |
| Cəbrayıl | Mişar daşı, gil, qum, sement, gəc, tikinti daşı, kips, ahhidrid, pemza, vulkan külü, əlvan daşlar (yəşəm, xalsədan) |
| Füzuli | Mişar daşı, gil, qum-çınqıl |
| Ağdam | Mişar daşı, üzlük daşı, sement xammalı, gil, qum-çınqıl |

*Qeyd:* [12, səh. 94-97]
*Ağdərə rayonu Azərbaycan Respublikası Milli Məclisinin 13 oktyabr 1992-ci il tarixli Qərarına əsasən ləğv olunmuşdur və rayonun bir hissəsi Kəlbəcər, bir hissəsi Tərtər rayonunun inzibati tərkibinə verilmişdir [9,13].

**Nəticə**

İşğaldan azad olunan ərazilərin iqtisadi potensialının qiymətləndirilməsi və təhlili nəticəsində görünür ki, bu ərazilərin iqtisadi potensialı olduqca yüksəkdir. Regionun yüksək turizm və faydalı qazıntı hasilatı üzrə perspektiv inkişaf istiqamətləri mövcuddur. Düşünürük ki, Qarabağ təbiətinin zənginliyinə, qədimliyinə, və tarixi-mədəni abidələrinə görə ekoturizm, etnoturizm zonası kimi inkişaf edəcək. Dünyanın ən gözəl turizm məkanlarından biri kimi turistlərin üz tutacağı region olacaq. İşğaldan azad edilmiş ərazilərdə yaradılacaq yeni iqtisadi dəyər Azərbaycan dövlətinin maliyyə xərclərini dəfələrlə üstələyəcəkdir. Aparılmış tədqiqat nəticəsində belə bir qənaətə gəlmək olur ki, göstərilən faydalı qazıntılarla bağlı məlumatlar müəyyən mənada nisbi xarakter daşıyır və növbəti mərhələdə bütün yataqların qiymətləndirilməsi aparılmalı, keçmiş sovet dövrünə aid rəqəmlər dəqiqləşdirilməlidir. Həmçinin, yeni qiymətləndirmə üsulları meydana gəlmişdir və regionun faydalı qazıntılarla bağlı yeni geoloji xəritəsi hazırlanmalıdır. Ərazilərin potensial investisiya istiqamətlərini nəzərə alaraq aşağıdakı təklifləri vermək olar :

- regionun təbii-iqlim şəraiti nəzərə alınmaqla müqayisəli üstünlük təşkil edən məhsul istehsalı sahələrinin müəyyənləşdirilməsi və həmin sahələrə dövlət dəstəyinin gücləndirilməsi;
- kiçik, iri və orta tutumlu soyuducu anbarların tikintisinin dəstəklənməsi;
- regionda kənd təsərrüfatı məhsullarının tədarükü (alışı, çeşidlənməsi, saxlanılması, emalı, qablaşdırılması və topdan satışı) ilə məşğul olan sahibkarlıq subyektlərinin yaradılmasının stimullaşdırılması;
- gil, qum, mişar daşı və s. tikinti materialları yataqlarının axtarışı və kəşfiyyatı işlərinin aparılması.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Elnur İbiş oğlu Səfərov. Kiçik Qafqazın faydalı qazıntı yataqları. "Apostrof". Bakı, 2012. 120 səhifə.
2. Azərbaycanın Xankəndi şəhərinin tarixi. Məmmədov N.R, Bakı, Təhsil 2011. - 224 səh.
3. "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində ictimai siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923- 1991)", Məmmədov N.R. Bakı, Təhsil nəşriyyatı, 2008.
4. Azərbaycan SSR Dağlıq Qarabağ bölgəsinin şəhər və rayonlarının tarixi. (XX əsrin 20-90-cı illəri). Məmmədov N.R Bakı,«Təhsil»,2010, 200 səh.
5. president.az - "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı
6. stat.gov.az - Dövlət Statistika Komitəsinin rəsmi vebsaytı
7. iqtisadiislahat.org - İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin vebsaytı
8. etsim.az - Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin vebsaytı
9. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsü:məlumat toplusu.- Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2013
10. Azərbaycanın regionları-2016: statistik məcmuə/ Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.- Bakı, 2016
11. Azərbaycan rəqəmlərdə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2016.
12. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi.- Bakı, 2005, (Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Kitabxanası)
13. E-qanun.az - Normativ hüquqi aktların vahid internet elektron bazası
14. Xalq qəzeti, 09.12.2020-ci tarixli buraxılışı.

**Ханчобан Шахбазов**

## ОЦЕНКА ЭКОНОМИЧЕСКОГО ПОТЕНЦИАЛА РАЙОНОВ ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ

***Резюме***

В статье дан сравнительный анализ экономического потенциала освобожденных территорий Азербайджана и даны направления для прогнозирования. На основе имеющейся статистики был оценен экономический потенциал страны в различных областях, а также прокомментировано расположение и использование экономических ресурсов на освобожденных территориях. Вместе с тем, в статье систематизированы экономические потенциалы путем сравнительного анализа и определены перспективные возможности.

**Цель** – оценка экономического потенциала освобожденных территорий и определение направлений использования на основе сравнительного анализа.

**Методология** – для оценки экономического потенциала освобожденных территорий использована экономико-статистическая модель.

**Результаты исследования** – оценен экономический потенциал освобожденных регионов, определена эффективность инвестиций в эти районы и сформулированы обобщенные предложения по аспектам будущего развития.

***Ключевые слова:*** *экономический потенциал, существующие возможности, анализ, оценка, перспективное развитие*

**Khanchoban Shahbazov**

## ASSESSMENT OF THE ECONOMIC POTENTIAL OF AREAS LIBERATED FROM OCCUPATION

***Summary***

The article provides a comparative analysis of the economic potential of the liberated territories of Azerbaijan and gives directions for forecasting.

Based on the available statistics, the country's economic potential in various areas was assessed and the location and use of economic resources in the liberated areas were commented. At the same time, the article systematizes the economic potentials by comparative analysis and identifies perspective opportunities.

**Purpose –** based on a comparative analysis, assess the economic potential of the liberated territories and determine the areas of use.

**Methodology** – an economic-statistical model was used to assess the economic potential of the liberated territories.

**Findings** – the assessment of the economic potential of the liberated regions, the determination of the effectiveness of investment in the areas and generalized proposals on aspects of future development.

***Keywords****: economic potential, existing opportunities, analysis, evaluation, perspective development*

**Daxil olub: 15.01.21**

**“ƏMƏK və SOSİAL MÜNASİBƏTLƏR”**

**Elmi-praktiki jurnal**

**№ 1 (15), 2021**

**Redaktorlar:**
***Xanımbacı Cəfərli, Aygün Bağırzadə***

**Kompüter tərtibatı:**
***Lalə Tağıyeva***

Nəşriyyatın direktoru: M.Şəfiyev
Texniki redaktor: S.Mamoyeva

“Müəllim” nəşriyyatında çap olunmuşdur.
Tel.: (+99412) 555 15 60
E-mail: muallim.mmc@gmail.com

Yığılmağa verilib: 30.04.2021
Çapa imzalanıb: 05.05.2021
Format: $60x84^{1/8.}$ 17,5 ç.v. Tiraj: 200